**İLHAM**

**ƏLİYEV**

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZ OTUZ BİRİNCİ KİTAB

## SENTYABR 2023 - NOYABR 2023

AZƏRNƏŞR
BAKI - 2023

# İLHAM
# ƏLİYEV

ÇIXIŞLAR • NİTQLƏR

BƏYANATLAR • MÜSAHİBƏLƏR

MƏKTUBLAR • MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2023

**ƏLİYEV İLHAM**
**İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2023, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «Zəfər Kitabı» adlı «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Sərsəng su anbarı ərazisində, Xankəndidə, Xocalı rayonunun Əsgəran qəsəbəsində, Ağdərə və Xocavənd rayon mərkəzlərində Azərbaycan Respublikasının Dövlət bayrağının ucaldılması mərasimlərində, o cümlədən Xankəndidə xalqımızın Vətən müharibəsində qazandığı böyük Zəfərə həsr olunmuş hərbi paradda iştirakına dair materiallar toplanmışdır.

Kitabda dövlət başçısının Gürcüstan, Qırğız, Qazaxıstan, Özbəkistan respublikalarına rəsmi və işgüzar, həmçinin respublikamızın Cəbrayıl, Zəngilan, Tərtər, Şuşa, Füzuli və Sumqayıt şəhərinə səfərlərinə dair geniş məlumat verilmişdir. Eyni zamanda, Türk Dövlətləri Təşkilatının «Türk əsri» çağırışı altında keçirilmiş 10-cu yubiley Zirvə görüşündə, Müstəqil Dövlətlər Birliyi dövlət başçıları Şurasının iclasında iştirakına aid materiallar da yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

© Azərnəşr, 2023

## ANIM GÜNÜNDƏ BAKIDA İNŞASI DAVAM ETDİRİLƏN ZƏFƏR PARKINI ZİYARƏT

*27 sentyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 27-də – Anım Günündə Bakıda inşası davam etdirilən Zəfər parkını ziyarət etmişlər.*

*Dövlətimizin başçısı və xanımı parkın girişində Xatirə daşının önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Ötən müddətdə Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihəsi hazırlanıb. Layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər*

*birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.*

*8 Noyabr prospektində inşa olunan Zəfər parkı 9 hektardan çox ərazini əhatə edəcək. Əraziyə girişdə 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edəcək. Giriş portalındakı tağın hündürlüyü 44, eni isə 22 metr olacaq. Tağın üzərində Vətən müharibəsi qəhrəmanlarının adları həkk ediləcək. Tağın üst hissəsindəki ağac elementi böyüyən Azərbaycan, pöhrələnmə, firavanlıq, yeni həyata və Qələbəyə aparan simvolik yol təsəvvürü yaradacaq.*

*Zəfər Muzeyinin əsas girişində yaradılacaq «Dəmir yumruq» simvolunun üzərində Qələbənin tarixi qeyd ediləcək. «Dəmir yumruq» Zəfərin əsasında dayanan lider, xalq, dövlət və ordu birliyinin rəmzi olacaq. Muzeyin divarında Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş əsgər və zabitlərimizin adları həkk ediləcək.*

*Parka doğru keçid hissədə 8 Noyabr – Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə iki güclü əlaməti – Zəfər Gününü və sonsuzluğun rəmzi kimi sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.*

*Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ «yaddaş bağçası», parka ümu-*

*mi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı meydanının inşası nəzərdə tutulur. «Yaddaş bağçası» parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. «Yaddaş bağçası»nın ətrafında istirahət guşələri və oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan bayrağı dalğalanacaq. Azadlıq Bayrağı meydanına gedən yol Vətən müharibəsinin rəmzi kimi, 44 bürünc döşəmədən ibarət olacaq.*

## BMT-nin MƏSKUNLAŞMA PROQRAMININ İCRAÇI DİREKTORU XANIM MAİMUNA MOHD ŞƏRİF İLƏ GÖRÜŞ

*27 sentyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərifi qəbul etmişdir.*

*Prezident İlham Əliyev Maimuna Mohd Şərifin ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi.*

*Dövlətimizin başçısı 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun keçirilməsinin müsbət addım olduğunu söylədi, ötən il Ağdam şəhərində birinci forumun uğurla təşkil edildiyini vurğuladı. Azərbaycan Prezidenti Zəngilanda keçiriləcək builki forumun gündəliyinin çox zəngin olduğunu bildirdi, bu tədbir çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin arxitektura və şəhərsalma üzrə nazirlərinin toplantısının baş tutacağını qeyd etdi.*

*Prezident İlham Əliyev Dünya Məskunlaşma Gününün də Azərbaycanda qeyd ediləcəyinin müsbət addım olduğunu bildirdi.*

*Maimuna Mohd Şərif ölkəmizin təşkilatın fəaliyyətinə göstərdiyi dəstəyi və verdiyi maliyyə yardımlarını müsbət addım kimi qiymətləndirdiyini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Təşkilatın fəaliyyətinin Azərbaycan dövləti tərəfindən bundan sonra da dəstəklənəcəyini qeyd etdi.*

*UN-HABITAT tərəfindən «ağıllı şəhər» konsepsiyasının müxtəlif aspektləri üzrə görülən işlər barədə məlumat verən qonaq ölkəmizin Dünya Məskunlaşma Günü ilə bağlı keçiriləcək tədbirə ev sahibliyi etməsinə görə minnətdarlığını bildirdi. O, Zəngilanda keçiriləcək 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun əhəmiyyətinə toxundu, bu tədbirin urbanizasiya ilə bağlı dünyada gedən proseslərin müzakirəsi üçün yaxşı imkan yaratdığını diqqətə çatdırdı. Bu yaxınlarda Nyu Yorkda Dayanıqlı İnkişaf Məqsədləri Sammitində iştirakına toxunan Maimuna Mohd Şərif həmin tədbirdə iqlim dəyişikliyi və urbanizasiya məsələləri ilə bağlı geniş fikir mübadiləsinin aparıldığını və bu mövzuların Azərbaycanda həyata keçirilən işlərlə də sıx bağlı olduğunu vurğuladı.*

*İqlim dəyişikliyi və urbanizasiyanın Azərbaycan üçün çox mühüm məsələlər olduğunu bildirən dövlətimizin başçısı BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunun ölkəmizə keçənilki səfərindən ötən müddət ərzində işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı yenidən qurulma işlərinin həyata keçirildiyini bildirdi. Keçmiş məcburi köçkünlərin artıq 2 şəhər və 3 kəndə yerləşdirildiyini və bu prosesin davam etdirildiyini vurğulayan Prezident İlham Əliyev Maimuna Mohd Şərifin ölkəmizə səfəri zamanı bu sahədə gedən işlərlə yaxından tanış olacağına ümidvarlığını ifadə etdi.*

*İqlim dəyişikliyi məsələsinə toxunan Azərbaycan Prezidenti bərpa olunan enerji sahəsində ölkəmizdə görülən işlərin də bu məsələyə töhfə verdiyini vurğuladı, işğaldan azad edilmiş ərazilərimizdə 500 meqavata yaxın Günəş və külək enerjisinin istehsalı ilə bağlı 2 layihənin icra olunduğunu bildirdi.*

## ABŞ PREZİDENTİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ SAMANTA PAUER, ABŞ DÖVLƏT KATİBİNİN KÖMƏKÇİSİ YURİ KİM VƏ ABŞ DÖVLƏT DEPARTAMENTİNİN QAFQAZ DANIŞIQLARI ÜZRƏ BAŞ MÜŞAVİRİ LUİ BONO İLƏ GÖRÜŞ

*27 sentyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də ABŞ Prezidentinin xüsusi nümayəndəsi, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbəri Samanta Paueri, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kimi və ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilmiş antiterror tədbirləri nəticəsində yaranmış hazırkı vəziyyət barədə fikir mübadiləsi aparıldı.*

*Yüzlərlə hərbi texnika, silah, sursat və hərbi təchizat mallarının müsadirə olunduğunu vurğulayan Azərbaycan Prezidenti bildirdi ki, ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələri və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsi də toplanmış silah və hərbi texnikaya baxıblar.*

*Hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah edildiyini nəzərə çatdıran Prezident İlham*

*Əliyev onların Azərbaycan ərazisindən çıxarılması prosesinin həyata keçirildiyini bildirdi.*

*Azərbaycan Prezidenti qeyd etdi ki, antiterror tədbirləri zamanı mülki əhaliyə ziyan dəyməyib, hədəf ancaq qanunsuz erməni silahlı birləşmələri və hərbi obyektlər olub.*

*Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarına toxunan Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi, onların da hüquqları ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin ediləcək.*

*Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanın nümayəndələri ilə Qarabağın erməni sakinlərinin təmsilçiləri arasında reinteqrasiya istiqamətində dialoq aparılır.*

*Ərazidə infrastrukturun bərpası ilə bağlı işlərin aparıldığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanın erməni sakinlərə humanitar yardımlar göndərdiyini bildirdi, yardımların göstərilməsi ilə bağlı Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə də əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı qeyd etdi ki, rəsmi Bakı ölkəmizdə akkreditə olunmuş BMT-nin Rezident Əlaqələndirici Ofisinin yaxın zamanda Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkilinə hazırdır.*

*Söhbət zamanı bölgədə sabitliyin təmin edilməsi və yerli ermənilərlə dialoqun vacibliyi vurğulandı.*

**TÜRKMƏNİSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SƏRDAR BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Sərdar Qurbanqulıyeviç!

Türkmənistanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Qardaş Türkmənistan bu gün sosial-iqtisadi sahədə böyük uğurlara nail olmuş, hər cəhətdən çiçəklənən bir diyara çevrilmişdir. Biz ortaq tarixi-mədəni köklər, qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan–Türkmənistan münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk.

Hazırda səmərəli əməkdaşlığımızın əhatə dairəsinin daha da genişləndirilməsi üçün yaxşı perspektivlər vardır. İnanıram ki, ənənəvi dostluq və əməkdaşlıq münasibətlərimiz, qarşılıqlı inam və dəstəyə əsaslanan strateji tərəfdaşlığımız birgə səylərimizlə xalqlarımızın və ölkələrimizin mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkmənistan xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,* **İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2023-cü il*

## CƏBRAYIL RAYONUNA SƏFƏR

*28 sentyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Cəbrayıl rayonuna səfər etmişdir.*

*Dövlətimizin başçısı Cəbrayıl şəhərində inzibati binanın təməlini qoydu.*

*Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.*

*Bildirildi ki, baş plana əsasən, inzibati bina işgüzar zona kimi müəyyən olunmuş 1 hektar ərazidə tikiləcək. Layihəyə əsasən, ərazidə 4 bina inşa ediləcək. Hər bina müasir üslubda layihələndirilib. İlkin mərhələdə 4-5 mərtəbədən ibarət ikikorpuslu bina kompleksinin tikintisi planlaşdırılır və binalar körpü vasitəsilə əlaqələndiriləcək. Digər 3-4 mərtəbəli binaların tikintisi isə ikinci mərhələ üçün nəzərdə tutulur. Binaların fasadında müasirlik və milliliyin ahəngi əsas götürülüb. Belə ki, eyvanlarda milli elementimiz olan şəbəkədən istifadə olunacaq.*

*Layihəyə əsasən, inzibati bina kompleksinin həyətində sakinlərin istirahəti üçün park salınacaq. Bura-*

*dakı avtomobil dayanacağı elektrik doldurma məntəqələri ilə təmin olunacaq.*

*Kompleksin elektrik enerjisi təminatını qismən ödəmək məqsədilə binaların damında və istifadə olunmayan boş ərazilərində günəş panelləri quraşdırılacaq.*

*Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.*

**Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən inşa edilən ilk yaşayış məhəlləsi – Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Cəbrayıl şəhərində Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən inşa edilən ilk yaşayış məhəlləsi – Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanış olmuşdur.*

*Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlət başçısına tikinti işlərinin gedişi barədə məlumat verdi.*

*Bildirildi ki, ümumi sahəsi 7,9 hektar olan yaşayış kompleksi 33 binadan ibarətdir. Dördmərtəbəli və beşmərtəbəli binalarda ümumilikdə 712 mənzil olacaq. Onların 8-inin birotaqlı, 136-sının ikiotaqlı, 8-inin ikiotaqlı studiya tipli, 392-sinin üçotaqlı, 168-inin isə dördotaqlı olması nəzərdə tutulur. Birotaqlı mənzillərin sahəsi 40–50 kvadratmetr, ikiotaqlı mənzillərin sahəsi 55–90 kvadratmetr, ikiotaqlı studiya tipli mənzillərin sahəsi 98–100 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 90–108 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 110–120 kvadratmetr təşkil edəcək.*

*6 kvartaldan ibarət kompleksin inşası sürətlə və keyfiyyətlə həyata keçirilir. Bütün mənzillər tam təmirli olacaq, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz ediləcək. Binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin olunacaq.*

*Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək.*

*Dövlətimizin başçısına Şirvan, Lənkəran və Yevlax Yaşayış kompleksləri barədə də məlumat verildi.*

*Qeyd olundu ki, 8 hektardan çox ərazidə 25 binadan ibarət Şirvan Yaşayış Kompleksinin inşasına başlanılıb. Burada 9 mərtəbəli 14, 12 mərtəbəli 11 bina inşa ediləcək. Kompleksdə 32-si studiya tipli, 216-sı ikiotaqlı, 768-i üçotaqlı və 248-i dördotaqlı olmaqla, ümumilikdə 1264 mənzil olacaq. Bundan başqa, 960 şagird-yerlik orta məktəb binası və 80 yerlik uşaq bağçası da tikiləcək.*

*Tikintisi yekunlaşmaqda olan Lənkəran Yaşayış Kompleksində doqquzmərtəbəli 5 bina inşa edilib. Binalarda ümumilikdə 240 mənzil vardır. Mənzillərin 32-si birotaqlı (studiya tipli), 36-sı ikiotaqlı, 104-ü üçotaqlı, 68-i isə dördotaqlıdır.*

*Yeddimərtəbəli 6 binadan ibarət Yevlax Yaşayış Kompleksinin inşasına tezliklə başlanılacaq. Kompleksdə 28-i birotaqlı, 14-ü studiya tipli, 84-ü ikiotaqlı, 139-u üçotaqlı, 64-ü isə dördotaqlı olmaqla, ümumilikdə 329 mənzil olacaqdır.*

**«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlət başçısına görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, ölkəmizin elektroenergetika sektorunda texnoloji innovasiyaların tətbiqi və infrastrukturun rəqəmsal transformasiyasının sürətləndirilməsi istiqamətində Cəbrayıl şəhərində Prezident İlham Əliyev tərəfindən 2022-ci il oktyabrın 19-da təməli qoyulmuş «Azərişıq» ASC-nin Rəqəmsal İdarəetmə Mərkəzi yüksək səviyyədə inşa olunub.*

*Rəqəmsal İdarəetmə Mərkəzi 110/35/10 kilovoltluq «Cəbrayıl» yarımstansiyasından qidalanır. Mərkəz Cəbrayıl şəhərinin elektrik enerjisinə tələbatının bir hissəsini təmin etməklə yanaşı, tikintisi nəzərdə tutulan digər güc mərkəzlərinin rəqəmsal platforma üzərindən idarəetməsini həyata keçirməyə imkan verəcək. Rəqəmsal İdarəetmə Mərkəzində tətbiq olunacaq müasir dispetçer idarəetmə sistemi elektrik enerjisinin real vaxt rejimində istehlakçıya çatdırılmasında abonent məmnunluğunu təmin edəcək. Rəqəmsal İdarəetmə Mərkəzi şəhərin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə olan tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda ida-*

*rə edilməsinə imkan yaradacaq. Müasirtipli mərkəz vasitəsilə ətraf ərazilərin də elektrik təchizatının etibarlılığı və dayanıqlılığına nəzarət təmin ediləcək. Rəqəmsal Elektrik Şəbəkələrinin İdarəetmə Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin artırılmasına zəmin yaradacaq. Burada mühəndis-texniki heyətin effektiv işini təmin edən müasir avadanlıqlarla təchiz edilmiş iş otaqları, vətəndaş qəbulu üçün bütün şərait nəzərdə tutulub.*

*Prezident İlham Əliyev «Azərişıq» ASC-nin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzini işə saldı.*

*Məlumat verildi ki, 35/0,4 kilovoltluq «Cəbrayıl şəhər» yarımstansiyası qovşaq yarımstansiyası olmaqla, 110/35/10 kilovoltluq «Cəbrayıl» yarımstansiyası, Zəngilan, Qubadlı rayonları və Hadrut qəsəbəsi ilə əlaqələndirilməklə 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olacaq.*

*Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin dispetçer idarəetmə sistemi həm mərkəzləşdirilmiş, həm də müstəqil funksional rejimlərdə istismar imkanına malikdir. Binanın dam örtüyündə yaradılmış «yaşıl enerji» mənbəyinin şəbəkəyə inteqrasiyası həyata keçirilib.*

## ZƏNGİLAN RAYONUNA SƏFƏR

*28 sentyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan rayonuna səfər etmişdir.*

*Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlət başçısına Alıbəyli kəndi barədə məlumat verdi.*

*Bildirildi ki, Alıbəyli kəndi Həkəri çayının sahilində, Bərgüşad silsiləsinin ətəyində, Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd yolunun üzərində yerləşir. İşğaldan azad olunmuş ərazilərin ümumi planına əsasən, Alıbəyli kəndi Birinci Alıbəyli, İkinci Alıbəyli, Sarıl və Xumarlı kəndləri ilə birlikdə layihələndirilir. Kəndin mövcud məskunlaşma ərazisi 103,5 hektar sahəni əhatə edir. Layihələndirilən ərazinin sahəsi isə 170,3 hektardır.*

*Alıbəyli kəndində 2568 sakin üçün 498 fərdi evdən və 144 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin layihələndirilməsi nəzərdə tutulur. Birinci mərhələdə 772 sakin üçün 197 fərdi evin layihələndirilməsi və tikilməsi planlaşdırılır.*

*Kənddə inzibati bina, klub icma mərkəzi və qonaq evi, idman sağlamlıq mərkəzi, məktəb binası, bazar*

*kompleksi, mərasim zalı, iaşə obyektləri və digər müəssisələr olacaq.*

*Qeyd olundu ki, Alıbəyli kəndində əhali üçün tələbata uyğun ümumilikdə 462 şagird-yerlik 2 tam orta məktəb binasının tikintisi planlaşdırılır. Birinci mərhələdə 143 şagird-yerlik məktəb binası inşa olunacaq. Üçmərtəbəli məktəbin ərazisində həm şagirdlər, həm də əhali üçün qaçış zolağı olan geniş idman meydançasının yaradılması nəzərdə tutulur.*

*Kənddə məskunlaşacaq əhali üçün ümumilikdə 160 yerlik iki uşaq bağçası da inşa olunacaq.*

*Əhalinin resurslardan istifadəsini əlçatan etmək məqsədilə geniş istifadə olunan qeyri-yaşayış obyektləri bir neçə mövqedə yerləşdirilib.*

*Sonra Alıbəyli kəndinin inkişaf planı barədə videoçarx nümayiş etdirildi.*

*Prezident İlham Əliyev Alıbəyli kəndinin təməlini qoydu.*

## Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verildi.*

*Bildirildi ki, ərazisi 2,2 hektar olan Zəngilan Konqres Mərkəzi Kompleksi iki hissədən ibarətdir. Kompleksə daxil olan 600 yerlik korpusda ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün*

*müasir standartlara uyğun şərait yaradılıb. Digər korpusda isə kiçikhəcmli müxtəlif çoxfunksiyalı tədbirlərin keçirilməsi üçün zal, mətbəx və VIP otaqlar mövcuddur.*

*Məlumat verildi ki, Zəngilan Konqres Mərkəzi Kompleksi yerli və xarici mütəxəssislər cəlb olunmaqla, 6 ay ərzində inşa edilib. Kompleksin tikintisinin qısa müddətdə başa çatdırılması üçün üçnövbəli iş qrafiki tətbiq olunub. Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşlarının da fəal iştirakı ilə tikinti işləri yüksək keyfiyyətdə və standartlara uyğun şəkildə aparılıb.*

*Kompleksin ərazisində yaşıllıq zonaları, yerüstü parklanma sahəsi mövcuddur. Mərkəz binasının dam hissəsində günəş panelləri yerləşdirilib.*

*Gələcəkdə bu mərkəzdə ölkə və beynəlxalq əhəmiyyətli müxtəlif tədbirlərin keçirilməsi mümkün olacaqdır.*

## «AzərEnerji» Açıq Səhmdar Cəmiyyətinin Cahangirbəyli Su-Elektrik Stansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də «AzərEnerji» Açıq Səhmdar Cəmiyyətinin Cahangirbəyli Su-Elektrik Stansiyasının açılışı mərasimində iştirak etmişdir.*

*«AzərEnerji» ASC-nin prezidenti Baba Rzayev dövlət başçısına stansiyada görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, işğaldan azad olunmuş ərazilərdə yeni «yaşıl enerji» potensialının yaradılması ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, 2022-ci ilin payız aylarında «AzərEnerji» ASC tərəfindən Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində dörd yerdə hər birinin gücü 10,5 meqavat, ümumi gücü 42 meqavat olan su-elektrik stansiyaları (SES) silsiləsinin tikintisinə başlanılıb. Artıq Sarıqışlaq, Şayıflı və Zəngilan SES-lərdə işlər yekunlaşmaqdadır, Cahangirbəyli SES-də isə işlər tamamlanıbdır.*

*Cahangirbəyli SES üçün tikilmiş maşın zalında 5,25 meqavat gücündə Avropa istehsalı olan «yaşıl» sertifikatlı frensis tipli iki ekoturbin, generatorlar, məsafədən idarəedilən rəqəmsal avadanlıqlar quraşdırılıb. Stansiyada il ərzində 30 milyon kilovat-saatdan çox elektrik enerjisi istehsal ediləcək.*

*Prezident İlham Əliyevin cari ilin mayında tikintisinə baxış keçirdiyi bu 4 stansiyadan ibarət 42 meqavatlıq Zəngilan Su-Elektrik Stansiyalar Silsiləsi işğaldan azad edilmiş ərazilərdə tamamilə yeni inşa edilən ilk ən böyük enerji istehsalı layihəsidir. Bu layihə rekord müddətdə – cəmi bir ilə ərsəyə gəlib. İndiyədək nə Azərbaycanda, nə də digər yerlərdə bu sayda, bu gücdə və bu müddətdə SES-lərin tikilməsi faktına rast gəlinməyib.*

*Bu 4 stansiyanı su ilə təmin etmək üçün «AzərEnerji» tərəfindən dəniz səviyyəsindən 600 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib. Eni 450, uzunluğu 250 metr olan qurğunun su tutumu 400–450 min kubmetrə bərabərdir. Bu qurğunun yaradılması ener-*

*ji istehsalından əlavə, kənd təsərrüfatı və ekoloji cəhətdən olduqca əhəmiyyətli hadisədir. Baş suqəbuledicinin tikilməsi 30 il müddətində çirklənən çay yatağının təmizlənməsinə, flora və faunanın dirçəlməsinə də yardım edəcəkdir.*

*Baş suqəbuledicidən çayın suyunun 35 faizi məcrasında saxlanılmaqla, 23 kilometr məsafədə qoşa derivasiya boruları çəkilib. Borudan çıxan su təkrar çaya buraxılır. Cahangirbəyli SES-in ətrafında 8 mindən çox ağac əkilib.*

*Dövlətimizin başçısı Cahangirbəyli Su-Elektrik Stansiyasını işə saldı.*

*Oxçuçay üzərindəki SES-lərin tikilməsi ilə bağlı Dövlət Ekoloji Ekspertiza Agentliyinin təşkilatçılığı və aidiyyəti dövlət qurumlarının, media və qeyri-hökumət təşkilatlarının iştirakı ilə açıq ictimai dinləmələr keçirilib və layihəyə yüksək qiymət verilib.*

*İşğaldan azad edilmiş ərazilərdə bolsulu çaylar üzərində «AzərEnerji» tərəfindən tikilən və gələcəkdə inşa olunacaq 370 meqavat gücündə SES-lər say və güc baxımından ölkənin digər yerlərində fəaliyyət göstərən az sulu çayların üzərində yerləşən 1060 meqavat gücündə böyük SES-lərdən üç dəfə az olmasına baxmayaraq, daha çox enerji istehsal edəcək. Çünki əsasən Azərbaycan ərazisində formalaşan bol sulu və iti axan dağ çayları üzərində tikilən yeni stansiyalar ölkənin digər yerlərindəki stansiyalardan fərqli olaraq, suyun azalan vaxtı da məhsuldar işləyir. Belə ki, avqust–sentyabr aylarında istehsal həcmi 25–30 faizə düşsə də, aprel–may aylarında 80 faizdən yuxarı olur və ilin bütün fəsillərində orta hesabla*

*40-42 faiz güclə çalışır. Digər yerlərdə isə bu göstərici 10-12 faizdir.*

*Beləliklə, işğaldan azad edilmiş ərazilərdə tam yeni tikilmiş 4 stansiyadan ibarət Zəngilan Su-Elektrik stansiyaları silsiləsində il ərzində 130 milyon kilovat-saatdan artıq «yaşıl enerji» istehsal ediləcək. Bu da alternativ enerji mənbələrinə keçiddə çox böyük rol oynamaqla, Prezident İlham Əliyevin regionu «yaşıl enerji» zonasına çevirməklə bağlı tapşırığının icrasına mühüm töhfədir. Silsilə SES layihəsi regionun enerji və iqtisadi inkişafına töhfə verməklə bərabər, əhalinin məşğulluğu baxımından da əhəmiyyətlidir.*

## Zəngilan kəndinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan rayonunda Zəngilan kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.*

*Bildirildi ki, Zəngilan rayonunun inzibati ərazisinə daxil olan bu kənd şəhər mərkəzindən 3,1 kilometr məsafədə, Oxçuçayın sahilində, Zəngilan–Mincivan yolunun üzərində düzənlik ərazidə yerləşir. Baş plana əsasən, Zəngilan kəndi İçəri Müşlan və Məlikli kəndləri ilə birlikdə layihələndirilib. Kəndin layihələndirilən ümumi ərazisi 111,3 hektardır.*

*Zəngilan kəndində 1631 sakin üçün 306 fərdi evin və 102 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin tikilməsi nəzərdə tutulur. Birinci mərhələdə*

*Zəngilan kəndinə 489 sakinin köçürülməsi üçün 127 fərdi ev tikiləcək.*

*Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı və qonaq evinin tikintisi planlaşdırılıb. Burada əhalinin məşğulluğu üçün hər cür şərait yaradılacaq.*

*Bu kənddə də əhalinin resurslardan istifadəsini əlçatan etmək məqsədilə geniş istifadə olunan qeyri-yaşayış obyektləri bir neçə mövqedə yerləşdiriləcək.*

*Zəngilan kəndində 294 şagird-yerlik tam orta məktəb, 60 və 40 yerlik iki uşaq bağçası da inşa olunacaq.*

*Dövlət başçısı kəndin inkişaf planından bəhs edən videoçarxa baxdı.*

*Prezident İlham Əliyev Zəngilan kəndinin təməlini qoydu.*

**Heydər Əliyev Fondu tərəfindən inşa edilən Zəngilan şəhər məscidində görülən işlərlə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Heydər Əliyev Fondu tərəfindən inşa edilən Zəngilan şəhər məscidində görülən işlərlə tanış olmuşdur.*

*Dövlət başçısına məsciddə görülən işlər barədə məlumat verildi.*

*Bildirildi ki, Ermənistanın torpaqlarımızı işğal altında saxladığı illərdə Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilibdir. İşğal dövrün-*

*də Zəngilan şəhərindəki məsciddən tövlə kimi istifadə olunub. İşğal altındakı ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində də bərpa-tikinti işləri başlanılıb. Heydər Əliyev Fondu tərəfindən təşkil olunan yerli və xarici ekspertlərdən ibarət İşçi qrupu məscidin mövcud binasını qiymətləndirib, binanın konservasiyası və bərpasına, o cümlədən bu ərazidə yeni məscidin tikilməsinə qərar verilib.*

*Zəngilanda inşa olunan məscidin təməli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2021-ci il aprelin 26-da qoyulub.*

*Ötən müddətdə yeni məscidin layihəsi işlənilib və tikintiyə başlanılıb. Məscidin inşası «Paşa Holding» MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib.*

*Hazırda məscidin daxili interyerində işlər davam etdirilir, o cümlədən ərazidə abadlaşdırma işləri aparılır. Layihənin 2024-cü ilin aprelində başa çatdırılması nəzərdə tutulur.*

## Zəngilan şəhərində 2-ci yaşayış kompleksinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 2-ci yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına kompleks barədə məlumat verildi.*

*Bildirildi ki, Zəngilan şəhərinin baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. Şəhərdə daha əvvəl təməli qoyulan 110 mənzildən ibarət ilk yaşayış kompleksinin layihələri hazırdır və yaxın vaxtlarda tikinti işlərinə başlanılacaq.*

*Məlumat verildi ki, Böyük Qayıdış Proqramına uyğun olaraq, növbəti yaşayış məhəllələrinin salınması çərçivəsində 410 mənzildən ibarət yeni yaşayış komplekslərinin tikintisi nəzərdə tutulur. İkinci yaşayış kompleksi Qələbə və Memorial parkların yaxınlığında, şəhərin azsıxlıqlı zonasında yerləşməklə, əsasən «townhouse» tipli evlərdən ibarət olacaq. Plana əsasən, burada 87 mənzil nəzərdə tutulur.*

*Prezident İlham Əliyev 2-ci yaşayış kompleksinin təməlini qoydu.*

**3-cü yaşayış kompleksinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 3-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına kompleks barədə məlumat verildi.*

*Bildirildi ki, yaşayış kompleksi 2 sahəyə bölünüb və hər biri üçün özünəməxsus konsepsiya hazırlanıb. Binaların memarlıq baxımından fərqliliyini təmin etmək məqsədilə onlar müxtəlif üslubda layihələndirilib.*

*Məlumat verildi ki, ümumi sahəsi 2 hektar olan yaşayış kompleksində tikiləcək 3, 4 və 5 mərtəbəli çoxmənzilli binalar 8 blokdan və 192 mənzildən ibarət olacaq.*

*Prezident İlham Əliyev 3-cü yaşayış kompleksinin təməlini qoydu.*

**4-cü yaşayış kompleksinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına kompleks barədə məlumat verildi.*

*Bildirildi ki, kompleksin inşa olunacağı ərazi şəhərin ortasıxlıqlı çoxfunksiyalı zonasında, inzibati mərkəzin yaxınlığında yerləşir. Bu yaşayış kompleksinin ərazisi 2 hektardır. Şəhərin təsdiq edilmiş baş planına uyğun olaraq, kompleksdə 3, 4 və 5 mərtəbəli çoxmənzilli binaların inşası nəzərdə tutulur. Konsepsiyaya əsasən, buradakı yaşayış binalarının 131 mənzildən ibarət olması planlaşdırılır.*

*Prezident İlham Əliyev 4-cü yaşayış kompleksinin təməlini qoydu.*

**160 yerlik uşaq bağçasının təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 160 yerlik uşaq bağçasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına görüləcək işlər barədə məlumat verildi.*

*Bildirildi ki, uşaq bağçası 1 hektar ərazidə inşa olunacaq. Məktəbəqədər təhsil müəssisəsinin ikimərtəbəli binasında qrup, inzibati, texniki və tibb otaqları, idman və musiqi zalları, mətbəx, camaşırxana yaradılacaq. Burada uşaqların rahatlığı, ilkin biliklərə yiyələnmələri və əylənmələri üçün hər cür şərait təmin ediləcək.*

*Bağçanın həyətində oyun meydançaları salınacaq, avtodayanacaq və digər zəruri infrastruktur yaradılacaq.*

*Prezident İlham Əliyev uşaq bağçasının təməlini qoydu.*

*Azərbaycanda uşaqların təlim-tərbiyəsinə, sosial müdafiəsinin gücləndirilməsinə, vətənpərvər ruhda və sağlam yetişmələrinə daim xüsusi diqqət yetirilir. Bu məsələ işğaldan azad olunmuş ərazilərdə də diqqət mərkəzində saxlanılır. Hər cür şəraitə malik uşaq bağçalarının inşası Azərbaycan dövlətinin gələcəyimiz olan uşaqlarla bağlı bütün məsələlərə xüsusi həssaslıqla yanaşdığını bir daha sübut edir. İşğaldan azad olunmuş ərazilərdə belə müəssisələrin yaradılması bərpa edilən şəhər və kəndlərimizin simasına da əlavə rəng qatır.*

## «DAVAMLI ŞƏHƏRLƏR İQTİSADİ İNKİŞAFIN HƏRƏKƏTVERİCİ VƏ BƏRABƏRSİZLİKLƏRLƏ MÜBARİZƏ APARAN QÜVVƏSİ KİMİ» MÖVZUSUNDA ZƏNGİLANDA KEÇİRİLMİŞ 2-ci AZƏRBAYCAN MİLLİ ŞƏHƏRSALMA FORUMUNUN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*29 sentyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən «Şəhərsalma Həftəsi–2023» tədbirləri çərçivəsində Zəngilanda «Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi» mövzusunda keçirilmiş 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı forumda çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

BMT-nin Məskunlaşma Proqramının hörmətli icraçı direktoru!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Zəngilana xoş gəlmisiniz! Sizi burada – Azərbaycanın qədim bölgəsində, Şərqi Zəngəzurda salamlayıram. Bu gün bu region Azərbaycanın bütün Qarabağ bölgəsi kimi, sıfırdan yenidən inşa edilir.

İlk olaraq bütün qonaqlarımıza təşəkkürümüzü bildirirəm. Bu gün burada 53 ölkədən qonağımız vardır. 200-ə yaxın xarici qonaq və ümumilikdə 400 iştirakçı bu gün bizimlədir. Bu bizim 2-ci Azərbaycan Milli Şəhərsalma Forumumuzdur, bizim dostluğumuzun təzahürüdür, birgə marağımızın təzahürüdür ki, işğal dövründə tamamilə dağıdılmış əraziləri yenidən inşa edək.

Xüsusi olaraq, xanım icraçı direktora təşəkkür etmək istəyirəm ki, bizim təşəbbüsləri daim dəstəkləyib, şəhərsalma ilə bağlı dəyərli tövsiyələrini verib və verir. Biz sıfırdan yeni şəhər və kəndlər inşa edirik. Ona görə də burada müasir texnologiyalar tətbiq etməliyik ki, bununla da keçmiş köçkünlərimizə ən yaxşı şəraiti yaradaq. Onların bir hissəsi artıq qayıdıbdır.

Ötən il biz 1-ci Şəhərsalma Forumunu Ağdam şəhərində keçirmişdik. Həmin şəhər də sıfırdan inşa edilir, çünki o, işğal dövründə darmadağın edilmişdir. Zəngilan azad olunmuş ərazilərin ilk bölgəsidir ki, artıq burada keçmiş məcburi köçkünlər evlərinə qayıdıblar. Ağalı «ağıllı kəndi»nə – burada videoda da siz onu gördünüz – ötən bahar aylarında həyat qayıdıb. Orada sakinlər xoşbəxt yaşayırlar. Mən Ağalı kəndində dəfələrlə olmuşam – sakinlərin qayıdışından əvvəl və sonra. Mən onun şahidi oldum ki, oraya qayıdan insanlar öz köklərinə

nə dərəcədə bağlıdırlar. Heç zaman öz vətənini görməyən gənc nəsil qayıdıb. Bu onu nümayiş etdirir ki, Azərbaycan xalqı öz köklərinə necə dərindən bağlıdır. Bütün keçmiş məcburi köçkünlər səbirsizliklə gözləyirdilər ki, bizim torpaqlar azad edilsin və onlar qayıtmaq imkanına malik olsunlar. Onlar bu imkandan 30 il ərzində Ermənistan tərəfindən məhrum edilmişdilər. Ancaq 3 il əvvəl biz bu işğala son qoyduq.

Bu gün Zəngilan beynəlxalq tədbirə ev sahibliyi edir. Bu yenidən inşa edilmiş Konqres Mərkəzi dünən açılıb. Təkcə bu bina deyil, Zəngilanın müxtəlif istiqamətlərində fəal işlər gedir. Dediyim kimi, ilk «ağıllı kənd» Zəngilan rayonunda yerləşir. Bu şəhərin baş planı artıq təsdiq edilib. Biz infrastruktura böyük vəsait ayırmışıq, bir neçə yaşayış layihəsi icra edilməkdədir. 2025-ci ildə, ola bilər bir az da tez, Zəngilan şəhərinin ilk sakinləri qayıdacaqlar. Biz Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik, çünki onun coğrafi mövqeyi bunu labüd edir. Zəngilan nəqliyyat dəhlizləri üzərində yerləşir və ona görə Zəngilan Beynəlxalq Hava Limanının inşası da bu bölgənin inkişafı baxımından mühüm faktor olmuşdur. O, insanlar üçün asan çıxışı təmin edəcəkdir. Gələcəkdə isə əminəm ki, Zəngilanda xarici turistlərin sayı çox olacaqdır. Çünki bu bölgə Azərbaycanın ən gözəl guşələrindəndir. Meşələri, çayları, gölləri və misilsiz ekosistemi olan Zəngilan bizim ən böyük sərvətlərimizdən biridir. Əminəm ki, vaxt keçdikcə bura turistlər tərəfindən ən çox sevilən bölgə olacaq.

Zəngilan Beynəlxalq Hava Limanı azad olunmuş ərazilərdə inşa edilmiş ikinci hava limanıdır. Üçüncüsü isə hazırda Laçında inşa edilir və 2 il ərzində o hava limanı da istifadəyə veriləcək.

Eyni zamanda, biz sovet dövründə mövcud olan dəmir yolu xəttini də bərpa edirik. Çünki işğal dövründə həmin dəmir yolları Ermənistan qüvvələri tərəfindən sökülüb. Bu gün Horadizdən Zəngilana çəkilən dəmir yolunun inşası fəal fazadadır və tezliklə bu nəqliyyat dəhlizinin bu mühüm hissəsi hazır olacaq. Bu, Azərbaycanın əsas ərazisini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək layihədir. Oradan isə həmin dəmir yolu İran və Türkiyəyə keçəcək və nəhayət, Avropaya çatacaq. Tezliklə biz bu layihəni istifadəyə verəcəyik. Yəni Zəngilan çox vacib nəqliyyat mərkəzi olacaq. Dəmir yolu xətləri, hava limanı – bu gün bu istiqamətdə 6 və 4 zolaqlı avtomagistrallar inşa edilir. Paytaxt Bakıdan bütün bu istiqamətlərdə 2000 kilometrdən çox yeni magistral yollar inşa olunur. Yəni bu, irihəcmli tikinti layihələridir və azad olunmuş hər bir rayon xüsusi baş plana malikdir.

Biz Zəngilanda təkcə pilot yaşayış layihəsi deyil, həmçinin pilot kənd təsərrüfatı layihəsi həyata keçiririk. «Dost Aqropark» adlanan bu layihə Azərbaycan və Türkiyə şirkətlərinin birgə müəssisəsidir və həmin aqropark artıq fəaliyyətdədir. Hesab edirəm ki, Zəngilan gələcəkdə Azərbaycanın qida təhlükəsizliyinə töhfə verəcək. Artıq 6000 baş anqus cinsindən olan qaramal idxal edilib, onların sayı 10 minə çatdırılacaq. Burada, Laçın və Kəlbəcərdə

də böyük yaşıllıq ərazilər var və hər zaman, keçmişdə də bu ərazidə maldarlıq inkişaf etmişdir. Ona görə də burada bu potensial vardır.

Yeni iş yerləri də yaradılır, çünki buraya – evlərinə, vətəninə qayıdan insanlar işlə təmin edilməlidirlər. Bizim Böyük Qayıdış Proqramımızın bir tərkib hissəsi də məşğulluqdur, eyni zamanda, aşağı faizli, imtiyazlı kreditlərin verilməsi və təbii ki, sosial infrastrukturun inşası. Zəngilanda artıq böyük bir məktəb binası inşa edilməkdədir. Zəngilan məscidinin inşası yekunlaşır. O, ermənilər tərəfindən məhv edilmiş qədim məscidin yanında inşa edilib. Bizim işğal altında olmuş bütün torpaqlarımızdakı 67 məsciddən 65-i məhv edilmişdir, 2-si isə yarıdağıdılmış vəziyyətdə idi. Bu isə Azərbaycana qarşı urbisid və kulturosidin təzahürüdür.

Bu gün isə bu torpağın sahibləri, əsl sahibləri qayıdıb, sürətli inkişaf baş verir. Böyük Qayıdış Proqramı haqqında danışarkən deyə bilərəm ki, həmin proqram bütün azad olunmuş ərazilərin bərpasını əhatə edir. Təkcə bərpa etmək deyil – burada müasir texnologiyalar, «ağıllı şəhər» və «ağıllı kənd»lər inşa olunur. Burada ən müasir şəhərsalma nümunələri istifadə edilir.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bu günədək bərpa işlərinə Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırdığımız minimum büdcə 2,4 milyard ABŞ dolları olacaqdır. Bu, təbii ki, parlamentdə yenidən müzakirə ediləcək və dediyim kimi, Azərbaycan bunu öz şəxsi dövlət vəsaiti hesa-

bına həyata keçirir. Biz heç bir maliyyə dəstəyi, heç bir maliyyə yardımı almırıq. Burada istisna iki qardaş ölkədir – Özbəkistan və Qazaxıstan prezidentləri çox səxavətli şəkildə bizə biri məktəb, biri isə incəsənət mərkəzini hədiyyə edib. Özbəkistan Füzulidə məktəb tikdi, digəri isə yekunlaşmaq üzrədir. Yəni bu, Azərbaycan üçün çox böyük maliyyə yüküdür. Ancaq Böyük Qayıdış Proqramının icrası bizim üçün birnömrəli vəzifədir.

İnsanlar erməni işğalından çox əziyyət çəkiblər, çətin şəraitdə yaşayıblar, mənəvi çətinliklərlə üzləşiblər. Onlar özlərinin haqlı hüquqlarından məhrum ediliblər, öz vətənlərindən məhrum ediliblər, qəbiristanlıqlarını ziyarət etməkdən məhrum ediliblər. Yeri gəlmişkən, qəbiristanlıqların böyük bir hissəsi işğalçı qüvvələr tərəfindən tamamilə dağıdılıb. Onlar bu imkanı, bu fürsəti 30 il gözləyirdilər ki, buraya qayıda bilsinlər. İkinci Qarabağ müharibəsi – bizim şanlı Qələbəmizlə bitən müharibə onlara bu şəraiti yaratdı. Bu gün onların bizdən gözləntiləri odur ki, onları tezliklə bu yerlərə qaytaraq.

Böyük Qayıdış Proqramı və onun icrası artıq imkan vermişdir ki, keçmiş məcburi köçkünlər Laçın şəhərinə qayıtsınlar, Füzuli şəhərinə qayıtsınlar, Ağalı kəndinə qayıtsınlar, Talış və Zabux kəndlərinə qayıtsınlar. Yəni bu gün 8 şəhər və 92 kəndin baş planı artıq təsdiqlənib və 30 kəndin təməli qoyulub. Qarşıdan gələn illərdə çox böyük, irihəcmli yaşayış layihələri həyata keçiriləcək, xüsusən də Şuşa və digər şəhərlərdə. Bu bizim proqramın tərkib hissəsidir.

Digər bir element infrastrukturdur. Məsələn, dünən mən burada – Zəngilanda 10 meqavat gücündə yeni su-elektrik stansiyasının açılışını etdim. Ancaq növbəti 6 ay ərzində onun imkanları 40 meqavata çatdırılacaq. Azad olunmuş ərazilərdə bu gün 90 meqavat həcmində hidroelektrik enerji artıq təmin edilir. Yəni azad olunmuş bütün ərazilərimiz yenidən bizim mərkəzi şəbəkəmizə qoşulur və tam inteqrasiya edilib. Bizim azad olunmuş ərazilərdə hidroelektrik enerjinin həcmi bu ilin sonunadək 170 meqavat, 2024-cü ilin sonuna qədər 270 meqavat olacaqdır. Bu da təbii ki, bizim «yaşıl enerji» gündəliyimizə böyük töhfə olacaqdır. Çünki Şərqi Zəngəzur və Qarabağın 10 min meqavat «yaşıl enerji» potensialı vardır. Buraya həm Günəş, həm külək, həm də su-elektrik stansiyaları aiddir. Bu, Azərbaycanın potensialının cüzi bir hissəsidir. Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisinin potensialı 157 qiqavat təşkil edir. Tezliklə Azərbaycan «yaşıl enerji»ni ixrac edən ölkə olacaqdır. Hətta «yaşıl hidrogen» ixrac ediləcəkdir. İlkin hesablamalara görə, potensialımız çox böyükdür. Günəş enerjisinə gəldikdə, artıq Cəbrayıl rayonunda 240 meqavat həcmində yeni stansiya tezliklə icra olunacaq. Ümid edirəm ki, bu layihəyə gələn il başlanılacaq.

Enerji potensialı, nəqliyyat, yaşayış layihələri – bunların hamısı bizim gündəliyimizin tərkib hissəsidir. Əminəm ki, biz bütün vəzifələrə, hədəflərə nail olacağıq və növbəti 3 ildə 100 mindən çox keçmiş məcburi köçkünü evlərinə qaytaracağıq. Yeri

gəlmişkən, qeyd edim ki, artıq 2300 məcburi köçkün evlərinə qayıdıb və ilin sonunadək onların sayı 5500-ə çatdırılacaqdır.

Diqqətinizə çatdırmaq istədiyim digər məsələ odur ki, Ermənistanın işğalından əziyyət çəkən köçkünlərimiz 30 il ərzində Azərbaycanın müxtəlif bölgələrində yaşayırdılar. Hökumət hər il onlar üçün 300–500 milyon ABŞ dolları arasında vəsait ayırırdı ki, yeni yaşayış layihələri icra edilsin, yeni yaşayış məntəqələri tikilsin. 300 mindən çox məcburi köçkün yaxşı şəraitlə, yeni mənzillərlə, evlərlə təmin edilmişdir. Ancaq torpaqlarımız azad edilən kimi, biz sorğu keçirdik və onların mütləq əksəriyyəti evlərinə qayıtmaq arzusunu ifadə etdi. Bu gün artıq qayıtmaq istəyən insanlardan ibarət növbə yaranıb. Onlar Bakıdan, ölkəmizin ikinci böyük şəhəri Sumqayıtdan, Gəncədən və digər bölgələrimizdən qayıtmaq istəyirlər. Onlar şəhərlərdən kəndlərə qayıtmaq istəyirlər. Yəni bunu da düzgün qiymətləndirmək lazımdır. Bu gün hər kəs urbanizasiyadan danışır. Bizdə də bu mövzu var. Bizim bu problemimiz uzun illərdir yaşanır – insanlar bölgələrdən, kəndlərdən şəhərə can atırlar. Çünki şəhərdə daha çox iş yerləri, məşğulluq imkanları var və özləri üçün daha yaxşı şərait yaratmaq istəyirlər. Amma bu gün biz onun şahidiyik ki, Bakıdan, Sumqayıtdan, Gəncədən, Mingəçevirdən, digər şəhərlərdən kəndlərə axın baş verir. Bu isə ilk növbədə, Azərbaycan xalqının öz vətəninə nə dərəcədə bağlı olduğunu göstərir. Onlar öz vətənlərində, əcdadlarının vətənlərində yaşamaq istəyirlər.

Hesab edirəm ki, bu gün burada – Zəngilanda, növbəti günlərdə forumun Bakıda davam etdiyi müddətdə müzakirələr təkcə şəhər planlaması və inkişafa dair təcrübə mübadiləsi ilə bağlı olmayacaq, regionun gələcəyi barədə də fikir mübadiləsi aparılacaq. Biz bu regionun gələcəyini necə görürük? Diqqətinizə çatdırmaq istəyirəm ki, bizə qarşı 30 il ərzində etnik təmizləmə, işğal və ərazilərimizin məhvi həyata keçirilib, 1 milyondan çox azərbaycanlı evlərindən didərgin salınıb. Onların 200 mindən çoxu hazırkı Ermənistan ərazisindən deportasiya olunub. Bizim şəhərlərimiz, kəndlərimiz darmadağın edilib, 30 il ərzində işğalçı qüvvələr bizə buraya qayıtmağa imkan vermirdi və beynəlxalq ictimaiyyətin münaqişənin dinc yolla həllinə dair bütün səylərini bloklayırdılar. Təsəvvür edirsinizmi, 1992-ci ildən 2020-ci ilə qədər danışıqlar aparıldı. Sonsuz, mənasız danışıqlar aparılırdı və onların nəticəsi sıfır idi. Danışıqlara vasitəçilik edən ölkələrə baxsaq görərik ki, onlar istəsəydilər, buna çoxdan nail olmuşdular. Baxın, BMT Təhlükəsizlik Şurasının 3 daimi üzvü, 3 nüvə ölkəsi – onlar keçmiş Minsk qrupunun həmsədrləri idi. O qrup ki, işğala son qoymaq üçün mandatı var idi və bu, ATƏT-in çətiri altında həyata keçirilirdi. Amma bizim üçün digər hüquqi çərçivə də var idi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var idi ki, onlar bizim ərazilərimizin işğaldan qeyd-şərtsiz və tam azad olunmasını tələb edirdi. Onlar 1993-cü ildə qəbul edilmişdi, amma kağız üzərində qalmışdı. Çünki siyasi iradə yox idi və məlum idi ki, Ermə-

nistan bunu istəmir. Onlar status-kvonu əbədi saxlamaq istəyirdilər, bizim torpaqlarımızı daim öz nəzarətlərində saxlamaq istəyirdilər. Onlar bu yerlərdə, o cümlədən burada – Zəngilanda qanunsuz məskunlaşma aparırdılar. Ola bilər ki, bu, Zəngilanda o qədər də geniş vüsət almamışdı, amma Laçında, Kəlbəcərdə, Şuşada minlərlə qeyri-qanuni sakin məskunlaşdırılmışdı. Onlar Yaxın Şərqdən və digər ölkələrdən, diaspor tərəfindən dəvət edilmişdilər.

Ermənistan beynəlxalq hüquq normalarını və qaydalarını kobud şəkildə pozurdu. Cenevrə Konvensiyasına əsasən, cinayət törədirdi. Ancaq beynəlxalq ictimaiyyət bu ölkəyə qarşı sanksiya tətbiq etmədi. Onları heç ictimai şəkildə qınamadılar. Onlara açıq şəkildə çağırış etmirdilər ki, öz qoşunlarını bizim ərazimizdən çıxarsınlar.

Beləliklə, İkinci Qarabağ müharibəsinin başlaması təkcə Ermənistanın işğal siyasəti ilə bağlı deyildi, bu məsələni həll etməyə mandatı olan ölkələrin bunu gözardı etməsi idi. Sülhə nail olmaq olardı, bu, mümkün idi. Azərbaycan hər zaman danışıqlar masasında konstruktiv idi. Biz 28 il ərzində ədalətin bərpa edilməsini gözlədik. Nəticədə isə bunu özümüz etməli olduq. Biz 44 gün ərzində bunu etdik. 44 günlük müharibə qaçılmaz idi. İlk olaraq artıq sadaladığım səbəblərdən, ikincisi isə Ermənistan bu məsələni dondurmaq istəyirdi. Hesab edirdi ki, Azərbaycanda yeni yetişən nəsil Qarabağı unudacaq. Amma onlar böyük səhvə yol verdilər. Bu gün Füzulidə, Laçında, Zabuxda, Ağalıda, Ta-

lışda təhsil alan yüzlərlə məktəbli bu torpaqları görməmişdi. Amma Azərbaycan xalqının yaddaşından bu tarixi, bu torpaqları heç kim silə bilməz. Aydın idi ki, Ermənistan vəziyyəti məhz bu şəkildə öz nəzarəti altında saxlamaq istəyirdi. Düşünürdülər ki, nə sülh, nə müharibə – davamlı danışıqlar məhz belə də sürəcək. Yeni Ermənistan hakimiyyəti ilə bağlı ümidlər də tədricən boşa çıxdı.

Əvvəlki hökumət, nəzər salsaq aydın görərik ki, Ermənistan kriminal hərbi cinayətkarlar tərəfindən idarə olunan bir rejim idi. İki prezident özləri Xocalı soyqırımında iştirak edənlər idi. Onlar buna görə cavab verməlidirlər, məsuliyyət daşımalıdırlar. Onlar Azərbaycan torpaqlarını talayanlar idi, 20 il ərzində onlar əllərindən gələni edirdilər ki, bizim işğal olunmuş torpaqlarımızda bu taktikanı işlətsinlər, həmin taktikanı Ermənistanda da tətbiq etməyə başladılar.

Bu gün də erməni xalqı onlara nifrət edir. Ancaq hazırkı Ermənistan hakimiyyəti ilə bağlı olan ümidlər şişirdilmişdi. İndiki Ermənistan hakimiyyəti istəsəydi, Azərbaycanla sülhə gələrdi, bunu edə bilərdi. Azərbaycan buna hazır idi, beynəlxalq vasitəçilər bunu bilirdilər. Keçmiş həmsədrlər bilirdilər ki, biz bunu Azərbaycanın ərazi bütövlüyünün bərpası əsasında dinc yolla həll etməyə hazır idik. Biz Azərbaycandakı erməni azlığın hüquqlarını bərpa etməyə, təmin etməyə hazır idik. İndi də müharibədən sonra və sonuncu hərbi əməliyyat ki, baş verdi, 10 gün əvvəl biz yenidən bunu bəyan etdik: Qarabağın erməni əhalisinin hüquqlarını təmin

edəcəyik. Artıq biz onlara bu məsələ ilə bağlı, reinteqrasiya ilə bağlı öz baxışımızı təqdim etmişik, onların dini, təhsil, mədəni, bələdiyyə hüquqları – beynəlxalq konvensiyalara uyğun olaraq bütün bu məsələlər həll ediləcək. Bu, Azərbaycanın iştirakçısı olduğu bütün konvensiyalara, bizim Konstitusiyamıza və beynəlxalq öhdəliklərimizə uyğun həyata keçiriləcək.

Ancaq İkinci Qarabağ müharibəsindən əvvəlki vəziyyətə qayıdanda, hesab edirəm ki, hazırkı Ermənistan hakimiyyəti bu fürsəti əldən verdi. Onlar bizi düzgün qiymətləndirmədilər, öz imkanlarını düzgün qiymətləndirmədilər. Onların planları var idi ki, bizə qarşı xarici hərbi yardım olunacaq. Onlar təbii ki, burada ciddi yanıldılar. Aydın məsələ idi ki, Azərbaycan öz ərazisində döyüşlər aparırdı. Bu bizim hüququmuz idi, BMT Nizamnaməsinə uyğun olan, özünümüdafiə hüququnu tanıyan məsələ idi, 3 il bundan öncə Ermənistan kapitulyasiya etməli oldu. Bəs bundan sonra nə baş verdi? Demək olar ki, biz dərhal sülh danışıqlarına başladıq, 30 il ərzində münaqişədən, soyqırımından, nifrətdən əziyyət çəkən xalq və ölkə ciddi siyasi iradə göstərdi, siyasi addım atdı: biz sülh təklif etdik. Biz müvafiq komissiyaların yaradılmasını təklif etdik ki, sərhədin delimitasiyası aparılsın. Ancaq Ermənistan buna müsbət cavab vermədi. Həmin bu yeni sülh danışıqları heç bir tərəqqiyə gətirib çıxarmadı, 3 il ərzində bunu etmək olardı. Yenidən yanlış hesablama, yenidən hansısa xarici himayədarlara ar-

xalanma yenidən çətin və mürəkkəb vəziyyət yaratdı.

Ermənistanın hökumət rəsmilərinin, xüsusilə də yüksək səviyyəli rəsmilərinin ritorikasına baxsanız görərsiniz ki, bu gün onlar bizi heç etmədiyimiz məsələlərdə ittiham edirlər. Ermənistanın hazırkı rəhbəri 2019-cu ildə Xankəndidə tribunadan bəyan etdi ki, «Qarabağ Ermənistandır və nöqtə». Bu da bizim qırmızı xəttimiz idi. Ona qədər heç kəs belə bir ifadə işlətməmişdi. Bu da təbii ki, atəşkəsin pozulması idi: yəni əhəmiyyətsiz, mənasız danışıqlara nə ehtiyac var? Ermənistanın rəhbəri Azərbaycanın beynəlxalq səviyyədə tanınmış bir hissəsinin Ermənistana məxsus olduğunu rəsmi şəkildə deyirsə, burada hansı danışıqlardan söhbət gedə bilər? Buna baxmayaraq, biz yenə də hesab edirdik ki, bəlkə bu, siyasi yanlışlıqdır. Lakin bundan sonra Ermənistanın müdafiə naziri bəyan etdi ki, Ermənistan bizimlə yeni ərazilər uğrunda yeni müharibəyə hazırdır. Yəni onlar bizi yeni işğalla hədələyirdilər. Belə çıxır ki, bizim ərazimizin 20 faizinin işğalı onlara kifayət etmirdi. Onların planı var idi ki, Bakıya çatsınlar, hətta Xəzər dənizində çimsinlər. Onların planlarında tanklarla Bakıya gəlmək var idi. Ancaq Ermənistana məxsus tanklar bu gün bizim Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Bir çox yanlışlıqlar, yanlış hesablamalar, bizim potensialımızı, qüvvəmizi və gücümüzü nəzərə almamaq – bu, region üçün ciddi bir fəlakətə səbəb oldu.

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması üçün hətta yenə də şans var idi.

Ancaq onlar Azərbaycana qarşı bütün ərazi iddialarına son qoymalı idilər. Onlar ziddiyyətli bəyanatlara son qoymalı idilər. Bir tərəfdən, deyirdilər ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar. Digər tərəfdən isə sentyabrın 2-də Ermənistanın rəhbəri qondarma rejimin rəhbərinə onun müstəqilliyi ilə bağlı təbrik məktubu göndərmişdi. Yəni bu necə mümkün ola bilər? Bu o demək idi ki, utancverici məğlubiyyətdən 3 il sonra, öz məlumatlarına görə, 12 min fərarisi olan, bizim ərazilərimizdən sprinter kimi qaçan həmin Ermənistan bizə qarşı yeni ərazi iddiası irəli sürür.

Bu, artıq qırmızı xəttin növbəti dəfə pozulması idi. 9 sentyabr tarixində artıq bu neçənci qırmızı xəttimiz idi. Qondarma Dağlıq Qarabağın qondarma «parlament»i 22 nəfərin səsi ilə «Dağlıq Qarabağ rejimi»nin «prezidenti»ni seçdi və həmin o «prezident» öz çıxışında qeyd etdi ki, biz status uğrunda mübarizə aparacağıq. Yəni bu nə deməkdir və biz buna necə cavab verməliyik?! Biz buna necə dözə bilərdik? Əlbəttə, biz buna dözə bilməzdik. 10 gün bundan əvvəl baş verən hadisələrin səbəbi Ermənistanın baş nazirinin məsuliyyətsiz siyasəti və onun himayədarlıq etdiyi Qarabağdakı separatçılar idi, onların hərəkətləri idi.

Antiterror tədbiri 24 saatdan az müddətdə həyata keçirildi. Bunun nəticəsi nə oldu? Biz davam etdikmi? Xeyr! Bizim belə bir niyyətimiz yox idi. Biz nəticədə harada istəsəydik orada dayanacaqdıq. Bunu demək o qədər də çətin deyil. Ancaq bizim niyyətimiz bundan ibarət deyildi. Biz Ermənis-

tanın ərazi bütövlüyünü tanımışıq, bunu bəyan etmişik və bunu səmimi deyirik. Yəni bizim başqa niyyətlərimiz olsaydı, əməliyyat sentyabrın 20-də dayanmazdı. Mən bunu hər kəsin bilməsini istəyirəm. Bunu Ermənistan hakimiyyəti də bilsin, onun arxasında duran himayədarları da bilsin, bu gün Azərbaycana qarşı qəbuledilməz planlar cızan tərəflərə buradan mesaj verirəm: bizim səbrimizlə oynamasınlar. Biz səbirliyik, ancaq qətiyyətliyik. Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik. Ona görə yox ki, bizim gücümüz var, çünki haqq-ədalət bizim tərəfimizdədir.

Sentyabrın 20-dən sonra artıq zaman yetişib ki, bizim nümayəndələr əyləşib sülh sazişinin layihəsi üzərində işləsinlər. 20 sentyabrda biz suverenliyimizi artıq bərpa etdik. Bundan sonra da sülh sazişinin tezliklə imzalanması daha asan olacaqdır. Bununla yanaşı, təbii ki, gərək sərhədlərin delimitasiyası üzərində fəal surətdə çalışaq və uzun müddət sürən bu qarşıdurmaya son qoyaq. Azərbaycanda biz sülh istəyirik. Zəngilanda bu gün gördükləriniz sübut edir ki, biz sülh istəyirik, biz bu əraziləri bərpa etmək istəyirik, soydaşlarımızı vətəninə qaytarmaq istəyirik. Biz Qafqazda sülh və sabitlik istəyirik. Bu mümkündür və seçim Ermənistanındır.

2020-ci il noyabrın 8-də Şuşa ordumuz tərəfindən azad olundu və bu bizim iradəmizin təzahürü idi. Bundan 2 gün sonra Ermənistan kapitulyasiya aktına imza atdı və Azərbaycan 30 illik işğala son qoydu. Aprelin 23-də biz Ermənistanla sərhəddə sərhəd-keçid məntəqəsi yaratdıq və ərazi bütövlü-

yümüzü tam təmin etdik. Çünki bütün sərhədlərimizə nəzarəti bərpa etdik. Əlbəttə, sentyabrın 20-də biz öz suverenliyimizi bərpa etdik. Yəni artıq «boz» zonalar yoxdur, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulubdur. Bu bizim güclü siyasi iradəmizin göstəricisidir. Bu, Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olduğunu göstərir və bu, yaxşı siqnaldır – bəziləri hələ də qisasçılıq, revanşist ideyalarla yaşayırlar – bu onlara güclü siqnaldır ki, bu fikirlərdən daşınsınlar.

Biz sentyabrın 20-də Qarabağdakı Ermənistan ordusuna bəyan etdik: silahlarınızı yerə qoyun və oraları tərk edin. Belə də oldu və bu, baş verdi. Biz sözümüzə, vədimizə əməl edirik, ona sadiqik. Əminəm ki, Ermənistan hökuməti bu hadisələri düzgün şəkildə təhlil etsə, «Qarabağ Ermənistandır» bəyanatından sonra – 2019-cu ildə verilən bəyanatdan sonra 20 sentyabradək baş verənləri düzgün təhlil etsə, sülh əlçatandır. Bu, gələcəklə bağlı bizim baxışımızdır. Bu, regionun gələcəyi ilə bağlı baxışımızdır və hesab edirəm, beynəlxalq aktorlar və qonşular görəcəklər ki, bizim münasibətimiz konstruktivdir.

Əziz qonaqlar, hörmətli dostlar, bir daha Şərqi Zəngəzura, Zəngilana xoş gəlmisiniz! Foruma uğurlar arzu edirəm.

* * *

**Maimuna Mohd Şərif** (*BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru*): Zati-aliləri cənab Prezident İlham Əliyev!

Çox hörmətli nazirlər, xanım Vladanka Andreyeva!

Hörmətli nümayəndə heyəti, xanımlar və cənablar!

Hamınızın sabahınız xeyirli olsun. Mən çalışıb Azərbaycan dilində tələffüz etdim. Ümid edirəm, doğru tələffüz etdim. Burada 2-ci Milli Şəhərsalma Forumunda – Azərbaycan hökumətinin təşkilatçılığı, cənab Prezident İlham Əliyevin himayəsi ilə keçirilən 2-ci forumda iştirak etməkdən məmnunluğumu bildirirəm. Bildiyiniz kimi, qlobal, kifayət qədər Ümumdünya Şəhərsalma Günü Qafqaz regionunda oktyabrın gələn bazar ertəsi günü qeyd edilir və əslində məhz şəhərlər inkişafın və bərpanın hərəkətverici qüvvəsidir.

Cənab Prezident, Sizin üzərinizə götürdüyünüz öhdəliyə əsasən, Zəngilanda keçirilən 2-ci Azərbaycan Milli Şəhərsalma Forumu həqiqətən, təqdirəlayiqdir. Əsas məqsəd daha «yaşıl», daha sağlam inkişaf, sözün həqiqi mənasında, təqdirəlayiqdir. Təbiətlə ahəngdar şəkildə, eləcə də su resurslarının düzgün idarə edilməsi ilə Siz şəhər vətəndaşları üçün daha parlaq gələcəyi təmin etmiş olursunuz. BMT-nin Baş katibi Antonio Quterreş də bu yaxınlarda Nyu Yorkda Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı keçirilmiş tədbirdə qeyd etmişdi ki, Dayanıqlı İnkişaf Məqsədlərinin bərpa planına kifayət qədər ehtiyacı var və artıq bütün dünyanın gözləri üzv dövlətlərə yönəlibdir.

Cari Milli Şəhərsalma Forumunda Azərbaycan hökuməti, bütün aidiyyəti qurumlar, eləcə də yerli icra hakimiyyəti, idarəetmə qurumları illik platformada üzərinə götürdüyü Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı müvafiq olaraq məlumat, hesabat verirlər. BMT də aidiyyəti qurum olaraq, yeni şəhərsalma gündəliyi çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərini, ərazi, iqtisadi və ətraf mühit planlamasını özündə ehtiva edir. Milli Şəhərsalma Forumu məhz ən ali zirvədən tutmuş – söz düşmüşkən, Azərbaycanın həqiqətən də bariz nümunəsi fonunda – milli səviyyədə keçirilən belə bir şəhərsalma forumu ölkələr üçün də, nümayəndələr üçün də 2024-cü ildə Qahirədə keçiriləcək tədbir üçün həqiqətən də mühüm platformadır. BMT Baş Assambleyasının 78-ci sessiyasında qeyd olunduğu kimi, günümüzdə artıq köhnəlmiş, qeyri-funksional və ədalətsiz bir nizamda məhz memarlıq gələcəkdə Dayanıqlı İnkişaf Məqsədlərinin inkişafına mühüm töhfə verə bilər. Milli səviyyədə isə bütün bu işlər, iqtisadi, sosial ərazi planlaşdırılması Azərbaycanın təbii ki, Zəngilanda nümayiş etdirdiyi inkişafla paraleldir. Burada inklüziv, düzgün ərazi yanaşması milli inkişaf planı ilə vəhdət halı almışdır.

Çox hörmətli tədbir iştirakçıları, keçən il vurğuladığım kimi, əsas xidmətlər üzrə boşluğu doldurmaq, evlərlə bağlı idarəetmə yalnız və yalnız resurs və məlumatlar strateji şəkildə doğru-düzgün idarə edildikdə mümkün olacaqdır. Milli Şəhərsalma Forumunun keçirilməsi ilə üzv ölkələr və şəhər rəhbərləri 11-ci Dayanıqlı İnkişaf Məqsədinə və bütün di-

gər Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün düzgün siyasətin həyata keçirilməsi baxımından mühüm məlumatlar əldə edə bilirlər. Bəli, bunlar bir-biri ilə kəsişən, eləcə də milli, mərkəzi və yerli idarəetmə qurumlarına milli inkişaf proqramı siyasətinin real əməli tədbirlərlə müsbət nəticələrə gətirib çıxarmasına rəvac verir.

Qeyd edim ki, mənim komandam burada – 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunda iştirak edir. Məhz burada, bu yüksək səviyyəli tədbirdə əldə olunan məlumat və alətlər, bildiyiniz kimi, noyabrda keçiriləcək növbəti tədbirdə istifadə ediləcəkdir. Mən çoxsaylı tanış simaları regionda görməyimə çox şadam. Sözün həqiqi mənasında, Azərbaycan hökumətinin səxavəti ilə biz öz dəstəyimizi qonşu ölkələrə də çatdıra bilirik. Çox şadam ki, Türk Dövlətləri Təşkilatının 1-ci Regional Şəhərsalma Forumu sabah Bakıda keçiriləcək. Biz qarşılıqlı əməkdaşlıq sayəsində məhz üzv dövlətlərdən, yerli idarəetmə qurumlarından, tərəfdaşlardan faydalanaraq, gələn il Qahirədə keçiriləcək milli foruma hazırlıq prosesinə də artıq təkan vermiş oluruq.

Cənab Prezident, BMT-nin Məskunlaşma Proqramının bu ilin iyununda Nayrobidə keçirilmiş 2-ci sessiyasında davamlı şəhərsalmaya dəstəyinə görə Azərbaycan hökumətinə təşəkkürümü bildirirəm. Sizin BMT-nin Nayrobi şəhərindəki bölməsində daimi nümayəndənizin təyin olunmasından çox şadıq. Ümid edirəm ki, builki Milli Şəhərsalma Forumunun nəticələri Konvensiyaya üzv olan tərəflərin 2023-cü ilin dekabrında Dubay şəhərində

təşkil ediləcək tədbirdə Sizin dayanıqlı şəhərsalma ilə bağlı əsas mesajlarınızı çatdıracaq. Şəhərsalma ilə bağlı Konvensiyaya üzv olan tərəflərin nazirlər səviyyəsində iclası bu il dekabrın 6-da Dubay şəhərində keçiriləcək.

Hazırda isə cənab Prezident, vəd etdiyim kimi, planlaşdırma ilə bağlı müvafiq konsepsiya sənədinin təqdim edilməsi üçün Cəbrayıl rayonunda iki ərazi seçilmişdir. Mən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə müvafiq dəstəyinə görə təşəkkürümü bildirirəm. BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva öz növbəsində, BMT-nin ölkədəki komandası olaraq, bu təşəbbüslərə dəstək göstərir. UN-HABITAT şəhərlərin yenidən bərpası və icmaların özlərinin daha yaxşı gələcəyini qurması istiqamətində səylərini dəstəkləyir. BMT-nin Məskunlaşma Proqramının ikinci sessiyasındakı qərarından ilhamlanaraq, səmərəli, çoxtərəfli ruhundan çıxış edərək, bütün üzv dövlətlərə üz tutaraq demək istəyirəm: biz qanunun aliliyi prinsipinə, BMT xartiyasına riayət etməklə, eləcə də İnsan Haqları Bəyannaməsinə xitabən inkişafı davamlı edə bilərik. Ancaq bütün cəmiyyətlə, hamılıqla birgə inklüzivliyə və müxtəlifliyə xitabən, xüsusi öhdəlik götürməklə inkişaf edə bilərik. Mən bütün bunlara Sizin dəstəyinizlə nail olacağımıza əminəm. 2023-cü ildəki Ümumdünya Məskunlaşma Günü gələn bazar ertəsi Sizin çox gözəl Bakı şəhərində – Xəzər dənizinin sahillərində qeyd ediləcəkdir.

Təşəkkür edirəm, çox sağ olun.

* * *

*Müxtəlif çağırış və qeyri-müəyyənliklər qarşısında iqtisadi cəhətdən inkişaf edə biləcək davamlı şəhərlərin qurulması ilə bağlı strategiyaların müzakirəsi, fikir mübadiləsi və əməkdaşlıq üçün müxtəlif maraqlı tərəfləri, ekspertləri, siyasətçiləri və icmaları bir araya gətirən forumun açılışı mərasimindən sonra tədbir müxtəlif mövzularda sessiyalarla davam etdi. Əvvəlcə «Birgə yenidənqurma – regional dayanıqlılıq və davamlı inkişaf üçün əməkdaşlıq imkanları» adlı xüsusi sessiya təşkil olundu.*

*Sonra «Dayanıqlı və davamlı inkişaf: strategiyalar, fəaliyyət istiqamətləri və beynəlxalq əməkdaşlıq imkanları» adlı 1-ci sessiyada yenidən qurulma – azad edilmiş ərazilərin reabilitasiya strategiyaları, birgə hərəkət, əlaqələndirmə və regional iqtisadi inkişaf üçün nəqliyyatın imkanlarının gücləndirilməsi, rifah və sülh üçün körpülər qurmaq, münaqişələrin həllində və şəhərsalmanın inkişafında beynəlxalq əməkdaşlığın rolu kimi məsələlər müzakirə edildi.*

*«Viranlıqdan dayanıqlılığa: parlaq gələcəyə aparan yol» adlı ikinci sessiyada gizli təhlükə ilə mübarizə – minalarla çirklənmə və onun dayanıqlı inkişafa təsiri, regional mərkəzlərin dirçəlişi, Qarabağda əməkdaşlıq imkanlarından söhbət açıldı, Zəngilan şəhərinin baş planı ilə tanışlıq oldu.*

*Sonda tədbir iştirakçıları Ağalı «ağıllı kənd»inə səfər edib, Zəngilanda sürətlə aparılan yenidən qurulma layihələri ilə tanış oldular.*

*NUFA-2-nin növbəti sessiyaları paytaxt Bakıda təşkil olunacaq və oktyabrın 1-də yekunlaşacaq. Oktyabrın 2-də isə paytaxtımız ilk dəfə olaraq Ümumdünya Məskunlaşma Gününə ev sahibliyi edəcək. Həmin gün nüfuzlu beynəlxalq ekspertlər və dövlət rəsmiləri «Dayanıqlı şəhər iqtisadiyyatı. Şəhərlər inkişafın və bərpanın aparıcı qüvvəsi kimi» mövzusu altında əlçatan və keyfiyyətli şəhər həyatının təşviqi və dayanıqlı şəhərlərin inkişafı üzrə çağırışların müzakirəsini aparacaqlar.*

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bu gün Çin dünyanın ən dinamik inkişaf edən ölkələrindən biridir. Sizin qətiyyətli və müdrik rəhbərliyinizlə ölkənizin hər bir sahədə əldə etdiyi nailiyyətləri və uğurları onu dünyanın iqtisadi cəhətdən ən qüdrətli və qabaqcıl ölkələri sırasına çıxarmış, beynəlxalq aləmdə mövqeyini daha da gücləndirmişdir.

Yaxın dost və etibarlı tərəfdaş ölkə olan Çinlə əməkdaşlığın genişləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Şadam ki, qədim tarixə və xoş ənənələrə əsaslanan Azərbaycan–Çin münasibətləri yüksələn xətlə inkişaf edir, tərəfdaşlığımız gündən-günə yeni məzmunla zənginləşir.

Məmnunluqla qeyd etmək istərdim ki, hazırda ikitərəfli münasibətlərimiz geniş gündəliyə malikdir. Qarşılıqlı faydalı əməkdaşlığımızın iqtisadiyyat, ticarət, nəqliyyat-logistika, bərpa olunan enerji, humanitar və digər sahələrdə çox aydın və böyük perspektivləri vardır. Çindən Azərbaycan vasitəsilə

qərb istiqamətində daşınan yüklərin həcminin artması «Bir kəmər–bir yol» layihəsi çərçivəsində uğurlu qarşılıqlı fəaliyyətimizin növbəti bariz nümunəsidir.

Çin şirkətləri uzun müddətdir ki, ölkəmizdə səmərəli fəaliyyət göstərir və dövlətlərarası münasibətlərimizin inkişafında vacib rol oynayır. Biz bu əməkdaşlığın işğaldan azad olunmuş ərazilərimizdə də davam etdirildiyini görmək istərdik.

Azərbaycan vahid Çin siyasətini, Çinin ərazi bütövlüyünü və suverenliyini daim birmənalı şəkildə dəstəkləmişdir. Çinin də ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyi yüksək qiymətləndiririk. Əminəm ki, xalqlarımızın mənafeləri naminə Azərbaycan–Çin çoxşaxəli münasibətlərinin daha da inkişafı, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi və strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 sentyabr 2023-cü il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANK-VALTER ŞTAYNMAYERƏ**

Hörmətli cənab Prezident!

3 Oktyabr – Alman Birliyi Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Biz Azərbaycan ilə Almaniya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimizin siyasi, iqtisadi və humanitar sahələrdə fəal və səmərəli əməkdaşlığı məmnunluq doğurur.

Azərbaycan Almaniya ilə əlaqələri möhkəmləndirmək və qarşılıqlı faydalı əməkdaşlığı davam etdirmək əzmindədir. Əminəm ki, həm dövlətlərarası münasibətlərimiz, həm də Avropa İttifaqı çərçivəsində qarşılıqlı maraq doğuran qarşılıqlı fəaliyyətimiz bundan sonra ardıcıl şəkildə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Almaniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 sentyabr 2023-cü il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YUN SOK YOLA**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Azərbaycan–Koreya dostluq və əməkdaşlıq münasibətləri xoş ənənələrə malikdir. Dövlətlərarası əlaqələrimizin inkişaf dinamikası, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişlənməsi bizi sevindirir.

Koreya şirkətləri uzun illərdən bəri Azərbaycanda çox uğurla fəaliyyət göstərir. Ölkənizi təmsil edən şirkətlər işğaldan azad edilmiş torpaqlarımızda aparılan bərpa və yenidən qurulma işlərinə istehsal etdikləri qabaqcıl və müasir texnologiyalar vasitəsilə töhfə verə bilərlər. İnanıram ki, mövcud imkanlardan yararlanaraq, böyük potensiala malik olan münasibətlərimizi və səmərəli əməkdaşlığımızı bundan sonra da dərinləşdirəcəyik.

Belə bir bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Koreya Respublikasına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 sentyabr 2023-cü il*

## BEYNƏLXALQ ASTRONAVTİKA FEDERASİYASININ PREZİDENTİ KLAY MOURİ İLƏ GÖRÜŞ

*30 sentyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Klay Mourini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanda keçiriləcək 74-cü Beynəlxalq Astronavtika Konqresinin əhəmiyyətinə toxunaraq, bu tədbirə ev sahibliyi etməsi üçün ölkəmizin seçilməsinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev konqresin Azərbaycanda yüksək səviyyədə təşkili üçün böyük hazırlıq işlərinin görüldüyünü vurğuladı.*

*Dövlətimizin başçısı xeyli sayda qonağın iştirak edəcəyi bu tədbirin Azərbaycan ilə daha yaxından tanış olmaq və gələcək əməkdaşlıq planlarının müəyyənləşdirilməsi baxımından önəmli olduğunu qeyd etdi. Klay Mouri Azərbaycana gəlməkdən məmnunluğunu bildirərək, 74-cü Beynəlxalq Astronavtika Konqresinin ölkəmizdə keçirilməsinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi, Azərbaycanın konqresə hazırlığını yüksək qiymətləndirdi.*

*Konqresin əhəmiyyətinə toxunan qonaq burada 100-dən artıq ölkədən 5 mindən çox nümayəndənin iştirakını tədbirə verilən önəmin göstəricisi kimi dəyərləndirdi. Qeyd etdi ki, bu tədbir indiyədək keçirilmiş digər konqreslərlə müqayisədə iştirakçıların sayı və tərkibi baxımından eyni səviyyədədir, hətta bəzi göstəricilərə görə onlardan da üstündür.*

*Beynəlxalq Astronavtika Federasiyasının prezidenti bildirdi ki, bu tədbir təqdim ediləcək elmi məqalələrin sayına görə də ən önəmli konqreslərdən biri olacaqdır. Belə ki, konqresə 3600-dək elmi məqalə təqdim ediləcəkdir.*

*Bu tədbir çərçivəsində BMT-nin Kosmik Fəza Məsələləri İdarəsinin və Beynəlxalq Astronavtika Federasiyasının birgə təşkilatçılığı ilə «Sosial və iqtisadi faydalar naminə kosmik texnologiyalar» adlı seminarın və Kosmik Nəsil Məşvərət Şurasının Kosmik Nəsil Konqresinin də keçirildiyi bildirildi.*

*Söhbət zamanı Bakı şəhərinin və Konqres Mərkəzinin bu mötəbər beynəlxalq tədbirə yüksək səviyyədə hazırlığı xüsusi qeyd olundu.*

**İRAQ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ CƏNAB**
**ƏBDÜLLƏTİF CAMAL RƏŞİDƏ**

Hörmətli cənab Prezident!

İraq Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan–İraq münasibətləri birgə səylərimizlə bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost İraq xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 oktyabr 2023-cü il*

## ISESCO-nun BAŞ DİREKTORU SALİM BİN MƏHƏMMƏD ƏL-MALİKİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 2-də ISESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşmüşlər.*

*Görüşdə Azərbaycanda keçirilən və dünyanın müxtəlif ölkələrindən çox sayda qonağın iştirak etdiyi 74-cü Beynəlxalq Astronavtika Konqresinin önəmi vurğulandı, ölkəmizin nüfuzlu beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkil olunduğu məkana çevrildiyi qeyd edildi.*

*Dövlətimizin başçısı ISESCO-nun baş direktorunun 74-cü Beynəlxalq Astronavtika Konqresində iştirakını yüksək qiymətləndirdi.*

*Salim bin Məhəmməd əl-Maliki ötən həftə Qətərin paytaxtı Doha şəhərində keçirilmiş İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında iştirakçıların yekdil qərarı ilə Azərbaycanın Şuşa şəhərinin 2024-cü il üzrə ISESCO-nun «İslam dünyasının mədəniyyət paytaxtı» adına layiq görülməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Bu qərarın qəbul edilməsinə görə minnətdarlığını ifadə edən Azərbaycan Prezidenti bunu qardaşlığın*

*və tərəfdaşlığın mühüm nümunəsi kimi dəyərləndirdi, bu hadisənin bütün Azərbaycan xalqında xüsusi qürur hissi doğurduğunu bildirdi.*

*Dövlətimizin başçısı Şuşada böyük bərpa və yenidən qurulma işlərinin həyata keçirildiyini vurğulayaraq, burada digər obyektlərlə yanaşı, məscidlərin də artıq bərpa olunduğunu və bu prosesin davam etdirildiyini məmnunluqla diqqətə çatdırdı. Prezident İlham Əliyev belə genişmiqyaslı işlərin işğaldan azad edilmiş digər ərazilərimizdə də icra olunduğunu qeyd etdi.*

*Söhbət zamanı Azərbaycan ilə ISESCO arasında uzun illər həyata keçirilən uğurlu əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminlik ifadə olundu.*

# 74-cü BEYNƏLXALQ ASTRONAVTİKA KONQRESİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*2 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və oğlu Heydər Əliyev oktyabrın 2-də Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılışı mərasimində iştirak etmişlər.*

*Əvvəlcə birgə foto çəkdirildi.*

*Açılış mərasimində səhnələşdirilmiş musiqili tamaşa, 1973-cü ildə Bakıda keçirilmiş 24-cü Beynəlxalq Astronavtika Konqresi və Azərbaycan haqqında videoçarxlar nümayiş etdirildi.*

*Sonra Beynəlxalq Astronavtika Federasiyasının tanıtım videoçarxı təqdim olundu.*

**Klay Mouri** (*Beynəlxalq Astronavtika Federasiyasının prezidenti*): Təşəkkür edirəm. Zati-aliləri Prezident Əliyev, xanım Birinci vitse-prezident Əliyeva!

Hörmətli nazirlər, səfirlər, təşkilat rəhbərləri, kosmik ictimaiyyət, mötəbər qonaqlar, sabahınız xeyir. 74-cü Beynəlxalq Astronavtika Konqresinə xoş gəlmisiniz və bu gözəl Bakı şəhərində bizimlə bir arada olduğunuz üçün çox sağ olun. Beynəlxalq Astronavtika Federasiyasının prezidenti olaraq, bu əla-

mətdar gündə qarşınızda çıxış etmək mənim üçün böyük şərəfdir.

Beynəlxalq Astronavtika Konqresi kosmik ictimaiyyətin nümayəndələri olaraq, hamımız üçün unikal bir hadisədir. Bir çoxlarımız işini paylaşmaq, həmkarlarımızı salamlamaq və dünyanın hər yerindən çoxşaxəli və entuziazmla dolu olan cəmiyyətlə yeni əlaqələr yaratmaq üçün yalnız ilin bu vaxtı bir araya gələ bilirik. Prezident Əliyevin möhtəşəm dəstəyi olmasaydı, 50 ildən sonra Bakıya qayıda bilməyəcəkdik. Təşəkkür edirəm, cənab Prezident.

İndi isə bu konqresə və tədbirə davamlı dəstək olan tərəfdaşlarımızın adlarını çəkmək istəyirəm. Beynəlxalq Astronavtika Akademiyasını, Kosmos Hüquq üzrə Beynəlxalq İnstitutu və Kosmik Nəslin Məşvərət Şurasını, eyni zamanda, «premium» sponsorumuz olan Çinin Astronavtika Cəmiyyətini, «platin» sponsorumuz olan Səudiyyə Ərəbistanının Kosmik Agentliyini, «SpaceX» və Türk Kosmik Agentliyini, «qızıl» sponsorumuz olan «Israel Aerospace Industries» şirkətini, Birləşmiş Ərəb Əmirliklərinin Məhəmməd bin Rəşid Kosmik Mərkəzini, «gümüş» sponsorlarımız olan «Airbus», «Axiom Space», «Intersputnik», «iSpace» kompaniyalarını, Hindistanın Kosmik Tədqiqatlar Təşkilatını, Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyini, «Northrop Grumman», «Plan S» və «Vast» şirkətlərini və «bürünc» sponsorlarımız olan «Asgardia», «BlackSky», «Blue Origin», «JGC Holdings Corporation», «Lockheed Martin» korporasiyalarını qeyd etmək istəyirəm.

Beynəlxalq Astronavtika Konqresinin bu buraxılışını dəstəkləyən bütün digər sponsorlara da təşəkkürümüzü bildiririk.

Sizin dəyərli dəstəyiniz sayəsində Beynəlxalq Astronavtika Konqresi kimi inanılmaz tədbir hər il keçirilir. Sonda hamınıza buraya gəldiyiniz üçün təşəkkürümü bildirmək istəyirəm, bizim müəlliflərimizi, natiqlərimizi, sərgi iştirakçılarımızı, komitələrimizi nəzərdə tuturam – onların hamısı könüllü olaraq fəaliyyət göstərir – hər birinizə gəldiyiniz üçün təşəkkür edirəm. Siz dünyanın ən böyük və ən çoxşaxəli kosmik təşkilatı olan Beynəlxalq Astronavtika Federasiyasının bir hissəsisiniz.

Bayaq nümayiş etdirilən videoçarxda gördüyünüz kimi, federasiya 1951-ci ildə mürəkkəb geosiyasi münasibətlər dövründə təsis olunub. Federasiyanın yaradılmasında məqsəd kosmik sahədə fəaliyyət göstərən bütün insanları birləşdirmək üçün qeyri-siyasi neytral platformanı təmin etmək idi. Bu gün 70 ildən də artıq müddətdən sonra biz yenə də mürəkkəb beynəlxalq proseslərin şahidi oluruq. Federasiyanın rolu isə daha da zəruri olaraq sülhsevər əməkdaşlıq ruhunda artmaqda olan kosmik ictimaiyyəti bir araya gətirməkdir. Federasiyanın davamlı inkişaf və innovasiya tarixi vardır. İlkin olaraq, Federasiya Parisdə 10 təşkilat tərəfindən təsis edilmişdi. Bu gün Federasiyanın dünyanın 75 ölkəsindən 468 üzvü vardır. Sizə hətta bir sirri də aça bilərəm. Bu həftənin sonunadək üzvlərimizin sayı 500-ə çatacaqdır.

Beynəlxalq Astronavtika Federasiyası qərar verənlərə fəzanın iqtisadi, sosial, siyasi və elmi dəyərini anlamağa kömək etmək üçün fəaliyyət göstərir. Konqreslər, konfranslar, nəşrlər və araşdırmalarımızla kosmik texnologiyanın gündəlik həyatımızı necə təkmilləşdirə bilməsi ilə əlaqədar biliklərə daha da dərindən yiyələnirik və onları paylaşırıq. Federasiya tədbirlərinin şəbəkəsi, investisiya qoyuluşu və innovasiyalar vasitəsilə biz dünya miqyasında olan təşkilatları əlaqə yaratmağa, əməkdaşlıq etməyə, elmi və texniki biliyi öz ölkələrində daha da inkişaf etdirməyə sövq edirik. Tədbir və fəaliyyətlərimizdə biz xüsusilə 3 mövzuya əsas diqqəti yetiririk. Mənim Federasiya gündəliyimdə bu məsələlər dayanıqlılıq, investisiya qoyuluşu və təhlükəsizlikdir. Ötən dəfə Parisdə bir araya toplandığımızdan bəri kosmos çox məşğul sahədir desəm, mübaliğəyə yol verməərəm. «James Webb» teleskopundan möhtəşəm təsvirləri görmüşük. Çin öz Orbital Kosmos Stansiyası olan «Tianqonq»un tikintisini tamamlayıb. Hazırda bu kosmik stansiya heyətlə təchiz olunaraq orbitdə tam fəaliyyətdədir. NASA, ESA və onların təchizatçıları bizi Aya aparacaq «Artemis-1» missiyasını müvəffəqiyyətlə başa vurublar. Hindistanın Kosmik Tədqiqatlar Təşkilatı öz istehsalı olan peyki ayın səthinə endirib. IASS kommersiya operatorları ilə üzərimizdə beynəlxalq tərəfdaşlıq apararaq, uğurla fəaliyyət göstərməyə davam edir. «Space Industries» şirkəti bəşəriyyətin iddialı planları olan Aya qayıtmaq, Marsa və ondan o tərəfə getmək üçün texnologiyanı

müvəffəqiyyətlə inkişaf etdirir. Bu sadəcə, ötən ilin bir neçə əlamətdar hadisəsidir. Kosmos sahəsində çoxlu işlər görülür və bundan sonra bu sahə daha da məşğul olacaq. Bu maraqlı həftə ərzində öyrənəcəyiniz kimi, bu sahə çox sürətlə irəli gedir.

74-cü Beynəlxalq Astronavtika Konqresində iştirak etdiyiniz üçün Federasiya adından sizə təşəkkürümü bildirirəm. Hərəkətə keçin, işinizi paylaşın, əlaqələr yaradın, həm də əylənin. Ümid edirəm ki, yerli mədəniyyətlə və Xəzər dənizinin gözəl sahilində yerləşən Bakı şəhəri ilə tanış olmaq imkanınız olacaq. İndi Çinin Kosmik Stansiyası «Tyanqonq»dan bu xüsusi videonu sizinlə paylaşmaq istəyirəm. Buna görə Çinin Milli Kosmik Administrasiyasına, Çinin Astronavtlar Cəmiyyətinə və CMSE təşkilatına dərin təşəkkürümü bildirirəm.

* * *

*Sonra Çinin Milli Kosmik Stansiyasının astronavtlarının videomüraciəti oldu.*

**Astronavtlar** (*Çin*): 74-cü Beynəlxalq Astronavtika Konqresinin iştirakçıları, biz sizi Çinin Kosmik Stansiyasından salamlayırıq. Mən Çin astronavtı Cinq Haipenqəm. Mən Çin astronavtı Ju Yanqjuyam. Mən də Çin astronavtı Qui Haiçaoyam. Biz hazırda «Şencou» kosmik gəmisinin 16-cı uçuş missiyasını həyata keçiririk. Ötən 2 il ərzində Çinin Kosmik Stansiyası orbitdaxili konstruksiya işlərini tamamlayıb və yeni utilizasiya və inkişaf mərhələsinə qədəm qoyub.

Azərbaycanın paytaxtı Bakı şəhərində Beynəlxalq Astronavtika Konqresinin uğurla təşkil edilməsi münasibətilə heyət adından təbriklərimizi çatdırıram. Ötən 70 il ərzində Beynəlxalq Astronavtika Konqresi dünya miqyaslı mötəbər kosmik mütəxəssisləri davamlı olaraq bir araya gətirib və burada əsas məqsəd qlobal kosmik sənayedə əlaqələri gücləndirmək, bütün bəşəriyyət naminə qətiyyətli ismarıc olan birlik, sülh və əməkdaşlığı çatdırmaqdır. Beynəlxalq Astronavtika Federasiyasının kosmik tədqiqata sadiq və bir olan icma daxilində dostluq üçün körpülərin aşılması kimi irsi var. Bu il sonuncu dəfə yarım əsr bundan əvvəl – 1973-cü ildə keçirildikdən bəri Beynəlxalq Astronavtika Konqresi Bakıya qayıdır. 24-cü Beynəlxalq Astronavtika Konqresi Azərbaycanın hazırkı Prezidenti İlham Əliyevin atası Heydər Əliyevin rəhbərliyi dövründə Bakıda müvəffəqiyyətlə keçirilmişdi. Bu tarixi şəkildə gənc İlham Əliyev atasını konqresdə müşayiət edir və onun kosmik tədqiqat sahəsində tanınmış mütəxəssislərlə fotosu çəkilir. Azərbaycan Prezidenti İlham Əliyev 74-cü Beynəlxalq Astronavtika Konqresinin yenidən Bakıda keçirilməsi üçün mühüm dəstək göstərib.

Şəkildə də təsvir olunduğu kimi, insanların kosmik missiyanı irəli aparması ardıcıl nəsillər tərəfindən davamlı dəstək tələb edir. Bəşəriyyətin sülhü sarsılmaz təqib etmək istəyi dəyişməz qalmaqla, yarım əsrin bir anda keçməsi ilə qlobal kosmik sənayedə sürətli transformasiyalar baş verib. Biz səmimi-qəlbdən ümid edirik ki, iştirakçı heyətlər bir

həftə boyunca davam edən tədbirdə təcrübə və informasiya mübadiləsi aparacaq, tərəfləri əməkdaşlığa sövq edəcək və qlobal kosmik sənayenin genişlənməsinə şərait yaradacaqlar.

Gəlin kainatı kəşf etmək və qlobal kosmik sənayenin çiçəklənməsini və tərəqqisini təşviq etmək üçün birlikdə işləyək. Gəlin kosmosla bağlı bəşəriyyətin gələcəyinə dair ortaq baxışın, eyni zamanda, yerdə də insanlıq üçün gözəl vətənin yaradılması ideyasının irəlilədilməsi naminə səylərimizi birləşdirək. Əziz dostlar, sizə uğurlar arzulayıram.

**Klay Mouri:** Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə kiçik bir sürprizimiz var. Onun və atasının hələ də kosmosda olan şəkli Çinin «Tyanqonq» kosmik stansiyasından nümayiş olundu. Bununla belə, NASA-nın böyük dəstəyi sayəsində Beynəlxalq Kosmik Stansiyaya göndərilmiş və Yerə qaytarılmış ikinci bir şəkil də var. Dörd digər atributla birlikdə olan bu hədiyyəni cənab Prezidentə təqdim edəcəyik. Hazırda gördüyünüz həmin dörd atributun təsviridir. Zati-aliləri cənab İlham Əliyevi səhnəyə dəvət etmək istəyirik.

*Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Klay Mouri 1973-cü ildə Bakıda keçirilmiş 24-cü Beynəlxalq Astronavtika Konqresində ulu öndər Heydər Əliyevin və oğlu İlham Əliyevin astronavtlarla çəkdirdiyi, kosmosda nümayiş edildikdən sonra geri gətirilmiş fotoşəkil və digər atributlardan ibarət xatirə hədiyyəsini Azərbaycan Prezidentinə təqdim etdi.*

– Qonaqpərvərliyə görə zati-alinizə bir daha təşəkkür edirəm. İndi isə NASA tərəfindən göndərilmiş qısa videoçarxı böyük məmnuniyyətlə sizə təqdim etmək istəyirəm.

**Astronavtlar** (*ABŞ*): Sizi Beynəlxalq Kosmik Stansiyadan salamlayırıq. Mən NASA astronavtı Casmin Moqbeliyəm, bu da həmkarım NASA astronavtı Loral Oharadır və 7 nəfər ekipaj üzvləridir. Orbitdəki bu möhtəşəm laboratoriyada missiyamızın erkən mərhələsindəyik və biz Yer üzərindən 260 mil məsafədə uçuruq. Kosmik stansiya bəşəriyyətin vacib tədqiqat mərkəzidir, mən və ekipaj üzvlərim bütün bəşəriyyətin faydası üçün dünya səviyyəli tədqiqatla məşğuluq. Beynəlxalq Kosmik Stansiya növbəti iki ay ərzində iki əlamətdar hadisəni qeyd edəcək. Noyabrın 2-də biz insanın fəzada daimi mövcudluğunun 23-cü ildönümünü qeyd edəcəyik. Dekabrın 6-da isə kosmik stansiyanın tərəfdaşları bu gün nəhəng kompleksin ilk iki elementi olan «Zarya» və «Unity» modullarının birləşməsinin 25-ci ildönümünü qeyd edəcəklər. Ekipajımız hər gün Yer kürəsində həyatı yaxşılaşdırmaq üçün birlikdə işləyən Beynəlxalq Kosmik Stansiyanı fərqləndirən xüsusiyyət olan qlobal tərəfdaşlığı təcəssüm etdirir. Bakıda bu tədbirdə iştirak edən hər birinizə məhsuldar konfrans keçirilməsini arzulayırıq. Bu gecə səmaya baxanda biz sizə əl edəcəyik.

*Dövlətimizin başçısı konqresin açılışı mərasimində çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Beynəlxalq Astronavtika Federasiyasının hörmətli prezidenti!

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Azərbaycana, Bakıya xoş gəlmisiniz! 50 ildən sonra konqres yenidən burada keçirilir. İlk olaraq, konqresin Azərbaycanda təşkil edilməsi şərəfinə layiq görüldüyümüz üçün Beynəlxalq Astronavtika Federasiyasına dərin minnətdarlığımı bildirmək istəyirəm. Mütəmadi dəstəyə görə Beynəlxalq Astronavtika Akademiyasına və Kosmos Hüququ üzrə Beynəlxalq İnstitutuna təşəkkür edirəm.

Belə bir mühüm qlobal tədbirə ev sahibliyi etmək bizim üçün şərəfdir. Bu gün burada 100-dən artıq ölkəni təmsil edən 5000-dən çox iştirakçı vardır. Əminəm ki, qonaqlarımızın konqresdəki işlərindən əlavə, Azərbaycanı, onun xalqını, tarixini və mədəniyyətini daha yaxından tanımaq imkanı olacaqdır. Azərbaycan 10 ildən artıq müddətdir ki, beynəlxalq kosmik ailənin üzvüdür. Bu gün 2-si telekommunikasiya, 1-i isə Yer səthinin müşahidəsi peykinə malik olaraq, biz Azərbaycanda kosmik sənayenin inkişafını davam etdiririk. Onu da bildirim ki, bu 3 peyk azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur və onlar təkcə Azərbaycana deyil, 45-dən artıq ölkəyə xidmət göstərirlər.

Bakıda keçirilən bu konqres ölkəmizin kosmik sənaye, müasir texnologiya və innovasiya sektorlarının inkişafına və onun müasirləşdirilməsinə müt-

ləq yeni təkan verəcəkdir. Müasirləşdirilmə sözü bizim gələcəklə bağlı baxışımızı, gündəliyimizi və planlarımızı səciyyələndirir.

Müstəqillik dövründə Azərbaycan beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrilib. Bizim siyasətimiz hər zaman aydın, şəffaf, birmənalı olub və dostlar qazanılmasına, əməkdaşlığın gücləndirilməsinə yönəldirib. Beynəlxalq ictimaiyyətin fəal üzvü kimi, Azərbaycan çoxsaylı siyasi, iqtisadi və regional inkişaf layihələrində iştirak edir. Dördüncü ildir ki, biz BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisata – «Qoşulmama Hərəkatı»na sədrlik edirik və belə bir təşkilata sədrlik etmək şərəfinə biz 120 dövlətin yekdil qərarı ilə layiq görülmüşük. Bu həqiqətən də Azərbaycanın geniş beynəlxalq dəstəyə malik olmasının göstəricisidir.

Bununla yanaşı, bizim Avropa institutları ilə də əməkdaşlığımız uğurla inkişaf edir. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalayıb. Bu bizim xarici siyasət gündəliyimizi nümayiş etdirir. Bu, tam açıq gündəlikdir və qeyd etdiyim kimi, əməkdaşlığa və daha geniş regional iştirak və inklüzivliyə yönəlib.

Azərbaycan iki mühüm beynəlxalq təsisatın – İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvüdür. Biz eyni vaxtda hər iki təşkilata üzv olan azsaylı ölkələrdənik və bu iki təşkilatın 100-dən artıq üzvü vardır. Bu, yalnız bizim coğrafiyamız və mədəniyyətimizin deyil, həm də siyasi niyyətlərimizin göstəricisidir. Çünki Azərbaycanın Avropa ilə Asiya arasında yerləşməsi və iki qitəni birləşdirən,

təbii olaraq mədəni, nəqliyyat və hazırda iqtisadi körpü rolunu oynaması bizə regionumuzda geniş beynəlxalq əməkdaşlıq qurmaq imkanı verir.

Hesab edirəm ki, dünyanın hər bir ölkəsi üçün coğrafi yerləşmə böyük əhəmiyyət kəsb edir. Bizim üçün isə coğrafiya fürsət deməkdir. Əsrlərboyu birgə yaşayış və tərəfdaşlıq tarixinə malik qonşularımız ilə yaxşı münasibətlər sayəsində biz coğrafi yerləşməmizi müsbət ssenariyə çevirə bilmişik. Bu gün biz üfüqlərimizi genişləndiririk. Bu mühüm beynəlxalq tədbirin keçirilməsinin bizə həvalə olunmasını ölkəmizə olan etimadın və fəaliyyətimizə dəstəyin göstəricisi hesab edirik.

Əlbəttə, qitələrarası körpü olmağımız cəmiyyətimizin inkişafında mühüm rol oynamışdır. Azərbaycan əsrlərboyu çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyətə malik olub. 30 ildən artıq müstəqillik dövründə biz həyat tərzimizin bu faktorunu gücləndirmişik. Biz bunu sabitliyin, proqnozlaşdırmanın və Azərbaycanda yaşayan bütün etnik qrupların, bütün dini konfessiyaların dinc birgə yaşayışı üçün əhəmiyyətli faktor hesab edirik. Biz həqiqətən də bir ailə kimi yaşayırıq. Bir sıra beynəlxalq təşkilatlar bunu qeyd edib və bu onların qərarlarında öz əksini tapıb. BMT Azərbaycanın multikulturalizmin təşviqi sahəsindəki səylərini tam dəstəkləyir. Yeri gəlmişkən, ölkəmizin təşəbbüsü ilə mütəmadi olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu müxtəlif sivilizasiyaların nümayəndələri arasında təmasların daha nəticə yönümlü olması üçün unikal platformadır.

Azərbaycan 10 ildən çoxdur ki, «Bakı prosesi»nin təşəbbüskarıdır. Tarixdə ilk dəfə idi ki, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı vahid platforma çərçivəsində bir araya gətirildi və burada qlobal siyasət, mədəniyyətlərarası dialoq və dinc inkişafa dair vacib məsələlər müzakirə edildi.

Azərbaycan, həmçinin dünyada ilk dəfə – XIX əsrin ortalarında neftin hasil edildiyi ölkə kimi tanınır. O zaman dünyada neft hasilatının yarısı Azərbaycanın payına düşürdü. Bir çoxları bəlkə də bunu bilmir, ancaq XX əsrin ortalarında dünyada ilk dəfə dənizdə neft məhz Azərbaycanda – Xəzər dənizində azərbaycanlı neftçilər tərəfindən hasil edilib.

Bu gün müstəqil ölkə olaraq, bizim təbii sərvətlərimiz xalqımızın mənafeyinə xidmət edir. Müstəqillik illərinin sürətli transformasiyası bizim təbii sərvətlərimizin düzgün istifadəsinin təzahürüdür. Neftlə zəngin olan bəzi ölkələr üçün neft lənət deməkdir. Bizim üçün isə bu, inkişaf etmək, müstəqilliyimizi gücləndirmək, milli kimliyimizi qorumaq və güclü iqtisadiyyat qurmaq üçün vasitə idi.

Bu gün enerji və nəqliyyat marşrutlarının, o cümlədən boru kəmərlərinin xəritəsinə nəzər salsanız, orada Azərbaycanın dəst-xəttini görərsiniz. Bizim təşəbbüskarı olduğumuz, qonşularımız və tərəfdaşlarımızla uğurla həyata keçirdiyimiz layihələr təkcə bizim regionun enerji təhlükəsizliyinə töhfə vermir. Bu gün hər kəsə məlumdur ki, enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin tərkib hissəsidir. Bu gün Azərbaycan beynəlxalq bazarlarda enerji ehtiyatlarının etibarlı təchizatçısıdır və Avro-

pa İttifaqı tərəfindən etibarlı pan-Avropa təchizatçısı hesab edilir. Lakin tərəfdaşlarımız arasında müxtəlif qitələrdə yerləşən onlarla ölkə var və bütün səylər beynəlxalq əməkdaşlığa, proqnozlaşdırmaya və eyni zamanda, ölkəmizin uğurlu iqtisadi inkişafına xidmət edir.

3 il əvvəl biz təxminən 30 il ərzində pozulmuş ərazi bütövlüyümüzü bərpa etdik. Biz təcavüzdən, işğaldan və etnik təmizləmədən əziyyət çəkdik. Bu, millətimiz üçün böyük faciə, böyük humanitar fəlakət idi. Ötən əsrin 90-cı illərinin əvvəllərində torpaqlarımız işğal olunanda 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. O vaxt əhalimizin sayı 8 milyon idi. Bu rəqəm hər hansı ölkə ilə müqayisədə, bəlkə də adambaşına olan ən yüksək qaçqın sayı idi. Həmin vaxt biz çox yoxsul idik. Biz öz təbii sərvətlərimizin istismarına hələ başlamamışdıq. Açıq dənizə çıxışı olmayan ölkəmizdə hərc-mərclik hökm sürürdü və gələcək üçün perspektivlər o qədər də aydın görünmürdü.

Lakin xalqımız güclü siyasi iradəsini nümayiş etdirdi. Biz uzun illər münaqişənin sülh yolu ilə həllini tapmağa və işğala dinc yolla son qoymağa çalışdıq. 28 il ərzində biz danışıqlar prosesinə qəti surətdə sadiq qaldıq, lakin əfsuslar ki, biz anladıq: bunu sülh yolu ilə etmək mümkünsüzdür. Biz özünümüdafiə hüququmuzdan istifadə etdik. Biz BMT Nizamnaməsinin hər bir ölkəyə verdiyi hüquqdan, özünümüdafiə hüququndan istifadə etdik və 3 il əvvəl öz ərazilərimizi azad edərək, işğala son qoyduq.

Təxminən 1 ay əvvəl biz ölkəmizin suverenliyini tam bərpa etdik.

Əfsuslar olsun ki, işğala son qoymaq öhdəliyini üzərinə götürmüş beynəlxalq təşkilatlar hər hansı nəticəyə nail olmadı. BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etdi. Lakin həmin qətnamələr 27 il icra olunmadı. Biz həmin qətnamələri insanlarımızın həyatını qurban verərək özümüz icra etdik. ATƏT kimi beynəlxalq təşkilatların da danışıqlarda vasitəçilik etmək mandatı var idi, lakin nəticə sıfır oldu və Azərbaycan cəmiyyətində tam məyusluq, narazılıq yaratdı. Ərazi bütövlüyünün və suverenliyin bərpasında əldə etdiyimiz təcrübə müəyyən formada unikal oldu. Zorakılıqla üzləşdiyimiz münaqişəyə son qoyduq. Biz ləyaqətimizi qoruduq. Biz ədaləti və beynəlxalq hüququ bərpa etdik. İndi isə Qafqazda sülh üçün vaxt yetişib. Bu bizim gündəliyimizdir – Qafqazda, regionda sülhün, əməkdaşlığın qurulması və hamı üçün faydanın gətirilməsi.

Bu gün biz göstəririk ki, həqiqətən müstəqil ölkə olmaq üçün güclü iqtisadiyyat lazımdır. Biz aydın şəkildə anlayırıq ki, bütün əsas səylərimiz özünü təmin edən iqtisadiyyatın qurulmasına yönəlməlidir ki, biz hər hansı qlobal güc mərkəzindən və ya hər hansı maliyyə təsisatından asılı vəziyyətə düşməyək. Biz buna nail olmuşuq.

Nəzərə alsaq ki, qonaqlarımızın əksər hissəsi Azərbaycana ilk dəfədir səfər edir, mən sizə bəzi rəqəmlərlə bağlı məlumat vermək istərdim. Hesab

edirəm ki, həmin rəqəmlər Azərbaycanda son zamanlarda əldə olunmuş nailiyyətləri aydın şəkildə nümayiş etdirir. Beləliklə, son 20 il ərzində ümumi daxili məhsul 4 dəfə artıb, büdcə gəlirlərimiz 30 dəfədən çox artıb, xarici ticarət dövriyyəsi 10 dəfədən çox artıb. Biz birbaşa xarici borcun həcmini azalda bildik və hazırda o, ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. 2024-cü ilin sonuna qədər, planlarımıza uyğun olaraq, onun həcmi ümumi daxili məhsulun təxminən 7-7,5 faizini təşkil edəcək. Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcumuzu 10 dəfə üstələyir. Başqa sözlə, əgər lazım gələrsə, biz bütün borclarımızı bir neçə ay ərzində ödəyə bilərik. Biz çox müsbət sərmayə mühitini nəinki enerji, o cümlədən digər sektorlarda yaratmışıq. Beləliklə, son 20 il ərzindəki sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılmışdır.

Müstəqilliyimizin əvvəlində üzləşdiyimiz böyük çağırışlardan biri məlum olan yoxsulluq idi. 20 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 50 faizə yaxın idi. Hazırda isə yoxsulluq 5,5 faiz təşkil edir və bu onu göstərir ki, hasil etdiyimiz və beynəlxalq bazarlara çıxardığımız təbii sərvətlər lazımi qaydada idarə olunub. Milli sərvətlərin bərabər paylanması bu gün beynəlxalq ekspertlər və ən vacibi isə Azərbaycan xalqı tərəfindən qeyd olunur. Bir sözlə, bütün bunlar əslində göstərir ki, ölkə çox dayanıqlı vəziyyətdədir. Siyasi, iqtisadi və sosial sabitlik inkişafımızın mühüm meyarıdır, çünki

aydındır ki, əgər vəziyyət sabit və proqnozlaşdırılan olmasa, investorların gələrək öz kapitalını risk altına atmasını gözləmək olmaz.

Ümid edirəm ki, qonaqlarımızın söylədiklərimi öz gözləri ilə görmək, insanlarla tanış olmaq və Azərbaycanı daha yaxşı tanımaq imkanı olacaq. Bəli, bizim qədim tariximiz var və o, videoçarxda göstərildi. Bizim qədim mədəniyyətimiz var. Lakin müstəqil ölkə kimi, biz hələ çox gəncik, cəmi 32 yaşımız var.

Yekunda bir daha söyləmək istərdim ki, biz konqresə ikinci dəfə ev sahibliyi etməkdən olduqca fərəhlənirik, çünki qeyd edildiyi və göstərildiyi kimi, o, artıq bir dəfə 1973-cü ildə təşkil olunmuşdu. 24-cü Konqres Bakıda keçirilmişdi. Mən bütün qonaqlarımıza və xüsusən də mənə əziz olan fotonu kosmosa çıxaran cəsur Çin astronavtlarına çox minnətdaram. Bu sanki onu göstərir ki, mən özüm də oradayam. Mən sizin icmanızın bir hissəsiyəm.

Əlbəttə, belə bir mühüm tədbirə ikinci dəfə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir və mən həmin qərarın qəbul olunmasında iştirak edən bütün şəxslərə bir daha təşəkkürümü bildirirəm. Beləliklə, konqres ikinci dəfə Bakıda, eyni şəhərdə keçirilir. Lakin ölkə eyni deyil. Bu gün həmin qlobal tədbirin ev sahibi müstəqil Azərbaycandır. Bizimlə olduğunuza görə bir daha sizə təşəkkür edirəm və konqresə uğurlar arzulayıram.

* * *

*Sonra bir sıra nominasiyalar üzrə qaliblərə mükafatlar təqdim olundu.*

*ABŞ-ın Milli Aeronavtika və Kosmos Administrasiyasının (NASA) elm üzrə sabiq köməkçisi Tomas Zurbuhen Azərbaycanın 50 il əvvəl bu mötəbər tədbirə ev sahibliyi etdiyinə diqqət çəkdi. O, İsveçrə dağlarında böyüdüyünü və kosmosa dair baxdığı ilk televiziya şousunun Amerika kapsulu ilə sovet kapsulunun birləşməsi ilə bağlı olduğunu bildirdi. O planın 50 il əvvəl məhz burada – Bakıda işlənib hazırlandığını vurğuladı.*

*Tədbirə xüsusi qonaq qismində dəvət olunmuş israilli yazıçı, tarixçi, Qüds İvrit Universitetinin professoru Yuval Noah Harari insanlar tərəfindən yaradılmış süni intellektin inkişafının hələ çox erkən mərhələsində olduğunu vurğulayaraq qeyd etdi ki, on min illər ərzində bizim kimi insanlar Yer planetində dominantlıq ediblər: «Əgər biz 50 il geriyə qayıdıb burada – Bakıda keçirilən 24-cü Beynəlxalq Astronavtika Konqresində iştirak edə bilsəydik və ya daha 700 il geriyə qayıdıb Nəsrəddin Tusinin yaxınlıqda tikdirdiyi rəsədxanaya gedə bilsəydik, orada bütün mühüm aspektlərdən bizimlə eyni olan insanlarla rastlaşardıq. Lakin tezliklə bu planetdə insanların dominantlığı erası başa çata bilər».*

*Açılış mərasimi konsert proqramı ilə davam etdi.*

*2022-ci il mayın 28-də Bakıda ilk dəfə keçirilmiş «TEKNOFEST Azərbaycan» Aerokosmik və Texnologiya Festivalında Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla*

*birgə «Akıncı» pilotsuz uçuş aparatının üzərinə imza atmışdılar.*

*74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində Səlçuk Bayraktar həmin pilotsuz uçuş aparatının kiçikölçülü maketini dövlətimizin başçısına hədiyyə etdi.*

## ASTRONAVTİKA KONQRESİ ÇƏRÇİVƏSİNDƏ TƏŞKİL EDİLMİŞ SƏRGİYƏ BAXIŞ

*2 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və oğlu Heydər Əliyev oktyabrın 2-də Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində təşkil edilmiş sərgidə iştirak etmişlər.*

*Sərginin rəmzi açılışını bildirən lentin kəsilməsindən sonra iştirakçı şirkətlərin stendləri ilə tanışlıq oldu.*

*Məlumat verildi ki, 8 min kvadratmetr sahədə yaradılmış sərginin pavilyonunda 36 ölkədən 150 şirkətin stendləri iştirakçılara təqdim edilir.*

*Dövlətimizin başçısı və xanımı Türk Kosmik Agentliyinin, Səudiyyə Ərəbistanının Kosmik Agentliyinin, ABŞ-ın Milli Aeronavtika və Kosmos Administrasiyasının (NASA), Hindistanın Kosmik Tədqiqatlar Təşkilatının, «Israel Aerospace Industries» şirkətinin, İtaliyanın Aeronavtika və Astronavtika Assosiasiyasının, Çinin Astronavtika Cəmiyyətinin və digər şirkətlərin stendlərinə baxdılar.*

*74-cü Beynəlxalq Astronavtika Konqresi kosmik sahədən olan 22 şirkətin əldə etdiyi sponsorluq paketinin sayına görə rekord həddə çatıb. Belə ki, Bakı Konqresi beynəlxalq sponsorluq paketinin satışı üzrə*

*Avstraliya, Almaniya, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri və Fransada keçirilmiş konqresləri geridə qoyub. Konqresin ümumilikdə 30-dan çox sponsoru vardır.*

*Konqresin «premium», «platinium», «qızıl», «gümüş» və «bürünc» sponsorluq paketlərini əldə edən şirkətlər sırasında ABŞ-ın «SpaceX», «Axiom Space», «Blue Origin», «Boeing», «Lockheed Martin», «BlackSky» «Vast», «Northrop Grumman» şirkətləri, Çinin Astronavtika Cəmiyyəti, Türkiyənin Kosmik Agentliyi, «Plan S» texnologiya şirkəti, Səudiyyə Ərəbistanının Kosmik Agentliyi, «Israel Aerospace Industries» şirkəti, Birləşmiş Ərəb Əmirliklərinin Məhəmməd bin Rəşid Kosmik Mərkəzi, Hindistan Kosmik Tədqiqatlar Təşkilatı, Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyi, «iSpace», «JGC Holdings Corporation», «Astroscale» şirkətləri, «Airbus» şirkətinin Almaniyadakı ofisi, Beynəlxalq Kosmik Rabitə Təşkilatı «İntersputnik», Portuqaliyanın «Neuraspace», Bolqarıstanın «EnduraSat», Avstriyanın «Asgardia Space», İtaliyanın Aeronavtika və Astronavtika Assosiasiyası, Böyük Britaniyanın Kosmik Agentliyi, «Amazon» şirkətinin «Kuiper» layihəsi, «Jet Propulsion Laboratory», «Voyager Space» şirkətləri yer alır.*

*Xatırladaq ki, Beynəlxalq Astronavtika Federasiyası İkinci dünya müharibəsindən sonra «soyuq müharibə» dövründə kosmos sahəsində elm adamlarının arasında dialoqun yenidən qurulması məqsədilə 1951-ci ildə yaradılıb. Federasiya sülh məqsədləri ilə kosmik tədqiqat və fəaliyyətin təşviq edilməsi, cəmiy-*

*yətin bu sahədə maariflənməsi və biliklərinin zənginləşdirilməsi məqsədilə üzv qurumlar arasında qlobal şəbəkə yaradır. Hər il federasiya konfrans, texniki sessiyalar, quruma üzv ölkələrin nazirləri və parlament üzvlərinin beynəlxalq iclası kimi beynəlxalq tədbirlər təşkil edir. Hazırda federasiyanın 110 ölkədən 460-dan çox üzvü vardır. Azərbaycan 2003-cü ildən federasiyanın üzvüdür.*

## ANQLİKAN KİLSƏSİNİN DİNİ RƏHBƏRİ, KENTERBERİ ARXİYEPİSKOPU CASTİN VELBİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Anqlikan kilsəsinin dini rəhbəri, Kenterberi arxiyepiskopu Castin Velbini qəbul etmişdir.*

*Qonağı salamlayan dövlətimizin başçısı onun səfərinin əhəmiyyətinə toxundu.*

*Anqlikan kilsəsinin dini rəhbəri Kenterberi arxiyepiskopu Castin Velbi ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Qonaq Azərbaycanın multikulturalizm və konfessiyalararası dialoqda rolunu qeyd etdi, Vatikanla Azərbaycan arasındakı əlaqələrə toxundu, Vatikanda katakombaların bərpası işinə ölkəmizin töhfəsini yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı müstəqilliyimizin ilk illərində ölkəmizin üzləşdiyi çətinliklərə toxunaraq, həmin dövrdə ərazimizin 20 faizinin işğal edilməsi, 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrilməsi, iqtisadi-siyasi böhranın hökm sürməsi, iqtisadi sahədə tənəzzülün və daxili qeyri-sabitliyin yaşanmasından danışdı.*

*Azərbaycanın sülh müqaviləsi ilə bağlı təşəbbüslə çıxış etdiyini bir daha vurğulayan Prezident İlham Əliyev sülh gündəliyinin irəli aparılması üçün regionda tarixi imkanların və fürsətlərin yarandığını bildirdi, hazırda ölkəmizin bu istiqamətdə göstərdiyi səylərə toxundu.*

*Azərbaycan Prezidenti antiterror tədbirləri dayandırıldıqdan sonra mərkəzi hökumət tərəfindən Qarabağ bölgəsində yaşayan erməni əhalisinə genişmiqyaslı humanitar yardımlar edildiyini vurğuladı, miqrasiya, sosial müdafiə və səhiyyə sahələri ilə bağlı əhaliyə yerində xidmətlər göstərildiyini diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qarabağın erməni sakinlərinin hüquqlarının və təhlükəsizliyinin təmin olunması ilə bağlı geniş ictimaiyyətə, həmçinin ermənilərə ünvanlanmış bəyanat verdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Qranadada keçiriləcək qarşıdan gələn görüşün regionda sülh gündəliyinin inkişafına təkan verəcəyinə ümidvarlığını ifadə etdi.*

*Qonaq postmünaqişə şəraitində etimad quruculuğu və etnik barışığın vacib olduğunu deyərək, bununla bağlı öz təcrübəsini bölüşməyə hazır olduğunu bildirdi.*

*Söhbət zamanı etnik barışığın və vətəndaş cəmiyyəti təşkilatlarının rolu qeyd edildi.*

**MALDİV RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD MUİZZUYA**

Hörmətli cənab Muizzu!

Maldiv Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, birgə səylərimizlə Azərbaycan–Maldiv dostluq əlaqələri daha da inkişaf edəcək, çoxtərəfli təsisatlarda əməkdaşlığımız bundan sonra da davam edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınızın rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 oktyabr 2023-cü il*

## UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİ İLƏ TELEFONLA GÖRÜŞ

*4 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə oktyabrın 4-də Ukrayna Prezidenti Volodimir Zelenski telefonla zəng etmişdir.*

*Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi əhəmiyyətli humanitar yardıma, xüsusilə qış şəraitində enerji sektoruna verilən dəstəyə görə təşəkkürünü bildirdi.*

*Telefon söhbəti əsnasında dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə bir daha dəstək ifadə olundu, regional təhlükəsizlik, mövcud təhdidlər və gələcək əməkdaşlıq formatlarına dair fikir mübadiləsi aparıldı.*

# ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ OLAF ŞOLTS İLƏ TELEFONLA GÖRÜŞ

*4 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə oktyabrın 4-də Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts telefonla zəng etmişdir.*

*Söhbət əsnasında regional məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

*Olaf Şolts region ölkələrinin ərazi bütövlüyünə və suverenliyinə Almaniyanın dəstəyini ifadə etdi. O vurğuladı ki, ölkəsi Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin rəhbərliyi ilə aparılan Brüssel prosesini dəstəkləyir. Almaniya Kansleri BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici missiyasının Azərbaycanın Xankəndi şəhərinə səfərinin müsbət bir addım olduğunu deyərək, bunu yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı Azərbaycanın regional sülh gündəliyinə sadiqliyini və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə aparılan Brüssel prosesini yaxından dəstəklədiyini vurğuladı.*

*Prezident İlham Əliyev mərkəzi hökumət tərəfindən Qarabağın erməni sakinlərinə göstərilən humanitar yardımları qeyd etdi, miqrasiya, sosial müdafiə sahələri ilə bağlı yerində erməni sakinlərə xidmətlə-*

*rin göstərildiyini diqqətə çatdırdı, müvafiq qeydiyyat proseslərinin başlandığını və bunun üçün də ayrıca portalın müəyyən edildiyini bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanın bu sahədə təmin etdiyi şəffaflığın nümayişi olaraq, BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici ofisinin və BMT-nin ixtisaslaşmış təsisatlarının nümayəndələrindən ibarət qrupun əraziyə səfər etdiklərini bildirdi, onların da mülki əhaliyə və mülki-ictimai infrastruktura heç bir ziyanın qeydə alınmadığı ilə bağlı müvafiq bəyanatla çıxış etdiklərini diqqətə çatdırdı.*

## İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ÖMƏR BƏRƏKƏT ƏL-NAHAR İLƏ GÖRÜŞ

*5 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharın etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməsini təqdim etdikdən sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir ilk növbədə, İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş etdi.*

*Azərbaycan ilə İordaniyanın dost və qardaş, zəngin tarixə malik ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu bildirdi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində hər zaman bir-birini dəstəklədiyini məmnunluqla qeyd etdi.*

*Siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev gələcəkdə*

*iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı.*

*Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Ömər Bərəkət əl-Nahar paytaxtımızda gedən böyük inkişaf proseslərinin və insanların firavanlığının onda dərin təəssürat hissi yaratdığını söylədi.*

*Prezident İlham Əliyev Azərbaycan haqqında söylədiyi xoş sözlərə görə səfirə minnətdarlığını bildirdi və ona fəaliyyətində uğurlar arzuladı.*

*Görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İSSAM BİN SALEH ƏL-CUTEYLİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteylinin etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməsini təqdim etdikdən sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.*

*Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında qardaşlıq əlaqələrinin və ölkə rəhbərləri arasında dostluq münasibətlərinin olduğunu qeyd edən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərlərini məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı bütün dövrlərdə – həm işğal zamanı, həm də torpaqlarımızın işğaldan azad olunmasından sonrakı dövrdə Azərbaycanın ərazi bütövlüyünün qorunması və bərpası məsələlərində Səudiyyə Ərəbistanı Krallığının birmənalı şəkildə göstərdiyi mənəvi və siyasi dəstəyi bir daha yüksək qiymətləndirdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələri-*

*mizin bir-birinə qarşılıqlı dəstəyinin ənənəvi xarakter aldığını məmnunluqla qeyd etdi.*

*İqtisadi əməkdaşlığa toxunan dövlətimizin başçısı enerji sahəsində yaxşı nümunələrin olduğunu bildirərək, Səudiyyə Ərəbistanı şirkətinin Azərbaycanda bu sahəyə böyük sərmayə qoymasının önəmini vurğuladı. Dövlətimizin başçısı bütün digər sahələrdə də əlaqələrimizin yüksək səviyyədə olduğunu söylədi.*

*Səfir İssam bin Saleh əl-Cuteyli ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Kral Salman bin Əbdüləziz Al Səudun və vəliəhd, Baş Nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İki Müqəddəs Ocağın Xadiminə və vəliəhdə çatdırmağı xahiş etdi.*

*Ölkəmizə səfir təyin olunmasından böyük şərəf hissi duyduğunu deyən İssam bin Saleh əl-Cuteyli Azərbaycanın Səudiyyə Ərəbistanı üçün dost və qardaş ölkə olduğunu vurğulayaraq, müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı konkret təlimatlar aldığını bildirdi.*

## SERBİYA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDRİ VLADİMİR ORLİÇ İLƏ GÖRÜŞ

*6 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Serbiya Respublikası Milli Assambleyasının Sədri Vladimir Orliçi qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq əlaqələrinin zəngin tarixə malik olduğunu deyərək, bunun qarşılıqlı dəstəyə əsaslanan münasibətlərimizin inkişafı üçün yaxşı zəmin yaratdığını bildirdi, Serbiyaya səfərini məmnunluqla xatırlatdı.*

*İqtisadi sahədə əlaqələrə toxunan Prezident İlham Əliyev investisiya, enerji, sənaye sahələri ilə bağlı fəal əməkdaşlığın həyata keçirildiyini vurğuladı.*

*Dövlətimizin başçısı münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin də önəmini qeyd etdi.*

*Azərbaycan Prezidenti Vladimir Orliçin səfərinin dinamik şəkildə inkişaf edən əməkdaşlığımızın genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.*

*Qonaq ilk növbədə, Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdar-*

*lığını bildirdi, onun da salamlarını Serbiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

*Serbiya Milli Assambleyasının Sədri ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq əlaqələrinin mövcud olduğunu diqqətə çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Serbiyanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində haqlı mövqelərini dəstəklədikləri qeyd edildi, münasibətlərimizin strateji tərəfdaşlıq prinsiplərinə, qarşılıqlı anlaşma və qarşılıqlı hörmətə əsaslandığı bildirildi, parlamentlərarası əlaqələrin və parlamentlərarası beynəlxalq təşkilatlarda əməkdaşlığımızın vacibliyi vurğulandı.*

## ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ AVROPA ÜZRƏ REGİONAL DİREKTORU HANS HENRİ KLÜGE İLƏ GÖRÜŞ

*6 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Hans Henri Klügeni qəbul etmişdir.*

*Hans Henri Klüge Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tedros Adhanom Qebreyesusa çatdırmağı xahiş etdi.*

*Qonaq qlobal səhiyyə liderliyi sahəsində Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin «Qoşulmama Hərəkatı»nın sədri kimi həyata keçirdiyi fəaliyyətinin çox yüksək qiymətləndirildiyini qeyd etdi. O, Hərəkatın sədri kimi, Prezident İlham Əliyevin təşəbbüsü ilə «Qoşulmama Hərəkatı»nın Təmas Qrupunun 2020-ci ilin mayında koronavirusla mübarizəyə həsr olunmuş «COVID-19-a qarşı birlikdəyik» mövzusunda onlayn Zirvə görüşünün keçirilməsinə, Azərbaycanın vaksinlərin ədalətli, bərabər bölgüsünə dair qətnamənin təşəbbüskarı olmasına və həyata keçirdiyi fəaliyyətə görə minnətdarlığını bildirdi. Hans Henri Klü-*

*ge Azərbaycanın pandemiya dövründə 80-dən artıq ölkəyə dəstək göstərdiyini qeyd etdi, ölkəmizin «Qoşulmama Hərəkatı» çərçivəsində yaratdığı COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sisteminin çox səmərəli olduğunu və Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə böyük töhfə verdiyini söylədi.*

*Söhbət zamanı Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı. Hans Henri Klüge BMT-nin rezident əlaqələndirici ofisinin və ÜST-ün Bakı ofisinin nümayəndələrinin də daxil olduğu missiyanın Azərbaycanın Qarabağ bölgəsinə həyata keçirdiyi səfərinin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev COVID-19-a qarşı mübarizədə ÜST-ün ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi, Azərbaycanın «Qoşulmama Hərəkatı»nın sədri kimi, 80-dən artıq ölkəyə yardım etməsindən, «Qoşulmama Hərəkatı» çərçivəsində COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sistemi yaradılmasından və vaksin həmrəyliyi ilə bağlı səylərimizdən danışdı, Azərbaycanın milli, regional və beynəlxalq səviyyədə yardım proqramlarını həyata keçirdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Qarabağ bölgəsindəki vəziyyətlə bağlı bildirdi ki, yerli əhali arasında təşviş yaradan və onları Ermənistana köçməyə məcbur edən məhz qondarma rejim olub.*

*Dövlətimizin başçısı vurğuladı ki, «Laçın» dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılmasından etibarən Azərbaycan tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə tibbi təxliyələrin təşkili prosesinə*

*dəstək göstərilib. Prezident İlham Əliyev Xankəndidə yanacaq stansiyasında baş vermiş partlayışdan sonra Azərbaycan yanğınsöndürənlərinin bu yanğının qarşısını aldığını, zərərçəkmiş insanlara dəstək göstərildiyini, hazırda Azərbaycanın tibbi heyətinin Xankəndidə yerli əhaliyə xidmətlər göstərdiyini diqqətə çatdırdı.*

*Azərbaycan Prezidenti Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin nümayəndələrinin yerlərdə xidmət göstərdiklərini, əhalinin qeydiyyata alınması prosesinin başlandığını, bunun üçün ayrıca portalın fəaliyyət göstərdiyini bildirdi, gündəlik ehtiyacların ödənilməsi və qida təchizatı üçün aidiyyəti qurumların yerində xidmət apardıqlarını söylədi, ərazidə mühüm infrastruktur obyektlərinin, eləcə də tarixi, dini və mədəni abidələrin polis tərəfindən mühafizə olunduğunu, elektrik təchizatının həyata keçirildiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar Qarabağın erməni sakinlərinin reinteqrasiyası proqramının hazır olmasının və həyata keçirilməsinin göstəricisidir. Görüşdə yaxın vaxtlarda BMT-nin Azərbaycanda rezident əlaqələndirici ofisinin təşkilatın aidiyyəti ixtisaslaşmış qurumlarının nümayəndələri ilə birlikdə ərazilərə yenidən səfər edəcəkləri diqqətə çatdırıldı, ölkəmizin bu prosesi dəstəklədiyi qeyd olundu.*

# İRAN İSLAM RESPUBLİKASININ YOL VƏ ŞƏHƏRSALMA NAZİRİ, AZƏRBAYCANLA İRAN ARASINDA İQTİSADİ, TİCARƏT VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İRAN TƏRƏFİNDƏN HƏMSƏDRİ MEHRDAD BƏZRPAŞ İLƏ GÖRÜŞ

*6 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da İran İslam Respublikasının Yol və Şəhərsalma naziri, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının İran tərəfindən həmsədri Mehrdad Bəzrpaşı qəbul etmişdir.*

*Dövlətimizin başçısı bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında keçirilmiş avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasiminin önəmini qeyd edərək, bunun dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanın həm ikitərəfli, həm də çoxtərəfli formatlarda nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı fəaliyyətini davam etdirdiyini bildirərək, bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sər-*

*həd-gömrük infrastrukturunun inşası, ərazidə sahil-bərkitmə tədbirləri layihələrinin təməlinin qoyulmasının bu yolların şaxələndirilməsi baxımından da önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev vurğuladı ki, ölkələrimizi birləşdirən və region üçün böyük əhəmiyyətə malik olan avtomobil və dəmir yollarının çəkilişi bütün bölgə üçün sabitliyə və əməkdaşlığa xidmət edəcək.*

*Dövlətimizin başçısı, həmçinin Şimal–Cənub nəqliyyat dəhlizinin inkişafı və ötürücülük qabiliyyətinin daha da genişləndirilməsi istiqamətində aparılan işlərin önəmini qeyd etdi.*

*İkitərəfli münasibətlərimizin gündəliyinin yalnız nəqliyyat sektorunu deyil, eyni zamanda, daha geniş sahələri əhatə etdiyini deyən Azərbaycan Prezidenti hökumətlərarası birgə Komissiyanın fəaliyyətini yüksək qiymətləndirdi, bütün sahələr üzrə yaxşı nəticələrin əldə edildiyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan–İran dostluğunun və əməkdaşlığının bütün bölgə üçün önəmli amil olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev regional məsələlərin region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini bildirərək, bu xüsusda «3+3» əməkdaşlıq formatının da təşəbbüskarının məhz Azərbaycan olduğunu qeyd etdi, tezliklə bu formatda görüşlərin keçiriləcəyini müsbət bir addım kimi qiymətləndirdi.*

*Mehrdad Bəzrpaş ilk növbədə, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.*

*Qonaq Azərbaycanın Qarabağ bölgəsinin reinteqrasiyası ilə bağlı təbriklərini çatdırdı və bunu çox mühüm hadisə kimi dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycanın pozulmuş haqlı və ədalətli mövqeyi 30 ildən sonra xoşbəxtlikdən öz yerini tutdu və ölkə suverenliyini bərpa etdi.*

*Mehrdad Bəzrpaş region ölkələri və xalqlarının bir-biri ilə dərin tarixi və mədəni əlaqələrə malik olduğunu vurğulayaraq, Cənubi Qafqazda sülhün region üçün böyük perspektivlər yaradacağını bildirdi.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Türkiyə Respublikasının aparıcı siyasi qüvvəsi olan Ədalət və İnkişaf Partiyasının Böyük Qurultayının keçirilməsi və Sizin yekdilliklə partiyanın sədri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi və rəhbərlik etdiyiniz partiyanın bütün üzvlərini ürəkdən təbrik edirəm. Bu, milli iradənin ifadəsi, Ədalət və İnkişaf Partiyasının üzvlərinin Sizə olan sonsuz inam, etimad və dəstəyinin aşkar təzahürü, qardaş Türkiyənin inkişafı və yüksəlişi naminə göstərdiyiniz xidmətlərə verilən ali qiymətdir.

Ədalət və İnkişaf Partiyasının Böyük Qurultayı Türkiyə Respublikasının ictimai-siyasi həyatında tarixi hadisədir. Əminəm ki, qurultayda qəbul olunmuş mühüm qərarlar partiyanın gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinə, xalqınızın rifahı naminə qarşıya qoyulmuş yeni hədəflərə çatmağa, ölkənizin yeni sosial-iqtisadi inkişaf mərhələsini təmin edəcək «Türkiye Yüzyılı» baxışının həyata keçməsinə müstəsna töhfə verəcəkdir.

Qurucusu və rəhbəri olduğunuz Ədalət və İnkişaf Partiyası yarandığı gündən özünün proqram müddəalarına, bəyan etdiyi prinsip və amallara sadiqlik nümayiş etdirərək, Türkiyə dövləti və xalqı qarşısında ləyaqətlə və şərəflə xidmət etmiş, hər bir sahədə böyük uğurlara imza atmış, ölkənizin qlobal güc mərkəzinə çevrilməsinə və beynəlxalq aləmdə yüksək nüfuz qazanmasına müvəffəq olmuşdu. Bütün bu nailiyyətlərdə Sizin əvəzsiz rolunuz və misilsiz əməyiniz vardır. Məhz buna görə Sizin adınız Türkiyə dövlətçiliyinin tarixinə əbədi olaraq həkk olunubdur.

Biz də Sizin müdrik və qətiyyətli rəhbərliyiniz altında Türkiyənin qazandığı uğurlara, onun dünyada artan nüfuzuna sevinir, bundan qürur duyuruq. Böyük fərəh hissi ilə qeyd etmək istəyirəm ki, hazırda Azərbaycan–Türkiyə qardaşlığı, birliyi və strateji müttəfiqliyi nümunəvi xarakter daşıyır və özünün ən yüksək zirvəsindədir. Qarşılıqlı etimad, dəstək və həmrəylik kimi möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası əlaqələrimiz eyni zamanda, regional əməkdaşlığa, sabitliyə və təhlükəsizliyə mühüm töhfə verir.

Əminəm ki, qardaş xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan və «Bir millət – iki dövlət» prinsipinə əsaslanan Azərbaycan ilə Türkiyə arasında münasibətlər birgə səylərimizlə bundan sonra da yüksələn xətlə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Bir daha Sizə, eləcə də Ədalət və İnkişaf Partiyasının hər bir üzvünə ən səmimi təbriklərimi çatdırır, partiyanın işinə bundan sonra da müvəffəqiyyətlər, qardaş Türkiyə dövlətinə və xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 oktyabr 2023-cü il*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*7 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng etmişdir.*

*Dövlətimizin başçısı Vladimir Putini ad günü münasibətilə təbrik edərək, ona dövlətçilik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzuladı.*

*Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.*

*Dövlət başçıları ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladılar, əməkdaşlığın perspektivləri və yeni təmaslar ilə bağlı məsələləri müzakirə etdilər.*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL İLƏ TELEFONLA GÖRÜŞ

*7 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə oktyabrın 7-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel telefonla zəng etmişdir.*

*Söhbət əsnasında regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı qeyd etdi ki, Qranadada Azərbaycanın iştirakı olmadan Azərbaycan adının dördtərəfli bəyanata daxil edilməsi düzgün yanaşma deyil. Prezident İlham Əliyev, həmçinin Fransanın məlum mövqeyinə görə Azərbaycanın Qranadadakı görüşdə iştirak etmədiyini bildirdi. Dövlətimizin başçısı xüsusilə vurğuladı ki, Fransanın Ermənistana silah verməsi sülhə deyil, yeni qarşıdurmaya xidmət edən yanaşmadır və əgər regionda hər hansı yeni qarşıdurma baş verərsə, bunun səbəbkarı məhz Fransa olacaqdır.*

*Eyni zamanda, dövlətimizin başçısı Avropa Parlamenti tərəfindən ksenofob və şovinist yanaşma əsasında qəbul edilmiş anti-Azərbaycan xarakterli bəyanatın, orada səsləndirilən fikirlərin qəbuledilməz olduğunu diqqətə çatdırdı, bunun regionda sülhün və*

*sabitliyin təmin olunmasına xidmət etmədiyini söylədi.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan beynəlxalq hüquqa və BMT-nin Nizamnaməsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə edərək, suverenliyini tam şəkildə təsbit edib və öz ərazisində mövcud olan qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsini təmin edibdir. Bu baxımdan Azərbaycanın atdığı addımlar beynəlxalq hüquqa tam şəkildə uyğundur. Dövlətimizin başçısı əlavə etdi ki, əksinə, bu məsələni başa düşməyən dövlətlərin özlərinin dünyanın müxtəlif bölgələrində həyata keçirdikləri siyasətə görə beynəlxalq hüquqla ciddi problemləri vardır.*

*Prezident İlham Əliyev mərkəzi hökumət tərəfindən Qarabağdan olan erməni sakinlərə humanitar yardımların göstərildiyini və onların qeydiyyatı prosesinin başlandığını bildirdi. Azərbaycan Prezidenti vurğuladı ki, məhz qondarma rejim erməniləri ərazini tərk etməyə və oradan köçməyə məcbur edib.*

*Prezident İlham Əliyev Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu deyərək, bu kəndlərin işğaldan azad olunmasının vacibliyini vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycanla İran arasında regional nəqliyyat dəhlizinin yaradılması istiqamətində işlərin aparıldığını qeyd etdi, bu xüsusda Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin*

*təməlqoyma mərasiminin keçirildiyini nəzərə çatdırdı.*

*Şarl Mişel öz növbəsində, Avropa İttifaqının Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılması istiqamətində səylərini davam etdirməyə hazır olduğunu bildirdi.*

## GÜRCÜSTANA İŞGÜZAR SƏFƏR

*8 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş Naziri İrakli Qaribaşvilinin dəvəti ilə oktyabrın 8-də Gürcüstana işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Gürcüstanın Dövlət bayraqlarının dalğalandığı Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini Gürcüstanın Baş Nazirinin müavini, İqtisadiyyat və Davamlı İnkişaf naziri Levan Davitaşvili və digər rəsmi şəxslər qarşıladılar.*

# GÜRCÜSTANIN BAŞ NAZİRİ
# İRAKLİ QARİBAŞVİLİ İLƏ
# TƏKBƏTƏK GÖRÜŞ

*Tbilisi*

*8 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 8-də Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olmuşdur.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 100 İLLİYİNƏ HƏSR EDİLMİŞ «THE ARCHİTECT OF PROSPERİTY» – «FİRAVANLIĞIN MEMARI» ADLI FOTOSƏRGİ İLƏ TANIŞLIQ

*Tbilisi*

*8 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili oktyabrın 8-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş «The Architect of Prosperity» – «Firavanlığın memarı» adlı fotosərgi ilə tanış olmuşlar.*

*Dövlətimizin başçısına və Gürcüstanın Baş Nazirinə sərgi ilə bağlı məlumat verildi. Qeyd olundu ki, Azərbaycanı müasir və iqtisadi cəhətdən çiçəklənən ölkəyə çevirən ümummilli liderə ehtiramın ifadəsi olan bu sərgi ulu öndərin bütün həyatını dövlətçiliyimizə və xalqımıza həsr etməsindən və ölkənin gələcək inkişafının əsasını necə müdrikliklə qoymasından bəhs edir.*

*Sərgidə ulu öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinə qayğısını, gənclərlə görüşlərini əks etdirən fotolar yer alıbdır. Ekspozisiyanın Azərbay-*

*can–Gürcüstan münasibətlərinə həsr edilmiş guşəsində ulu öndər Heydər Əliyevin Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze, həmçinin Prezident İlham Əliyevin Baş Nazir İrakli Qaribaşvili ilə görüşlərindən də fotoşəkillər nümayiş olunur.*

# GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Tbilisi*

*8 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili oktyabrın 8-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Gürcüstanın Baş Naziri İrakli Qaribaşvilinin bəyanatı

Bizim çox hörmətli qonağımız, əziz dostumuz cənab İlham Əliyevi salamlayıram!

Cənab Prezident, Sizi Gürcüstanda görməyə şadam. Sizi və nümayəndə heyətinizi salamlayıram, Gürcüstana səfərə gəldiyinizə görə təşəkkür edirəm. Onu da demək istəyirəm ki, biz ənənəmizi davam etdiririk, tez-tez səfərlər edirik. Bir neçə ay bundan əvvəl mən Qəbələdə səfərdə idim. Cənab Prezident, orada mənə göstərilən çox səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm. Keçən il də bu vaxt biz Sizi Gürcüstanda qəbul etdik. Çox şadam ki, səfərlərimiz tez-tez həyata keçir. Mən bir neçə aydan sonra

Azərbaycana növbəti səfərə gələcəyəm. Biz cənab Prezidentlə çox məhsuldar görüş keçirdik, müzakirələr apardıq. Cənab Əliyev ilə biz hazırkı strateji tərəfdaşlığımızı və əməkdaşlığımızı müzakirə etdik. Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır, dost ölkədir. Bizim ölkələrimiz arasında əsrlərboyu dostluq və qardaşlıq münasibətləri olub. Xalqlarımız arasında ənənəvi dostluq davam edir və cənab Prezident İlham Əliyev bu işə çox böyük töhfə verib. Bu dostluğun və qardaşlığın möhkəmləndirilməsində onun böyük xidmətləri vardır.

İqtisadi, ticari, enerji, nəqliyyat və logistika sahələrində əməkdaşlığımızı müzakirə etdik. Azərbaycan Gürcüstanın ən böyük ticarət tərəfdaşlarından biridir və ilk beşlikdə yer alıb. Bu il bizim ticarətimiz 15 faiz artıbdır. Ötən il rekord göstəricilərimiz olmuşdur. Yüklərin daşınması baxımından da həcm əhəmiyyətli dərəcədə artmışdır.

Deyə bilərəm ki, biz istənilən istiqamətdə – enerji, nəqliyyat, logistika, dəmir yolu və bütün digər sahələrdə əməkdaşlıq edirik. Orta Dəhliz layihəsinin inkişafını və perspektivlərini də müzakirə etdik. Bildiyiniz kimi, biz Azərbaycan və Qazaxıstanla əlaqələndirilmiş şəkildə fəaliyyət göstəririk ki, həmin layihə uğurla inkişaf etsin. Dəmir yolu xətti layihəsi genişləndirilir. Magistral yollar, dəniz limanları – bunlar hamısı bizim gündəliyimizdədir.

Azərbaycan Gürcüstanla birlikdə çox böyük işlərə başlayıb. Biz də dəmir yolu xətlərimizi müasirləşdiririk və gələn ilin sonuna qədər bunu başa çatdıracağıq. Bununla da yüklərin həcmini iki dəfə ar-

tıra biləcəyik. Tezliklə biz Anakliya dəniz limanının inşasına başlayacağıq. Onun da yükaşırma qabiliyyəti 100 milyon tona bərabər olacaq. Eyni zamanda, biz Şərq–Qərb avtomagistralının inşasını da başa çatdıracağıq. Biz Azərbaycanla istənilən istiqamətdə uğurla əməkdaşlıq edirik. Bir neçə ay ərzində növbəti tarixi layihənin genişləndirilməsini qeyd edəcəyik. O layihə də uğurla başa çatacaqdır. Ona görə də bizim çox aydın perspektivlərimiz vardır. Gələcəyə baxışımız olduqca aydındır. Əminəm ki, Azərbaycanla bizim tərəfdaşlığımız və dostluğumuz uzunömürlü olacaqdır.

Əlbəttə, biz təhlükəsizlik məsələlərini – həm regionda, həm də qlobal müstəvidə cərəyan edən hadisələri müzakirə etdik. Hazırda vəziyyət kifayət qədər gərgindir.

Mən bir daha cənab Prezidentə onu da bildirdim ki, biz Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Biz Azərbaycana təşəkkürümüzü bildiririk ki, Azərbaycan da öz növbəsində, hər zaman Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Onu da qeyd etdik ki, bizim böyük ümidlərimiz var ki, Azərbaycan və Ermənistan sülh sazişini imzalayacaq. Bu baxımdan da bizim Cənubi Qafqazda sülh gündəliyi ilə bağlı fikirlərimiz tam üst-üstə düşür. Ümidvarıq ki, bu bölgədə sülh davamlı olacaq və həm ölkələrimizin firavanlığına, həm də Azərbaycan, Ermənistan və Gürcüstan xalqlarına xidmət edəcəkdir.

Biz burada – Gürcüstanda hər zaman qərəzsiz mövqeyə malik olmuşuq və bu gün də hazırıq ki,

bu məsələyə töhfə verək. Biz istəyirik bu məsələdə vasitəçilik edək və istənilən dostluq formatını təqdim etməyə hazırıq. Bizim gələcəyimiz dinc, sabit olmalıdır və Cənubi Qafqazın hər üç ölkəsi regional məsələləri özləri həll etməlidir.

Eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, cənab Prezidentin atası mərhum Prezident Heydər Əliyevin bizim dostluğumuzun inkişafında müstəsna xidmətləri və töhfəsi olub, bu təməli o qoyubdur. Biz burada Heydər Əliyevin 100 illiyinə həsr edilmiş sərgi ilə də tanış olduq. Mən fürsətdən istifadə edərək, cənab Prezident İlham Əliyevi və Azərbaycan xalqını bu münasibətlə də təbrik edirəm.

Əziz dost, bir daha Sizi burada salamlayıram. Sizin ölkənizə sülh, inkişaf və uğurlar diləyirəm. Təşəkkür edirəm.

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Baş Nazir!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Baş Nazir, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Tbilisi şəhərinin bu gözəl, füsunkar təbiətə malik guşəsində olmaq mənim üçün çox xoşdur və burada yaradılmış şərait də göz oxşayır. Cənab Baş Nazirlə söhbət əsnasında mən qeyd etdim ki, Gürcüstanın bütün ərazisi təbiət nöqteyi-nəzərindən çox gözəldir. Ən böyük gözəllik və ən böyük sərvət isə gürcü xalqıdır.

Biz iki lider kimi, ölkələrimiz və xalqlarımız arasındakı dostluq, qardaşlıq əlaqələrini gücləndiririk, möhkəmləndiririk, öz səylərimizi əsirgəmirik. Cənab Baş Nazir qeyd etdiyi kimi, bizim ənənəvi görüşlərimiz bu məqsədə xidmət edir ki, ölkələrimiz bir-birinə daha yaxın olsun, xalqlarımız bir-biri ilə daha da sıx dostluq etsin. Əsrlərboyu xalqlarımız mehriban qonşuluq və dostluq şəraitində yaşamışdır, bu gün də belədir. Bu həm ölkələrimiz üçün vacibdir, həm də bölgə üçün, ilk növbədə, Cənubi Qafqaz üçün çox vacib olan bir şərtdir.

Fürsətdən istifadə edərək, hörmətli cənab Baş Nazir, ulu öndər Heydər Əliyevin xatirəsinə Gürcüstan hökuməti və xalqı tərəfindən göstərilən hörmətə görə sizə təşəkkürümü bildirmək istəyirəm. Qeyd olunduğu kimi, bu il ilboyu Azərbaycanda, bir çox ölkələrdə, o cümlədən Gürcüstanda Heydər Əliyevin 100 illiyi qeyd edilir. Bu gün burada nümayiş etdirilən sərgidə bir şəkil diqqətimizi daha çox cəlb etdi – Heydər Əliyevin və Eduard Şevardnadzenin şəkli. Onların dostluğunun çox böyük tarixçəsi vardır. Sovet dövründə onlar bir-birilə sıx təmasda idilər və o vaxt sovet Gürcüstanının, sovet Azərbaycanının rəhbərləri kimi, xalqlarımızı daha da birləşdirmək üçün böyük səylər göstərmişdilər. Bu iki parlaq şəxsiyyət sovet dövründə də öz istedadı, öz cəsarəti və öz xalqlarına olan bağlılığı ilə fərqlənirdi. Tale elə gətirdi ki, onlar təxminən eyni vaxtda müstəqil Gürcüstana və müstəqil Azərbaycana rəhbərlik etməyə başladılar. Xalqlarımız üçün ən ağır dövrdə – o acı və ağrılı günləri biz xatırlayı-

rıq – məhz onların liderliyi sayəsində həm Gürcüstan, həm Azərbaycan inamla müstəqilliyə doğru addımlamağa başlamışdır. Məhz onların fəaliyyəti nəticəsində müstəqil Gürcüstan, müstəqil Azərbaycan inkişaf etməyə başlamışdır.

Biz – onların davamçıları bu gün onların yolu ilə gedirik. Təbii ki, bu gün Gürcüstan və Azərbaycan qat-qat daha inkişaf etmiş ölkələrdir. Ancaq çağırışlar, demək olar ki, eynidir, problemlər eynidir. Cənubi Qafqazda sülh hələ ki, tam bərqərar olunmayıb və bu gün cənab Baş Nazirlə söhbət əsnasında o cümlədən bu məsələyə də toxunduq. Cənubi Qafqazda sülhün bərqərar olmasının vaxtı çatıb. Baş Nazir qeyd etdiyi kimi, biz hər zaman bir-birimizin ərazi bütövlüyümüzü, suverenliyimizi dəstəkləmişik və dəstəkləyirik. Bütün beynəlxalq təşkilatlarda xalqlarımızın bu və digər maraqlarını əks etdirən məsələlərdə bir-birimizi dəstəkləyirik və bir-birimizin yanındayıq. Ölkələrin ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir və ərazi bütövlüyünün pozulması qəbuledilməzdir. Azərbaycanın bu məsələ ilə bağlı mövqeyi birmənalıdır.

Biz bu gün eyni zamanda, Ermənistan–Azərbaycan normallaşma prosesinə də toxunduq. 3 il əvvəl İkinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir, keçən ay bütün ölkə üzrə suverenliyini bərpa etmişdir. İndi isə biz Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi üzərində fəal çalışmalıyıq. Əgər biz buna nail olsaq – mən buna ümidliyəm – o zaman Cənubi Qafqazda tamamilə yeni bir siyasi

vəziyyət yaranacaq. Cənubi Qafqaz ölkələri əməkdaşlığa üçtərəfli formatda başlaya bilər və bir çox sahələr üzrə əməkdaşlıq çox uğurlu ola bilər – nəqliyyat, enerji təhlükəsizliyi, ticarət, qarşılıqlı sərmayə qoyuluşu, bütün bunlar mümkündür. Sadəcə olaraq, biz bundan məhrum idik, ona görə ki, Azərbaycan ərazilərinin bir hissəsi uzun illər işğal altında idi və təbii ki, bu vəziyyət imkan vermirdi ki, normallaşmaya doğru addımlar atılsın. İndi məqam gəlib çatıb və hesab edirəm ki, bu şansı əldən vermək böyük səhv olar.

Bildiyiniz kimi, bu gün bir neçə ölkə və bəzi beynəlxalq təşkilatlar Ermənistan və Azərbaycan arasında gedən normallaşma prosesində öz dəstəyini göstərməyə çalışır. Biz bunu alqışlayırıq. Əgər bu, birtərəfli və qərəzli deyilsə, biz istənilən vasitəçiliyi və yardımı qəbul edirik. Ancaq fikrimcə, ən düzgün seçim həm tarixi əlaqələri, həm coğrafi amili nəzərə alaraq, əlbəttə, bu sahədə Gürcüstan ola bilərdi. Mən cənab Baş Nazirə minnətdaram ki, o da bu sahədə mümkün olan vasitəçilik imkanlarını ortaya qoyur. Hesab edirəm ki, biz buna hazır olan ölkə kimi, Ermənistandan da eyni yanaşmanı gözləməliyik və Ermənistan tərəfindən də razılıq olarsa, dərhal bizim aidiyyəti qurumların rəhbərləri Gürcüstanda həm ikitərəfli, həm üçtərəfli görüşə gələ bilərlər.

O ki qaldı digər sahələrdəki əməkdaşlığa, cənab Baş Nazir artıq qeyd etdi, həm enerji, həm nəqliyyat sahəsində çox böyük planlarımız var, əlbəttə, böyük uğurlarımız var. Həyata keçirilmiş layihələr

haqqında danışmaq, hesab edirəm ki, əbəsdir, bunu hər kəs bilir. Sadəcə olaraq, demək istəyirəm ki, bizim birgə həyata keçirdiyimiz enerji və nəqliyyat layihələri bu gün bir çox ölkələrin enerji və nəqliyyat təhlükəsizliyinə xidmət göstərir.

Həmçinin gələcək planlarımız üzrə birmənalı əməkdaşlığın dərinləşməsinə hesablanmış gündəlik vardır. Biz böyük məmnuniyyətlə Gürcüstanın yeni infrastruktur layihələrinin yaranmasında iştirak edə bilərik. Bu gün biz Anakliya limanının inşası ilə bağlı fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, Azərbaycanın Gürcüstanın Qara dəniz sahilində Kulevi limanı var, o limanın genişləndirilməsi əməkdaşlığımızı daha da gücləndirəcək. Təbii ki, Bakı–Tbilisi–Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılması və yaxın gələcəkdə fəaliyyətə başlaması da Orta Dəhlizin güclənməsinə xidmət göstərəcəkdir.

Energetika sahəsində ənənəvi sahələrdən başqa, bu gün bizi birləşdirən «Yaşıl Enerji Dəhlizi» layihəsidir. Burada da biz – yenə də Gürcüstan və Azərbaycan – iki qardaş ölkə Avropa ölkələri ilə sıx əməkdaşlıq edirik və yaxın aylarda bu layihənin texniki-iqtisadi əsaslandırması hazır olacaq. Əminəm ki, ondan sonra biz konkret işlərə start verə bilərik. Böyük sərmayə qoyuluşu nəzərdə tutulur və beləliklə, «Yaşıl Enerji Dəhlizi», enerji kabeli inşa edilərək həm bizim, həm də ki, tərəfdaş ölkələrin enerji təhlükəsizliyini gücləndirəcəkdir.

Bir sözlə, bu gün Gürcüstanın və Azərbaycanın birlikdə və digər qonşu ölkələrlə birgə icra etdiyi

layihələr böyük məna daşıyır, təkcə Cənubi Qafqaz regionu üçün deyil, böyük mənada Avrasiya qitəsi üçün və biz buna hazırıq. Bizdə həm güclü siyasi iradə var, həm də artıq yaradılmış güclü infrastruktur var. Ən əsas amil isə Gürcüstan–Azərbaycan dostluğu və strateji tərəfdaşlığıdır.

Sözümün sonunda bir məsələni də qeyd etmək istərdim. Mən Gürcüstana tez-tez gəlirəm və hər dəfə gələndə Gürcüstanın yeni bir guşəsi ilə tanış oluram. Hər dəfə həm Gürcüstanın gözəl təbiətinə bir daha heyran oluram, eyni zamanda, Gürcüstanda gedən tərəqqi prosesinə də çox böyük maraqla baxıram və sevinirəm. Cənab Baş Nazirin rəhbərliyi ilə Gürcüstan inamla inkişaf edir, Gürcüstanda ictimai-siyasi sabitlik tam bərqərar olunub. Bu sabitliyin mənbəyi Gürcüstanda yaşayan vətəndaşların hökumətə olan dəstəyidir. Bu sabitlik və hökumətin aydın gələcəyə yönəlmiş baxışları imkan verir ki, bir çox önəmli layihələr icra edilsin, imkan verir ki, həm iqtisadiyyat artsın, infrastruktur layihələri icra olunsun, həm də insanların rifah halı ildən-ilə yaxşılaşsın. Biz Gürcüstanın dostu kimi, buna ürəkdən sevinirik.

Əldə edilmiş nailiyyətlər münasibətilə Sizi, cənab Baş Nazir, bizim bütün gürcü qardaşlarımızı təbrik edirik. Qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirərək, cənab Baş Nazir, Sizi Azərbaycana dəvət edirəm. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ NAHARDA İŞTİRAK

*Tbilisi*

*8 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə oktyabrın 8-də Gürcüstanın Baş Naziri İrakli Qaribaşvilinin adından nahar verilmişdir.*

*Dövlətimizin başçısı və Gürcüstanın Baş Naziri naharda iştirak etdilər.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri oktyabrın 8-də başa çatdı.*

*Azərbaycanın və Gürcüstanın Dövlət bayraqlarının dalğalandığı Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili yola saldı.*

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI NAZİRLƏR ŞURASININ 27-ci İCLASININ İŞTİRAKÇILARINA

Hörmətli iclas iştirakçıları!

Azərbaycan xalqı üçün müqəddəs olan mədəniyyət paytaxtımız Şuşa şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı Nazirlər Şurasının 27-ci iclası münasibətilə sizi səmimi-qəlbdən salamlayıram.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvüdür və təşkilata üzv olan dövlətlərlə münasibətlərinə xüsusi əhəmiyyət verir. İqtisadi Əməkdaşlıq Təşkilatı regionumuzun nəhəng iqtisadi potensialından daha səmərəli istifadə və region ölkələri arasında iqtisadi-ticarət sahəsində əlaqələrin inkişaf etdirilməsi baxımından əlverişli imkanlara malikdir. Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın bütün sahələrdə genişlənməsinin tərəfdarıdır. Bir neçə gün öncə Şuşa şəhərinin 2026-cı il üçün İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı elan edilməsinə görə təşəkkürümü bildirirəm.

Siz olduqca əlamətdar və tarixi dövrdə Azərbaycana gəlmisiniz. Xalqımız Azərbaycanın suverenliyini, Konstitusiya quruluşunu bərpa etməsinin sevincini, qürurunu yaşayır. 30 ildən sonra ərazilərimizdə mövcud olan «boz» zonanın aradan qaldırılması, separatizmə son qoyulması beynəlxalq hüququn və ədalətin təntənəsidir.

Azərbaycan daim sülhün tərəfdarı və bölgədə sülh təşəbbüslərinin müəllifi olub. Regional məsələlərin bilavasitə region ölkələrinin iştirakı ilə həll edilməsi prinsipindən çıxış edərək, Azərbaycan «3+3» əməkdaşlıq formatını irəli sürüb. Hazırda Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılması, sülh müqaviləsinin imzalanması və Cənubi Qafqaz bölgəsinin sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün tarixi şərait yaranmışdır.

2020-ci ildə əzəli torpaqlarımız Ermənistanın işğalından azad edildikdən dərhal sonra burada iri-miqyaslı bərpa-quruculuq işlərinə başlanılmışdı. Qısa zaman kəsiyində bu ərazilərdə vacib infrastruktur layihələri həyata keçirilmiş, o cümlədən iki yeni hava limanı tikilib istifadəyə verilmişdir. Üçüncü hava limanı isə hazırda Laçında inşa edilir. Füzuli şəhərində artıq inşası başa çatmış məktəbə və tikilməkdə olan yaradıcılıq mərkəzinə görə qardaş Özbəkistana və Qazaxıstana təşəkkür edirəm. Biz bunu ölkələrimiz arasında qardaşlığın, həmrəyliyin və dostluğun növbəti bariz təzahürü kimi qiymətləndiririk.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Proqramı milli prioritetlərimiz sırasındadır. Uğurla icra edilən proqram çərçivəsində bu günə qədər Laçın, Füzuli şəhərlərinə, Ağalı, Zabux və Talış kəndlərinə köçkünlərin qayıtması təmin olunub. Növbəti 3 ildə 100 minə qədər köçkünün doğma yurd-yuvalarına dönməsi planlaşdırılır. Həyata keçirilən layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəlməsinə, əhalinin dayanıqlı məs-

kunlaşmasına xidmət etməklə, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün əlverişli şərait yaradır.

30 illik işğalın Azərbaycan xalqı üçün ən ağır fəsadlarından biri də bəşəri əhəmiyyətə malik mədəni irsimizə, o cümlədən islam dininə aid bütün abidələrə qəsdən vurulmuş ziyandır. Əfsuslar olsun ki, bu dövrdə 67 məsciddən 65-i yerlə yeksan edilmiş, qalan məscidlərə qarşı isə heyvanların saxlanılması kimi təhqiramiz əməllər törədilmişdir. Bu günlərdə daha bir məscidin – Malıbəyli məscidinin dağıdılması və tövlə kimi istifadə edilməsi faktı aşkar edilmişdir. Bütün bunlar təkcə azərbaycanlıların deyil, bütün dünya müsəlmanlarının hisslərinin təhqir olunması deməkdir.

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatında sədrlik mövzusunun «Yaşıl» keçid və qarşılıqlı bağlantılar» kimi müəyyən edilməsi hazırkı dövrdə xüsusi aktuallıq kəsb edir. Dekarbonlaşma, «yaşıl enerji» növlərinin artırılması kimi məsələlər ölkəmizin dayanıqlı inkişaf gündəliyinin əsasını təşkil edir. Eyni zamanda, «yaşıl enerji» zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidən qurulma və bərpa işləri «ağıllı şəhər» və «ağıllı kənd» konsepsiyasına uyğun olaraq həyata keçirilir.

Azərbaycan eyni zamanda, etibarlı tranzit ölkədir və bizim nəqliyyat-logistika infrastrukturumuz bütün İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri üçün açıqdır. Şərq–Qərb marşrutu üzrə yükdaşımalara tələbatın artdığını nəzərə alaraq, biz Bakı–Tbilisi–

Qars dəmir yolu ilə daşınan yüklərin həcmini 1 milyon tondan 5 milyon tona çatdırmağı hədəfləyirik. Həmçinin İran İslam Respublikasının ərazisi vasitəsilə Naxçıvan Muxtar Respublikasına çıxış imkanı yaradacaq avtomobil və dəmir yolunun çəkilməsi barədə bu ölkə ilə razılıq əldə olunmuşdur. Azərbaycan eyni zamanda, Şimal–Cənub nəqliyyat dəhlizinin ötürücülük qabiliyyətinin daha da genişləndirilməsi üzərində fəal çalışır.

Əminəm ki, bu iclas ölkələrimizin və bütövlükdə regionun davamlı inkişafı və rifahı naminə yeni əməkdaşlıq imkanları ətrafında faydalı fikir mübadiləsi aparmaq və səyləri əlaqələndirmək üçün əhəmiyyətli platforma olacaq, qarşılıqlı faydalı tərəfdaşlığın yeni məzmunla zənginləşməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, iclasın işinə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 oktyabr 2023-cü il*

# RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ NİKOLAY PATRUŞEV İLƏ GÖRÜŞ

*10 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevi qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin gündəliyindəki məsələlərin çox geniş olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından keçən dövrün ikitərəfli münasibətlərimizin həqiqətən müttəfiqlik xarakteri daşıdığını nümayiş etdirdiyini söylədi və bunun bütün sahələrdə özünü göstərdiyini vurğuladı.*

*Azərbaycan Prezidenti regional təhlükəsizlik, iqtisadi əlaqələr, nəqliyyat və digər sahələrlə bağlı əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.*

*Nikolay Patruşev ilk növbədə, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş etdi.*

*Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı ümummilli liderin əziz xatirəsini ehtiramla yad etdi.*

*Dövlətimizin başçısı ulu öndərin anadan olmasının 100 illiyi münasibətilə ümummilli liderin xatirəsinə ehtiram əlaməti olaraq Rusiyada dövlət səviyyəsində tədbirlərin keçirilməsinə görə minnətdarlığını bildirdi.*

*Qonaq Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından sonra əlaqələrimizin daha da genişləndiyini məmnunluqla vurğuladı.*

*Görüşdə qlobal və regional məsələlər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, regional əməkdaşlıq məsələləri müzakirə olundu.*

*Dövlətimizin başçısı regional məsələlərin «3+3» formatında region ölkələrin iştirakı ilə həll edilməsinin vacibliyini vurğuladı, bu formatda müvafiq səviyyələrdə görüşlərin keçirilməsini qeyd etdi.*

*Söhbət zamanı Şimal–Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsi istiqamətində Azərbaycan–Rusiya–İran arasındakı əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.*

## MDB-yə ÜZV DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK VƏ XÜSUSİ XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİ ŞURASININ 53-cü İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*11 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 53-cü iclasının iştirakçılarını – Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru, MDB dövlətlərinin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının sədri Aleksandr Bortnikovu, Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini, Belarus Dövlət Təhlükəsizlik Komitəsinin sədri İvan Terteli, Qazaxıstan Milli Təhlükəsizlik Komitəsinin sədri Yermek Sagimbayevi, Qırğızıstanın Baş Nazir müavini, Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Kamçıbek Taşiyevi, Özbəkistan Dövlət Təhlükəsizlik Xidmətinin sədri Abdusalom Azizovu, Tacikistan Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Saymumin Yatimovu və MDB-yə üzv dövlətlərin Antiterror Mərkəzinin rəhbəri Yevgeni Sısoyevi qəbul etmişdir.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli qonaqlarımızı, dost ölkələrin xüsusi xidmət orqanlarının rəhbərlərini salamlamağa şadam.

Əminəm ki, Bakıda keçirilən tədbir qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi işinə xidmət edəcək və gələcək əməkdaşlığa daha bir töhfə olacaq. Əlamətdar haldır ki, sizin iclasınız dövlət başçılarının da ünsiyyətinə və qarşılıqlı fəaliyyətimizin çox mühüm məsələlərinin müzakirəsinə kömək edəcək MDB-nin növbəti sammiti ərəfəsində keçirilir. Azərbaycan MDB-nin işində iştirak etməyə həmişə böyük əhəmiyyət verib. Bütün istiqamətlər üzrə və əlbəttə, təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində sıx təmaslar mövcuddur. Sizin işiniz, həmçinin həmkarlar arasında qarşılıqlı fəaliyyət hazırkı mürəkkəb beynəlxalq şəraitdə xüsusi əhəmiyyətə malikdir, çünki təhdidlər artır, yeni qeyri-sabitlik ocaqları yaranır və ölkələrimizin sabitliyi və təhlükəsizliyi bir çox hallarda sizin strukturların operativ işindən asılıdır.

Düşünürəm ki, siz bugünkü iclasda da əməkdaşlığın möhkəmləndirilməsi məsələlərini müzakirə edəcəksiniz. Əlbəttə, daim operativ informasiya mübadiləsi aparmaq zəruridir. Siz hamıdan yaxşı bilirsiniz ki, informasiya o cümlədən onun qəbul edilməsi və ona reaksiya verilməsi baxımından böyük əhəmiyyətə malikdir. Əlbəttə, ölkələrimiz arasında sıx qarşılıqlı fəaliyyət səmimi, məqsədyönlü, nəticəyə və mümkün təhdidlərin profilaktikasına və

ya aradan qaldırılmasına yönəlmiş əməkdaşlıq üçün gözəl imkanlar yaradır.

Ölkələrimizin yerləşdiyi regionlarda xarici təhdidlər də mövcuddur və bu istiqamətdə operativ iş riskləri minimuma endirməyə imkan verir. Bizim ölkələrin yerləşdiyi məkanda ictimai-siyasi sabitliyin möhkəmləndiyini görmək sevindiricidir və dövlətlərimiz bir çox çağırışların öhdəsindən uğurla gəlir. Azərbaycana gəldikdə, artıq bizim daxili təhdidlərimiz yoxdur. Üç həftə əvvəl həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanın suverenliyi tam bərpa olunub. Əlbəttə, bu, regionumuzda təhlükəsizliyin möhkəmlənməsi və sülhə nail olunması üçün imkanlar yaradır. Biz buna çalışırıq və hesab edirik ki, başqa alternativ yoxdur. Son həftələrdə baş vermiş hadisələrin mətbuatda, ilk növbədə, Qərb mediasında müxtəlif cür, deyərdim ki, birtərəfli, qərəzli və nə məsələnin tarixini, nə də bugünkü reallıqları tamamilə əks etdirmədən təqdim olunduğunu nəzərə alaraq, son 3 ildə baş verənlər barədə sizi qısaca məlumatlandırmaq istəyirəm. Amma mənim informasiyamın, necə deyərlər, daha dolğun olması üçün tarixə qısa ekskursiya etmək istəyirəm.

Ondan başlayım ki, «Dağlıq Qarabağ» adlı qurum tarixdə heç vaxt mövcud olmayıb. 1805-ci ildə Rusiya imperiyasının tərkibinə daxil olmuş Qarabağ xanlığı olub. Kürəkçay sülh müqaviləsi imzalanıb, onu Azərbaycan tərəfindən Qarabağ xanı İbrahim Xəlil xan – o, Qarabağın və Şuşanın xanı idi, Rusiya tərəfindən isə çar generalı Sisianov imzalayıblar. Kürəkçay müqaviləsinin mətni internetdə var və

hər kəs tanış ola bilər. Orada erməni əhalisi və ya erməni əhalisinin hansısa xüsusi hüquqları haqqında heç bir xatırlatma yoxdur. Yəni bu, bir daha aydın şəkildə ondan xəbər verir və tarixçilər də yaxşı bilirlər ki, Qarabağ əsrlərboyu, minilliklərlə bu ərazidə yaşamış azərbaycanlıların məskunlaşdığı qədim torpaqdır. Kürəkçay sülh müqaviləsindən sonra Azərbaycan xanlıqları ilə Rusiya arasında digər Azərbaycan xanlıqlarının, o cümlədən İrəvan xanlığının da Rusiyanın tərkibinə daxil olduğu daha iki – 1813-cü ildə Gülüstan sülh müqaviləsi və 1828-ci ildə Türkmənçay müqaviləsi olub. Həmçinin bu sənədlərdə, təbii ki, söhbət Azərbaycan torpaqlarından gedirdi. Cənubi Qafqazın sovetləşdirilməsindən sonra Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. O nə üçün yaradıldı? Çünki XIX əsrin həmin sənədlərindən sonra erməni əhalisinin İrandan və Şərqi Anadoludan Azərbaycan ərazilərinə kütləvi köçü başlandı. Artıq sovetləşdirmə məqamında Azərbaycanın Qarabağ regionunun milli tərkibi XIX əsrin əvvəlində olduğundan fərqli idi. Bunları nəzərə alaraq, ola bilər ki, daha hansısa səbəblərdən sovet hakimiyyəti, Sovet İttifaqı artıq həmin vaxt Dağlıq Qarabağ Muxtar Vilayətini, hətta respublika deyil, Azərbaycan SSR-in tərkibində vilayət yaratdı. Bu, tam 100 il əvvəl baş verib. Artıq Sovet İttifaqında mərkəzdənqaçma meyilləri başlayan vaxtda, erməni separatçılığının və təcavüzkar ekstremizmin baş qaldırdığı ötən əsrin 80-ci illərinin sonunda qeyri-rəsmi ekstremist təşkilatları yaradıldı, təəssüf ki, mərkəzi sovet rəhbərliyi tərəfindən buna lazımi

qiymət verilmədi, bir çox hallarda isə onları dəstəklədilər.

Hamımız XX əsrin 80-ci illərinin sonunda Sovet İttifaqına kimin başçılıq etdiyini xatırlayırıq və təbii ki, başqa nə isə gözləmək mümkün deyildi. Bütün bunlar ona gətirib çıxardı ki, Azərbaycan və erməni xalqları arasında ənənəvi sülh, dostluq və qarşılıqlı anlaşma münasibətləri pozuldu, zərərli milli müstəsnalıq, üstünlük ideologiyası ortaya atıldı və Azərbaycanın Qarabağ torpağına iddiaları əsaslandırmaq üçün cəhdlər edilməyə başlandı. Bu tendensiyalar artıq Sovet İttifaqının süqutundan sonra açıq təcavüz və Azərbaycan torpaqlarının işğalı ilə davam etdi. Nəticədə Azərbaycan ərazisinin təxminən 20 faizi – həm Qarabağ bölgəsi, həm keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti, həm də həmin muxtar quruma heç bir aidiyyəti olmayan 7 rayon işğal edildi. Etnik təmizləmə həyata keçirildi, 1 milyondan çox azərbaycanlı öz doğma torpaqlarından qovuldu və 2020-ci ilin payızına qədər vəziyyət belə olaraq qaldı. Azərbaycan bütün vasitələrlə məsələni sülh yolu ilə həll etməyə çalışdı. Biz ATƏT-in himayəsi altında uzunmüddətli və nəticəsiz danışıqlar prosesində iştirak etdik. Yeri gəlmişkən, bu münaqişənin nizama salınmaması bir daha göstərir ki, ATƏT-də böyük dəyişiklik olmalıdır. Bu münaqişənin timsalında biz həm də Birləşmiş Millətlər Təşkilatının öz nüfuzundan və öz rıçaqlarından istifadə edə bilməməsinin şahidi olduq. Belə ki, BMT Təhlükəsizlik Şurasının erməni qüvvələrinin Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnamə

qəbul etməsinə baxmayaraq, onlar əməldə yerinə yetirilmədi. Biz uzun müddət gözlədik, bizim ümidlərimiz var idi. Mən 2004-cü ildən müxtəlif mərhələlərdə danışıqlarda iştirak etdim, lakin təəssüf ki, 2019-cu ildə bütün ümidlər puça çıxdı. O vaxt Ermənistanın baş naziri bəyan etdi ki, «Qarabağ Ermənistandır və nöqtə». O bununla bütün danışıqlara son qoydu və onları tamamilə mənasız etdi. Onu da demək lazımdır ki, bu, suveren Azərbaycan dövlətinə qarşı açıq ərazi iddiası idi, çünki dünyanın heç bir ölkəsi, o cümlədən Ermənistan qondarma «Dağlıq Qarabağ respublikasını» tanımırdı. Yəni erməni rəhbərliyinin bu təxribatçı, düşünülməmiş, deyərdim ki, aydın olduğu kimi, özünə qarşı sui-qəsdçi addımı və digər, o cümlədən hərbi xarakterli təxribat fəaliyyətləri 2020-ci ilin sentyabrında 44 gün davam edən, Ermənistan ordusunun tamamilə darmadağın olması və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi ilə nəticələnmiş İkinci Qarabağ müharibəsinin başlanmasına gətirib çıxardı. Rusiya Federasiyasının və şəxsən Prezident Vladimir Vladimiroviç Putinin vasitəçiliyi ilə 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə keçmiş Dağlıq Qarabağ regionunun ətrafındakı rayonların hələ də işğal altında olan ərazilərinin də Azərbaycana qaytarılmasını, regiona isə Rusiya sülhməramlı kontingentinin yeridilməsini nəzərdə tutan üçtərəfli Bəyanat imzalandı.

Məsələnin qısa tarixçəsi budur. Belə bir sual yarana bilər: bəs 3 həftə əvvəl nə baş verib? Belə ki, barəsində danışdığım Bəyannamənin imzalanma-

sına baxmayaraq, Ermənistan onun bəndlərini yerinə yetirmirdi, halbuki ən vacib bəndlərdən birində deyilirdi ki, bütün erməni silahlı qüvvələri Qarabağ ərazisindən çıxarılmalıdır. Buna əməl edilmədi, həm də nümayişkaranə şəkildə edilmədi. Hətta 2 il ərzində – 2020-ci ildən 2023-cü ilin əvvəlinədək, Azərbaycanın Laçın rayonunda sərhədə nəzarət etmədiyi bir vaxtda oraya sayı milyonlarla ölçülən nəhəng döyüş silah və sursatları daşınıb, bu isə tamamilə yaxın vaxtlarda aşkara çıxarılıb. Minalar gətirilib, ərazi əlavə olaraq minalanıb. Bütün bunların hamısı ona gətirib çıxarıb ki, azərbaycanlılar öz torpaqlarında həlak olmağa davam ediblər. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bizim 315 nəfər hərbi və mülki vətəndaşımız həlak olmuş və ya ağır şəkildə yaralanmışdır. Təəssüf ki, onların sayı hər həftə artır.

Azərbaycana qarşı ərazi iddialarına son qoymaqla bağlı Ermənistana edilən çoxsaylı çağırışlar qəribə reaksiyaya səbəb olub. Bununla bağlı sizi məlumatlandırmaq istərdim. Bir il əvvəl – ötən ilin oktyabr ayında Ermənistan və Azərbaycan rəhbərlərinin beynəlxalq tərəfdaşlarla görüşündə Bəyanat qəbul edildi. Bu sənədə əsasən, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanıdıqlarını və ölkələrimizin ərazi bütövlüyünü təsdiqləyən 1991-ci il Alma-Ata Bəyannaməsinin tərəfdarı olduqlarını bəyan etdilər. Biz bunu Ermənistan tərəfindən atılan mühüm addım hesab etdik, Azərbaycana qarşı ərazi iddialarından, nəhayət, əl çəkəcəyini zənn etdik. Lakin təəssüf ki, ümidlərimiz doğrulmadı. Azərbaycanın ərazi

bütövlüyünü sözdə və kağız üzərində tanıyan Ermənistan rəhbərliyi əməldə hər şeyin əksini edirdi. Təxribat hərəkətlərinə son qoymaqla bağlı Azərbaycanın etdiyi çoxsaylı çağırışlar təəssüf ki, bütün ciddiliyi ilə qəbul edilmədi.

Vəziyyət daha da gərginləşdi, çünki bu il sentyabrın 2-də Ermənistanın baş naziri qondarma «Dağlıq Qarabağ respublikasının» yaradılmasının ildönümü ilə bağlı təbrik məktubu göndərdi. Bu, qırmızı xətti keçmək demək idi və təbii ki, Azərbaycan buna dözə bilməzdi. Bu bizim ərazimizə qarşı açıq-aşkar iddia irəli sürülməsi idi. Sentyabrın 9-da qondarma «Dağlıq Qarabağ»ın qondarma hakimiyyət orqanları seçki keçirdilər, özlərinə yeni başçı seçdilər, bu isə mövcud reallıqların tam şəkildə inkar edilməsi demək idi və sentyabrın 19-da Azərbaycana antiterror tədbirləri keçirmək və öz suverenliyini tam şəkildə bərpa etmək üçün başqa seçim yolu qoymadı. Bir sutkadan da az davam edən tədbirlər nəticəsində Ermənistanın Qarabağdakı ordusu tamamilə tərksilah edildi, 10–15 min nəfərlik çoxminli kontingent silahsızlaşdırıldı və ərazimizin üzərində tam nəzarət bərpa olundu. Buna paralel olaraq, biz artıq Qarabağın erməni əhalisinin reinteqrasiya planını açıq şəkildə dərc etdik, bu plan internetdə də mövcuddur. Erməni əhalisinə öz evlərində qalmaqla bağlı çağırış edildi, çünki bizim tədbirlərin hədəfi dəqiq xarakter daşıyırdı. Mülki infrastruktur, mülki obyektlər və mülki şəxslər zərər çəkmədilər. Artıq dediyim kimi, bütün tədbirlər 24 saatdan da az davam etdi. Bu müddət Ermənistanın qanunsuz hərbi birləşmələri-

nin tam şəkildə demoralizasiyası və mahiyyət etibarilə, təslim olması üçün kifayət etdi. Bu gün ərazilərin quldur dəstələrindən təmizlənməsi prosesi gedir. Bizdə olan məlumatlara görə, hələ ərazimizdə gizlənməyə davam edən müəyyən qruplar mövcuddur. Sentyabrın 20-dən sonra Qarabağda hərbi təxribatlar törədildi. Ərazi kifayət qədər böyükdür, dağlıqdır, meşəlikdir, buna görə də bizə ərazini quldur birləşmələrindən tamamilə təmizləmək üçün vaxt lazım olacaq. Bax, prinsip etibarilə məsələnin tarixçəsi bundan ibarətdir.

Bəs ətrafda nə baş verir? Düşünürəm ki, ətrafda baş verənlər barədə verdiyimiz qiyməti bizdən eşitməyiniz sizin üçün maraqlı olar. Ondan başlayaq ki, Azərbaycan həm işğal müddətində, həm İkinci Qarabağ müharibəsində, həm də antiterror tədbirləri zamanı bütün humanitar normalara riayət edib. Beynəlxalq ekspertlər bunun şahididirlər. Yeri gəlmişkən, bu yaxınlarda azad edilmiş ərazilərdə səfərdə olan BMT missiyası dünən və bundan təxminən bir həftə əvvəl artıq iki dəfə məhz bunu vurğulayıb ki, bütün humanitar normalara əməl olunub. Bununla belə, Qərbdəki erməni havadarları Azərbaycana qarşı iyrənc təxribata və yalançı kampaniyaya əl ataraq, hər şeydə bizi ittiham edirlər. Burada əsas skripkanı çalan Fransadır və bu həm sözügedən ölkənin rəsmi şəxslərinin bəyanatlarında, həm Azərbaycanın diskreditasiya edilməsi cəhdlərində, həm də Azərbaycana qarşı aparılan və hər şeyin alt-üst şəkildə təqdim edildiyi media kampaniyasında özünü büruzə verir. Azərbaycan işğalçı kimi təqdim edilir, Ermənistan

isə qurban kimi qələmə verilir. Otuzillik işğalın tarixi, bütün şəhər və kəndlərimizin yerlə yeksan edilməsi, Xocalı soyqırımı – bütün bunların hamısı, təbii ki, inkar edilir, tamamilə yalanla dolu hekayələr uydurulur. Lakin yeri gəlmişkən, onu da deməliyəm ki, elə dünən mənə bir videosüjet təqdim etdilər. Həmin videoda ABŞ Prezidentliyinə namizəd Azərbaycana qarşı ittihamlarla çıxış edir və bu zaman ermənilər tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması ilə bağlı kadrları nümayiş etdirir. Belə saxtakarlığa və həyasızlığa yol verəcək qədər simasızlaşmaq qeyri-mümkündür. İkinci Qarabağ müharibəsi zamanı Ermənistan münaqişə zonasından yüz kilometrlərlə uzaqda yerləşən şəhərlərimizi uzaqmənzilli artilleriyadan, o cümlədən ballistik raketlərdən atəşə tutdu. Bunun nəticəsində bizim uşaqlar da daxil olmaqla, 100-dən artıq mülki vətəndaşımız həyatını itirdi. Məhz sözügedən həmin namizəd, Azərbaycanı ittiham edərək, ermənilərin Gəncəyə və Bərdəyə hücum kadrlarını nümayiş etdirir. İndi bu insanlarla necə danışmaq olar, onlara nəyi izah etmək olar? Onlar heç nə eşitmək istəmirlər. Onlar mərkəzdən verilən təlimata uyğun hərəkət edirlər. Ona görə də biz indi Azərbaycana qarşı aparılan misli görünməmiş informasiya müharibəsi ilə üz-üzə qalmışıq. Biz, əlbəttə, öz gücümüzlə buna müqavimət göstəririk, baş verənlərlə bağlı həqiqətləri çatdırmağa çalışırıq və çatdırırıq. Ancaq başa düşmək lazımdır ki, güclər qeyri-bərabərdir. Çoxillik müstəmləkəçilik tarixinə malik Fransa kimi ölkələrin dünya üzrə media resursları bizdəkindən qat-qat çoxdur.

Lakin bununla belə, biz müxtəlif platformalardan və beynəlxalq təşkilatlardan, habelə digər formalardan istifadə edərək, baş verənlər barədə həqiqətləri çatdırırıq və bundan sonra da çatdıracağıq.

Fransadan danışanda, bu ölkənin rəhbərliyinin 2020-ci ilin bütün dövründən başlayan və indi də davam edən qeyri-konstruktiv və təxribatçı rolunu qeyd etmək istərdim. Azərbaycanın ünvanına çoxsaylı ittihamlar, əsassız təhdidlər və şantaj heç bir səmərə vermədi. Fransa Prezidentinin bu yaxınlarda Azərbaycanın beynəlxalq hüquqla problemləri olduğuna dair verdiyi bəyanat yalnız gülüş doğura bilər. Çünki Azərbaycan beynəlxalq hüququ pozmayıb. Biz öz ərazimizdə döyüşmüşük, separatizmi aradan qaldırmışıq, bütün humanitar normalara, Cenevrə Konvensiyasına əməl etmişik. Beynəlxalq hüququ isə 30 il ərzində Fransanın əlaltısı, bu gün onun əsas müttəfiqi olan Ermənistan başqa dövlətin ərazisini işğal edərək pozub. Necə deyərlər, öz gözündə tiri görməyib başqasının gözündə tük axtarmaq lazım deyil. Fransız rejimi milyon yarım əlcəzairlini təkcə əlcəzairli və müsəlman olduğuna görə məhv edib. Bu soyqırımıdır. Hələ Fransanın Afrikanın digər hissələrində və bütün dünyada qanlı cinayətlərini demirəm. Fransanın bu gün müstəmləkələr saxlaması da ağlasığmazdır. Azərbaycan və «Qoşulmama Hərəkatı»nın sədri kimi, şəxsən mənim tərəfimdən bu məsələ dəfələrlə «Qoşulmama Hərəkatı»nın sammitlərində qaldırılıb və qanlı müstəmləkə keçmişi olan və hətta bu gün bəzi Afrika ölkələrinin nə qədər səy göstərsələr də, xilas

ola bilmədikləri bu ölkə bizi beynəlxalq hüququ pozmaqda ittiham edir. Bu absurddur.

Daha bir məsələ. İndi bəzi ölkələr və beynəlxalq təşkilatlar Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasında vasitəçilik xidmətləri göstərməyə çalışır. Mən bu yaxınlarda demişəm ki, əgər bu siyasət birtərəfli xarakter daşımırsa və qərəzli deyilsə, biz bu cəhdləri qəbul edirik. Amma Fransanın bir tərəfdən, bütün diplomatik normaları pozduğunu, təhqirlərlə səciyyələnən bəyanatlarını, çirkin uydurmalarını, təxribat və yalanlarını görürüksə, digər tərəfdən, onun vasitəçilik xidmətləri göstərmək cəhdləri heç bir məntiq çərçivəsinə sığmır. Bizə belə vasitəçilər lazım deyil. Bu, birincisi. İkincisi, kimsə vasitəçilik etmək istəyirsə, bu, PR-aksiyası xarakteri daşımamalı, əməldə nəticəyə yönəlməlidir.

Həmçinin sizə məlumat vermək istəyirəm ki, oktyabrın 12-də, bir gün sonra Rusiya tərəfinin təklifi ilə Rusiya, Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Bişkekdə görüşü olmalı idi. Biz Rusiya Federasiyasının vasitəçiliyini minnətdarlıqla qəbul edirik, çünki Rusiya bizim qonşumuz, müttəfiqimiz, həmçinin bizim regionda yerləşən, minlərlə kilometr uzaqda olan ölkələrdən fərqli olaraq, qonşuluqda yerləşən Ermənistanın da müttəfiqidir.

Təbii ki, ölkələrimiz arasında münasibətlərin tarixi, əlbəttə, Rusiya tərəfinin vasitəçiliyini nəzərdə tutur. Biz bu təklifi müsbət qarşıladıq və Xarici İşlər nazirimiz Rusiya və erməni həmkarları ilə görüşməyə hazır idi. Təəssüf ki, erməni tərəfi bu gö-

rüşdən imtina etdi. İndi sual yaranır: Ermənistan sülh istəyirmi? Zənnimcə, xeyr, çünki sülh istəsəydi, bu imkandan imtina etməzdi. Ermənistanın baş naziri 6 saata Qranadaya uçur, orada Azərbaycansız Azərbaycanın müzakirə edildiyi mənasız görüşdə iştirak edir, amma 2-3 saata Bişkekə uça bilmir, onun mühüm işləri varmış. Bax, biz bütün bunları açıq deməliyik. Bütün bunları hamı görür, ancaq bunu danışmaq və nəzərə almaq lazımdır.

Öz şərhlərimə yekun vuraraq onu da demək istərdim ki, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasına gəldikdə, biz buna hazırıq. Biz sülh sazişi üzərində işi davam etdirməyə hazırıq. Erməni tərəfinin Rusiya Federasiyasının vasitəçiliyindən imtina edəcəyi təqdirdə, düşünürəm ki, Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirləri arasında birbaşa danışıqlar alternativ ola bilər. Hər hansı digər platformalar öz xidmətlərini təklif edən həmin ölkələrin Azərbaycana deyil, həqiqətə, haqlı mövqeyə və beynəlxalq hüquqa münasibəti nəzərə alınmaqla tərəfimizdən təhlil ediləcək.

Vaxt tapıb gəldiyinizə görə bir daha sizə təşəkkürümü bildirmək istərdim. İndi hər yerdə çətin zamandır, hamının işi çoxdur, amma bu gün sizin Bakıda olmağınız həm də ölkəmizə, dövlətlərimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın səviyyəsinə münasibətinizi göstərir və keçmiş SSRİ məkanında mühüm təhlükəsizlik amilidir. Zənnimcə, əməkdaşlığımızı möhkəmləndirməliyik. Tarixi əlaqələr, ortaq keçmişimiz – bütün bu amillər MDB məkanında dostluğun möhkəmlənməsinə və qarşılıqlı

dəstəyə kömək edəcək. Bir daha sizi salamlayır, bugünkü tədbirdə uğurlar diləyirəm.

* * *

**Aleksandr Bortnikov** (*Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru, MDB dövlətlərinin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının sədri*): Hörmətli İlham Heydər oğlu!

Əvvəlcə, MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının növbəti iclasının Azərbaycanda keçirilməsinə şərait yaratdığınız üçün Sizə təşəkkür etmək istəyirəm. Bu, artıq Şuramızın fəaliyyəti dövründə keçirdiyimiz 5-ci iclasdır. Azərbaycan həmişə şuranın işinin təşkili üçün əlverişli və gözəl şərait yaradır. Əlbəttə, biz bugünkü tədbirimizin hazırlanmasında aparılan ilkin işlərə görə Azərbaycan Təhlükəsizlik Xidmətinin rəhbərinə də minnətdarıq. Demək istəyirəm ki, fəaliyyət göstərdiyi dövr ərzində şura öz əhəmiyyətini sübut edib. Sizin bu gün xüsusi xidmət orqanlarının rəhbərlərinə çatdırdığınız məsələlərin əksəriyyəti Sovet İttifaqının süqutundan sonra qarşılaşdığımız problemlərin fonunda real olaraq mövcuddur.

Çox təəssüf ki, hər bir respublika, hər bir suveren dövlət bu və ya digər dərəcədə bizim şuranın tədbirlərində müzakirə etdiyimiz problemləri yaşayıb. Bunlar bizim son illər daim bəhs etdiyimiz separatçılıq və ekstremizm təzahürləridir. Biz bu və ya digər dərəcədə bununla qarşılaşmışıq. Biz bila-

vasitə dövlətlərimizin təhlükəsizliyi, suverenliyi, Konstitusiya quruluşu ilə bağlı məsələlərdən danışırıq, belə ki, həm ölkənin daxilində olan, həm də xarici amillərlə bağlı bəzi problemlərin hamısı ümumilikdə təhlükəsizlik məsələlərinə təsir göstərir.

Çox təəssüf ki, son vaxtlar MDB dövlətlərinin, demək olar ki, hamısı Sizin indi söylədiyiniz bu və ya digər məsələlərlə qarşılaşır. Hesab edirəm ki, bugünkü iclasımız birgə işimizin bütün istiqamətləri üzrə irəliləməyə kömək edəcəkdir.

İlham Heydər oğlu, yaradılmış şəraitə və bugünkü görüşdə bizə verdiyiniz tövsiyələrə, tarixi arayışa, hazırda bizim içərisində olduğumuz MDB məkanında və regionda baş verən proseslərin əsaslandırılmasına görə bir daha Sizə təşəkkür etmək istəyirəm. Bu, baş verənlərin anlaşılması və obyektiv qiymətləndirilməsi baxımından çox əhəmiyyətlidir. Əlbəttə, bugünkü iclasın nəticələrindən gələcəkdə dövlətlərimizin təhlükəsizliyinin təmin edilməsi məsələlərinin həllində maksimum dərəcədə səmərəli və məhsuldar istifadə etmək üçün bizdən asılı olan hər şeyi edəcəyik. Çox sağ olun.

**İSPANİYA KRALI ƏLAHƏZRƏT**
**VI FELİPEYƏ**

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İspaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 oktyabr 2023-cü il*

## QIRĞIZ RESPUBLİKASINA SƏFƏR

*12 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün oktyabrın 12-də Qırğız Respublikasına səfərə gəlmişdir.*

*Bişkek şəhərinin «Manas» Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini Qırğızıstan Nazirlər Kabinetinin Sədri, Prezident Administrasiyasının rəhbəri Akılbek Japarov və digər rəsmi şəxslər qarşıladılar.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Bişkek*

*12 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 12-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.*

**Vladimir Putin:** Hörmətli İlham Heydər oğlu, Sizi görməyimə çox şadam. Biz sonuncu dəfə Sizinlə telefonla danışmışdıq. Əlbəttə, açıq demək lazımdır ki, burada bir nömrəli məsələ Qarabağ ətrafındakı vəziyyətdir. Bizim başqa gündəliyimiz də var, o, kifayət qədər genişdir. Təklif edirəm ki, işimizi aşağıdakı kimi quraq: biz ikinci hissədən başlaya bilərik, həmkarlarımıza öz fikirlərini söyləməyə, danışmağa imkan verək. Sonra bir daha üz-üzə qalaq və söhbət edək, məsələlərin bütün kompleksi, o cümlədən belə desək, həssas məsələlər üzrə danışaq.

**İlham Əliyev:** Vladimir Vladimiroviç, sağ olun. Sizi yenidən görməyimə şadam. Sizin də qeyd etdiyiniz kimi, biz bu yaxınlarda söhbət etmişik. Sevindirici haldır ki, Siz Qırğızıstana dövlət səfəriniz çərçivəsində görüşmək üçün vaxt tapdınız. Əs-

lində məsələlər çoxdur. Hesab edirəm ki, Sizin təklifiniz tamamilə məntiqlidir. Biz həmkarlarımızla ikitərəfli gündəliklə bağlı danışacağıq, həm də bizim danışmağa mövzularımız çoxdur. Bu ilin həm əmtəə dövriyyəsi, həm sənaye kooperasiyası, həm də nəqliyyat sahəsində əməkdaşlıq üzrə nəticələri olduqca yaxşıdır. Çoxlu layihələr vardır. Sonra isə regional mövzulara və təhlükəsizlik məsələlərinə keçərik. Görüşə görə bir daha təşəkkür edirəm.

*Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafından, xüsusilə ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olundu.*

*Regionlararası əməkdaşlıq məsələsinə toxunularaq, Azərbaycanın Rusiyanın 70 regionu ilə uğurlu əməkdaşlığı qeyd edildi, bu xüsusda mütəmadi əsasda keçirilən regionlararası forumun vacib platforma olduğu bildirildi.*

*Söhbət zamanı Şimal–Cənub nəqliyyat dəhlizinin inkişafından, onun potensialının genişləndirilməsindən və bütövlükdə həm dəmir yolu, həm də avtomobil yolları vasitəsilə yükdaşımaların həcminin bu marşrut boyunca artmasından məmnunluq ifadə olundu.*

*Humanitar sahədə əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, bu baxımdan Azərbaycanda rus dilinə qayğı, xeyli sayda ali və orta təhsil müəssisəsində rus dilinin tədrisi qeyd edildi.*

*Söhbət zamanı kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsinin önəminə də toxunuldu.*

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEVİN MDB-nin FƏXRİ NİŞANI İLƏ TƏLTİF OLUNMASI MƏRASİMİNDƏ İŞTİRAK

*Bişkek*

*13 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də MDB Dövlət Başçıları Şurasının iclasında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin MDB-nin Fəxri nişanı ilə təltif olunması mərasimində iştirak etmişdir.*

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK

*Bişkek*

*13 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir.*

*Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.*

*İclasda iştirak edən dövlət başçıları birgə foto çəkdirdilər.*

*Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi.*

**Sadır Japarov**: Çıxış üçün söz Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə verilir. Buyurun, söz Sizindir.

**İlham Əliyev**: Hörmətli Sadır Nurqojoyeviç, hörmətli dövlət başçıları! Əvvəlcə, qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğız Prezidenti Sadır Nurqojoyeviç Japarova təşəkkür etmək istərdim.

Şadam ki, Qırğızıstan və Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı əldə olunmuş razılaşmalar yerinə yetirilir. Azərbaycan Qırğızıstanda investisiya layihələrini həyata keçirməyə başlayıb. Əməkdaşlığı dərinləşdirmək məqsədilə Azərbaycan–Qırğızıstan İnvestisiya Fondu yaradılıb. Fürsətdən istifadə edərək, Qırğızıstan rəhbərliyini ölkənin sosial-iqtisadi inkişafında uğurları münasibətilə təbrik etmək istərdim.

Rusiya Federasiyasının növbəti ildə MDB-də sədrliyinin həyata keçirilməsində hörmətli Vladimir Vladimiroviç Putinə uğurlar diləmək istərdim.

Tədbirimizin əlamətdar hadisəsi Özbəkistan Prezidenti, hörmətli Şavkat Miromonoviç Mirziyoyevin MDB-nin Fəxri nişanı ilə təltif edilməsidir. Şavkat Miromonoviçi bu layiqli mükafata görə təbrik edirəm. Qardaş Özbəkistanla bağlı olan digər mühüm hadisə Səmərqənd şəhərinin 2024-cü ildə «Birliyin mədəniyyət paytaxtı» elan edilməsi ilə bağlı qərardır.

Humanitar sahə Birliyin çərçivəsində əsas istiqamətlərdən biridir. Azərbaycan bu sahədə əməkdaşlığımızın inkişafına böyük töhfə verir. Azərbaycanın 2025-ci ildə Üçüncü MDB oyunlarının keçirilməsi üzrə namizədliyini dəstəklədikləri üçün həmkarlarıma minnətdarlığımı bildirmək istərdim.

Əminəm ki, Üçüncü MDB oyunları idman sahəsində əməkdaşlığımızı möhkəmləndirməklə yanaşı, Birlik məkanında uğurlu qarşılıqlı fəaliyyətimizin daha bir nümayişi olacaqdır.

Fürsətdən istifadə edərək, Belarus Prezidenti, hörmətli Aleksandr Qriqoryeviç Lukaşenkonu İkinci MDB oyunlarının uğurla keçirilməsi münasibətilə təbrik etmək istərdim.

Hörmətli həmkarlar, iqtisadi əlaqələrimizin möhkəmlənməsi müsbət nəticə verir. Keçən il Azərbaycan ilə MDB ölkələri arasında əmtəə dövriyyəsinin həcmi təxminən 30 faiz artıb. Bu il artım 20 faizdən də çoxdur. Azərbaycan MDB-nin bir çox ölkələri üçün tranzit-nəqliyyat sahəsində etibarlı tərəfdaşdır. MDB-nin bir çox üzv ölkələri Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri üzrə Azərbaycanın tranzit imkanlarından fəal istifadə edir. Bu iki nəqliyyat dəhlizinin ötürmə qabiliyyətinin genişləndirilməsi üzrə həyata keçirilən və perspektiv layihələr ölkələrimizin nəqliyyat təhlükəsizliyinin möhkəmləndirilməsi işinə və əmtəə dövriyyəsinin artırılmasına xidmət edəcək.

Bir daha tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğızıstan Prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, sammitin nəticələri gələcəkdə əməkdaşlığımızın möhkəmlənməsinə xidmət edəcək. Diqqətinizə görə təşəkkür edirəm.

**Sadır Japarov:** Sağ olun, İlham Heydər oğlu.

* * *

*Sonra MDB Dövlət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirdi.*

*Qırğız Prezidenti Sadır Japarov iclasda aparılan müzakirələrin MDB-yə üzv ölkələr arasında əmək-*

*daşlığın inkişafına töhfə verəcəyini vurğuladı. Sadır Japarov MDB-yə sədrliyin Qırğızıstandan Rusiyaya keçdiyini elan etdi.*

*Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ölkəsinin MDB-yə sədrliyi dövründə prioritet hədəfləri barədə məlumat verdi. Vladimir Putin MDB Dövlət Başçıları Şurasının növbəti iclasının gələn ilin oktyabrında Moskvada keçiriləcəyini vurğuladı.*

*İclasda çıxış edən MDB-nin baş katibi Sergey Lebedev imzalanacaq sənədlər barədə məlumat verdi.*

*Daha sonra sənədlər imzalandı.*

*Bununla da MDB Dövlət Başçıları Şurasının iclası başa çatdı.*

## MDB DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*Bişkek*

*13 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən dövlət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.*

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri oktyabrın 13-də başa çatdı.*

*Bişkek şəhərinin «Manas» Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini rəsmi şəxslər yola saldılar.*

## TÜRKSOY-un YARADILMASININ 30 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ TƏDBİRİN İŞTİRAKÇILARINA

Hörmətli xanımlar və cənablar!

Sizi Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının – TÜRKSOY-un yaradılmasının 30-cu ildönümü münasibətilə Bakıda keçirilən təntənəli mərasimdə ürəkdən salamlayıram.

Türk Dünyası öz qədim və möhtəşəm mədəniyyəti ilə bəşər sivilizasiyası tarixinə iftixar dolu parlaq səhifələr yazmışdır. Türk xalqları şanlı keçmişlərindən güc alaraq zamanın sınaqlarından daim alnıaçıq çıxmış, günümüzədək milli mədəni özünəməxsusluğu qoruyub saxlamışlar. Misilsiz zənginliyi ilə seçilən ümumtürk mədəni irsinin mühafizə olunması, bu böyük sərvətin gələcək nəsillərə çatdırılması və dünyaya tanıdılması işində TÜRKSOY qardaş türk ölkələri arasında yaradılmış ilk beynəlxalq qurum kimi, ötən müddətdə təqdirəlayiq xidmətlər göstərmişdir.

Məhz TÜRKSOY-un təşkilatçılığı və bilavasitə iştirakı ilə ənənəvi şəkil alan layihələr, müntəzəm keçirilən mədəniyyət günləri, incəsənət festivalları, həmçinin Türk Dünyasının şah əsərlərinin, əlamətdar tarixi-mədəni hadisələrinin və görkəmli şəxsiyyətlərinin təntənə ilə qeyd olunan yubileyləri türk

xalqları arasında qarşılıqlı əlaqələri dərinləşdirmiş və möhkəmlətmişdir. Təşkilat üzv ölkələrin mədəniyyət və incəsənət xadimlərinin yaxınlaşması üçün bu gün də var qüvvəsini əsirgəmir. Onun fəaliyyəti türk dövlətləri rəhbərlərinin bütün zirvə toplantılarında, dövlət və hökumət başçılarının birgə bəyannamələrində həmişə yüksək qiymətləndirilmişdir.

Ortaq türk mirasının qorunması və təbliği ilə bağlı gerçəkləşdirdiyi irimiqyaslı layihələrlə Azərbaycan TÜRKSOY-a hər zaman dəstəyini ifadə etmiş, türkdilli ölkələrin mədəni inteqrasiyasının geniş vüsət almasına çalışmışdır. Təşkilatla respublikamız arasında əməkdaşlıq münasibətləri hazırda ən yüksək səviyyədədir. Şuşa şəhərinin 2023-cü ildə «Türk Dünyasının mədəniyyət paytaxtı» elan edilməsi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumunun və TÜRKSOY Mədəniyyət Günlərinin keçirilməsi bu istiqamətdə birgə səylərimizin bariz göstəriciləridir.

Türk Dünyası birliyinin daha da möhkəmləndirilməsi və müştərək mədəni-mənəvi dəyərlərimizin layiqincə qorunub yaşadılması yolunda hər birinizə yeni-yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 oktyabr 2023-cü il*

## TƏRTƏR RAYONUNA SƏFƏR

*15 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Tərtər rayonuna səfər etmişdir.*

*Dövlət başçısı Tərtər rayonunun Suqovuşan qəsəbəsində istirahət parkının açılışı mərasimində iştirak etdi.*

*Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev istirahət parkında görülmüş işlər barədə dövlət başçısına məlumat verdilər.*

*Bildirildi ki, ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Suqovuşan su anbarının ətrafında yaradılmış parkda əhalinin asudə vaxtının səmərəli təşkili üçün sahilboyu gəzinti cığırları salınıb, oturacaqlar, söhbətgahlar, uşaqlar üçün əyləncə meydançası, idman qurğuları quraşdırılıbdır. Ərazisi 7,5 hektar olan parkda, həmçinin turist informasiya mərkəzi, kafe, üzən estakada, turistlərə xidmət göstərəcək nəqliyyat vasitələri üçün avtodayanacaq yaradılıb. Burada geniş yaşıllaşdırma işləri görülüb, 5 minə yaxın ağac və kol əkilibdir.*

*Xatırladaq ki, Suqovuşan istirahət parkının təməli 2022-ci il martın 20-də Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Həmçinin məlumat verildi ki, Suqovuşanda turizm infrastrukturunun yaradılması prosesinin ikinci mərhələsində yeni körpünün inşası, tarixi körpünün və ərazidəki məbədin, eləcə də məbədin ətrafındakı tarixi tikililərin konservasiyası, mövcud Bayraq meydanının parka adaptasiyası həyata keçiriləcək, genişmiqyaslı abadlıq işləri görüləcəkdir.*

*Bildirildi ki, 1898-ci ildə inşa edilmiş məbəd Qarabağ zonasında ənənəvi alban dini memarlıq məktəbinin elementlərini özündə ehtiva edir. O, yerli əhəmiyyətli abidə kimi, dövlət tərəfindən mühafizə olunur.*

*Həmçinin qeyd edildi ki, Suqovuşan qəsəbəsinin yerləşdiyi ərazi tarixən Qafqaz Albaniyasının tərkibinə daxil olmuş, onun sosial-mədəni və hərbi-siyasi tarixində önəmli yer tutmuşdur. Bu baxımdan qəsəbənin yaxınlığında yerləşən müqəddəs Yelisey monastırının Qafqaz Albaniyasının hökmdarı III Mömin Vaçaqanın adı ilə bağlı olması təsadüfi deyil.*

*Belə geniş ərazidə təməlqoyma mərasimindən ötən qısa müddət ərzində gözoxşayan istirahət parkının yaradılması olduqca füsunkar, bənzərsiz təbiəti olan və tarixi abidələrlə zəngin Qarabağ bölgəsinin tezliklə Azərbaycanın əsas turizm zonalarından birinə çevriləcəyini sübut edir.*

## Suqovuşan su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Tərtər rayonunda Suqovuşan su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Azərbaycan Prezidentinə görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, Suqovuşan su anbarı və magistral kanallar 1976-cı ildə istismara verilib. Su anbarının ümumi su tutumu 5,86 milyon kubmetrdir. Bəndin üstdən uzunluğu 630 metr, hündürlüyü 28 metr, eni isə 10 metrdir.*

*Dövlət başçısı su anbarında görülmüş işlərə dair videoçarxa baxdı.*

*Su anbarının yerləşdiyi ərazi 28 il işğal altında olduğundan Tərtər rayonunda 24,5 min, Ağdərə ərazisində 14,4 min, Goranboy rayonunda 7 min, Yevlax rayonunda 5,9 min, Bərdə rayonunda 12,6 min, Ağdam rayonunda 30 min, Ağcabədi rayonunda 2 min hektar olmaqla, ümumilikdə 96 min hektardan çox torpaq sahəsinin su təminatında ciddi çətinliklər yaranmışdı. Su anbarında aparılmış təmir-bərpa işləri həmin torpaq sahələrinin suvarılması işinin yaxşılaşdırılmasını təmin edəcəkdir.*

*Prezident İlham Əliyev Suqovuşan su anbarını işə saldı.*

*Qeyd edildi ki, Tərtərçay və Turağayçay çaylarından daxil olan sular su anbarında tənzimlənərək,*

*ümumi suburaxma qabiliyyəti saniyədə 70 kubmetr olan əsas magistral kanala, başlanğıcdan 5,2 kilometr sonra hər birinin suburaxma qabiliyyəti saniyədə 50 və 20 kubmetr olan sağ sahil və sol sahil magistral kanallarına verilir.*

*Bildirildi ki, su anbarında yeni inzibati bina və gözətçi binası, təmir emalatxanası və nasosxana tikilibdir.*

## SƏRSƏNG SU ANBARININ ƏRAZİSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞININ UCALDILMASI MƏRASİMİ

*15 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Sərsəng su anbarının ərazisində Azərbaycan Respublikasının Dövlət bayrağını ucaltmışdır.*

*Sonra dövlətimizin başçısı əraziyə baxış keçirdi.*

*Mühüm strateji əhəmiyyətə malik Sərsəng su anbarı ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilib. 1976-cı ildə ümummilli lider Heydər Əliyev su anbarının açılışında şəxsən iştirak edib.*

*Sərsəng su anbarı Azərbaycanın ən bol sulu çaylarından olan Tərtərçayın üzərində yerləşir. Ümumi həcmi 560 milyon kubmetr olan su anbarı Qarabağ iqtisadi rayonunun ən iri su hövzəsidir. Bəndin hündürlüyü 125, uzunluğu 555, eni isə 10,2 metrdir. Sərsəng su anbarı vasitəsilə Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Yevlax və Goranboy rayonlarında ümumilikdə 96 min hektardan çox ərazi suvarılır. Su anbarının bəndində ümumi gücü 50 meqavat olan su-elektrik stansiyası tikilibdir.*

## AĞDƏRƏ ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞININ UCALDILMASI MƏRASİMİ

*15 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağını ucaltmışdır.*

*Sonra dövlətimizin başçısı əraziyə baxış keçirdi.*

*Ağdərə şəhəri 1993-cü il iyunun 27-də işğal olunmuşdu. Bu il sentyabrın 20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Ağdərə şəhəri separatçılardan təmizlənibdir.*

## XANKƏNDİDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞINI UCALTDIQDAN SONRA XALQA MÜRACİƏT

*15 oktyabr 2023-cü il*

Əziz həmvətənlər!

Bu gün tarixi gündür. Bu gün Xankəndinin mərkəzi meydanında Azərbaycan bayrağı ucaldıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək, Prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və Qurani-Kərimə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı «Allaha şükür» deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm, inanırdıq ki, bu gün gələcək.

20 il bundan əvvəl Prezident kimi, öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir-

nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır.

Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan–Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. İqtisadiyyatımız 4 dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır.

Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm 3 il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, həm də keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq

qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik.

Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq, onlara əbədi borcluyuq. Həm 3 il bundan əvvəl, həm son 3 il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

Keçən ay antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm, dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. 17 il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək, tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə, bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq, münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu ya-

ra heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın.

Vətən müharibəsi cəmi 44 gün çəkdi. Bütün bu günlər ərzində dəfələrlə xalqa müraciət edərək, eyni zamanda, düşmənə müraciət edərək bildirmişdim ki, silahları yerə qoyun, torpaqlarımızın azad olunmasının qrafikini, tarixini verin və biz müharibəni dayandırmağa hazırıq. Biz Şuşanı – bizim müqəddəs ocağımız olan, alınmaz qala sayılan Şuşanı azad edəndən sonra artıq düşmən öz məğlubiyyətini dərk etdi, ağ bayraq qaldırdı və biz müharibəni dayandırdıq.

Xatırlayıram, o vaxt bəziləri sual verirdi: nə üçün biz o vaxt – noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik? Bu gün, bax, burada durarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da – noyabrın 10-da və ondan sonrakı dövrdə də çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə bax, burada dalğalanan Azərbaycan bayrağıdır.

Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss etmişəm, bu inam daha da artmışdır. Bu gün vaxtilə – hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu

mən bilirəm. İkinci Qarabağ müharibəsi dayandırılanda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən 3 il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan gerbi, Azərbaycan bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər.

Bu il «Heydər Əliyev ili»dir. Biz Heydər Əliyevin 100 illiyini il boyunca qeyd edirik. Necə qeyd edirik? Onun siyasətinə, onun tarixi irsinə hörmət göstərərək, onun siyasətini davam etdirərək qeyd edirik. Mən ulu öndərin ad gününü Şuşada keçirdim. Bilirəm, o vaxt bəziləri sual verirdi ki, təntənəli iclas harada keçiriləcək, təntənəli iclasda kim çıxış edəcək, hansı xarici qonaqlar gələcək? Sonra da gördülər ki, heç bir təntənəli iclas keçirilmədi. Nə üçün? Ona görə ki, bizim ulu öndərin xatirəsinə hörmətimiz əməli işlərlə ölçülməlidir. Bu, birincisi. İkincisi, Heydər Əliyev çox təvazökar insan idi, heç vaxt təmtəraqlı mərasimlər keçirmirdi. Onun 50 illiyini mən yaxşı xatırlayıram. 1973-cü ildə evdə ancaq ailə üzvləri onu qeyd etdik. 60 illiyini də xatırlayıram, o zaman Moskvada çalışırdı. Orada da heç bir qonaq yox idi. 70 illiyini Naxçıvana gələrək, atamla birlikdə qeyd etmişdim. 80 illiyini isə – artıq sağlamlığı o qədər də yerində de-

yildi – Ankarada xəstəxanada, xəstəxananın yeməkxanasında keçirmişdik. Ona görə də atamın 100 illiyini bizim üçün böyük rəmzi məna daşıyan, hər bir azərbaycanlının ürəyində yaşayan Şuşada qeyd etməli idim. Orada Azərbaycan xalqına müraciət edərək, öz ürək sözlərimi dedim. Bu gün ulu öndərin, bizim bu günü görməyən bütün həyatdan gedənlərin ruhları şaddır. Onların ruhlarını şad edən biz olmuşuq, Azərbaycan xalqı olub, onların davamçıları olub.

Ulu öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım böyük rəmzi məna daşıyır. Onu da bildirməliyəm ki, Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl – 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük facia ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir. Baxın görün, bu gün Azərbaycana ən çox düşmənçilik edən hansı ölkələrdir. Həmin ölkələr ki, o vaxt – 1992–93-cü illərdə Ermənistanın yanında idi, onları işğala təhrik edirdi, işğalı dəstəkləyirdi və onlara bəraət qazandırırdı. Heç nə dəyişməyib bu 30 il ərzində. Xalqımız böyük faciələrlə üz-üzə qalmışdı, 1 milyon insan evsiz-eşiksiz qalmışdı, torpaqlarımız tamamilə dağıdılmışdı. Bu gün azad edilmiş torpaq-

lara gələn hər bir insan öz gözləri ilə erməni vəhşiliyini görür. Bir dənə salamat bina qalmayıb. Bizə qarşı etnik təmizləmə aparılmışdır. Bizə qarşı soyqırımı törədilmişdir – Xocalı soyqırımı. 10-dan çox ölkə Xocalı soyqırımını tanıyıb, «Xocalıya ədalət!» hərəkatı geniş beynəlxalq vüsət almışdır. Bax, o çətin dövrdən bu günə qədər keçdiyimiz yol şərəf və ləyaqət yoludur. Biz toparlandıq, güc yığdıq. Azərbaycan xalqı 1993-cü ildə öz müdrikliyini bir daha göstərdi, ulu öndərə dəstək verdi, onu Prezident vəzifəsinə seçdi və o vaxtdan bu günə qədər inkişaf yolu ilə gedir. Son 20 il ərzində isə bu inkişaf daha da sürətlidir və bütün sahələrdə özünü göstərir.

Bu bina keçən əsrin 60-cı illərində inşa edilmişdir, Azərbaycanın büdcəsi hesabına. O vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası idi. Buna partkom binası deyirdilər. Bu binada bir çox şəxslər oturub. Vaxt var idi burada azərbaycanlılarla ermənilər dostluq şəraitində yaşamışlar. Vaxt var idi nəinki Xankəndidə, Qarabağda, eyni zamanda, Bakıda, Gəncədə, İrəvanda, Göyçədə, Zəngəzurda, Dərələyəzdə, Basarkeçərdə azərbaycanlılar və ermənilər dostluq şəraitində yaşamışlar. Mən o illəri xatırlayıram və xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdilər. Düz 18 il. 1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi. Mən xatırlayıram, atamla birlikdə burada olmuşam. O ab-havanı mən xatırlayıram. Burada, sözün əsl mənasında, səmimi bir ab-hava

şəraitində təmaslar var idi, birgə işlər görülürdü. Bu gün Sərsəng su anbarının üzərində Azərbaycan bayrağını qaldırdıq. Heydər Əliyevin təşəbbüsü ilə bölgənin, kənd təsərrüfatının inkişafı üçün 1976-cı ildə Sərsəng su anbarı, Suqovuşan su anbarı inşa edilmişdi. O vaxt nə qədər böyük investisiyalar qoyulmuşdu. Ağdamdan Xankəndiyə dəmir yolu çəkildi, burada ali məktəb yaradıldı və Xankəndidə gördüyünüz binaların mütləq əksəriyyəti məhz o illərdə inşa edilmişdi. Kənd təsərrüfatı inkişaf edirdi. O vaxt təkcə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti 100 min tondan çox üzüm tədarük edirdi. Bütün bunlar o vaxt kolxozlarda, sovxozlarda işləyənlər üçün gəlir mənbəyi idi, insanlar burada yaxşı yaşayırdılar. Heç bir ayrı-seçkilik, diskriminasiya olmamışdır. Bu sözlərimi təsdiq etmək üçün bir misal gətirə bilərəm: o vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin 9 nəfərdən ibarət büro üzvü var idi. Onlardan 8-i erməni, 1-i azərbaycanlı idi, o da Şuşa Şəhər Partiya Komitəsinin birinci katibi. Yaxşı, əgər ayrı-seçkilik var idisə, onda bu gətirdiyim misal nəyi göstərir? Birinci katib erməni, icraiyyə komitəsinin sədri erməni, bütün digər vəzifəli şəxslər də – burada heç bir ayrı-seçkilik yox idi. Azərbaycanda erməni dilində qəzet dərc edilirdi, yəni o illərdə olub və biz o illəri də kənara qoya bilmərik. Əksinə, o illəri xatırlayanlar o xatirələri gənc nəsillə bölüşsünlər. Çünki o olub, ancaq sonra nə olub? 1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı, Sovet İttifaqı Kommunist Partiyasının büro üzvlüyündən çıxarıldı. Sovet İttifaqının Nazirlər Soveti Sədrinin Birinci

müavini vəzifəsindən də çıxarıldı. İki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Bunu da qaldıran Moskvada oturan erməni millətçisi idi. Bu məsələ harada qaldırıldı, Fransanın bir qəzetində, yenə Fransa. Yəni bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi faktiki olaraq, vəziyyəti nəzarətdən buraxdı, qorxaqlıq, acizlik, qətiyyətsizlik göstərdi. Faktiki olaraq, o vaxt millətçilər buranı zəbt etmişdilər, bax, bu meydanda nə qədər anti-Azərbaycan şüarı ilə mitinqlər keçirilmişdir və bütün bunlar millətçiləri daha da ruhlandırırdı. Ermənistandan buraya durmadan erməni millətçiləri, daşnaklar, qaniçənlər, beynəlxalq terrorçular gəlirdilər. Xalqımıza qarşı etnik təmizləmə siyasəti məhz buradan başlanmışdı. Bax, o illərdə o binada oturanlar bütün erməni və Azərbaycan xalqlarının faciələrinin səbəbkarlarıdırlar. Cəmi 6 il Azərbaycan Heydər Əliyevsiz qalmışdır və bu 6 il bizim üçün faciəvi, böhranlı, utancverici illər kimi tarixdə qaldı. Torpaqlar işğal altına düşdü, bir-birini dəyişən antimilli hökumətlər faktiki olaraq, ancaq öz şəxsi maraqlarını qorumağa çalışırdılar, həm sovet dövründə, həm də müstəqillik dövründə. Xüsusilə AXC–Müsavat antimilli cütlüyünün xəyanətkar və satqın fəaliyyəti nəticəsində bütün bu boyda ərazi işğal altına düşdü, sonra da qorxaqcasına öz vəzifələrini guya donduraraq kənara çəkildilər.

Yenə Heydər Əliyevin dühası, onun siması, Heydər Əliyev amili Azərbaycan xalqının yardımına yetişdi və biz haqlı olaraq ulu öndəri xilaskar adlandırırıq. O vaxt Azərbaycanın dövlət müstəqilliyi əldən gedə bilərdi.

Bu binada ən ali kürsüdə oturanların bəziləri indi Bakıdadır. Onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında. Özünü «prezident» adlandırmış 3 təlxək, bax, burada oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq. Bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il. 3 il bundan əvvəl Şuşada bizim bayrağımız qaldırıldı. Biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytardıq, ərazi bütövlüyümüzü bərpa etdik, eyni zamanda, öz ləyaqətimizi bərpa etdik.

Bax, burada oturmuş özünü «prezident» adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü «baş nazir» adlandıran bir adam görəsən bu gün də bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq

təcridxanasında verilir. Burada özünü «xarici işlər naziri» adlandıran bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir.

Bizim bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar! Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax, bu kadrlara yaxşı baxsın.

Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldırdım və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

*Sonra dövlətimizin başçısı şəhərin ərazisinə baxış keçirdi.*

# XANKƏNDİ ŞƏHƏRİNİN KƏRKİCAHAN QƏSƏBƏSİNİ ZİYARƏT

*15 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərinin işğaldan azad edilmiş Kərkicahan qəsəbəsini ziyarət etmişdir.*

*Dövlətimizin başçısı qəsəbənin ərazisinə baxış keçirdi.*

*Qəsəbə 1991-ci il dekabrın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. Bu il sentyabrın 19–20-də Qarabağda həyata keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycan Ordusu Kərkicahan qəsəbəsini separatçılardan azad etdi.*

## ŞUŞA RAYONUNUN MALIBƏYLİ KƏNDİNİ ZİYARƏT

*15 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Şuşa rayonunun işğaldan azad edilmiş Malıbəyli kəndini ziyarət etmişdir.*

*Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirdi.*

*Malıbəyli kəndi 1992-ci il fevralın 11-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.*

*Kənd 2023-cü il sentyabrın 19–20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizləndi.*

## XOCALI ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞININ UCALDILMASI MƏRASİMİ

*15 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağını ucaltmışdır.*

*Sonra dövlətimizin başçısı şəhər ərazisinə baxış keçirdi.*

*Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə işğal olunmuşdu. Erməni işğalçıları Xocalıda Azərbaycan xalqına qarşı tarixin ən qanlı soyqırımlarından birini törədib. Bu soyqırımı nəticəsində 613 dinc sakin qətlə yetirilib.*

*Xocalı şəhəri 2023-cü il sentyabrın 19–20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizləndi. Bu şəhərdə Azərbaycan bayrağının dalğalanması Xocalı faciəsi qurbanlarının qanının yerdə qalmadığını bir daha nümayiş etdirir.*

# XOCALI RAYONUNUN ƏSGƏRAN QƏSƏBƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞININ UCALDILMASI MƏRASİMİ

*15 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı rayonunun Əsgəran qəsəbəsində Azərbaycan Respublikasının Dövlət bayrağını ucaltmışdır.*

*Sonra dövlətimizin başçısı qəsəbə ərazisinə baxış keçirdi.*

*Əsgəran qəsəbəsi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu.*

*Qəsəbə 2023-cü il sentyabrın 19–20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizləndi.*

## Əsgəran qalasını ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Əsgəran qalasını ziyarət etmişdir.*

*Dövlətimizin başçısı Əsgəran qalasına və əraziyə baxış keçirdi.*

*XVIII əsrdə Qarabağ xanı Pənahəli xanın göstərişi ilə inşa olunmuş Əsgəran qalası Azərbaycan memarlığının parlaq nümunələrindəndir. Qala Şuşadan 24, Xocalıdan isə 5 kilometr məsafədə yerləşir. Xocalı şəhəri 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduqdan sonra qala dağıntılara məruz qaldı.*

*Bu il sentyabrın 19–20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Əsgəran qalası separatçılardan azad edildi.*

## XOCAVƏND ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞININ UCALDILMASI MƏRASİMİ

*15 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocavənd şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağını ucaltmışdır.*

*Sonra dövlətimizin başçısı şəhər ərazisinə baxış keçirdi.*

*Xocavənd şəhəri 1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.*

*Şəhər 2023-cü il sentyabrın 19–20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizləndi.*

## AĞDAM–FÜZULİ AVTOMOBİL YOLUNDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*15 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Ağdam–Füzuli avtomobil yolunun tikintisi işlərinin gedişi ilə tanış olmuşdur.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, 2021-ci ilin oktyabrında təməli qoyulan və inşası sürətlə davam edən Ağdam–Füzuli avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır.*

*Bərdə–Ağdam avtomobil yolunun davamı olan bu yol Ağdam, Ağcabədi, Füzuli rayonlarının ərazisindən keçir. Uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla, 1-ci texniki dərəcəyə uyğun inşa edilir.*

*Torpaq işlərinin icrası çərçivəsində yararsız süxurun çıxarılması, qazma, yatağın genişləndirilməsi işləri davam etdirilir. Həmçinin yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə müxtəlifölçülü suötürücü borular, su keçidləri, zəruri olan yerlərdə*

*yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin tikintisi aparılır. Yol üzərində layihələndirilən körpülərin tikintisi davam etdirilir və yol əsasının inşası bitən hissələrdə asfalt-beton örtüyün döşənməsi işləri görülür.*

*Sonra yolun tikintisi ilə bağlı görülən işləri əks etdirən videoçarx nümayiş olundu.*

*Yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yolboyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcəkdir.*

## FÜZULİ RAYONUNA SƏFƏR

*16 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli rayonuna səfər etmişdir.*

*Dövlət başçısı əvvəlcə Füzuli rayonunun Cuvarlı kəndinin təməlinin qoyulması mərasimində iştirak etdi.*

*Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov kənddə görüləcək işlər barədə məlumat verdi.*

*Bildirildi ki, Cuvarlı kəndinin layihələndirilən ümumi ərazisi 115 hektardır. Kəndə 1697 nəfərin köçürülməsi planlaşdırılıb. Burada ümumilikdə 291 fərdi ev və 2–4 mərtəbəli 21 yaşayış binası tikiləcək. Kəndin inşasının birinci mərhələsi üçün 28,1 hektar torpaq sahəsi ayrılıb və 129 fərdi ev tikiləcək. Bu mərhələdə kəndə 129 ailənin – 508 nəfərin köçürülməsi planlaşdırılır.*

*Kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, kafe-restoranın, mərasim evinin, çörək sexinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 312 şagird-yerlik orta məktəbin, 50 yerlik uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin, kitabxananın, ticarət obyektinin, bazarın, qonaq evinin tikilməsi planlaşdırılıb.*

*Diqqətə çatdırıldı ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin inşası nəzərdə tutulub.*

*Prezident İlham Əliyev Cuvarlı kəndinin təməlini qoydu.*

**Qoçəhmədli kəndinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli rayonunun Qoçəhmədli kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.*

*Bildirildi ki, Qoçəhmədli kəndinin layihələndirilən ümumi ərazisi 94,62 hektardır. Kəndə 1364 nəfərin köçürülməsi nəzərdə tutulub. Burada ümumilikdə 341 fərdi evin tikilməsi planlaşdırılıb. Kəndin birinci mərhələsi üçün 18,1 hektar torpaq sahəsi ayrılıb və burada 204 fərdi ev inşa olunacaq. Bu mərhələdə kəndə 204 ailənin – 710 nəfərin köçürülməsi nəzərdə tutulub.*

*Kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, kafe-restoranın, mərasim evinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin və kitabxananın, ticarət obyektinin, qonaq evinin tikintisi planlaşdırılıb. Burada əhalinin məşğulluğu üçün hər cür şərait yaradılacaq. Qoçəhmədli kən-*

*dində 264 şagird-yerlik məktəb, 25 yerlik uşaq bağçası da inşa olunacaq.*

*Diqqətə çatdırıldı ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Burada da enerjiyə qənaət məqsədilə alternativ enerjidən istifadə olunacaq və istilik tutumlu evlər tikiləcək.*

*Prezident İlham Əliyev Qoçəhmədli kəndinin təməlini qoydu.*

**Füzuli şəhərində idman kompleksinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində idman kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Gənclər və İdman naziri Fərid Qayıbov dövlət başçısına kompleks barədə məlumat verdi.*

*Bildirildi ki, ümumi sahəsi 17 hektar olan kompleksin baş planına əsasən, burada 200 yerlik tamaşaçı tribunası olan basketbol, voleybol, həndbol, badminton, minifutbol məşqlərinin və yarışların, eyni zamanda, idmanın müxtəlif növləri üzrə turnirlərin keçirilməsinə imkan verən universal zal inşa ediləcək. Bundan başqa, kompleksdə 100 yerlik tamaşaçı tribunası olan üzgüçülük zalı, güləş, cüdo, boks, karate növü üzrə məşq və trenajor zalları yaradılacaq. Binada inzibati otaqlar, kafe, anbar və digər texniki sahələr də nəzərdə tutulub. Burada, həmçinin sauna və masaj otaqları, hakim, həkim, şərhçilər, məşqçilər üçün otaqlar və digər texniki-köməkçi otaqlar olacaqdır.*

*Diqqətə çatdırıldı ki, plana əsasən, ərazidə süni ot örtüklü minifutbol meydançası, açıq havada idman alətləri ilə təchiz edilmiş meydança və texniki bina da yaradılacaqdır.*

*Prezident İlham Əliyev idman kompleksinin təməlini qoydu.*

*İdman kompleksi Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı»na əsasən inşa olunacaqdır.*

## Füzuli şəhərində ikinci yaşayış kompleksinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində ikinci yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına kompleks barədə məlumat verildi.*

*Bildirildi ki, Füzuli şəhərinin baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. İnşa olunacaq ikinci yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidən ibarətdir. Ümumilikdə 2288 nəfər üçün nəzərdə tutulan kompleksə 9 hektardan çox ərazi ayrılıb. İkinci yaşayış kompleksində ümumilikdə 653 mənzildən 13-ü birotaqlı, 209-u ikiotaqlı, 281-i üçotaqlı, 150-si dördotaqlı olacaqdır.*

*Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcəkdir.*

*Kompleksdəki binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin olunacaq. İstilik və isti su təchizatı mərkəzləşdirilmiş qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaqdır.*

*Dövlət başçısı ikinci yaşayış kompleksinin təməlini qoydu.*

## Üçüncü yaşayış kompleksinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına kompleks barədə məlumat verildi.*

*Bildirildi ki, üçüncü yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidə inşa olunacaq. Kompleksin inşası üçün 12 hektardan çox torpaq sahəsi ayrılıb. Burada tikiləcək 863 mənzildə 3022 nəfərin yaşaması nəzərdə tutulub. Mənzillərin 18-i birotaqlı, 276-sı ikiotaqlı, 370-i üçotaqlı, 199-u dördotaqlı olacaqdır.*

*Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək.*

*Kompleksdəki binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin olunacaq. İstilik və isti su təchizatı mərkəzləşdirilmiş qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq.*

*Dövlət başçısı görüləcək işləri əks etdirən videoçarxa baxdı.*

*Sonra Prezident İlham Əliyev Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməlini qoydu.*

## İnzibati binanın təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində inzibati binanın təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına görüləcək işlər barədə məlumat verildi.*

*Bildirildi ki, inzibati binanın inşa olunacağı şəhərin mərkəzi ərazisində 12 hektardan çox sahə ayrılıb. İnzibati binanın inşası üçün isə 4,4 hektardan çox ərazi nəzərdə tutulub. Burada Parad meydanı, 1 hektar sahədə park inşa olunacaq. Beş mərtəbədən ibarət inzibati binada ən müasir şərait yaradılacaq.*

*Prezident İlham Əliyev görüləcək işləri əks etdirən videoçarxa baxdı.*

*Dövlət başçısı inzibati binanın təməlini qoydu.*

## 240 yerlik uşaq bağçasının təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində 240 yerlik uşaq bağçasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına uşaq bağçası barədə məlumat verildi.*

*Bildirildi ki, uşaq bağçasının inşası üçün 2,4 hektar torpaq sahəsi ayrılıb. Layihəyə əsasən, uşaq bağçası üçün əsas bina, oyun zonası, avtodayanacaq və texniki zona yaradılacaq.*

*Məktəbəqədər təhsil müəssisəsinin ikimərtəbəli binasında qrup, inzibati, texniki və tibb otaqları, idman və musiqi zalları, mətbəx olacaq. Burada uşaqların rahatlığı, ilkin biliklərə yiyələnmələri və əylənmələri üçün hər cür şərait təmin ediləcək. Uşaq bağçasının həyatində oyun meydançaları salınacaq və digər zəruri infrastruktur yaradılacaq.*

*Prezident İlham Əliyev görüləcək işləri əks etdirən videoçarxa baxdı.*

*Sonra dövlət başçısı uşaq bağçasının təməlini qoydu.*

# FÜZULİ ŞƏHƏRİ GÜNÜNDƏ YENİ KÖÇMÜŞ SAKİNLƏR VƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Füzuli Şəhəri Günündə Füzuli şəhərinə yeni köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

**İ l h a m Ə l i y e v:** Salaməleyküm.

**S a k i n l ə r:** Xoş gəlmisiniz! Sizi görməyimizə çox şadıq.

**Ş ə h i d b a c ı s ı:** Salam, xoş gəlmisiniz! Təbrik edirik, cənab Prezident. Var olasınız! Allaha şükür ki, Füzulidə də görüşə bildik.

**İ l h a m Ə l i y e v:** Salam. Siz də xoş gəlmisiniz!

**S a k i n l ə r:** Hər şey üçün minnətdarıq. Qürurumuzsunuz.

**İ l h a m Ə l i y e v:** Necə də gözəl gündür. Siz mənə «Xoş gəlmisiniz!» deyirsiniz. Mən işğal dövründə həm füzulililərlə, həm digər rayonlardan olan keçmiş köçkünlərlə görüşlərdə dəfələrlə deyirdim ki, gün gələcək, siz mənə «Xoş gəlmisiniz!» deyəcəksiniz və

o gün gəldi. Bu gün Füzulidə bayramdır – Şəhər Günüdür və eyni zamanda, Füzuli şəhərinin işğaldan azad olunmasının 3-cü ildönümüdür. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, Füzulidə – doğma Vətəndə rahat yaşayasınız, firavanlıq, rifah içində yaşayasınız.

Şadam ki, gənc nəsil də – füzulililərin gənc nəsli də öz doğma torpağına gəlməyə qərar verdi. Bu doğrudan da böyük hadisədir, çünki uşaqlar, yeniyetmələr, gənc nəsil bu torpaqları görməmişdilər. Onlar bu torpaqlar barədə ancaq sizin onlara danışdıqlarınızı ürəklərində saxlamışdılar. Bu, xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, biz öz doğma diyarımıza bağlı olan xalqıq.

İşğal dövründə bəziləri, xüsusilə xaricdəki bəzi dairələr hesab edirdilər ki, illər keçdikcə Azərbaycan xalqı öz torpaqlarını unudacaq, gənc nəsil, ümumiyyətlə, tam başqa bir tərzdə tərbiyə alacaq. Qloballaşan dünya haqqında bir çox fərziyyələr irəli sürülürdü. Ancaq o təhlilçilər və eyni zamanda, siyasi müstəvidə olanlar bir şeyi anlaya bilməmişlər ki, Azərbaycan xalqının öz doğma diyarına nə qədər böyük sevgisi var, biz doğma diyara nə qədər bağlıyıq.

Mənim yadımdadır, füzulililərlə və digər rayonlardan olan keçmiş köçkünlərlə çoxsaylı görüşlərimdə, xüsusilə yeni şəhərciklərin açılışı tədbirlərində deyirdim ki, bu, müvəqqəti yaşayış yeridir. Biz çalışırıq və çalışacağıq ki, sizin yaşayış səviyyənizi yaxşılaşdıraq, həyatınızı müəyyən dərəcədə yüngül-

ləşdirək, ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra Füzulidə, Ağdamda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Şuşada daha gözəl evlər tikiləcək, daha gözəl şərait yaradılacaq. Bax, o gün gəldi, artıq bu gerçəkdir, bu reallıqdır. Füzulinin yeni siması göz oxşayır.

Onu da bildirməliyəm ki, bu gün həm Füzulidə, həm bütün başqa şəhər və kəndlərimizdə həyata keçirilən layihələr dünya miqyasında şəhərsalma prinsiplərinin yeni qaydalarını təsbit edir və bunu təkcə mən yox, bir çox beynəlxalq ekspertlər qeyd edirlər. Xüsusilə, bildiyiniz kimi, Azərbaycanda iki dəfə Milli Şəhərsalma Forumu keçirilibdir, Ağdamda və Zəngilanda. Orada bizim bütün layihələrimiz təqdim edilibdir. Beynəlxalq təşkilatlar bunu çox yüksək qiymətləndiririrlər, çünki doğrudan da burada yaşayış üçün ən gözəl şərait yaradılıb, həm binaların daxili quruluşu, həm mənzillərin daxili dizaynı, həm mərtəbəlilik prinsipi, həm binaların bir-birindən aralı olması, məsafə – hər şey gözlənilib. Yəni rahat yaşamaq üçün bütün infrastruktur, şərait vardır. Bizim bütün şəhərlərimiz, bax, Füzuli kimi olacaq. Çünki Füzulidə biz birinci şəhərsalma layihəsini icra edirik. Düzdür, laçınlılar füzulililərdən bir qədər tez öz doğma yurdlarına qayıtmışlar. Amma Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma apardıqları üçün orada binaların bəziləri qalmışdı və biz o evləri sadəcə olaraq, bərpa etdik, ən gözəl şərait yaratdıq. Deməli, Laçının əvvəlki

şəhərsalma mənzərəsi yerindədir. Burada isə şəhər tamamilə yenidən qurulur.

Füzulinin timsalında, eyni zamanda, bütün dünya, hətta bunu görmək istəməyənlər görürlər və görməlidirlər ki, erməni vəhşiliyi nədən ibarətdir. Biz uzun illər Qarabağ dərdimizin həqiqətlərini dünya birliyinin diqqətinə çatdırmağa çalışanda bəziləri inanmırdı, eləlfolyo də var idi ki, inanmaq istəmirdi. Bizim əlimizdə o qədər də böyük sübutlar yox idi. Biz bilirdik ki, hər şey dağıdılıb, viran qoyulub, ancaq bu dərəcədə hətta biz təsəvvür edə bilmirdik. Çünki işğalçı dövlət heç kimi o vaxt bu bölgəyə buraxmırdı, qadağan etmişdi. Nə üçün? Çünki buraya gələn hər bir insan görəcəkdi erməni vəhşiliyi nədən ibarətdir. Onun təzahürləri hər yerdə görünür.

Mən bunu dəfələrlə demişəm, indi bir çoxları bunu bilir, amma bir daha demək istəyirəm, Füzuli azad olunanda bir salamat bina tapa bilmədik ki, bayrağımızı qaldıraq, bir hərbi hissədən başqa. Onun da həyətində dirəkdə bayrağımızı ucaltdıq. Buraya ilk dəfə gələndə, vallah, hər bir azərbaycanlı kimi, adamın ürəyi ağrıyırdı, məəttəl qalırdı, dəhşətə gəlirdi insan ki, bu dərəcədə düşmənçiliyin mənbəyi nədir?! Axı biz ermənilərə nə etmişdik?! Biz onlarla yanbayan yaşayırdıq. Onlar bizim çörəyimizi yeyiblər, bizim hesabımıza onlar üçün şəhərlər, kəndlər qurulmuşdu, infrastruktur yaradılmışdı. Sovet dövründə bütün bu işlərin hamısı Azərbaycanın büdcəsi hesabına görülmüşdü. İnsanlara zülm etmək, onlara işgəncə vermək, Azərbaycan

xalqına qarşı etnik təmizləmə aparmaq, görünür, onların ürəyində olan o qara ləkələr idi. Biz o vaxt onu bilməmişik. Biz bir növ, sadəlövh olmuşuq. Ona görə deyirəm: biz heç vaxt işğalı, əzab-əziyyəti unutmamalıyıq. Gənc nəsil də bunu bilməlidir. Bu gün bu məktəbdə oxuyan uşaqlar da bunu bilməlidirlər. Bilməlidirlər ki, bizim xalqımız hansı çətin sınaqlardan çıxıb, əyilməyib, sınmayıb, özünə inanıb, ordusuna inanıb. İnanıb ki, gün gələcək, biz burada durub sizinlə bu bayram gününü qeyd edəcəyik.

Füzuli indi tamamilə yenidən qurulur. Dünən burada olarkən bir neçə önəmli obyektin təməlini qoyduq. İki kəndin, uşaq bağçasının, idman kompleksinin, yeni yaşayış məhəllələrinin, inzibati mərkəzin təməli qoyuldu. Yəni aylar keçdikcə burada yaşayanların sayı da təbii ki, artacaq. Mənə dünən məlumat verildi ki, 800-dən çox insan artıq yerləşib. İlin sonuna qədər burada təqribən 2 minə yaxın insan yaşayacaqdır. Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda – 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq. Yəni bu, belə demək mümkündürsə, ən minimal göstəricidir. Mən əminəm ki, bundan daha böyük sayda insanlar məskunlaşacaq, çünki birincisi, bizim buna gücümüz çatır, iradəmiz var, Böyük Qayıdış Proqramı qəbul olunub, uğurla icra edilir, artıqlaması ilə icra edilir və əsas amil odur ki, bizim keçmiş köçkünlər səbirsizliklə o günləri gözləyirlər. Məsələn, mən həm

Zəngilanda, həm Laçında uşaqlarla söhbət əsnasında maraqlanırdım. Yəni Bakıda doğulmuş, böyümüş, necə deyərlər, böyük şəhərin ab-havasına öyrəşmiş uşaq, yeniyetmə gəlib indi bir qədər uzaqda yerləşən şəhər və kənddə necə yaşayır? Onlar ürəkdən deyirdilər ki, bu, böyük xoşbəxtlikdir. Bu o cümlədən sizin, yəni böyük nəslin tərbiyəsidir. Çünki onlar evlərdə də, məktəblərdə də bu tərbiyəni görüblər. Ona görə məktəb və ailə bizim buraya qayıtmağımızın vacib amilidir. Biz qoymadıq ki, gənclər unutsun. Qoymadıq ki, Qarabağ mövzusu silinsin. Halbuki bunu bizə aşılamaq istəyən bir çox ölkələr, qüvvələr var idi, yəni barışmaq lazımdır, Ermənistanla əməkdaşlığa başlamaq lazımdır. Bir çoxları təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Biz göstərdik ki, var və bu yaxınlarda bir daha göstərdik – bu mövzu bağlandı! Qarabağ münaqişəsi mövzusu bağlandı birdəfəlik! Separatçıların kitabı bağlandı birdəfəlik! Bu, böyük xoşbəxtlikdir.

İndi isə qalıb ki, insanlar burada rahat yaşasınlar. Onu da bildirməliyəm ki, biz bütün layihələri icra edərkən, o cümlədən məşğulluq məsələlərinə də böyük diqqət yetiririk. Aidiyyəti dövlət qurumları bu məsələ ilə bağlı ciddi addımlar atır ki, burada yerləşən insanların məşğulluq imkanları da olsun. Şəhərin özünəməxsus məşğulluq imkanları vardır. Əlbəttə ki, kəndlərdə yerləşən və yerləşəcək vətəndaşlar ənənəvi məşğulluqla məşğul olacaqlar, dövlət isə öz tərəfindən onlara kömək göstərəcək – texnika ilə, mal-qara ilə, bütün lazımi vasitələri on-

lara təqdim etməklə. Özünüməşğulluq proqramı icra ediləcək ki, burada həyat qaynasın. Əminəm ki, müəyyən müddətdən sonra Qarabağ Azərbaycan iqtisadiyyatında bir təkanverici qüvvəyə çevriləcək. Çünki bizim iqtisadiyyatımızın, bax, buradan qalxması ümumi inkişafa da böyük töhfə olacaqdır.

Bu gün bu bayram gününü qeyd edərkən, təbii ki, əziz şəhidlərimizin xatirəsinə hamımız bir daha öz dərin ehtiramımızı ifadə edirik. Mən iki gün əvvəl Xankəndinin əsas, mərkəzi meydanında xalqa müraciət edərkən demişdim ki, bu günə görə biz onlara borcluyuq. Bu həqiqətdir. Dövlətin nə qədər gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, Qələbəni əldə edən əsgərdir, zabitdir. O gedir, o, sinəsini qabağa verir, o, ölümə gedir və bayrağı da qaldıran odur. Onların qəhrəmanlığı bizim yaddaşımızdan heç vaxt silinməməlidir və silinməyəcəkdir. Bu gün onların ruhu şaddır ki, biz buradayıq, siz buradasınız və nə qədər acı olsa da, onların yaxınları üçün, doğmaları üçün bir təsəlli var – onlar canlarını fəda edərək, tarixi Zəfər çalıblar. Biz Birinci Qarabağ müharibəsində 15 minə yaxın şəhid verdik, amma torpaqlar da getdi. Əlbəttə, həlak olan hər bir insan əvəzolunmazdır. Ancaq İkinci Qarabağ müharibəsində əməliyyatlar elə planlaşdırılırdı ki, itkiləri minimuma endirək və buna da nail olduq.

Bir daha demək istəyirəm ki, biz hər zaman, onlara borclu olmalıyıq. Gənc nəsil də daim bu ruhda tərbiyə almalıdır. Onların qəhrəmanlığı unudul-

mazdır, belə ağır coğrafi məkanda bu tarixi Qələbəni qazanmağın misli-bərabəri yoxdur. Düşmən bütün yüksəklikləri götürmüşdü. Buradan istənilən istiqamətə getsən görərsən ki, hər təpədə, demək olar ki, onların postları, döyüş məntəqələri, bir neçə müdafiə xətti, tikanlı məftil və minalar var. Bunu yarmaq, atəş altında qabağa getmək nə qədər böyük cəsarət tələb edir. Bu bəlkə də dünya hərb tarixində olmayıb. Olubsa, qoy bizə desinlər harada olub. Olmayıb, bunu Azərbaycan xalqı göstərdi. Biz işğal dövründə elə gənc nəsil yetişdirdik ki, onlar Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdilər.

Əziz bacılar, qardaşlar, dostlar, bir daha sizi təbrik edirəm. Bu gün həm sevincli, həm kədərli gündür. Qızımızın göz yaşları da təbii ki, heç vaxt dayanmayacaq. Bunu biz bilməliyik, 10 il keçsə də, 20 il keçsə də. Hamımız göz yaşları tökmüşük və tökürük. Təbrik edirəm, cansağlığı arzulayıram, uşaqlara yaxşı baxın, yetişdirin, vətənpərvər olsunlar, Vətənə bağlı olsunlar, bizim qəhrəmanlar kimi olsunlar, şöhrətimizi göylərə qaldırsınlar. Sağ olun.

* * *

*Sonra dövlətimizin başçısı tədbir iştirakçıları ilə xatirə şəkilləri çəkdirdi, onlarla söhbət etdi.*

**S a k i n:** Çox sağ olun. Allah Sizi var eləsin, cənab Prezident!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Bütün kəndlərə gedəcəyik. Füzuli rayonunun artıq 5-6 kəndinin təməli qoyulub.

**S a k i n:** Cənab Prezident, ən əsası odur ki, Xankəndi, Xocalı, Xocavənd, Ağdərə sevincini bizə yaşatdınız. Ən çox fəxr etdiyimiz odur ki, bizim Prezidentimiz dünyada məşhurdur, onu dünya qəbul edir, dünya onun sözünü eşidir.

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz, dünya belədir ki, bəziləri qəbul edir, bəziləri etmir. Amma əsas odur ki, biz istədiyimizi edək. Çünki biz haqq yolundayıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur.

**S a k i n:** Artıq yol Zəngəzuradır.

**İ l h a m  Ə l i y e v:** Zəngəzura da qayıdacağıq, amma sülh yolu ilə. Mən demişəm, bəziləri məni ittiham etməyə çalışır, amma mən dedim ki, biz oraya tanklarla yox, minik maşınları ilə qayıdacağıq.

**S a k i n l ə r:** İnşallah.

**İ l h a m  Ə l i y e v:** Necə ola bilər, ora bizim əsrlərboyu qurduğumuz məkandır.

**S a k i n:** Ruhu şad olsun, ulu öndər deyirdi: «Mən fəxr edirəm ki, azərbaycanlıyam». İndi hər bir azərbaycanlı fəxr edir ki, sözün həqiqi mənasında, biz azərbaycanlıyıq.

**İ l h a m  Ə l i y e v:** Ulu öndər bunu deyəndə tam haqlı idi. Ancaq bilirsiniz, o vaxt işğal dövrü idi və bəziləri hesab edirdi ki, azərbaycanlılar bu işğalla barışacaqlar. Bəziləri, xüsusilə xarici dairələrdə belə çirkin təbliğat aparırdılar ki, biz bunu unutmuşuq, biz vəziyyətlə barışmışıq. O isə heç vaxt barışmırdı bu vəziyyətlə və bizim üçün qoyduğu bu yol da məhz azadlıq yolu idi, qurtuluş yolu idi. Ona görə biz bu tarixi Zəfəri çalandan sonra artıq bütün

dünya gördü ki, o vaxt, o ağır dövrdə o nə qədər haqlı idi.

**S a k i n:** Uzaqgörən idi, haqlı idi.

**İ l h a m Ə l i y e v:** Bəli, bilirdi, xalqın qəlbini, qəlbindəki bütün duyğularını bilirdi və əlbəttə ki, həm sevinirik, həm heyifsilənirik ki, o və onun kimi yüz minlərlə insan bu həyatdan getdi, bu günü görmədi.

**S a k i n l ə r:** Ruhları şaddır.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, ruhları şaddır. Buna inanıram və inanmaq lazımdır, onların – bu günü görmədən həyatdan getmiş yüz minlərlə keçmiş köçkünün, şəhidlərimizin ruhları şaddır.

**S a k i n:** Hörmətli Prezidentimiz, biz füzulililər üçün çox qürurvericidir ki, Qarabağın azad olunması 30 il öncə ulu öndərin Prezidentliyi dövründə – 1994-cü ildə Horadiz əməliyyatı ilə başlanıb. Bizim üçün qürurvericidir ki, Böyük Qayıdışın ilk addımı da Sizin Prezidentliyə başladığınız dövrdə Horadiz qəsəbəsinin böyük şəhərə çevrilməsi, Haramidə, Zobucuqda abad qəsəbələrin inşa edilməsi sayəsində baş veribdir. İki il öncə biz burada – Füzulidə təməlqoyma mərasimində iştirak edəndə burada heç nə yox idi. Doğrudan da hər yan xarabalıq idi. İndi çox şükür, var olun, böyük, abad bir şəhərə çevrilibdir, qürurvericidir. Özü də təkcə Füzuli yox, bütün Qarabağ tikinti meydanıdır, hər yerdə yollar çəkilir, şəhərlər salınır, kəndlərin bünövrəsi qoyulur, infrastruktur layihələri icra edilir.

**İ l h a m Ə l i y e v:** Elədir, çox sağ olun, indi bütün şəhərlərdə ya tikinti gedir, ya da tikintiyə hazır-

lıq gedir. Mən əminəm ki, gələn il Cəbrayılda Şəhər Günü qeyd ediləcək. Bu il qeyd edilmədi, çünki orada hələ ki, vətəndaşlar yerləşməyiblər. Amma gələn ilin oktyabr ayına qədər – çünki birinci azad olunmuş şəhər Cəbrayıl olmuşdu – oktyabrın 4-də orada da Şəhər Günü keçiriləcək, hər yerdə – Şuşada birinci yaşayış məhəlləsi yəqin ki, 5-6 aya hazır olacaq. Birinci qrup keçmiş köçkünlər qayıdacaqlar. Ağdam da böyük tikinti meydançasıdır. Bu yaxınlarda Zəngilanda oldum, orada da, Qubadlı və Kəlbəcərdə də gələn ilin sonuna qədər keçmiş köçkünlər artıq şəhərə yerləşəcəklər. Bizdə bütövlükdə 8 şəhər, 92 kənd və qəsəbə Birinci Qayıdış Planına salınıb. Onların da böyük əksəriyyəti 2026-cı ilin sonuna qədər başa çatacaq. Yəni 3 ildən sonra azad edilmiş ərazilərdə minimum – biz belə təxmin edirik – 140 min insan yaşayacaq.

**S a k i n:** 3 ildir. Amma onlar 30 ildə bir mismar belə, çalmamışdılar. Bilirdilər ki, onların deyil.

**İ l h a m Ə l i y e v:** Bəli, onlar nəinki buraları dağıtmışlar, vaxtilə yaşadıqları yaşayış məntəqələrində də heç bir iş görülməyib, sovet vaxtında necə var idisə, elə də qalıb. Mən oranın hər tərəfini dəfələrlə gəzmişəm. Adam o kəndlərin vəziyyətinə baxanda, özünə sual verir ki, bəs bunlar hər il yüz milyonlarla dollar pul yığırdılar, telemarafon düzəldirdilər Los-Ancelesdə, Fransada, bəs o pulları hara xərcləyiblər? Onlardan gərək soruşsunlar.

**S a k i n:** Serjik Sarkisyanın cibindədir, Robert Köçəryan xərcləyibdir.

**İ l h a m Ə l i y e v:** Orada bir dənə də daş daş üstə qoyulmayıb, indi yəqin ki, insanlar oraya gedib görəcəklər, elə necə var idi, dağılmış, çox bərbad vəziyyətdə.

**M ü ə l l i m:** Cənab Prezident, bu gün – oktyabrın 17-si Füzuli bayramı – Füzuli Şəhəri Günü biz füzulililər üçün həqiqətən də həm sevindirici, həm də qürurverici bir gündür. Bu gün Füzulimizin – 30 il işğal altında olan, erməni vandalizminə məruz qalan gözəl Füzulimizin yenidən daha gözəl, daha müasir şəkildə qurulması həqiqətən də bizim üçün çox xoşbəxt anlardır. Artıq biz Füzuli sakiniyik, burada daimi yaşayırıq və Sizi eyni zamanda, Mirzə Uluqbəy adına 1 saylı məktəbin kollektivi adından salamlayırıq. Mən 30 il bundan öncə 13-14 yaşlarında bir yeniyetmə məktəbli kimi çıxdığım Füzulimə bu gün müəllim kimi qayıtmışam. Buna görə, əlbəttə ki, Sizə, başda Siz Ali Baş Komandanımız olmaqla, bütün Azərbaycan Ordusuna minnətdarıq. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Məhz onların qanı-canı bahasına – özünüz gözəl dediyiniz kimi – qazilərimizin şücaəti bahasına biz bu gün öz doğma yurdumuzdayıq. Buna görə bir daha Sizə cansağlığı, uzun, sağlam ömür arzu edirik, Allah Sizi və ordumuzu qorusun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**S a k i n:** Cənab Prezident, bu gün Siz çıxışınıza bayram əhvali-ruhiyyəsi ilə başladınız. Çünki 2023-cü il Azərbaycanda bayramlar ilidir. Birincisi, «Heydər Əliyev ili» elan olunması, bununla bağlı respublikanın bütün regionlarında keçirilən tədbir-

lər, Heydər Əliyev irsinin öyrənilməsi və gənclərə öyrədilməsi bir bayram əhvali-ruhiyyəsidir. İkincisi, Azərbaycan xalqının dəstəyi ilə Sizin apardığınız 20 illik ardıcıl siyasətin bu gün hesabat günüdür. Hesabatdan hər şey görünür, hər şey bilinir. Sizin apardığınız siyasətin ən kulminasiya nöqtəsi erməni separatizminin belini qırmağınızdır. Bütün dünya ermənilərinə «dəmir yumruğu» göstərdiniz ki, yadınızda saxlayın, hamınızın beli burada qırılar Azərbaycanda başqa bir şey olsa. Artıq bu gün yoldaşlar dedilər, biz 2 il bundan qabaq Sizinlə burada görüşəndə, binanın təməli qoyulanda biz deyirdik ki, yəqin bir 10 ilə burada bir bina tikilər-tikilməz. Ancaq bu gün bu binalar tikilib. Bu bizim üçün çox qürurvericidir. Artıq Füzulidə yenidən qurulma işlərinə, quruculuq işlərinə böyük start verilib. Biz bayaqdan camaatla söhbət edirik, deyirik ki, bu quruculuq işləri kosmik sürətlə gedir, Allah xalqımızı xata-baladan uzaq eləsin, Sizə cansağlığı versin. Biz Sizin ətrafınızda çox sıx birləşmişik. Biz Sizin apardığınız siyasəti dəstəkləyirik. Füzulidə bugünkü bayram – Füzuli Şəhəri Günü münasibətilə biz Füzuli camaatı adından Sizi təbrik edirik və Sizin apardığınız siyasətdə uğurlar arzu edirik. Allah Sizi qorusun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Bu gün Füzulidə, Qarabağın digər bölgələrində və Şərqi Zəngəzurda yerləşən şəhərlərdə gedən işlər doğrudan da genişmiqyaslı işlərdir. Bunun mənbəyi də Azərbaycan mənbəyidir, yəni biz heç kimdən bir manat kömək istəməmişik. Sağ olsun

özbək qardaşlarımız, gözəl məktəb tikdirdilər və qazax qardaşlarımız da indi Yaradıcılıq Mərkəzini inşa edirlər. Ondan başqa bizə bir dənə mismar da hədiyyə edilməyib.

Biz bu illər ərzində həm iqtisadiyyatı qurduq, həm ehtiyatlar yığdıq. Nə üçün? Bilirdik ki, bu gün gələcək, o vəsait bizə lazım olacaq və biz haraya xərcləyirdik? Orduya! Birinci yerdə ordu xərcləridir, ikinci yerdə təhsil xərcləridir. Həmişə bizim büdcəmizdə bu iki əsas prioritet var idi. İndi ordu xərclərinə biz yenə də vəsait ayırmalıyıq. Çünki yumruq daim yerində olmalıdır. Ancaq eyni zamanda, indi vəsaitin əsas hissəsi Qarabağın bərpasına gedir.

Biz heç kimdən asılı deyilik, heç kimdən heç nə istəmirik. Ona görə bəlkə də bəzi böyük dövlətlər bizdən narazıdır. Çünki onlar öyrəşiblər ki, gəlsinlər onların qabağında baş əysinlər, o da icazə versin, ya verməsin. Bəziləri deyirlər ki, biz antiterror tədbirlərini apararkən heç kimdən soruşmamışıq. Yəni biz kimdən soruşmalıydıq?! Nəyi soruşmalıydıq?! Deyirlər ki, biz beynəlxalq ictimaiyyəti aldatmışıq. Bu da qəribədir ki, bir qrup ölkə özünü beynəlxalq ictimaiyyət sayır. Axı beynəlxalq ictimaiyyət deyəndə, 200-dən çox ölkə var, 20–30 ölkə beynəlxalq ictimaiyyət sayıla bilməz. Onlar elə öyrəşiblər, özlərindən başqa heç kimi ictimaiyyət saymırlar və belə bir ittiham indi irəli sürülür ki, biz beynəlxalq ictimaiyyəti antiterror tədbirləri keçirməklə aldatmışıq. Bu çox zərərli məntiqdir. Biz haqlı olaraq, öz doğma torpağımızda suverenliyi bərpa etmişik bütün norma və prinsiplərə, beynəlxalq müs-

təvidə təsbit olunan prinsiplərə uyğun şəkildə. İndi bizi ittiham etməyə heç kimin haqqı yoxdur. Düzdür, cəhdlər var, yəqin ki, siz də izləyirsiniz, olub və olacaq.

**S a k i n:** Özlərini ifşa edirlər.

**İ l h a m Ə l i y e v:** İfşa edirlər, əlbəttə, biabır edirlər özlərini. Biz öz yolumuza davam edəcəyik. Yenə də deyirəm, biz bütün doğma torpaqlarımızı yenidən quracağıq. Buradan o dağlara baxanda belə bir gözəl mənzərə açılır, kənd təsərrüfatı üçün çox yaxşı imkanlar vardır. Yəqin ki, ilin sonunda Köndələnçay su anbarları artıq istifadəyə veriləcək. İki gün əvvəl Sərsəng su anbarının üstündə idim. Onu da atam o vaxt inşa etdirib.

**S a k i n l ə r:** Allah rəhmət eləsin.

**İ l h a m Ə l i y e v:** Allah ölənlərinizə rəhmət eləsin. İnşa etdirib ki, 100 min hektar sahə, 6 rayon – azərbaycanlıların yaşadıqları rayonlar su ilə təmin edilsin. Amma ermənilər nə etdilər? Suyumuzu kəsdilər. Qışda açırdılar ki, bütün yeri su bassın, yayda isə kəsirdilər. Bax, erməni xisləti budur. Onu görsünlər, bu gün onların yanında yer alanlar, qoy görsünlər onlar nə ediblər. Biz indi bir kanal çəkmişik, ikinci sağ kanal da çəkiləcək, yəqin ki, maksimum il yarım ərzində. Biz 100 min hektar torpağa su verəcəyik. İndi suyumuza da sahib olduq. Bizim su mənbələrimizin 25 faizi Qarabağ və Kəlbəcər–Laçın zonasında formalaşır. İndi Köndələnçay qayıtdı, Sərsəng, Suqovuşan qayıtdı, Xaçınçay qayıtdı, Həkəri suyu, Zabuxçay su anbarı inşa edilir, bir ilə hazır olacaq. Suvarma ilə bağlı başqa layihə-

lər də icra edilir. Onsuz da burada torpaqlar münbitdir, çox bərəkətlidir. Füzuli torpağı xüsusilə. Su da olandan sonra buralar cənnət olacaq, gülüstan olacaq.

**S a k i n:** İnşallah. Allah Sizi var eləsin. Sizə uzun ömür, cansağlığı arzulayırıq. Cənab Prezident, Vətən üçün 3 oğul böyütdüm. Böyük oğlum Nicat Zalov Füzuli rayonu uğrunda gedən döyüşlərdə yaralanıb. Kiçik oğlum Fəqan Zalov 44 gün yaralı olaraq döyüşdü, müharibənin qurtarmasına saatlar qalmış Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Cənab Prezident, mən Sizə dərin təşəkkürümü bildirirəm ki, oğullarımın şücaətini, qəhrəmanlığını yüksək qiymətləndirmisiniz. Bir də, cənab Prezident, biz şəhid ailələrinə diqqət və qayğı göstərdiyinizə görə çox sağ olun, minnətdaram.

**İ l h a m Ə l i y e v:** Sağ olun, salamat qalın.

## AZƏRBAYCAN QADINLARININ VI QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay nümayəndələri!

Əziz xanımlar!

Sizi Azərbaycan qadınlarının VI qurultayının açılışı münasibətilə salamlayır, hamınıza cansağlığı, xoşbəxtlik və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Qurultayın ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması dərin məna daşıyır. Ümummilli lider qadınlarımızın ictimai-siyasi proseslərdə yaxından iştirak etmələrinə və dövlət qurumlarında geniş təmsil olunmalarına həmişə xüsusi diqqət yetirmişdir. Azərbaycan qadınlarının 25 il əvvəl ulu öndərin təşəbbüsü ilə keçirilmiş ilk qurultayı ölkəmizdə qadın hərəkatının keyfiyyətcə yeni mərhələsini başlatmışdır. Ötən müddətdə cəmiyyətdəki mövqeləri daha da möhkəmlənən qadınlarımız respublikanın sosial-iqtisadi və mədəni-elmi potensialının gücləndirilməsi işinə dəyərli töhfələr bəxş etmişlər. Onların təqdirəlayiq ictimai nüfuzunun təməl prinsipləri Heydər Əliyev tərəfindən müəyyən edilmiş dövlət qadın siyasətinin ardıcıl gerçəkləşdirilməsinin nəticəsidir.

Qloballaşmanın vüsət aldığı və milli özünəməxsusluğu sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda mədəni və mənəvi dəyərlərimizin qorunub

saxlanılmasında və yaşadılmasında Azərbaycan qadınlarının xidmətləri misilsizdir. Məmnunluq hissi ilə bildirmək istəyirəm ki, onlar maarifpərvər sələflərinin ənənələrini müvəffəqiyyətlə davam etdirərək, artan təşəbbüskarlıqları və dolğun sosial-mədəni fəaliyyətləri ilə ictimai həyatımıza yeni güc qatır, müstəqillik salnaməmizə parlaq səhifələr yazırlar. Hər bir nailiyyətimizdə qadınların böyük zəhməti vardır. Fədakar analarımızın vətən sevgisinin bariz nümunəsi dövlətimizin suverenliyi və ərazi bütövlüyünün bərpası naminə döyüş meydanındakı unudulmaz rəşadəti ilə xalqımızın mübarizlik ruhunu nümayiş etdirən milli əqidəli gənc nəsildir.

Azərbaycan öz tarixinin taleyüklü hadisələrlə zəngin, çox şərəfli bir dövrünü yaşayır. İşğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdışla bağlı hazırda genişmiqyaslı müxtəlif layihələr icra olunmaqdadır. Vətənimizin rifahı üçün var qüvvələrini əsirgəməyən qadınlarımız bu nəhəng quruculuq işlərinin fəal iştirakçılarıdır.

Əminəm ki, qurultayınız aktual mövzulardakı ətraflı müzakirələri və dəyərli tövsiyələri ilə faydalı platforma rolunu oynayaraq, ölkəmizdə qadın hərəkatını milli prioritetlərdən irəli gələn vəzifələrin layiqincə həllinə istiqamətləndirəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 oktyabr 2023-cü il*

## 3-cü AZƏRBAYCAN BEYNƏLXALQ «QARABAĞIN BƏRPA, YENİDƏNQURMA VƏ İNKİŞAFI» – «REBUİLD KARABAKH» SƏRGİSİNİN İŞTİRAKÇILARINA

Hörmətli sərgi iştirakçıları!

Hörmətli xanımlar və cənablar!

Sizi 3-cü Azərbaycan Beynəlxalq «Qarabağın bərpa, yenidənqurma və inkişafı» – «Rebuild Karabakh» Sərgisinin açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Ötən illərin təcrübəsi göstərir ki, belə sərgilərin təşkili işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi həyatın bərpası, regional sülh və davamlı inkişaf məqsədinin reallaşması baxımından faydalı olmuşdur. Şübhəsiz ki, bugünkü sərgi də gələcək biznes layihələrinin gerçəkləşdirilməsi üçün mühüm fürsətlər yaradacaqdır.

Bu sərgi xalqımızın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin keçirildiyi dövrə təsadüf edir. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə dövlətimizin ərazi bütövlüyünün təmin edilməsində və müstəqil inkişafında onun misilsiz xidmətləri vardır.

Ümummilli lider Heydər Əliyev suveren Azərbaycanı Qarabağsız və onun tacı olan Şuşasız təsəvvür etmirdi. Ulu öndər həmin ərazilərin iqtisadi-

mədəni inkişafı və həyat səviyyəsinin davamlı yaxşılaşması naminə xüsusi səy göstərmişdir.

Ulu öndərin böyük coşqu ilə sevdiyi Qarabağda və Şərqi Zəngəzurda həyat yenidən canlanır. Şəhərlər, kəndlər, qəsəbələr abadlaşdıqca, bu torpaqların əzəli sahibləri sülh şəraitində əbədi yaşamaq üçün doğma yurdlarına qayıdırlar. Həmin ərazilərdə uğurla icra edilən quruculuq-bərpa və reinteqrasiya işləri dövlət və özəl sektor arasında faydalı əməkdaşlıq və inkişaf nümunəsinə çevrilir.

Sərgi iştirakçılarını – qabaqcıl iş adamlarını işğaldan azad edilmiş doğma torpaqların bərpası və inkişafı üçün dövlətimiz tərəfindən yaradılmış imkanlardan faydalanmağa, habelə biznes ideyalarını vahid məqsəd ətrafında birləşdirməyə dəvət edirəm. Əminəm ki, «Rebuild Karabakh» Sərgisi Qarabağda və Şərqi Zəngəzurda faydalı təşəbbüslərin uğurla gerçəkləşməsi və yeni işgüzar əlaqələrin qurulması baxımından əlverişli platforma olacaqdır.

Bir daha bütün sərgi iştirakçılarına və ziyarətçilərə işlərində müvəffəqiyyətlər arzulayıram.

Qarabağ Azərbaycandır!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 oktyabr 2023-cü il*

## «NEOKOLONİALİZM: İNSAN HÜQUQLARININ POZULMASI VƏ ƏDALƏTSİZLİK» MÖVZUSUNDA KEÇİRİLMİŞ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Hörmətli xanımlar və cənablar!

Sizi «Neokolonializm: insan hüquqlarının pozulması və ədalətsizlik» mövzusunda keçirilən beynəlxalq konfransın açılışı münasibətilə salamlayıram. Müxtəlif qitələri təmsil edən 14 ölkə, habelə ədalət uğrunda mübarizə aparan ərazilərin təmsilçilərinin Bakıya toplaşaraq, XXI əsrdə təəssüf ki, hələ də davam edən kolonializm siyasətini pisləməsi, onun aradan qaldırılması istiqamətində sistemli və ardıcıl iş aparması və təşkilatlanması sevindirici haldır.

Bildiyiniz kimi, 4 il öncə, 25 oktyabr 2019-cu ildə Azərbaycan Respublikası «Qoşulmama Hərəkatı» ölkələrinin yekdil dəstəyi ilə Hərəkata sədrliyi qəbul etdi. Bəşəri dəyərlərin təbliğinə xidmət edən «Qoşulmama Hərəkatı» özündə 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır.

Azərbaycan «Qoşulmama Hərəkatı»na sədrliyi qəbul edərkən mən prioritetlərimi və fəaliyyətimi

tarixi «Bandunq prinsipləri» üzərində quracağımı bəyan etdim. Bandunq Konfransı zamanı müzakirə edilən məsələlərdən biri də kolonializmə qarşı mübarizə olmuşdur. Həmin konfrans iştirakçıları qeyd edirdilər ki, «Xalqların xarici köləliyə, hökmranlığa və istismara məruz qalması əsas insan hüquqlarının inkar olunmasıdır, BMT-nin Nizamnaməsinə ziddir və beynəlxalq sülh və əməkdaşlığın təşviqinə maneə törədir. Kolonializm bütün təzahürləri ilə tez bir zamanda aradan qaldırılmalı olan bir şərdir».

Azərbaycan XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahür meyillərinin artmasından olduqca narahatdır. Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən kolonializmi hələ də davam etdirən ölkələr vardır. Belə ölkələrdən biri və birincisi Fransadır.

Ümumiyyətlə, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilmişdir. Afrika, Cənub-Şərqi Asiya, Sakit okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətmiş, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoymuşdur.

XX əsrdə 30 il ərzində Fransız Polineziyasında Fransa tərəfindən 200-ə yaxın, 6 il ərzində isə Əlcəzairdə 17 nüvə sınağı həyata keçirilmişdir. Həmin nüvə sınaqlarının ağır fəsadları Polineziya və Əlcəzair xalqları tərəfindən bu gün də yaşanmaqdadır. Bir çox təşkilatın etdiyi çağırışlara uyğun olaraq,

nüvə sınaqlarının vurduğu ziyan qiymətləndirilməlidir və Fransa tərəfindən müvafiq təzminatlar ödənilməlidir.

Əlcəzairin 132 il davam edən işğalı dövründə 1,5 milyondan artıq insan Fransa dövləti tərəfindən qətlə yetirilmişdir, bu səbəbdən də ölkə «1,5 milyon şəhid ölkəsi» adlandırılır. Fransız ordusunun törətdiyi qətliamların miqyası və coğrafiyası o qədər genişdir ki, sadalamaqla bitirmək çətindir. Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələr bu gün də bu işğalın ağır fəsadlarını hiss edir.

26 mart 2021-ci ildə tarixçilərdən ibarət «Ruandada Tutsi qəbiləsinin soyqırımında Fransanın roluna dair hesabata məsul Komissiya» tərəfindən Fransa Prezidentinə təqdim edilmiş «Fransa: Ruanda və Tutsinin soyqırımı (1990–94)» adlı sənəddə 1994-cü ildə Ruandada Tutsi qəbiləsinin 800 mindən çox üzvünün qətlə yetirilməsində Fransanın böyük məsuliyyət daşıdığı vurğulanmışdır.

Fransa həm də dünyada ən çox mina istifadə etmiş ölkələrdən biridir. Ancaq Əlcəzair ərazisində 5 milyondan artıq mina basdırılmışdır. Nəticədə Azərbaycan kimi, Əlcəzair də dünyada mina partlayışından ən çox əziyyət çəkən ölkələr sırasında ön yerlərdən birini tutur. Bu siyahıda Fransadan sonra onun yaxın müttəfiqi Ermənistan gəlir. Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində basdırdığı minalar nəticəsində təkcə son 3 ildə 340-a yaxın azərbaycanlı mina qurbanı olub. Onların arasında mülki şəxslər də var. Bu iki ölkəni bir-birinə belə

sıx bağlayan səbəblərdən biri də hər ikisinin mina terroru ilə məşğul olmaq təcrübəsidir.

Parisin İnsan Muzeyində müstəmləkə müharibələrində XIX əsrdə qətlə yetirilmiş döyüşçülərin 18 min ədəd kəllə sümüyü saxlanılır və nümayiş etdirilir. Həmin kəllə sümükləri arasında əlcəzairli döyüşçülərin də kəllə sümükləri vardır. Əlcəzairin həmin sümükləri geriyə qaytarmaq tələbi Fransa tərəfindən hələ də tam yerinə yetirilmir. XXI əsrdə dünyanın çox az dövlətində belə təfəkkürə rast gəlmək mümkündür.

Əsrlər keçsə də, təfəkkür dəyişmədiyi üçün Fransa kolonializminin utancverici yeni metodları bu gün də davam etməkdədir. Bu konfransa toplaşan dənizaşırı ərazilərin xalqları uzun illərdir müstəqillik uğrunda mübarizə aparırlar. Kolonializm tarixindən əl çəkə bilməyən Fransa Avropadan kənarda, Sakit və Atlantik okeanlarında dənizaşırı icma və ərazilərində yaşayan xalqların azadlıq arzularına və hüquqlarına hörmət etmir, bu arzuların reallaşmasının qarşısının alınması üçün hər vəchlə çalışır.

Fransız Qvianasında sosial vəziyyət getdikcə pisləşir, əhalinin təxminən yarısı yoxsulluq astanasındadır, işsizlik səviyyəsi hər il artır. Burada təbii sərvətlər talan edilir və torpaqların 90 faizi Fransa dövlətinin mülkiyyətindədir.

Martinika və Qvadelupa iki böyük fəlakətlə üzüzədir. Yerli əhali gizli və qanunsuz məskunlaşma yolu ilə assimilyasiya edilir. Vaxtilə xlordekon pestisidinin istifadəsi təbii ekosistemləri və əhalini zə-

hərləyib, yerli sakinlər bu gün də onun onkoloji fəsadlarını yaşayırlar.

Fransa Qəmər Adaları İttifaqının Mayot adası üzərində suverenliyini tanımaqdan imtina edir. «Qoşulmama Hərəkatı» öz sənədlərində Qəmər Adaları İttifaqının Mayot adası üzərindəki danılmaz suverenliyini daima təsdiqləyir.

Yeni Kaledoniyada əhalinin yarısının iştirakı olmadan referendum keçirilir və bu minvalla Yeni Kaledoniya xalqının müstəqil olmaq hüququ əlindən alınır.

Etnik azlıqlar konsepsiyasını qəbul etməyən Fransa Korsika dilini qadağan edir. BMT bunu ayrı-seçkilik və beynəlxalq hüququn pozulması kimi qiymətləndirmişdir. Riyakar və ikili standartlı siyasət yürüdən Fransa eyni zamanda, regionumuzda milli azlıqların müdafiəçisi kimi özünü təqdim etməyə çalışır.

Biz Fransada neokolonializm meyilləri ilə paralel olaraq, irqçilik və islamofobiyanın da geniş vüsət aldığını müşahidə edirik. Bu gün burada təmsil olunan insanların bəziləri müxtəlif formada təzyiq və ayrı-seçkiliyə, irqçi hücumlara məruz qalır. Daxildə bu cür narahatedici və təhlükəli meyillərlə mübarizə aparmalı olan Fransa hakimiyyəti başqa dövlətlərə dərs keçməyə, digər ölkələrin daxili işlərinə qarışmağa cəhd edir. Fransa qoşunlarının bu yaxınlarda Mali, Niger və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Qanlı cinayətlərlə zəngin kolonializm tarixinə görə

utanmalı olan Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə, digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır. Bu ölkə BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur.

Azərbaycan «Qoşulmama Hərəkatı»nın sədri kimi, kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəkləyir. Sizin 2023-cü ilin 6 iyulunda Azərbaycanın «Qoşulmama Hərəkatı»na sədrliyi çərçivəsində Bakıda keçirilmiş Nazirlər Toplantısı zamanı, daha sonra 22 sentyabrda Nyu Yorkda BMT Baş Assambleyasının qərargahında, bu gün isə yenidən Bakıda bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən kolonializm, onun fəsadları və neokolonializmlə mübarizəyə həsr olunmuş tədbirdə iştirakınız Azərbaycanın «Qoşulmama Hərəkatı»nın sədri kimi, bu məsələyə göstərdiyi dəstəyinin əyani göstəricisidir.

Neokolonializmlə mübarizə mövzusunun bütün mümkün platformalar vasitəsilə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması olduqca vacibdir. Bu xüsusda, BMT Baş Assambleyasının 4-cü Komitəsinin (siyasi və dekolonizasiya məsələləri) fəaliyyəti daha da canlandırılmalıdır.

Bugünkü konfrans kolonializm, onun fəsadları və neokolonializmlə mübarizə ilə bağlı qlobal gündəlikdə dayanan çağırışlar və imkanların müzakirəsi üçün əlverişli fürsətdir. İnanıram ki, konfrans çərçivəsində aparılacaq müzakirələr kolonializmə

qarşı mübarizə sahəsində birgə səylərin səfərbər olunmasına, bəşəriyyətin rifahı və gələcək nəsillərə «kolonializmdən azad dünya» miras qoymaq məqsədilə yeni ideya və təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 oktyabr 2023-cü il*

## ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ BÜROSUNDA DÖVLƏT KATİBİ KÖMƏKÇİSİNİN MÜAVİNİ COŞUA HAK İLƏ GÖRÜŞ

*20 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə Bürosunda Dövlət katibi köməkçisinin müavini Coşua Hakı qəbul etmişdir.*

*Görüşdə regionda sülhün və sabitliyin təmin edilməsi, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Azərbaycanın regional sülh gündəliyi, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi və tezliklə imzalanması ilə bağlı niyyətini bir daha ifadə etdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## BAKI–QUBA–RUSİYA FEDERASİYASI İLƏ DÖVLƏT SƏRHƏDİ ÖDƏNİŞLİ YENİ AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*20 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülmüş işlər barədə məlumat verdi.*

*Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı–Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun təməli 2017-ci ilin dekabrında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı yolun təməlinin qoyulduğu ilk gündən başlayaraq, inşaat prosesinin gedişi ilə şəxsən və yerində maraqlanıb, tikinti işlərinin ən yüksək standartlara uyğun icra olunması ilə bağlı vaxtaşırı tapşırıqlarını verib.*

*Bildirildi ki, «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na uyğun olaraq, yeni avtomobil yolunun Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən başlayaraq Rusiya sərhə-*

*dinədək olan 150 kilometrlik hissəsi 1-ci texniki dərəcəyə uyğun inşa edilib.*

*Magistralın 129 kilometrlik hissəsi ödənişli yol kimi müəyyənləşdirilib və Tarif Şurası tərəfindən gediş tarifləri təsdiq edilib. Gediş üçün ödənişin məbləği nəqliyyat vasitəsinin qət etdiyi məsafə, çəkisi və ay ərzində gedişlərin sayı nəzərə alınmaqla müəyyənləşdirilib. Ödənişli avtomobil yolu 4 zolaqlıdır.*

*Ödənişli yoldan istifadə tarifləri yeni müəyyən olunduğu üçün hazırda həmin tariflərin ödəniş sisteminə inteqrasiyası həyata keçirilir. İnteqrasiya yekunlaşdıqdan sonra ödəniş sisteminin proqram təminatı test ediləcək. Sınaqlar başa çatdıqdan sonra yol ümumi istifadəyə veriləcək. Qeyd olunan işlərin qısa müddət ərzində yekunlaşdırılması nəzərdə tutulur.*

*Diqqətə çatdırıldı ki, bu magistral yolun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin nəzarəti altında 5 hissə üzrə həyata keçirilib. Yolboyu 40 yol ötürücüsü və körpü, 52 alt keçid, 6 ödəmə və yükə nəzarət məntəqəsi, 2 mindən çox yol nişanı və məlumat lövhəsi quraşdırılıb. Həmçinin hər hansı maneənin yola çıxmasının qarşısını almaq üçün tədbirlər görülüb. O da bildirildi ki, yeni yol mövcud yoldan 13 kilometr qısadır.*

*Dövlətimizin başçısı ödəmə sistemi haqqında videoçarxa baxdı.*

*Bildirildi ki, ödənişli yoldan istifadə xüsusi çip yerləşdirilmiş kart vasitəsilə həyata keçiriləcək. Bu kartı yolun giriş və çıxışlarından, yaxın gələcəkdə isə şəhər*

*və rayonlarda müxtəlif satış nöqtələrindən əldə etmək mümkün olacaqdır.*

*Kartın 2 formada olması nəzərdə tutulub. Belə ki, yoldan daimi istifadə edən sürücülər daimi kart, vaxtaşırı istifadə edənlər isə müvəqqəti və ya birdəfəlik kart əldə edəcəklər.*

*Ödənişli yol sistemi sürücülərə adi və dayanmadan keçid zolaqlarından istifadə etmək imkanı verəcək. Adi zolağa daxil olan sürücü ödəniş məntəqələrində keçid üçün kartı əldə edərək, avtomobilin ön şüşəsinə yerləşdirir və daha sonra ödənişli yoldan istifadə etmək hüququna sahib olur. Dayanmadan keçid zolağı isə sürücülərə ödəniş məntəqələrində sürəti azaltmadan və dayanmadan keçmək imkanı verir. Bunun üçün sürücüdə əvvəlcədən əldə edilmiş xüsusi çip kart və yetərli ödəniş balansının olması kifayətdir. Bu zolaqlarda xüsusi nömrə oxuma kameraları, təhlükəsizlik kameraları, avtomobilləri klassifikasiya etməyə imkan verən avadanlıqlar və digər innovativ texnoloji həllər tətbiq olunub, bütün məntəqələrdə çəkiyə nəzarət və yolun dayanıqlılığını təmin etmək məqsədilə elektron tərəzi sistemi də quraşdırılıb. Gələcəkdə avtomatik ödənişlər və ya QR kodları ilə mobil ödənişlər də mümkün olacaq.*

*Ödənişli yoldan keçid kartının ilk nümunəsi Prezident İlham Əliyevə təqdim olundu.*

*Son illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının uğurlu icrası nəticəsində ölkəmizdə magistral, respublika və yerli əhəmiyyətli avtomobil yolları əsaslı şəkildə yenidən qurulub, həmçinin yeni avtomobil yolları, körpülər və yol ötürücü-*

*ləri inşa edilərək, əhalinin istifadəsinə verilib. Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən, Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun inşası ölkəmizdə yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində icra olunan işlərin davamlı xarakter aldığını göstərir. Bu yolun istifadəyə verilməsi, həmçinin beynəlxalq nəqliyyat əməkdaşlığı baxımından strateji əhəmiyyət daşıyan Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin səmərəliliyini daha da artıracaq. Bundan başqa, yeni avtomobil yolunun tikilməsi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, dəhlizlə yük və sərnişin daşımalarında əsas rol oynayacaqdır.*

**MACARISTANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİKTOR ORBANA**

Hörmətli cənab Baş Nazir!

Macarıstanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Macarıstan arasında yüksək səviyyəli dövlətlərarası əlaqələr və uğurlu əməkdaşlıq məmnunluq doğurur. Möhkəm dostluğun və tərəfdaşlığın yaxşı nümunəsi olan, qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimizin gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi olduqca sevindirir.

Ölkələrimizin beynəlxalq və regional təşkilatlar çərçivəsində konstruktiv qarşılıqlı fəaliyyətini və dəstəyini, aktual qlobal və regional məsələlərdə oxşar mövqelərdən çıxış etməsini xüsusi qeyd etmək istərdim.

Əminəm ki, mövcud imkanlardan yararlanaraq, birgə səylərimizlə ölkələrimiz arasında genişlənmiş strateji tərəfdaşlığın, həm ikitərəfli qaydada, həm də çoxtərəfli müstəvidə, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı səmərəli əməkdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq.

Tezliklə görüşmək ümidi ilə Sizə möhkəm can-sağlığı, xoşbəxtlik, dövləti fəaliyyətinizdə uğurlar, dost Macarıstan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 oktyabr 2023-cü il*

## SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*23 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də ulu öndər Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmişdir.*

*Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoydu.*

### Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılışı və təməlqoyma mərasimləri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılışı və təməlqoyma mərasimlərində iştirak etmişdir.*

*Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır.*

*İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçısına Sumqayıt Kimya Sənaye Parkında görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, hazırda ərazisi 583,5 hektar təşkil edən sənaye parkında neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabliyyətli məhsulların is-*

*tehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Parkda ümumi investisiyaların həcmi təqribən 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,4 milyard manatdan çox investisiya yatırılıb. Qeydiyyata alınmış 38 rezidentdən artıq 20-si fəaliyyət göstərir. Bu gün «Azərbaycan Vanhong Ceramics Co.» MMC, «Novus Plastica» MMC və «UPI – Universal Packing Industry» QSC-nin açılışı ilə Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 23-ə çatır.*

*İndiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 9,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da 3,3 milyard manatdan çox hissəsi – təqribən 35 faizi ixracın payına düşür. Sənaye parkında 2023-cü ilin 9 ayında 2,1 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 674,4 milyon manatlıq hissəsi ixrac olunub.*

*Qeyd edildi ki, hazırda burada 6600-dən çox insan daimi işlə təmin olunub. Bundan əlavə, mövcud layihələr üzrə sənaye parkına əlavə olaraq 394 milyon manatdan artıq investisiyanın yatırılması, 2000-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.*

*Parkda istehsal olunan məhsullar Türkiyə, Rusiya, Ukrayna, Belarus, Çin, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Niderland, İtaliya, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Livan, İraq, Yaponiya, Amerika Birləşmiş Ştatları, Kanada və digər ölkələrə ixrac olunub.*

*Prezident İlham Əliyev əvvəlcə parkda «Çinar-Servis» istehsal-kommersiya firmasının Texniki qazların istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak etdi.*

*Məlumat verildi ki, «Çinar-Servis» 2022-ci ilin mayında Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Şirkət sənaye parkının 2 hektara yaxın ərazisində sıxılmış azot, oksigen, arqon və maye helium qaz məhsullarının istehsalı ilə məşğul olacaq.*

*İnvestisiya həcmi 13,3 milyon manat olan layihə çərçivəsində 70 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. İstehsal olunan məhsulların daxili bazarda satılması ilə yanaşı, xarici ölkələrə də ixracı planlaşdırılır. «Çinar-Servis» tərəfindən istehsal olunan sənaye qazları ölkəmizdə bu məhsullara tələbatı ödəməklə yanaşı, Gürcüstana, Türkiyəyə, Rusiyaya da ixrac ediləcək.*

*Dövlətimizin başçısı istehsal müəssisəsinin təməlini qoydu.*

* * *

*Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri də «Novus Plastica» Məhdud Məsuliyyətli Cəmiyyətidir. Prezident İlham Əliyev «Novus Plastica» MMC-nin Polimer qatqıları istehsalı müəssisəsinin açılışını etdi.*

*Bildirildi ki, «Novus Plastica» MMC-yə 2020-ci ilin avqustunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Sənaye parkının 3,5 hektar ərazisində inşa edilmiş müəssisədə iki növ məhsulun –*

*polietilen borular üçün qara karbon konsentrat qatqısının və sənaye sahəsində qablaşdırmada istifadə edilən polietilen örtüklərin istehsalı həyata keçirilir. İtaliyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə istehsal olunan məhsulların daxili bazarda satışı ilə yanaşı, Türkiyəyə, MDB ölkələrinə ixracı da planlaşdırılır. İnvestisiya kapitalı 12,1 milyon manatdan çox olan müəssisədə 50-dək insan daimi işlə təmin ediləcək.*

*«Novus Plastica» MMC tərəfindən «SOCAR Polymer» MMC-nin və «Azərikimya» İstehsalat Birliyinin məhsullarından xammal kimi istifadə olunacaq.*

*Dövlət başçısı müəssisəni işə saldı.*

* * *

*Sonra Prezident İlham Əliyev «Universal Qablaşdırma Sənaye» Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsinin açılışı mərasimində iştirak etdi.*

*Diqqətə çatdırıldı ki, sənaye parkının bir hektar ərazisində inşa edilmiş müəssisədə qablaşdırmada istifadə olunan qofro karton, fayl və digər məhsullar istehsal ediləcək. İtaliya və Çin texnologiyalarının tətbiq edildiyi müəssisədə 20 çeşiddə məhsul istehsal olunacaq. Ümumi investisiya dəyəri 4,8 milyon manat olan müəssisədə ilkin mərhələdə 50 nəfər daimi işlə təmin ediləcək. Növbəti mərhələdə isə işçilərin sayının 65 nəfərə çatdırılması nəzərdə tutulur.*

*Dövlət başçısı müəssisəni işə saldı.*

* * *

*Daha sonra «Azərbaycan Vanhong Ceramics Co.» MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılışı oldu.*

*Prezident İlham Əliyev müəssisədə yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, sənaye parkının 20 hektardan çox ərazisində Çinin qabaqcıl texnologiyalarının tətbiqi ilə yüksəkkeyfiyyətli, müxtəlif ölçülərdə keramik plitələrin istehsalı həyata keçiriləcək. Yüz faiz Çin kapitallı müəssisə üçün investisiya dəyəri 40 milyon ABŞ dolları, işçi sayı 400 nəfər nəzərdə tutulsa da, hazırda müəssisəyə 50 milyon ABŞ dolları məbləğində investisiya yatırılıb və 484 nəfər işlə təmin olunub. İllik istehsal gücü 18 milyon kvadratmetr olan müəssisənin məhsulları daxili bazarda satılmaqla yanaşı, region və MDB ölkələrinə ixrac olunacaq.*

*«Vanhong Ceramics»in hazırda Çində 5 zavodu var, həmçinin dünyanın 5 ölkəsində müəssisələri fəaliyyət göstərir.*

**Ciyi Vanq** (*«Azərbaycan Vanhong Ceramics Co.» MMC-nin baş direktoru*): Möhtərəm cənab Prezident, «Azərbaycan Vanhong Ceramics Co.» MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılışı mərasimində iştirakınızla bizi qürurlandırdığınız üçün Sizə minnətdarlığımı bildirirəm.

**İlham Əliyev:** Azərbaycana bu qədər vəsait qoyursunuz, 81 milyon manat investisiya çox böyük rəqəmdir. Bu investisiyalar şirkətiniz, yəni Çin şirkəti tərəfindən qoyulur. İndi gördüm ki, işçilərin

sayı da 500-ə yaxındır. Bu eyni zamanda, iş yerlərinin yaradılması proqramımıza da növbəti töhfədir. Əlbəttə ki, belə müəssisələr Çin–Azərbaycan dostluğunu daha da gücləndirir. Bu zavod cəmi bir il yarıma inşa edildi. Yəni il yarım bundan əvvəl mən onun təməlini qoymuşam.

**Ciyi Vanq:** Bəli.

**İlham Əliyev:** Ona görə əminəm ki, fəaliyyəti də uğurlu olacaq və siz işinizi davam etdirəcəksiniz.

**Ciyi Vanq:** Sizin köməyinizlə hər şey yaxşı olacaq.

**İlham Əliyev:** Gözəl məhsuldur. İdxala da ehtiyac qalmır. Daxili bazarı təmin edəcəksiniz?

**Ciyi Vanq:** Təmin edəcəyik.

*Dövlətimizin başçısı müəssisəni işə saldı.*

*Daha sonra «Kartaş Kimya» MMC-nin Tikinti kimyəvilərinin istehsalı müəssisəsinin təməli qoyuldu.*

*Prezident İlham Əliyevə müəssisə barədə məlumat verildi.*

*Diqqətə çatdırıldı ki, «Kartaş Kimya» MMC-yə 2022-ci ilin iyulunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Şirkət tərəfindən sənaye parkının 2,5 hektar ərazisində müxtəlif tikinti kimyəvilərinin istehsalını həyata keçirəcək müəssisə inşa ediləcək. İnvestisiya dəyəri 17 milyon manat olan müəssisədə 250 daimi iş yerinin yaradılması nəzərdə tutulur. İstehsal olunan məhsullar daxili bazara satılmaqla yanaşı, Türkiyə və MDB ölkələrinə ixrac ediləcək.*

*Dövlət başçısı müəssisənin təməlini qoydu.*

## Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidən qurulmadan sonra yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidən qurulmadan sonra yaradılmış şəraitlə tanış olmuşdur.*

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov dövlət başçısına stadionda görülmüş işlər barədə məlumat verdi.*

*Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun yenidən qurulmasına Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 noyabr tarixli Sərəncamına əsasən, 2020-ci ildə başlanılıb. Tikinti işləri mərhələli şəkildə icra edilməklə 2022-ci ildə başa çatdırılıb.*

*Tamaşaçı tutumu 9502 nəfər olan stadionun ərazisi 6,8 hektardır. 22 sektordan ibarət stadionda 545 nəfərlik VIP və KİV tribunası da yaradılıb, ərazi abadlaşdırılıb, yaşıllıq zonaları salınıb.*

*Bildirildi ki, tikilialtı sahədə cüdo, boks və karate zalları fəaliyyət göstərəcək. Burada eyni zamanda, 2 trenajor otağı, 40 nəfərlik konfrans zalı, inzibati otaqlar, jurnalistlər, hakim, həkim, şərhçilər, məşqçilər üçün otaqlar və digər texniki-köməkçi otaqlar vardır.*

*Son illər ölkəmizdə idmanın inkişafına böyük diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan idmançıları beynəlxalq yarışlarda yüksək göstəricilər əldə edir, üçrəngli bayrağımızı ucaldırlar. Ölkəmizdə idmanın inkişafının və onun kütlə-*

*viliyinin təmin olunması istiqamətində dövlət siyasəti uğurla davam etdirilir. Bu diqqət və qayğı həm də yeni nəslin sağlam ruhda böyüməsinə, gənclərin idmana marağının artırılmasına yönəlibdir. Beləliklə, idman obyektlərinin istifadəyə verilməsi bu məqsədin həyata keçirilməsində mühüm rol oynayır.*

**2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binasının açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binasının açılışı mərasimində iştirak etmişdir.*

*Səhiyyə naziri Teymur Musayev xəstəxanada yaradılmış şərait barədə məlumat verdi.*

*Bildirildi ki, 150 çarpayılıq xəstəxananın bina və qurğuları 6,1 hektar sahədə inşa edilib, tikililərin ümumi sahəsi 18288,4 kvadratmetrdir.*

*Qeyd edildi ki, səhiyyə ocağının tikinti işlərinə 2019-cu ildə başlanılıb və 2022-ci ildə başa çatdırılıb. Xəstəxana poliklinika, təcili tibbi yardım, 30 çarpayılıq terapiya, 30 çarpayılıq cərrahiyyə, şüa diaqnostika, hemodializ, oftalmologiya, endokrinoloji terapiya, endokrinoloji cərrahiyyə, nevrologiya, 10 çarpayılıq əməliyyat bloku, reanimasiya və sair şöbələrdən, həmçinin laboratoriyadan, digər tikili və qurğulardan ibarətdir.*

*Müalicə ocağı müasir tələblərə cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar – çoxkəsikli kompüter tomoqrafiyası (KT), rəqəmsal teleskopik*

*rentgen cihazı, rəqəmsal DR rentgen qurğusu, oftalmoloji müayinə üçün mikroskop, oftalmoloji cərrahi əməliyyatlar üçün PHACO AMO cihazı və 2 ədəd rəqəmsal stasionar ultrasəs müayinə cihazı ilə təchiz olunub.*

*Prezident İlham Əliyevin tapşırığı ilə son illər Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülüb. Bu sahədə aparılan davamlı islahatlar, həyata keçirilən layihələr sayəsində ölkəmizdə əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyəti və əhatə dairəsi yüksəlib. Görülən işlər əhalinin sağlamlığının qorunmasına imkan verir ki, bu da vətəndaşlar tərəfindən məmnunluqla qarşılanır.*

## LATVİYA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ EDQARS SKUYA İLƏ GÖRÜŞ

*24 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Edqars Skuyanın etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni təqdim etdikdən sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.*

*İkitərəfli münasibətlərimizin zəngin tarixə malik olduğunu qeyd edən dövlətimizin başçısı qarşılıqlı təmasların, xüsusilə dövlət başçılarının səfərlərinin əməkdaşlığımızın genişləndirilməsi işinə verdiyi töhfəni vurğuladı.*

*Dövlətimizin başçısı iqtisadi əlaqələrə toxunaraq, ticarət, investisiya və digər sahələrdə daha geniş imkanların müəyyənləşdirilməsinin vacibliyini bildirdi.*

*Azərbaycan Prezidenti ölkələrimizin müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə bir-birini dəstəkləməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev eyni zamanda, parlamentlərarası əməkdaşlığın da əlaqələrimizin möhkəmlənməsində roluna toxundu, xalqlar arasında təmasların əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin gələcəkdə də uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyi qeyd edən səfir Azərbaycanın gözəlliyinin və burada gedən inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını dedi.*

*Edqars Skuya dövlətimizin başçısına Latviya Prezidentinin ölkəsinə rəsmi səfərlə bağlı dəvətini çatdırdı.*

*Prezident İlham Əliyev dəvəti minnətdarlıqla qəbul etdi.*

*Görüşdə Azərbaycan ilə Latviyanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd edildi, Latviyanın ölkəmizdəki səfirliyinin NATO-nun Azərbaycanda əlaqələndirici funksiyasını yerinə yetirməsindən məmnunluq ifadə olundu, Azərbaycan ilə NATO arasında əməkdaşlığın inkişafına töhfə verdiyi vurğulandı. Həmçinin Azərbaycanın həm NATO, həm də Avropa İttifaqı ilə əlaqələrinin inkişafında üzv dövlət olaraq Latviyanın verdiyi dəstək yüksək qiymətləndirildi.*

## İSVEÇRƏ KONFEDERASİYASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TOMAS ŞTEL İLƏ GÖRÜŞ

*24 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də İsveçrə Konfederasiyasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Tomas Ştelin etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni təqdim etdikdən sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.*

*İkitərəfli münasibətlərimizin istər siyasi, istərsə də iqtisadi sahələrdə uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı özünün Dünya İqtisadi Forumuna səfərləri zamanı İsveçrənin dövlət başçıları ilə mütəmadi görüşlərinin əməkdaşlığın müzakirəsi baxımından önəmini qeyd etdi.*

*Ticarət, iqtisadiyyat, energetika sahələrində əməkdaşlığın səviyyəsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev İsveçrə şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətinə toxundu, onların işğaldan azad edilmiş ərazilərimizdə yenidən qurulma layihələri ilə bağlı fəal işlədiklərini vurğuladı və bu istiqamətdə yaxşı əməkdaşlığın olduğunu bildirdi.*

*Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərdə insanların rahat yaşaması üçün müasir texnologiya, «yaşıl enerji», «ağıllı kənd» konsepsiyalarının həyata keçirildiyini deyərək, bunların əməkdaşlığımızda yeni istiqamətlər yaratdığını vurğuladı.*

*Azərbaycan Prezidenti eyni zamanda, SOCAR-ın İsveçrədəki fəaliyyətini, İsveçrə şirkətlərinin Azərbaycan iqtisadiyyatına investisiya qoymasını biznes sahəsində əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev qarşıdan gələn illərdə əməkdaşlığın daha da genişlənəcəyinə və güclü tərəfdaşlıq əlaqələrinin həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Səfir ilk növbədə, Qarabağa səfərinə toxunaraq, orada gedən yenidən qurulma işləri ilə tanış olduğunu qeyd etdi, İsveçrə şirkətlərini buraya dəvət etmək istəyini söylədi.*

*Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının inkişafında İsveçrə şirkətlərinin fəal iştirak etdiyini bildirən Tomas Ştel bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.*

*Azərbaycan ilə artıq 20 ilə yaxındır ki, əməkdaşlıq proqramının həyata keçirildiyini bildirən səfir İsveçrə şirkətlərinin Azərbaycanda makroiqtisadi sahədə, eləcə də maliyyə və özəl sektorların inkişafındakı fəaliyyətlərini məmnunluqla qeyd etdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ MÜDAFİƏ NAZİRİ YAŞAR GÜLƏR İLƏ GÖRÜŞ

*24 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Türkiyə Respublikasının Milli Müdafiə naziri Yaşar Güləri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyi vurğulandı. Bu baxımdan ölkəmizin müxtəlif yerlərində «Mustafa Kamal Atatürk – 2023» Azərbaycan–Türkiyə birgə taktiki təliminin keçirilməsindən, təlim zamanı yüksək peşəkarlığın və bacarığın nümayiş etdirilməsindən məmnunluq ifadə olundu.*

*Türkiyə Respublikasının Milli Müdafiə naziri bu təlimlərin ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə təsadüf etməsinin rəmzi məna daşıdığını vurğuladı.*

*Söhbət zamanı Azərbaycanın və Türkiyənin dövlət başçılarının mütəmadi görüşlərinin və təmaslarının münasibətlərimizin inkişafında rolu qeyd olunaraq, bu ilin sentyabrında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfərinin əhəmiyyətinə toxunuldu.*

*Görüşdə Azərbaycanın ötən ay həyata keçirdiyi antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunduğu xüsusi qeyd edildi.*

*Söhbət zamanı Yaşar Gülərin Azərbaycana səfərinin əlaqələrimizin inkişafına, o cümlədən hərbi sahədə əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət etdiyi bildirildi, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASIM-JOMART TOKAYEVƏ

Hörmətli Kasım-Jomart Kemeleviç!

25 Oktyabr – Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Qazaxıstan sürətlə inkişaf edən, gündən-günə müasirləşən və güclənən dövlətdir. Sizin qətiyyətli rəhbərliyiniz altında aparılan əhəmiyyətli islahatlar ölkənizin sosial-iqtisadi yüksəlişini, beynəlxalq aləmdə nüfuz qazanmasını təmin etmişdir.

Biz dərin tarixi kökləri olan, qardaşlıq və qarşılıqlı etimad üzərində qurulmuş və bu gün yeni məzmun kəsb edən Azərbaycan–Qazaxıstan münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. Çoxşaxəli əlaqələrimiz, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə səmərəli qarşılıqlı fəaliyyətimiz dövlətlərarası münasibətlərimizi səciyyələndirən əsas cəhətlərdəndir. Daim genişlənən siyasi dialoq ilə yanaşı, iqtisadiyyat, nəqliyyat, logistika, infrastruktur, enerji, humanitar və digər sahələrdə əməkdaşlığımızın dərinləşməsi tərəfdaşlığımızın yüksək səviyyəsindən və dinamik inkişafından xəbər verir.

Əminəm ki, mövcud imkanlardan yararlanaraq, birgə səylərimizlə Azərbaycan ilə Qazaxıstan ara-

sında müstəsna xarakter daşıyan əlaqələrin möhkəmlənməsinə, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2023-cü il*

## 230 MVt GÜCÜNDƏ QARADAĞ GÜNƏŞ ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*26 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılışı mərasimində iştirak etmişdir.*

*Əvvəlcə Qaradağ Günəş Elektrik Stansiyasında görülmüş işlər barədə videoçarx nümayiş olundu.*

*2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, «AzərEnerji» ASC və Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Stansiyanın təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də Gülüstan sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulubdur.*

*Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük Günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk Günəş elektrik stansiyasıdır.*

*Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həc-*

*mində təbii qaza qənaət ediləcək. Eyni zamanda, atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilibdir.*

*Dövlətimizin başçısı tədbirdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli nazirlər!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Ötən ilin martında biz Günəş elektrik stansiyasının təməlqoyma mərasimində iştirak edirdik. İndicə göstərilən video həmin tariximizin əlamətdar anını nümayiş etdirdi. Əminəm ki, bu, böyük bir yolun, iki qardaş ölkənin böyük yolunun başlanğıcıdır. Bu gün biz nisbətən qısa zamanda – təxminən il yarımdan bir qədər çox müddət ərzində Abşeron yarımadasının bu boş hissəsinin «yaşıl enerji» mənbəyinə çevrildiyini görəndə qürur duyuruq. Bu, əlamətdar nailiyyətdir. Mən Azərbaycanın inkişafına verdiyi bu möhtəşəm töhfəyə, həmçinin «yaşıl enerji»yə keçidlə bağlı ölkəmizə sadiqliyinə görə «Masdar»ı, onun rəhbərliyini təbrik etmək istərdim.

Bu gün qonaqlarımız arasında Birləşmiş Ərəb Əmirlikləri Hökumətinin dörd nazirini, həmçinin qardaş ölkədən böyük nümayəndə heyətini görməkdən qürur duyuruq. Bu, tərəfdaşlığımızın və dostluğumuzun yaxşı nümunəsidir, eləcə də hər iki ölkənin

bugünkü mərasimə böyük əhəmiyyət verdiyini nümayiş etdirir. Birincisi, ona görə ki, bu, regionda ən böyük Günəş elektrik stansiyasıdır və ikincisi, ona görə ki, artıq qeyd etdiyim kimi, bu sadəcə, başlanğıcdır.

Bizim böyük planlarımız var və əminəm ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək. Əminəm ki, daha çox layihələr olacaq. Faktiki olaraq, bu gün – bir qədər sonra biz çox qısa zamanda 1 qiqavat bərpa olunan enerji istehsalına yol açacaq 3 investisiya sazişinin imzalanma mərasiminin şahidi olacağıq. Ona görə də bugünkü tədbiri Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında qardaşlıq əlaqələrinin parlaq nümunəsi hesab edirik.

Mən bu gün bizimlə birgə olduqlarına görə əziz qonaqlarımıza minnətdarlığımı bildirmək istərdim. Mən Azərbaycana etibar edən, bərpa olunan enerjiyə böyük həcmdə investisiya yatırmağı qərar verən və Azərbaycanın «yaşıl gündəlik»lə bağlı hədəflərə çatmasına imkan yaradacaq şirkət olan «Masdar»a xüsusi minnətdarlığımı bildirmək istərdim. Bugünkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir.

Qeyd etdiyim kimi, bu gün 3 investisiya sazişi imzalanacaq, lakin bizim planlarımız daha genişdir. Biz mərhələlərlə 10 qiqavata qədər bərpa olunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq və bu, regionun enerji inkişafında tam bir inqilab olacaq, çünki Azərbaycan dünyada ilk dəfə

XIX əsrin ortalarında neftin istehsal olunduğu ölkədir. Dənizdəki yataqlardan ilk neft ötən əsrin ortalarında istehsal olunub. İndi zəngin yanacaq ehtiyatlarımızın olduğunu nəzərə alaraq, biz «yaşıl gündəliyə» doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu bizim təkcə Azərbaycanın gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəmizdir.

Ona görə də mən ümidvaram və tam əminəm ki, bizim bütün planlarımız həyata keçəcək. Bugünkü mərasim faktiki olaraq, bunu nümayiş etdirir. Mən həm də ümidvaram ki, bugünkü mərasim yaxşı nümunədir və Birləşmiş Ərəb Əmirliklərindən olan bir çox şirkətlərə gəlib bizimlə işləmək üçün yaxşı siqnal olacaqdır. Bilirəm ki, bu yaxınlarda bizim milli neft şirkətlərimiz, enerji şirkətlərimiz ADNOC və SOCAR artıq Azərbaycanda rəsmi olaraq tərəfdaş olublar. Bilirəm ki, Birləşmiş Ərəb Əmirliklərində və digər ölkələrdə birlikdə işləmək üçün planlar vardır. Beləliklə, biz indi həqiqətən də ölkələrimiz, hökumət strukturlarımız və şirkətlərimiz arasında əməkdaşlığın inkişafının yeni mərhələyə yüksəldiyini görürük.

Azərbaycan xarici investisiyalar üçün çox açıq ölkədir. Son 30 il ərzində bizim çoxmilyardlı investisiya portfoliomuz olub. Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub və bunun təqribən 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür. Hazırda bizim iqtisadi hədəfimiz qazıntı yanacağından asılılığımızı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir. Lakin eyni zamanda, biz başa

düşürük ki, bizim neft və qazımıza hələ uzun illər ərzində beynəlxalq bazarda tələbat olacaq. Bu məqsədlə çoxsaylı neft və qaz kəmərləri sistemi istismara verilib və indi biz neft və qazı müxtəlif istiqamətlərə ixrac edirik. Azərbaycan beynəlxalq bazarlara neft, təbii qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ixracatçısıdır.

Əlbəttə, növbəti illərdə biz hidrogeni, o cümlədən «yaşıl hidrogen»i ixrac edəcəyik. Bu məqsədlə biz bu potensialı yaratmaq üçün tərəfdaşlarımızla, dünyanın müxtəlif ölkələrindən olan şirkətlərlə çox yaxından işləyirik.

Azərbaycandakı investisiya mühitinə gəldikdə, mən artıq qeyd etdim ki, ölkəmizin iqtisadiyyatı çox sabitdir. Son 20 il ərzində bizim ümumi daxili məhsulumuz 4 dəfədən çox artıb. Biz birbaşa xarici borcumuzu ümumi daxili məhsulun 10 faizindən aşağı səviyyəyə salmağa və 20 il bundan əvvəl 50 faizə yaxın olan yoxsulluq səviyyəsini 5,5 faizə endirməyə nail olmuşuq.

Beləliklə, bu onu göstərir ki, neft və qaz ixracından daxil olan gəlirlərin ədalətli paylanılması tamamilə yeni reallığı yaradır. Növbəti illərdə biz qısa müddət ərzində milli enerji şəbəkəmizin gücləndirilməsini təmin edəcək dövlət proqramını icra etməyi planlaşdırırıq. Bu çox zəruridir. İndi mən bizim yalnız «Masdar» şirkəti ilə icra etməyi planlaşdırdığımız layihələri qeyd etdim. Bir çox digər investisiya təklifləri də var və onların bəziləri artıq icra mərhələsindədir.

Biz milli enerji şəbəkəsini gücləndirməliyik və qeyd etdiyim kimi, dövlət proqramı icra olunur. Biz hər şeyi vaxtında edəcəyik və artıq maliyyə resursları ayırmışıq ki, bərpa olunan enerji mənbələrini istehsal edən investorlarımız özlərini tamamilə rahat hiss etsinlər.

Sizə onu da bildirmək istəyirəm ki, bizim bərpa olunan enerji gündəliyimiz təkcə Günəş və ya külək elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda biz 3 il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk. Biz artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyalarını istismara vermişik və bu ilin sonuna kimi bu, 270 meqavata çatacaqdır. 2-3 ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq. Bu da «yaşıl enerji»yə keçid prosesinə digər mühüm bir töhfə olacaqdır.

Ümumiyyətlə, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq «yaşıl enerji» zonası kimi elan olunub. Bizim təbii sərvətlərimizin istifadəsi üçün böyük potensial var və aydındır ki, külək də artıq bu sərvətə çevrilib. Çünki külək həmişə, xüsusilə də təyyarənin enməsində bəzən müəyyən problemlərin mənbəyi olub. Lakin indi külək təbii sərvətdir.

Bunu ola bilsin, 10–20 il bundan əvvəl təsəvvürə gətirmək çətin olardı. Lakin indi bu belədir və xüsusilə Xəzər dənizində külək çox güclüdür, hətta bu gün buradakı külək onu göstərir ki, bu potensial buradadır.

Beləliklə, bunlar gələcək üçün planlardır. Əlbəttə, bu investisiyalar bizə böyük həcmdə təbii qaza qənaət etmək imkanını verəcək. Hazırda həmin qaz elektrik enerjisi istehsalı üçün istifadə edilir. Söhbət ixrac üçün qənaət ediləcək bir neçə milyard kubmetr təbii qazdan gedir. Çünki son geosiyasi dəyişikliklər nəticəsində Azərbaycan qazına Avropada heç vaxt olmadığı qədər ehtiyac vardır.

Biz əsas daşıma infrastrukturunu, Xəzər dənizindəki yataqlardan Avropaya qədər uzanan 3500 kilometrlik qaz boru kəmərini vaxtında istismara vermişik. Bu da daha geniş regionun enerji təhlükəsizliyinə daha bir töhfə olacaqdır.

Planlarımız enerji dəhlizini, Xəzər–Avropa İttifaqı enerji dəhlizini yaratmaq üçün tərəfdaşlarımızla fəal işləməkdən ibarətdir. Ötən ilin dekabrında müvafiq müqavilə imzalanıb. Biz artıq fəaliyyətimizə başlamışıq, rəhbər komitə bir neçə dəfə toplanıb. Bir neçə aydan sonra bizim yeni enerji təhlükəsizliyi layihəsinin – «Yaşıl Enerji Dəhlizi»nin, inteqrasiya edilmiş ötürücü, istehsal və istehlak müəssisələrinin, o cümlədən Qara dənizin dibindən keçəcək elektrik kabelinin tam texniki-iqtisadi əsaslandırılması hazır olacaq. Hazırda 4 qiqavat gücündə bərpa olunan enerji mənbələri üçün texniki-iqtisadi əsaslandırılma hazırlanır.

Beləliklə, bunlar bizim planlarımızdır və müstəqillik tariximiz bizim təkcə enerji sahəsində deyil, bütün sahələrdə planlarımızın gerçəkləşdiyini göstərir. Çünki bizim siyasi iradəmiz var, cəmiyyətimizdə birlik var. Bizim Birləşmiş Ərəb Əmirlikləri

və Birləşmiş Ərəb Əmirliklərindən olan şirkətlər kimi möhtəşəm tərəfdaşlarımız var.

Əminəm ki, biz bütün məqsədlərimizə nail olacağıq və gələcəkdə bu kimi daha çox mərasimlər keçirəcəyik. Bizimlə burada olduqları üçün qonaqlarımıza bir daha təşəkkürümü bildirmək və bu əlamətdar tədbir münasibətilə hamımızı təbrik etmək istəyirəm. Çox sağ olun.

* * *

**Sultan Əhməd əl-Cabir** (*Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri*): Salaməleyküm.

Zati-aliləri cənab Prezident Əliyev!

Hörmətli qonaqlar, əziz dostlar, xanımlar və cənablar!

Həqiqətən də Azərbaycana, Bakıya qayıtmaq və olduqca önəmli bir tədbirdə iştirak etmək xoşdur. Bu tədbir Azərbaycanın enerji şaxələndirilməsi və davamlı iqtisadi inkişafına aparan yolda mühüm bir tədbirdir.

İcazə verin, əvvəlcə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət şeyx Məhəmməd bin Zaid əl-Nəhəyyanın zati-aliləri Prezident Əliyevə və Azərbaycan xalqına ən xoş arzularını çatdırım.

Cənab Prezident, bu ilin əvvəlində Azərbaycana gəlişimiz və indi də bu olduqca vacib mərasimdə layihənin gerçəkləşdirilməsində iştirak etməyimiz həqiqətən də bizim hörmətimizin, ehtiramımızın və götürdüyümüz öhdəliyə sadiqliyimizin nümunəsidir. Mən «Masdar»ın heç bir layihəsini görməmi-

şəm ki, 4 nazir və Birləşmiş Ərəb Əmirliklərinin ən yüksək səviyyəli nümayəndə heyətinin üzvləri eyni vaxtda iştirak etsinlər. Bu həqiqətən də böyük bir ehtiramın, hörmətin və Sizin ölkənizlə əməkdaşlığımızın nümunəsidir.

Cənab Prezident, mən Sizin nəcib, xoş sözlərinizi çox yaxşı xatırlayıram. Elə bu ilin əvvəlində Əbu-Dabidə Dayanıqlılıq Həftəsində çıxışınızı yaxşı xatırlayıram. Siz dediniz ki, Azərbaycanın bərpa olunan enerji mənbələrini uzun illər bundan əvvəl inkişaf etdirmək qərarı təkcə enerji təhlükəsizliyi ilə bağlı deyildi. Bu, cəsarətli və düşünülmüş qərar idi, hətta deyərdim, strateji bir addım idi. Bu, yeni sənaye sahələrini inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, «yaşıl» iqtisadi artım üçün strateji addım idi.

Zati-aliləri, bu yanaşma Birləşmiş Ərəb Əmirliklərinin də yanaşmasının güzgüdəki əksinə bənzəyir. Əslində bu, Birləşmiş Ərəb Əmirliklərinin ötən 20 il ərzində qəbul etdiyi bir yanaşmadır. Bu gün Birləşmiş Ərəb Əmirlikləri böyük fəxarət hissi ilə «Masdar» kimi mütərəqqi enerji şirkətinin timsalında bunu sərgiləmiş olur. Bildiyiniz kimi, «Masdar» dünyanın aparıcı məhz bərpa olunan enerji şirkətinə çevrilmişdir.

Bu layihə ölkələrimiz arasında yaxın münasibətlərin inkişafında və möhkəmlənməsində mühüm mərhələdir. Bu, 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək və karbon dioksid emissiyalarını ildə 200 min ton azaldacaq layihədir.

Zati-aliləri, bir az əvvəl qeyd etdiyiniz kimi, biz bu gün 2 Günəş və 1 külək enerji istehsalı üzrə saziş

imzalayacağıq ki, bu da gündə əlavə 1000 meqavat təmiz enerji deməkdir. Bunlar olduqca önəmli addımlardır. Bunlar konkret addımlardır ki, biz Azərbaycanda razılaşdırılmış 10 qiqavat gücündə bərpa olunan enerji layihələrini – külək və Günəş enerjisinin inkişafı planımızı həyata keçirək. Bu, kifayət qədər sürətlə həyata keçirilən işdir.

Zati-aliləri, BMT-nin İqlim Dəyişikliyi üzrə COP-28 Konfransına cəmi 34 gün qalıb və bugünkü tədbir Paris Sazişinin məqsədlərini əyani reallığa çevirmək üçün lazım olan praktiki tədbirləri mükəmməl şəkildə təcəssüm etdirir. Bu il həlledici məqamdır. Deyərdim ki, COP-28 Paris Sazişindən sonra əldə edilən irəliləyişləri nəzərdən keçirən qlobal bir xülasə ili olduğu üçün iqlim fəaliyyəti istiqamətində kritik məqamdır.

Qeyd etmək lazımdır ki, Paris Konfransı dünyanı ortaq bir hədəf ətrafında birləşdirdi. Bu, ümumi məqsəd uğrunda millətləri və ölkələri birləşdirmək istiqamətində uğurlu bir addım idi. Lakin o vaxtdan bəri qlobal miqyasda aparılan təhlilləri nəzərdən keçirsək, görərik ki, biz tam məqsədə gedən yolda hələ də inamla irəliləmirik. Bərpa olunan enerjiyə yatırılan investisiyalar artmaqda davam edir. Bu il dünyada əlavə rekord 500 qiqavat istehsal edildi. Bilirsiniz, dünya 2030-cu ilə qədər bərpa olunan enerji gücünü 3 dəfə artırmalıdır ki, 1,5 səviyyəsi əlçatan olsun.

İlk dəfədir ki, biz praktiki addımları COP-28 səviyyəsində cəmiyyətdə ifadə edirik, yəni emissiya 7 il ərzində 22 qiqaton azaldılmalıdır. Mən əminəm ki,

bu çox böyük bir işdir. Bu, bütün millətlər, bütün ölkələr üçün bir vəzifədir. Heç bir ölkə, xalq, qurum bu işin öhdəsindən təkbaşına gələ bilməyəcək. Bizə hər bir ölkənin Azərbaycan kimi, təmiz enerji sahəsində müəyyən edilmiş məqsədlərlə energetikaya keçid üçün aydın planlar hazırlaması lazımdır. Rekord müddətdə bir sıra tutarlı layihələrin hazırlanmasını və həyata keçirilməsini təmin etmək üçün iqlim maliyyələşdirilməsində yenilikçi yanaşmalara ehtiyacımız vardır. Azərbaycandakı layihələrdə, o cümlədən bu layihədəki tərəfdaşlıqda da yanaşmalar məhz bu istiqamətdədir.

Hörmətli iştirakçılar, əziz dostlar!

Bu layihənin ərsəyə gəlməsində, onun reallaşdırılmasında əməyi keçən bütün tərəfdaşlara – Əbu-Dabi İnkişaf Fonduna, Asiya İnkişaf Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinə təşəkkür edirəm. Əslində bu, özünəməxsus, bənzərsiz bir modeldir və ötən illər ərzində «Masdar»ın işləyib hazırladığı bir yanaşmadır. Bu, çoxtərəfli və ikitərəfli qurumların, xüsusən dünyanın müxtəlif yerlərindən aidiyyəti tərəflərin bir araya gəlməsinin nümunəsidir. Xüsusən planetimizin Cənub yarımkürəsində real nəticələr əldə etmək üçün dünyanın hər yerindən yenilikçi qarışıq maliyyə vəsaitlərinin bir araya gəlməsinin əla bir təzahürü, nümunəsidir.

Bu, «Masdar»ın 40-dan çox ölkədə bərpa olunan enerji layihələrini uğurla həyata keçirmək üçün təxminən 20 ildir inkişaf etdirdiyi layihə maliyyələşdirilməsində katalizator modelidir. Rəhbərlik-

dən aldığımız dəstək də əlamətdardır, bu dəstək vasitəsilə biz 40-dan çox ölkədə qısa müddət ərzində bu qədər layihəni həyata keçirmişik.

Azərbaycan hökumətinin Azərbaycanın külək və Günəş potensialından istifadə etmək, eyni zamanda, sistemin baza gücünü təbii qazla təmin etmək baxışı enerjini daha təhlükəsiz, daha əlçatan və dayanıqlı edəcək. Həm «Masdar», həm də Birləşmiş Ərəb Əmirlikləri bu səyahətdə Sizin tərəfdaşınız olmaq arzusundadır. Bir çox digər ölkələrdə də belə layihələri həyata keçirmək əzmindəyik. Biz Azərbaycanla və dünyanın bir çox ölkələri ilə iddialı məqsədlərə nail olmaq üçün 2030-cu ilə qədər ən azı 100 qiqavat təmiz enerjini istehsal etmək məqsədilə bütün qitələrdə sizinlə və digər həmfikir tərəfdaşlarla, təşkilatlarla, ölkələrlə işləməyə davam etməyin intizarındayıq.

Bu həmçinin dünyada istifadə olunan enerji resurslarının karbonsuzlaşdırılması üzrə həmfikir tərəfdaşlarla birgə işləmək deməkdir ki, bu da gələcək rifah baxımından önəmli vasitə olacaqdır.

Zati-aliləri, ötən illər ərzində mən dünyanın müxtəlif yerlərində insanlarla görüşmüşəm, söhbət etmişəm. Son bir ildə deyə bilərəm ki, dünyanın hər yerindən, cəmiyyətin hər bir təbəqəsindən olan bir çox insanla – hökumət nümayəndələri, özəl sektor, biznes dairələri, elmi dairələr, qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti və kifayət qədər məşhur şəxslərlə söhbət etmişəm. Bu söhbətlər əsnasında, bütün bu təmaslarda biz çox dərindən başa düşürük ki, qlobal iqlim dəyişikliyi ilə bağlı hansı addımlar atılmalıdır.

Ona görə biz çox ümid edirik ki, BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransı bizə iqlim dəyişiklikləri ilə bağlı çox ciddi çağırışlara cavab vermək fürsəti yaradacaq.

Hazırda gündəlikdə olan problemlərin öhdəsindən gəlmək üçün bir sıra texnoloji vasitələr vardır. Amma bu texnologiyaların bir çoxu ilkin yaranma mərhələsindədir. Digər tərəfdən, qlobal maliyyə məsələsi də vardır. Bu qlobal maliyyə vəsaitlərinin rəva görülə biləcək, əlçatan ola biləcək səviyyəyə qaldırılması vacibdir. Təmaslarımızdan ibrət götürərək bir reallığı qəbul etmişik ki, əgər biz iqlim dəyişikliyi ilə bağlı maliyyə məsələsini həll etməsək, dünya yenə də qeyri-müəyyənlikdə qalacaq. Odur ki, biz yeni iqlim dəyişikliyi çərçivəsi yaratmaq istəyirik ki, onun daxilində çoxtərəfli inkişaf banklarını, beynəlxalq maliyyə təsisatlarını bir araya gətirmək mümkün olsun, bu maliyyəyə çatımlılıq və istifadə edilə biləcək olsun.

Bilirsiniz, BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransını fərqləndirən cəhət bizim elə təməldən yanaşmamızdır. Bu, əməkdaşlıq, tərəfdaşlıq və tammiqyaslı inklüzivlikdir ki, onun sayəsində biz kollektiv olaraq iqlim dəyişikliyi çağırışlarının öhdəsindən gələ bilərik. Bu olmasa, cəhdlərimiz uğursuz olacaq. Paris Sazişindən ötən yeddiillik müddətə baxsaq, bəli, müəyyən irəliləyiş var, amma eyni zamanda, qoyulmuş məqsədlərdən hələ çox uzağıq.

Paris Sazişi dünyanın bir saziş çərçivəsində bir araya gəlməsi baxımından vacib idi. Amma BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransında biz istəyirik

ki, Paris Sazişində qeyd olunanları praktiki, praqmatik nəticə yönümlü fəaliyyətlərə çevirək. Biz istəyirik ki, daha az söz və daha çox əməli iş olsun. Biz real dünya üçün real cavablar, həllər, nəticələr istəyirik. Məhz buna görə bu hər kəsə – töhfə verə biləcək hər kəsə açıq dəvətdir. Dubaya gəlsinlər və bu şüurla gəlsinlər. Ümid, nikbinlik, tərəfdaşlıq, birlik və həmrəylik olsun. Əgər biz həqiqətən də bu istiqamətdə paradiqma dəyişikliyi yaratmaq istəyiriksə, bu, bir uğur resepti olacaq.

Zati-aliləri, mən yenə də Sizə, Sizinlə əməkdaşlığa, Sizin liderliyinizə, nikbinliyinizə, yaradıcılığınıza və işləri həyata keçirmək coşqunuza güvənirəm. Üzümüzə gələn həftə ərzində Sizin nümayəndə heyətinizi Birləşmiş Ərəb Əmirliklərində COP-28 konfransından öncə nazirlər görüşündə, həmçinin BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransında görmək intizarındayam. Biz istəyirik ki, burada sərgilənən o ruh, həqiqətən də liderlik ruhu, bu layihədə olan o ruh, pozitivlik, tərəfdaşlıq, işbirliyi, həmrəylik ruhu, həmçinin COP-28 Konfransında sərgilənsin və qütbləşməyə, parçalanmağa artıq yetər deyək. Üzləşdiyimiz iqlim dəyişiklikləri çağırışlarının öhdəsindən gəlmək üçün dünyanı bir «Yol xəritəsi» üzərində birləşdirmək vaxtıdır.

Zati-aliləri, mən Sizə nə qədər təşəkkür etsəm də azdır, Siz bizə bu qədər etimad göstərmisiniz, bizə fürsət vermisiniz. Əvvəl də qeyd etdiyim kimi, bu, olduqca müdrik bir baxış, müdrik bir liderlikdir. Bu həmçinin şeyx Məhəmməd bin Zaid əl-Nəhəyyanın lider baxışıdır ki, belə layihələr bu qədər qısa

vaxt ərzində ərsəyə gəlib. Sizin dəstəyiniz, hökumətinizin göstərdiyi yardım və dəstək sayəsində biz bu qədər qısa vaxt ərzində böyük nailiyyətlərə imza atdıq. Mən Sizə söz verirəm ki, bu bizim tərəfdaşlığımızın DNT-si olacaqdır.

Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan ilə olan təmaslarında hər kəsə və xüsusilə Sizə təşəkkür edirəm.

* * *

*Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri Sultan Əhməd əl-Cabir Qaradağ Günəş Elektrik Stansiyasını işə saldılar.*

*«Masdar» şirkəti tərəfindən hazırlanmış, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş xatirə medalı Prezident İlham Əliyevə təqdim olundu.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*26 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə oktyabrın 26-da Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkəti arasında sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan hökuməti tərəfindən Energetika naziri Pərviz Şahbazov, SOCAR tərəfindən İqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil əl-Ramahi «Azərbaycan Respublikası Hökuməti ilə «Abu Dhabi Future Energy Company – Masdar» şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya Müqaviləsi»ni, «Azərbaycan Respublikası Hökuməti ilə «Abu Dhabi Future Energy Company – Masdar» şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya Müqaviləsi»ni və «Azərbaycan Respublikası Hökuməti ilə «Abu Dhabi Future Energy Company – Masdar» şirkəti arasında Azərbaycan Respublikasının Abşeron–Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı İnvestisiya Müqaviləsi»ni imzaladılar.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN SƏNAYE VƏ QABAQCIL TEXNOLOGİYALAR NAZİRİ SULTAN ƏHMƏD ƏL-CABİRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri Sultan Əhməd əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nümayəndə heyətinə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur naziri Süheyl bin Məhəmməd əl-Məzrui, İnvestisiya naziri Məhəmməd Həssən əl-Suveydi, Xarici İşlər Nazirliyinin iqtisadi məsələlər üzrə Dövlət naziri Əhməd Əli əl-Sayeğ, Əbu-Dabi İnkişaf Fondunun baş direktoru Məhəmməd Saif əl-Suveydi, «Masdar» şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil əl-Ramahi daxildir.*

*Prezident İlham Əliyev ilk növbədə, qonaqlara Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılışı mərasimində iştirak etdiklərinə görə minnətdarlığını bildirərək, bunu dostluq əlaqələrimizin və böyük hörmətin nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin dörd nazirinin*

*tədbirdə iştirakına görə bu ölkənin Prezidenti şeyx Məhəmməd bin Zaid əl-Nəhəyyana minnətdarlığını çatdırmağı xahiş etdi.*

*Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılışı mərasiminin keçirilməsini tarixi hadisə kimi qiymətləndirən Azərbaycan Prezidenti ikitərəfli münasibətlərimizin bir çox digər sahələri də əhatə etdiyini vurğuladı,bugünkü görüşün əməkdaşlığımızın hazırkı vəziyyətinin və perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi və gündəlikdə duran birgə layihələrin əlaqələrimizin daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi.*

*Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri Sultan Əhməd əl-Cabir ilk növbədə, ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyə görə nümayəndə heyətinin adından dövlətimizin başçısına minnətdarlığını ifadə etdi. O bildirdi ki, Birləşmiş Ərəb Əmirliklərinin ali rəhbərliyi qüdrətli ölkə olan Azərbaycanla həmişə strateji tərəfdaşlığın önəmini qeyd edir.*

*Sultan Əhməd əl-Cabir vurğuladı ki, Azərbaycan qısa müddət ərzində qarşıya qoyulan məqsədlərə çatmaq istiqamətində ciddi uğurlara nail olub. O, ölkələrimiz arasında mövcud olan əlaqələrin uzunmüddətli tərəfdaşlığa xidmət etməsinə əminliyini bildirərək vurğuladı ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri əməkdaşlığın və strateji tərəfdaşlığın yeni nümunəsinin yaradılması işinə sadiqlik nümayiş etdirir.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHƏYYAN İLƏ TELEFONLA GÖRÜŞ

*27 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Məhəmməd bin Zaid əl-Nəhəyyana telefonla zəng etmişdir.*

*Söhbət əsnasında Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli əlaqələr müzakirə edildi, xalqlarımızın mənafeyi naminə iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparıldı. Bu xüsusda Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında investisiyalar, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, bərpa olunan enerji, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.*

*Prezident İlham Əliyev ötən gün açılışı olan Qaradağ Günəş Elektrik Stansiyasının Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkəti tərəfindən Azərbaycanda inşa olunmasının önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı 230 meqavat gücündə olan Qaradağ Günəş Elektrik Stansiyasının regionda ən böyük Günəş elektrik stansiyası olduğunu, Azərbaycanda xarici sərmayə ilə tikilmiş ilk bərpa olunan*

*enerji stansiyası olduğunu vurğuladı. Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin dörd nazirinin və geniş tərkibdə nümayəndə heyətinin bu tədbirdə iştirakının ölkələrimiz arasındakı dostluğun və tərəfdaşlığın nümunəsi olduğunu qeyd etdi.*

*Azərbaycan Prezidenti Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini ölkəsinin BMT-nin İqlim Dəyişikliyi Konfransına – COP-28-ə ev sahibliyi etməsi münasibətilə təbrik edərək, bunu Birləşmiş Ərəb Əmirliklərinin Davamlı İnkişaf Məqsədlərinə nail olunması və ətraf mühitin qorunması ilə bağlı qlobal səylərə töhfəsinin nümunəsi kimi dəyərləndirdi.*

*Dövlət başçıları iki ölkə arasında, eləcə də beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» və digər təsisatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə etdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*28 oktyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə rəsmi sosial şəbəkə hesablarında paylaşım etmişdir.*

*Dövlət başçısı Azərbaycan və Türkiyə bayraqlarının əks olunduğu fotonu paylaşıb.*

*Bayraqların üzərində:* «29 Oktyabr–Türkiyə Cümhuriyyət bayramı» *sözləri yazılıb.*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASIM-JOMART TOKAYEVƏ**

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstanın Karaqanda vilayətindəki şaxtada baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Qazaxıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 oktyabr 2023-cü il*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Əlamətdar tarix – Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Sizi və Sizin simanızda qardaş Türkiyə xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Bir əsr bundan əvvəl Türk Dünyasının böyük oğlu, mahir sərkərdə və dahi lider Qazi Mustafa Kamal Atatürk Türkiyə xalqını vahid bir ideal ətrafında birləşdirməyə müvəffəq olmuş, özünün ən möhtəşəm əsəri olan Türkiyə Respublikasını qurmaqla istiqlal mübarizəsini uğurla sona çatdırmışdı. Bu müstəsna gündə ulu öndər Atatürkün, onun silahdaşlarının və qəhrəman şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edirik.

İstiqlalına şəhidlərinin canı və qanı bahasına, çox mürəkkəb və ziddiyyətli beynəlxalq vəziyyətdə qovuşan Türkiyə Respublikası 100 il sonra qlobal siyasi xəritədə mühüm mövqeyə malik, dünyada əsas söz sahiblərindən biri olan, hər cəhətdən güclü və qüdrətli dövlətdir. Atatürkün əmanəti olan qardaş Türkiyənin son 20 ildə inkişaf tempi, dünya

çapında ən öndə duran ordudan tutmuş, yüksək texnologiya və innovasiyalara qədər bütün sahələrdə əldə etdiyi möhtəşəm nailiyyətləri, beynəlxalq aləmdə qazandığı etibarı və yüksək nüfuzu Sizin sarsılmaz iradənizin, yorulmaz fəaliyyətinizin və qətiyyətlə həyata keçirdiyiniz müdrik siyasətinizin nəticəsidir. Sizin əzmlə yürütdüyünüz strateji inkişaf xəttinə xalqınızın birmənalı dəstəyi, Sizə olan sonsuz inam və etimadı Türkiyənin gələcək uğurlarını və nailiyyətlərini təmin edəcək ən mühüm amillərdir.

Gündən-günə güclənən, ən qabaqcıl dövlətlərlə bir sırada layiqli yerini tutan müasir Türkiyəni görməkdən qardaş ölkə olaraq böyük qürur və fərəh hissi duyuruq. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin «Bir millət – iki dövlət» kəlamı xalqlarımızın qardaşlığını, birliyini, həmrəyliyini ifadə etməklə yanaşı, ikitərəfli münasibətlərimizin əsl mahiyyətini əks etdirir. Fəxrlə qeyd etmək istəyirəm ki, bu fəlsəfənin sübutu olaraq, hazırda Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın olan ölkələr və müttəfiqlərdir.

Tarixən olduğu kimi, xalqlarımız bu gün də bir-birinin yanındadır, sevincini də, kədərini də birgə yaşayırlar. Azərbaycan xalqı Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə Siz başda olmaqla, qardaş Türkiyə dövləti və xalqının Azərbaycanın haqq işinə, ərazi bütövlüyünə göstərdiyi birmənalı siyasi dəstəyini və qətiyyətli mövqeyini heç zaman unutmayacaqdır.

Biz Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan–Türkiyə əlaqələrini bundan

sonra da bütün sahələrdə gücləndirmək əzmindəyik. Ortaq mənəvi dəyərlər, dini və mədəni köklər kimi sarsılmaz təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz həm də bölgədə sabitliyin, əmin-amanlığın, inkişafın və təhlükəsizliyin zaminidir.

Əminəm ki, ən böyük sərvətimiz olan Azərbaycan–Türkiyə qardaşlığını və birliyini əbədiyyətədək yaşatmaq və daha da möhkəmləndirmək, hərtərəfli əməkdaşlığımızı inkişaf etdirmək yolunda üzərimizə düşən şərəfli missiyamızı bundan sonra da birgə və uğurla yerinə yetirməyə davam edəcəyik.

Bu tarixi gündə Sizin və qardaş Türkiyə xalqının sevincinə qoşulur, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Türkiyə Respublikasına daim rifah, firavanlıq və yüksəliş arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 oktyabr 2023-cü il*

## ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDELMACİD TEBBUNA

Hörmətli cənab Prezident!
Əziz qardaşım!

1 Noyabr – İnqilab Günü münasibətilə Sizə və Sizin simanızda qardaş Əlcəzair xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Amansız müstəmləkəçilik siyasətinə qarşı xalqınızın azadlıq mübarizəsinə başladığı bu əlamətdar gün Əlcəzairin qəhrəmanlıqlarla zəngin olan tarixinin ən şərəfli səhifələrindən biridir. Yüz ildən artıq dövr ərzində əsarətə və kütləvi zorakılığa məruz qalan, misli görünməmiş qəddarlıq, insanlıq əleyhinə cinayətlərlə üzləşən Əlcəzair xalqı müstəqilliyini 1 milyon yarım şəhidin canı bahasına əldə etmiş və bununla da iradəsinin sarsılmazlığını, yenilməzliyini, mətinliyini və azadlıq əzmini bütün dünyaya nümayiş etdirmişdir.

Otuzillik işğaldan əziyyət çəkmiş Azərbaycan xalqı Əlcəzair xalqının hisslərini yaxşı başa düşür. Şadam ki, bu gün ənənəvi dostluq və qardaşlıq telləri ilə bir-birinə bağlı olan ölkələrimiz arasında əlaqələr dinamik inkişaf edir. Eyni zamanda, çoxtərəfli müs-

tәvidә qarşılıqlı faydalı birgә fәaliyyәtimiz mәmnunluq doğurur.

Әminәm ki, qarşılıqlı etimad vә dәstәyә әsaslanan dövlәtlәrarası münasibәtlәrimiz, sәmәrәli әmәkdaşlığımız xalqlarımızın mәnafelәrinә uyğun olaraq bundan sonra da birgә sәylәrimizlә uğurla inkişaf edәcәk vә genişlәnәcәkdir.

Belә bir xoş gündә Sizә möhkәm cansağlığı, xoşbәxtlik, işlәrinizdә müvәffәqiyyәtlәr, qardaş Әlcәzair xalqına daim әmin-amanlıq vә rifah dilәyirәm.

*Hörmәtlә,*

**İLHAM ӘLİYEV**
**Azәrbaycan Respublikasının Prezidenti**

Bakı, *1 noyabr 2023-cü il*

# PAKİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN QURU QOŞUNLARI KOMANDANI ASİM MUNİR İLƏ GÖRÜŞ

*1 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları Komandanı Asim Muniri qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini bildirdi.*

*Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü dövründə Pakistan hökumətinin və xalqının ölkəmizə göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Pakistanın Ermənistanın təcavüzünə görə bu ölkə ilə diplomatik əlaqələr qurmamasını Azərbaycana göstərilən qardaşlıq münasibətinin nümayişi kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsi dövründə də Pakistanın Azərbaycana göstərdiyi siyasi dəstəyə görə minnətdarlığını ifadə etdi.*

*Dövlətimizin başçısı torpaqlarımızın işğaldan azad olunması kimi tarixi missiyanı başa çatdırdığımızı, suverenliyimizin tam bərpa olunduğunu, işğaldan azad*

*edilmiş ərazilərimizdə genişmiqyaslı yenidən qurulma işlərinə başlanıldığını məmnunluqla bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında hərbi sənaye sahəsində uğurlu əməkdaşlığın olduğunu deyərək, ölkələrimizin birgə hərbi təlim keçirməsinin önəminə toxundu.*

*Dövlətimizin başçısı beynəlxalq səviyyədə ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsinə toxunaraq, Azərbaycanın qardaş Pakistanı Cəmmu və Kəşmir məsələsində hər zaman dəstəklədiyini bir daha qeyd etdi.*

*Prezident İlham Əliyev Asim Munirin səfərinin əməkdaşlığımızın möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*Asim Munir İkinci Qarabağ müharibəsində əldə olunmuş Qələbə və bu ilin sentyabrında həyata keçirilmiş antiterror tədbirlərində Azərbaycanın qazandığı uğurlar münasibətilə təbriklərini çatdırdı, bunun Pakistanda böyük sevinclə qarşılandığını qeyd etdi. Qonaq Pakistanın Azərbaycan xalqı ilə qardaşlıq əlaqələri nümayiş etdirərək, Ermənistanı bu günə kimi tanımadığını bir daha vurğuladı.*

*Asim Munir Cəmmu və Kəşmir məsələsində ölkəmizin dəstəyinə görə minnətdarlığını bildirdi.*

## QAZAXISTAN RESPUBLİKASINA SƏFƏR

*2 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türk Dövlətləri Təşkilatının «Türk Əsri» çağırışı altında keçiriləcək 10-cu yubiley Zirvə görüşündə iştirak etmək üçün Qazaxıstan Respublikasına səfər etmişdir.*

*Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Qazaxıstanın Baş Naziri Alixan Smailov və digər rəsmi şəxslər qarşıladılar.*

# TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*Astana*

*3 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 3-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Bu ilin sentyabrında həyata keçirilmiş antiterror tədbirlərinin uğurla başa çatması məmnunluqla vurğulandı.*

*Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısını Xankəndi və Xocalı şəhərlərində Azərbaycan bayrağını ucaltması münasibətilə təbrik etdi.*

*Söhbət zamanı Türk Dövlətləri Təşkilatının «Türk Əsri» çağırışı altında 10-cu yubiley Zirvə görüşünün ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət etdiyi qeyd olundu.*

*Görüşdə ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ «TÜRK ƏSRİ» ÇAĞIRIŞI ALTINDA KEÇİRİLMİŞ 10-cu YUBİLEY ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*Astana*

*3 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Türk Dövlətləri Təşkilatının «Türk Əsri» çağırışı altında keçirilmiş 10-cu yubiley Zirvə görüşündə iştirak etmişdir.*

*Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.*

*Sonra birgə foto çəkdirildi.*

*Qazaxıstan Prezidenti Zirvə görüşünü açaraq qonaqları salamladı. Prezident Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi və Azərbaycan xalqını ölkəmizin ərazi bütövlüyünün bərpası münasibətilə təbrik edərək, ölkəmizin ərazi bütövlüyünün bərpa edildiyini və yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğuladı. Bu tarixi addımın Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq atıldığını diqqətə çatdırdı.*

*Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Zirvə görüşündəki çıxışında son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlardan söz*

*açaraq, Azərbaycan xalqının Türk Dünyasında layiqli yer tutduğunu, böyük hörmətə və nüfuza malik olduğunu və möhtəşəm uğurlar əldə etdiyini söylədi.*

*Prezident Şavkat Mirziyoyev, həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi genişmiqyaslı tədbirlərdən danışaraq, tarixi ədalətin zəfər çaldığını, Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın quruculuq ərazisinə çevrilməsi istiqamətində mühüm nəticələrin əldə olunduğunu bildirdi. O, avqust ayında Şuşa və Füzuli şəhərlərində olarkən irimiqyaslı quruculuq işlərinin, müasir infrastrukturun yaradılmasının, dağıdılmış mədəni irs obyektlərinin bərpasının şəxsən şahidi olduğunu vurğulayaraq, Azərbaycan xalqını böyük Zəfər – ölkənin ərazi bütövlüyünün tam bərpası münasibətilə bir daha səmimi-qəlbdən təbrik etdi.*

*Dövlətimizin başçısı Zirvə görüşündə çıxış etdi.*

* * *

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli Kasım-Jomart Kemeleviç!

Hörmətli dövlət və hökumət başçıları!

Əziz dostlar!

İlk növbədə, qonaqpərvərliyə görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə təşəkkür edir və qardaş Qazaxıstana Türk Dövlətləri Təşkilatına qarşıdan gələn sədrliyi dövründə müvəffəqiyyətlər arzulayıram. Türk Dövlətləri Təşkilatına 1 il ərzin-

də uğurlu sədrlik münasibətilə qardaş Özbəkistanı təbrik edirəm.

Yenidən Astana şəhərində olmağıma şadam. Bu, son 2 ildə Qazaxıstana 3-cü səfərimdir. Hər səfərimdə Qazaxıstanda uğurlu islahatların və genişmiqyaslı quruculuq işlərinin həyata keçirilməsinin şahidi oluram. Bütün əldə edilmiş uğurlar münasibətilə Qazaxıstan rəhbərliyini təbrik edirəm.

Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçibdir. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir.

Son 2 il ərzində mən Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərə 20 səfər etmişəm. Qardaş dövlətlərin rəhbərləri də həmin dövr ərzində Azərbaycana çoxsaylı səfərlər ediblər.

Oktyabr ayında Şuşa şəhərində Birinci Türk Dünyası Mədəniyyət Forumu təşkil edilmişdir. Fürsətdən istifadə edərək, Şuşa şəhərinin 2023-cü il üçün «Türk Dünyasının Mədəniyyət Paytaxtı» elan edilməsinə verdiyiniz dəstəyə görə minnətdarlığımı bildirirəm. Azərbaycan türk dövlətlərinin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur. Bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir. Birgə sərmayə fondlarının yaradılması prosesi baş-

lanmışdır. Azərbaycan–Özbəkistan İnvestisiya Fondu və Azərbaycan–Qırğızıstan İnkişaf Fondu yaradılıbdır.

2022-ci ilin müvafiq dövrü ilə müqayisədə, 2023-cü ilin yanvar–sentyabr aylarında Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsi 40 faiz artıbdır. Münasibətlərimizin inkişafı kontekstində nəqliyyat və logistika sahələri mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqləyib.

Azərbaycan Şərq–Qərb nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə öz dəyərli töhfəsini verir.

Hörmətli həmkarlar!

Əfsuslar olsun ki, bu gün dünyanın müxtəlif bölgələrində beynəlxalq hüquq normaları kobudcasına pozulur. Müharibələr, qanlı münaqişələr alovlanır. Belə olan halda, ilk növbədə, ölkələrin müdafiə potensialı təhlükəsizliyin əsas zəmanətinə çevrilir. Hesab edirəm ki, üzv ölkələr arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlıq daha da artmalıdır.

Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlamış və burada qeyri-qanuni qondarma rejim yaratmışdı. Ermənistan tərəfindən həyata keçirilmiş etnik təmizləmə nəticəsində 1 milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuşdur. Ermənistan şəhər və kəndlərimizi yerlə yeksan etmiş, tarixi və dini abidələrimizi dağıtmış, təhqir etmişdir.

Bütün bu illər ərzində Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin Ermənistanın məqsədi işğala əsaslanan status-kvonu möhkəmləndirmək idi. Ermənistanın baş nazirinin 2019-cu ildə o vaxt işğal altındakı Xankəndi şəhərində «Qarabağ Ermənistandır və nöqtə» açıqlaması danışıqlara son qoydu. Ermənistan rəhbərliyi o vaxt Azərbaycanı «yeni torpaqlar uğrunda yeni müharibə» ilə hədələyirdi.

2020-ci ildə Ermənistan rəhbərliyinin təxribat xarakterli hərəkətləri və bəyanatları, o cümlədən hərbi təxribatları İkinci Qarabağ müharibəsini qaçılmaz etdi.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə edərək, Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən və 27 il kağız üzərində qalmış 4 qətnaməsinin icrasını özümüz təmin etdik. Cəmi 44 gün ərzində davam edən İkinci Qarabağ müharibəsi 10 noyabr 2020-ci il tarixində Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələndi.

Ermənistanın ölkəmizə qarşı işğalçılıq və etnik təmizləmə siyasətinə baxmayaraq, məhz Azərbaycan Ermənistanla sülh sazişi imzalamağa hazır olduğunu bəyan etdi və 5 baza prinsipini təqdim etdi.

2022-ci ildə Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, onun real əməlləri tamamilə məntiqsiz və təzadlı idi. Ermənistan ordusunun qalıqları Azərbaycanın suveren ərazilərində qalmaqda davam edirdi. Ermənistanın baş nazirinin bu il sentyabrın 2-də qondarma qurumun «müstəqilliyi»ni təbrik etməsi və Qarabağda keçirilmiş 9 sentyabr «prezident seçkiləri» ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlik və birbaşa təhdid idi.

2023-cü il sentyabrın 19-da işğaldan azad edilmiş torpaqlarımızda qanunsuz erməni silahlı birləşmələri tərəfindən qəsdən yerləşdirilmiş minaların partlaması 6 mülki şəxsin və polis əməkdaşının həyatına son qoydu. Bundan sonra Azərbaycan Konstitusiya quruluşunun bərpası və qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsi məqsədilə lokal xarakterli antiterror tədbirləri həyata keçirdi. 23 saat ərzində bitən əməliyyat nəticəsində Azərbaycan özünün suverenliyini və Konstitusiya quruluşunu tam bərpa etdi. Antiterror tədbirləri nəticəsində mülki insanlara və mülki infrastruktura heç bir ziyan dəymədi. Azərbaycan beynəlxalq humanitar hüquqa tam riayət etdi. Bölgəyə iki dəfə səfər edən BMT missiyası bu faktları təsdiq etmişdir.

3 il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Bu məqsədlə artıq Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf

edilib. Növbəti il ən azı 2,4 milyard ABŞ dollarının ayrılacağı nəzərdə tutulur.

Biz Böyük Qayıdış Proqramını icra edirik. Artıq keçmiş məcburi köçkünlər – bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və 3 kəndə qayıdıblar. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur.

Füzuli şəhərində inşası başa çatmış məktəbə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə bir daha minnətdarlığımı bildirirəm. Avqust ayında birgə iştirakımızla məktəbin açılışı mərasimini məmnuniyyətlə xatırlayıram. Qazaxıstanın Azərbaycana hədiyyəsi olan Füzuli şəhərində inşa edilən yaradıcılıq mərkəzinə görə Prezident Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Bunlar Azərbaycan və Özbəkistan, Azərbaycan və Qazaxıstan xalqları arasında olan dostluğun və qardaşlığın təzahürüdür.

Əziz dostlar!

Biz böyük Türk Dünyasının bir hissəsiyik. Əminəm ki, dostluğumuz, qardaşlığımız əbədi olacaq. Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzu daha da artacaq. Təşəkkür edirəm.

* * *

*Zirvə görüşündə çıxış edən Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycanın suverenliyinin bərpası istiqamətində hər zaman mühüm addımlar atdığını qeyd edərək bildirdi ki, Qırğızıstan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü dəstəkləyir.*

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin bütün türk dövlətlərində qürur doğurduğunu və bunun sülh üçün geniş imkanlar açdığını vurğulayaraq, Azərbaycanın Qarabağın otuzillik işğalına Vətən müharibəsindən sonra birdəfəlik son qoyduğunu söylədi. Bu tarixi uğurdan son dərəcə qürur və sevinc hissi duyduğunu və bununla da bölgəmizdə davamlı sülhə bir addım da yaxınlaşdığımızı nəzərə çatdırdı, açılan fürsət pəncərəsinin dəyərləndirilməsinin ən böyük arzusu olduğunu qeyd etdi. O bildirdi ki, Ermənistanın Azərbaycan qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməsi vacibdir, eləcə də Azərbaycanın qərb bölgəsi ilə Naxçıvanı birləşdirəcək kommunikasiya xəttinin həyata keçirilməsi də böyük önəm daşıyır. Türkiyə Prezidenti vurğuladı ki, bu xəttin açılması bütün bölgə ölkələrinin rifahına ciddi töhfə verməklə yanaşı, Türkiyəni də ata yurdumuz olan Orta Asiya ilə birləşdirəcək. Prezident Rəcəb Tayyib Ərdoğan bu prosesin uğurla başa çatdırılması üçün Türk Dünyasını Azərbaycana dəstəyini davam etdirməyə çağırdı.*

*Türkiyə Prezidenti Naxçıvan Sazişinə dəyişikliklər edilməsinə dair Protokolla bağlı ardıcıl işlərin görüldüyünü də diqqətə çatdıraraq bildirdi ki, Naxçıvan Sazişinə dəyişikliklər edilməsinə dair Protokol Məclis tərəfindən Türk Dövlətləri Əməkdaşlıqı Günü olan 3 oktyabr tarixində qəbul edilib. Noyabrın 1-də Protokolun təsdiqlənməsi prosesi başa çatdırılıb. Türkiyə Prezidenti bütün üzv ölkələri Protokolun ən qısa*

*müddətdə həyata keçirilməsi üçün lazımi addımları atmağa dəvət etdi.*

*Türk dövlətləri arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlərin reallaşdırıldığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan qeyd etdi ki, nəhəng enerji və nəqliyyat infrastrukturu layihələri türk dövlətləri arasında daim əsas və mühüm əməkdaşlıq sahəsi olub. Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum təbii qaz boru kəmərləri və Trans-Anadolu boru kəməri bunun konkret nümunələridir. Xəzərin təbii qazının Türkiyəyə və Avropaya nəqli həm türk dövlətlərinin rifahına, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verəcəyini söyləyən Türkiyə Prezidenti ölkələrimiz arasındakı nəqliyyat şəbəkəsinin inkişaf etdirmək hədəfini də xüsusi vurğuladı, Xəzərdən keçən Şərq–Qərb Orta Dəhlizin rolunun artırılması istiqamətində səyləri davam etdirməyə çağırdı.*

*Türkmənistan Parlamenti Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdıməhəmmədov türk dövlətləri arasında reallaşdırılan layihələrdən danışaraq diqqətə çatdırdı ki, Qırğızıstan, Özbəkistan, Türkmənistan marşrutu boyunca Xəzər dənizinədək uzanacaq, sonra Azərbaycana və Türkiyəyə qədər genişləndiriləcək nəqliyyat dəhlizinin yaradılması üzərində iş gedir. Hazırda Türkmənistan qonşu və qardaş ölkələr olan Özbəkistana və Azərbaycana təbii qaz ixrac edir. Eyni zamanda, o, Türkmənistan qazını Xəzər dənizi və Azərbaycan vasitəsilə Türkiyəyə və gələcəkdə dünya bazarına ixrac etmək, yaxın gələcəkdə isə qardaş ölkələr olan Azərbaycana və Türkiyəyə elek-*

*trik enerjisi də nəql etmək imkanının olduğunu qeyd etdi.*

*Macarıstanın Baş Naziri Viktor Orban bu Zirvə görüşünün tərəflər arasında əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində xüsusi rolunu vurğuladı. Azərbaycanın uğurlarını görüş iştirakçılarının diqqətinə bir daha çatdıran Viktor Orban regionda sabitliyə nail olunması istiqamətində göstərdiyi səylərdə və Qarabağın bərpası işlərində Prezident Əliyevə uğurlar arzuladı.*

*Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev isə görülmüş işlər haqqında ətraflı məlumat verərək qeyd etdi ki, ötən dövrdə müxtəlif sahələrdə bir sıra mühüm qərarlar qəbul olunub, İstanbulda BMT-nin Məskunlaşma Proqramının Regional nümayəndəliyinin yaradılmasına dair planlar da vardır. Eyni zamanda, BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycan arasında tərəfdaşlıq mövcuddur. O həmçinin vurğuladı ki, sentyabrın sonunda Azərbaycanda Milli Şəhərsalma Forumu uğurla keçirilibdir.*

* * *

*Sonra Astana Aktı və Astana Zirvə görüşünün Bəyannaməsi imzalandı.*

*Daha sonra mükafatlandırılma mərasimi oldu.*

*Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə türk xalqlarının inkişafında böyük xidmətlərinə görə Türk Dünyasının Ali ordenini təqdim etdi.*

## TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ 10-cu ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK EDƏN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*Astana*

*3 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından Türk Dövlətləri Təşkilatının «Türk Əsri» çağırışı altında keçirilmiş 10-cu yubiley Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına səfəri noyabrın 3-də başa çatdı.*

*Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyevi Qazaxıstanın Baş Naziri Alixan Smailov və digər rəsmi şəxslər yola saldılar.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ANNALENA BERBOK İLƏ GÖRÜŞ

*4 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Almaniya Federativ Respublikasının Xarici İşlər naziri Annalena Berboku qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Almaniya ikitərəfli əlaqələri, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və bütövlükdə Cənubi Qafqaz regionunda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması məsələləri ətrafında fikir mübadiləsi aparıldı. Almaniyanın Xarici İşlər naziri ölkəsinin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması və bu xüsusda Avropa İttifaqının dəstəyi ilə aparılan Brüssel platformasını dəstəklədiyini diqqətə çatdırdı. O həmçinin Azərbaycanın üzləşdiyi humanitar mina probleminin aradan qaldırılmasına Almaniyanın kömək göstərməyə hazır olduğunu bildirdi.*

*Dövlətimizin başçısı bu ilin martında Almaniyaya səfərini və səfər çərçivəsində Kansler Olaf Şolts, Prezident Frank-Valter Ştaynmayer ilə keçirdiyi görüşləri məmnunluqla xatırlatdı.*

*Prezident İlham Əliyev Azərbaycanın Cənubi Qafqaz ölkələri arasında regional əməkdaşlığı dəstəklədiyini bildirdi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bu 3 ölkə arasında əməkdaşlığın indiyədək mümkün olmadığını qeyd etdi.*

*Dövlətimizin başçısı Ermənistanın son 3 ildə Azərbaycanın Qarabağ bölgəsinə silah, sursat və hərbi heyətin daşınmasını həyata keçirdiyini vurğuladı. Prezident İlham Əliyev sentyabrın 2-də Nikol Paşinyanın Ermənistan tərəfindən Azərbaycan ərazilərində yaradılmış və dəstəklənən qondarma rejimi təbrik etməsini və artıq özünü ləğv etmiş qondarma rejimin sentyabrın 9-da «seçkilər» keçirməsini regionda vəziyyətin gərginləşməsinə xidmət edən təxribatçı addımlar olduğunu bildirdi. Prezident İlham Əliyev lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyini bərpa etdiyini və ölkəmizin Ermənistan ilə münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsinin imzalanmasını, regional sülh gündəliyini dəstəklədiyini diqqətə çatdırdı.*

*Söhbət əsnasında Azərbaycan ilə Almaniya arasında ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## KOREYA RESPUBLİKASININ TİCARƏT VƏ SƏNAYE PALATASININ VƏ «SK GROUP» ŞİRKƏTLƏR QRUPUNUN SƏDRİ ÇEY TAE-VONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Koreya Respublikasının Ticarət və Sənaye Palatasının və «SK Group» şirkətlər qrupunun sədri Çey Tae-vonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Çey Tae-von ölkəmizdə sonuncu dəfə 12 il əvvəl olduğunu qeyd edərək, ötən dövr ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda baş verən inkişaf proseslərinin və qazanılan nailiyyətlərin onda dərin təəssürat oyatdığını dedi, bununla bağlı təbriklərini çatdırdı. Qonaq Azərbaycan ilə Koreya Respublikası arasında müxtəlif istiqamətlərdə iqtisadi əməkdaşlıq imkanlarını qeyd etdi.*

*Xüsusilə işğaldan azad edilmiş ərazilərdə «ağıllı şəhər» və «ağıllı kənd» konsepsiyasının tətbiqi ilə bağlı Koreya Respublikası şirkətinin təcrübəsi, Azərbaycanın zəngin bərpa olunan enerji potensialının reallaşdırılması, həmçinin ölkəmizin böyük mineral ehtiyatları, informasiya-kommunikasiya texnologiyaları, təhsil və insan kapitalının inkişafı sahələrində*

*əməkdaşlıq məsələləri müzakirə olundu. Ölkələrimiz arasında turizm əlaqələrinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

*1953-cü ildə təsis olunan və baş ofisi Seul şəhərində yerləşən «SK Group» Koreya Respublikasının ikinci ən böyük şirkətlər qrupudur. Şirkətin keçənilki gəliri 150,9 milyard, aktivlərinin həcmi isə 246,9 milyard ABŞ dollarıdır. Qlobal miqyasda törəmə şirkətlərinin və filiallarının sayı 512, dünya üzrə əlaqəli şirkətlərinin sayı isə 198 olan «SK Group»un müxtəlif ölkələrdə 100 mindən çox işçisi vardır. Şirkət energetika və kimya, informasiya-kommunikasiya texnologiyaları, yarımkeçiricilər və qabaqcıl materiallar, logistika, xidmətlər, biosəhiyyə və əczaçılıq istiqamətlərində fəaliyyət göstərir.*

## XORVATİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ANDREY PLENKOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*6 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 6-da ölkəmizə səfərə gəlmiş Xorvatiya Respublikasının Baş Naziri Andrey Plenkoviç ilə təkbətək görüşü olmuşdur.*

*Sonra nümayəndə heyətlərinin iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Xorvatiyanın Baş Naziri Andrey Plenkoviçin nahar əsnasında geniş tərkibdə görüşü keçirildi.*

*Görüşdə Azərbaycan ilə Xorvatiya arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, energetika, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu. Hökumətlərarası birgə Komissiyanın iclasının tezliklə keçirilməsinin və bu çərçivədə iki ölkənin işgüzar dairələri arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulandı.*

*Xorvatiyanın minalardan əziyyət çəkən ölkə olaraq, Azərbaycana bu sahədə dəstək vermək niyyəti müsbət qarşılandı, minaların təmizlənməsi sahəsində təcrübə mübadiləsinin və əməkdaşlığın vacibliyi qeyd edildi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Həmçinin Xorvatiyanın Avropa İttifaqına və NATO-ya üzv ölkə olaraq, Azərbaycanın bu təsisat-larla əməkdaşlığını daim dəstəklədiyi vurğulandı.*

## KƏLBƏCƏR RAYONUNUN VƏNGLİ KƏNDİNİ ZİYARƏT

*7 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və oğlu Heydər Əliyev noyabrın 7-də Kəlbəcər rayonunun Vəngli kəndində olmuşlar.*

*İşğal dövründə ermənilər növbəti vandallıq aktı nümayiş etdirərək, azərbaycanlıların şəxsi avtomobillərinin nömrələrindən lövhə düzəltmişdilər.*

*Prezident İlham Əliyev lövhənin sökülməsi ilə bağlı tapşırıq verdi.*

## ŞUŞA ŞƏHƏRİNƏ SƏFƏR

*7 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 7-də Şuşaya gəlmişlər.*

*Dövlət başçısı və xanımı Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış oldular.*

*Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlət başçısına və xanımına görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin tikintisinin bu ilin sonunda başa çatdırılması planlaşdırılır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva hazır mənzillərdə yaradılmış şəraitlə tanış oldular. Məlumat verildi ki, yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradı-*

*lacaq. Keçmiş məcburi köçkünlərin bu binalara köçürülməsinə 2024-cü ilin birinci rübündə başlanılacaq.*

*Qeyd edildi ki, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.*

**İsa bulağının ətrafında görülən işlərlə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 7-də Şuşada İsa bulağında olmuşlar.*

*Dövlət başçısına və xanımına İsa bulağının ətrafında görülən işlər barədə məlumat verildi.*

*Bildirildi ki, Şuşa şəhərindən 4 kilometr məsafədə, dəniz səviyyəsindən təqribən 1300 metr hündürlükdə, meşədə yerləşən İsa bulağı Azərbaycan təbiətinin nadir incilərindən hesab olunur. Bu hidronim haqqında yerli əhalinin məlumatına görə, bulaq XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə üzə çıxarmış İsa adlı əkinçinin adını daşıyır.*

*Məlumat verildi ki, Vətən müharibəsindən sonra İsa bulağı Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən tamamilə bərpa edilib. Bulağın özü mərmərdən hazırlanıb, «İsa bulağı» sözü isə milli ornamentlə yazılıb. Bulağın su təminatı da tam bərpa olunub. İsa bulağı Azərbaycanın, Qarabağın ən məşhur istirahət yerlərindən biri hesab olunur. Görülən işlər İsa bulağının əvvəlki şöhrətinin qısa müddətdə bərpasına şərait yaradacaq.*

## Şuşa şəhərində «Qızlar gimnaziyası» tarixi abidə binasında həyata keçiriləcək işlərlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Şuşa şəhərində «Qızlar gimnaziyası» tarixi abidə binasında həyata keçiriləcək işlərlə tanış olmuşlar.*

*Dövlət başçısına və xanımına tarixi abidə barədə məlumat verildi.*

*Bildirildi ki, Şuşada müstəqil qız məktəbi 1875-ci il oktyabrın 26-da Şuşa əhalisinin təşkil etdiyi «Xeyriyyə cəmiyyəti» tərəfindən təsis olunub. Dini etiqadından və mənşəyindən asılı olmayaraq, bütün qızlara burada təhsil almaq imkanı yaradılmışdı. Tədris planına rus dili, hesab, ana dilində oxuma, yazma, hüsnxət, rəsm, rəsmxət, ümumi coğrafiya, tarix, ölkəşünaslıq daxil idi. Eyni zamanda, məktəbdə milli mahnılar öyrədilir, təbiət, tarix və fizikadan dərs verilirdi. Məktəbdə təhsil ödənişli olsa da, kasıb ailələrin övladları təhsil haqqından azad idilər. Əlavə təhsil haqqı verənlərə fransız və alman dilləri də tədris edilir, musiqi öyrədilirdi. Qızların rus dilində təhsilinə diqqəti artırmaq və xərcin bir qismini xəzinədən ödəmək şərti ilə Şuşa qız məktəbi 1894-cü ildə Şuşa «Mariinski qız məktəbi» adını aldı və dördsinifli məktəbə çevrildi. Məktəb 120 şagirdlə fəaliyyətə başladı. Artıq 1895–96-cı tədris ilində burada 147 qız təhsil alırdı. Bu məktəbin təşkili azərbaycanlı qızların da rus dilində təhsilinə şərait yaratmışdı. Şuşa «Mariinski qız məktəbi» qadınların təhsili sahəsində, azərbaycanlı qızların dünyəvi təhsil almasında mühüm rol oynayıb. 1894-cü ildə*

*Şuşada iki şəxsi qız məktəbinin əsasında «Müqəddəs Mariya qız məktəbi» yaradılmış, bununla da azərbaycanlı qızların Avropa təhsilinə yolları açılmışdı.*

*Qeyd edildi ki, bina sovet dövründə internat məktəbi kimi də fəaliyyət göstərib. Gələcəkdə buranın dekorativ tətbiqi sənət mərkəzi və mədəni sahələr üzrə inzibati bina kimi istifadə olunması planlaşdırılır.*

## Qala divarına və ətraf əraziyə baxış

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərində Qala divarına və ətraf əraziyə baxış keçirmişlər.*

*Dövlət başçısına və xanımına görülmüş işlər barədə məlumat verildi.*

*Bildirildi ki, təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuş Şuşa şəhəri ilk dövrlərdə Şuşa adı ilə yanaşı, xanın şərəfinə Pənahabad da adlandırılırdı. Sonrakı dövrdə şəhər sadəcə, Qala adlandırılıb. Bir müddət sonra xalq qalanı Şuşa qalası, sonrakı dövrdə isə sadəcə, Şuşa adlandırıb. Şuşa qalasının 3 əsas qapısı var idi: Gəncə, İrəvan və Ağoğlan qapıları. Hər 3 qapının adı tarixi mənbələrdə tez-tez xatırlanır, həmçinin onlar Şuşanın XIX əsrdə çəkilmiş bütün baş planlarında qeyd edilir. Şəhər işğaldan azad edildikdən dərhal sonra tarixi Şuşa qalasında bərpa işləri görüldü. Qala üzərindəki Şuşa yazısı bərpa edildi.*

## Heydər Əliyev Fondu tərəfindən Şuşada Pənahəli xan küçəsində yerləşən bir sıra binalarda həyata keçiriləcək bərpa və yenidən qurulma layihələri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şuşada Pənahəli xan küçəsində yerləşən bir sıra binalarda həyata keçiriləcək bərpa və yenidən qurulma layihələri ilə tanış olmuşlar.*

*Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısına və xanımına görüləcək işlər barədə məlumat verdi.*

*Bildirildi ki, Pənahəli xan küçəsindəki bir sıra binaların bərpası və yenidən qurulması yüksək səviyyədə həyata keçiriləcək.*

## Şuşada «Yasəmən» hotelinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 7-də Şuşada «Yasəmən» hotelinin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlət başçısına və xanımına hoteldə yaradılmış şərait barədə məlumat verildi.*

*İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa və quruculuq işlərinə Heydər Əliyev Fondu da öz töhfəsini verməkdədir. Qədim Qarabağ torpağında Fond tərəfindən dini, tarixi-mədəni abidələrin, məscidlərin bərpası üzrə layihələrin icrasına start verilib. Heydər Əliyev*

*Fondunun Qarabağdakı layihələri Ağdam Cümə məscidi, Zəngilan şəhər məscidi, Şuşada Aşağı Gövhər ağa məscidi, Yuxarı Gövhər ağa məscidi, Saatlı məscidi, Mamayı məscidi və bulağı, Molla Pənah Vaqifin Muzey-Məqbərə Kompleksi, Mehmandarovların malikanə kompleksi, Şuşada Yaradıcılıq Mərkəzi, Üzeyir Hacıbəylinin Ev-muzeyi və digər tarixi-mədəni abidələrin bərpa və yenidən qurulmasını, Şuşada yeni məscidin inşasını əhatə edir. Tarixi Zəfərimizin növbəti ildönümü ərəfəsində Şuşada bərpası başa çatan və təqdim edilən layihələrdən biri də «Yasəmən» hotelidir.*

*Bildirildi ki, XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas tərzdə inşa edilmiş, Şuşa şəhərinin Köçərli küçəsində yerləşən 3 yaşayış binası işğal zamanı dağıdılaraq, istifadəyə yararsız vəziyyətə salınmışdır. Heydər Əliyev Fondu ərazidə layihələndirmə işləri apararaq, 2022-ci ilin may ayından etibarən həmin yaşayış binalarının təmir-bərpa işlərinə başlayıb. Bərpa zamanı binalarda təməlbərkitmə işləri görülüb, divarlarda daxili bərkitmə işləri aparılıb. Mərmi düşməsi nəticəsində binanın dağılmış hissələri yenidən tikilib. Sonradan inşa olunmuş əlavə tikililər isə sökülübdür.*

*Fond tərəfindən bərpa edilmiş binalar hazırda hotel kimi istifadəyə verilib. Autentik üslubda bərpa edilmiş «Yasəmən» hotelinin eksteryer və interyeri buraya gələnləri orta əsr Şuşasına qaytarır. Hotel «double», «twin» və «junior» otaqların olduğu 2 korpusdan, restoran və bir neçə terrasdan ibarətdir. Qonaqlar hotelin həyətində dövrünün üslubuna uyğun salınmış bağçada və terrasda dincələ, şəhərin mənzə-*

*rəsini seyr edə bilərlər. Terrasdan Mehmandarovların malikanə kompleksinə və ümumi şəhərə gözəl mənzərə açılır. Hotelin interyeri, otaqları xüsusi dizayn edilib. Buradakı hər bir element, əşya məhz bu dizayna uyğun seçilib. Bu da qonaqlarda nostalji hisslər yaradır.*

*Hotellə tanışlıq zamanı Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Mehmandarovların malikanə kompleksinin yuxarı hissəsində bərpa olunacaq binalar barədə də məlumat verildi.*

*Dövlət başçısı və xanımı hotelin həyatində yasəmən ağacı əkdilər.*

*Şuşa işğaldan azad edildikdən sonra şəhərdə qısa müddətdə «Qarabağ», «Xarıbülbül» hotelləri, Şuşa Hotel-Konqres Mərkəzi Kompleksinin açılışı olub və artıq «Yasəmən» hoteli də şəhərin tarixi mənzərəsinə daha bir gözəllik qatmaqla qonaqların istifadəsinə verilir.*

## Peşə məktəbinin və kollecin binalarına baxış

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərində peşə məktəbinin və kollecin binalarına baxış keçirmişlər.*

*Elm və Təhsil naziri Emin Əmrullayev dövlət başçısına və xanımına görüləcək işlər barədə məlumat verdi.*

*Bildirildi ki, peşə məktəbi və kollec Şuşanın tarixi Hamamqabağı, Seyidli və Culfalar məhəllələrində yerləşir. Sovet dövründə həmin ərazidə keçmiş Kənd*

*Təsərrüfatı Texnikumu və onun yataqxanası yerləşirdi. Həmin ərazidə peşə məktəbi də tikilmişdi.*

*Prezident İlham Əliyev peşə məktəbinin və kollecin ərazisinə baxdı, tapşırıq və tövsiyələrini verdi.*

**1 saylı tam orta məktəbin açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhəri 1 saylı tam orta məktəbin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlət başçısına və xanımına məktəbdə yaradılmış şərait barədə məlumat verildi.*

*Bildirildi ki, 960 şagird-yerlik üçmərtəbəli bina 5 blokdan ibarətdir. Burada hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, STEAM mərkəzi, kitabxana, oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, yeməkxana, akt və idman zalları, tibb, müayinə və inzibati heyət üçün iş otaqları vardır. Məktəb üçün ayrılmış ərazidə futbol meydançası və digər zəruri yardımçı binaların inşası yekunlaşıbdır.*

*Azərbaycan dövlətinin Qarabağda və Şərqi Zəngəzurda həyata keçirdiyi bərpa və yenidən qurulma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının qurulmasına xüsusi diqqət ayrılır. Şuşadakı 1 saylı tam orta məktəb bunun daha bir əyani təsdiqidir. Müasir tələblərə cavab verən yeni təhsil müəssisəsi Şuşanın bərpa səviyyəsi ilə uzlaşmaqla yanaşı, Böyük Qayıdış Proqramı çərçivə-*

*sində şəhərə qayıdacaq şagirdlərin ən qabaqcıl standartlara uyğun təhsil almasına xidmət edəcəkdir.*

*Ölkəmizin mədəniyyət paytaxtı Şuşa Azərbaycanın ictimai-siyasi həyatında özünəməxsus rol oynayıb. Azərbaycanın ictimai-siyasi fikir tarixində mühüm yer tutan bir sıra görkəmli şəxsiyyətlər, maarifçi ziyalılar məhz Şuşada doğulub boya-başa çatıblar. Həmin şəxslər Şuşada fəaliyyət göstərən dövrün qabaqcıl təhsil müəssisələrinin yetirmələri idilər. Belə ki, Şuşada fəaliyyət göstərən xəttatlıq, teatr, musiqi, vokal, eləcə də ilk qızlar, rus-tatar məktəbləri, Qızlar seminariyası, Realnı məktəb yerli əhalinin intellektual səviyyəsini, dünyagörüşünü inkişaf etdirməyə, şəhərin ziyalı səviyyəsini qoruyub saxlamağa imkan verdi. Şuşada 1 saylı tam orta məktəbin inşası da məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Belə ki, məktəbin inşası bu qədim şəhərin təhsil mərkəzi şöhrətinin qaytarılması missiyasına xidmət edən növbəti addımdır.*

## Heydər Əliyev Fondu tərəfindən Mamayı məscidində aparılan bərpa işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 7-də Şuşada Heydər Əliyev Fondu tərəfindən Mamayı məscidində aparılan bərpa işləri ilə tanış olmuşlar.*

*Dövlət başçısına və xanımına görülən işlər barədə məlumat verildi.*

*Bildirildi ki, bu məscid Şuşa şəhərinin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin*

*sonlarında Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib. Düzbucaqlı quruluşu olan ikimərtəbəli məscidin sütunlu interyeri vardır.*

*Məhəllə məscidləri kimi, Mamayı məscidinin də damında azan vermək üçün taxtadan güldəstə quraşdırılıb. Burada da məscid, bulaq, kiçik meydan, hamam olub. Lakin işğal zamanı onlar da erməni vandalizminə məruz qalıb. Sovet hakimiyyəti illərində Mamayı məscidi Poeziya evi kimi fəaliyyət göstərib.*

*Hazırda məsciddə «PAŞA Holding»in dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən bərpa işləri həyata keçirilir.*

*Bərpa işləri Mamayı bulağını da əhatə edir. Vaxtilə Mamayı məhəlləsindəki bulağın yuxarı hissəsində kitabə olub. Kitabədə bulağın 1900-cü ildə Səməd ağa Cavanşir tərəfindən tikildiyi yazılmışdı. Ermənilər Şuşanı işğal altında saxladıqları dövrdə şəhərdəki bir çox abidələr kimi, Mamayı bulağını da erməniləşdirməyə çalışıblar. Bulağın üzərindəki yazılar silinib və yerinə xaç işarəsi həkk olunub. Bundan başqa, ermənilər saxtakarlıq edərək, bulağın daşlarının üzərinə erməni və rus dillərində yazılmış lövhə də həkk ediblər. Aparılacaq işlər zamanı Mamayı məscidinin və bulağın tarixi görkəmi bərpa olunaraq, istifadəyə veriləcək.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Heydər Əliyev Fondu tərəfindən Çöl Qala məscidində və bulağında aparılan bərpa işləri barədə də məlumat verildi.*

*Bildirildi ki, Çöl Qala məscidi XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub.*

*Məscid XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikdirilib. Məscid minarəsiz formada inşa edilib. Forması Şuşa şəhərinin əksər məscidləri kimi düzbucaqlı olub. Məscidin ümumi girişi asimmetrik şəkildə düzülmüş əsas fasaddan ibarət olub. İbadət ocağının interyeri islam memarlığına uyğundur. Məscidin daxili hissəsi 4 ədəd səkkizguşəli daş sütunla bəzədilib. Bu sütunlar ümumi ibadət zalını 3 hissəyə ayırır. Məscidin taleyi Şuşa 1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra şəhərin digər tarixi abidələri kimi olub və bu dini-tarixi abidəmiz də dağıdılaraq talan edilibdir.*

*Çöl Qala məscidinin yaxınlığında məscidin üslubunda tikilmiş XIX əsrə aid Çöl Qala bulağı yerləşir. Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal ediləndən sonra bulaq da dağıdılmış, daş kitabələri də məhv edilmişdir.*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*7 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında foto paylaşmışdır.*

*Fotonun üzərində:* «8 Noyabr – Zəfər Günü» *sözləri yazılıb.*

## XANKƏNDİ ŞƏHƏRİNDƏ XALQIMIZIN VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANDIĞI BÖYÜK ZƏFƏRİN 3-cü İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ HƏRBİ PARAD

*8 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, xanımı Mehriban Əliyeva və oğlu Heydər Əliyev noyabrın 8-də Xankəndi şəhərində keçirilmiş Vətən müharibəsində xalqımızın qazandığı böyük Zəfərin 3-cü ildönümünə həsr olunmuş hərbi paradda iştirak etmişlər.*

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlət başçısı şəxsi heyəti salamladı.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

*Hərbi orkestr Azərbaycan Respublikasının Dövlət himnini ifa etdi.*

*Dövlət başçısı paradda çıxış etdi.*

## Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışı

Əziz hərbçilər! Mən sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm.

**H ə r b ç i l ə r:** Sağ ol.

**İ l h a m Ə l i y e v:** 3 il bundan əvvəl Qarabağın tacı olan Şuşa şəhəri işğalçılardan azad edildi. Ondan bir gün sonra düşmən ordusu təslim oldu və ağ bayraq qaldırdı. Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə nəticələndi. Bu, tarixi hadisədir.

Azərbaycan xalqı uzun illər ərzində işğal dövründə bir nöqtəyə vururdu ki, tezliklə bizim torpaqlarımız işğalçılardan azad edilsin. Biz bu müqəddəs günü hər gün, hər saat öz əməyimizlə, işimizlə yaxınlaşdırırdıq.

Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi, əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, 5 il bundan əvvəl – 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və o gün gəldi.

Bu günü bizə bəxş edən Müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək, düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. 44 gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə, geriyə addım atmamışdıq. Düşmən ordusu Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin peşəkarlığını, fədakarlığını görərək, daha da böyük təşvişə düşürdü və onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərari olmuşdu. Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdi. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi.

Şuşa əməliyyatı, təbii ki, 44 günlük Vətən müharibəsi dövründə xüsusi yerə malikdir. Çünki çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərdilər.

20 il əvvəl Prezident kimi fəaliyyətimə başlayanda əziz xalqıma bildirmişdim ki, biz torpaqlarımızı

müharibə yolu ilə azad etməyə hazır olmalıyıq. O vaxt hələ sülh danışıqlarına müəyyən ümidlər var idi. Ancaq illər keçdikcə bu ümidlər tükənirdi. Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmaq istəmirdi. Ermənistan–Azərbaycan münaqişəsinin nizamlanması ilə məşğul olan vasitəçilər faktiki olaraq, vəziyyəti dondurmağa çalışırdılar, hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Ancaq Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmaq fikrində deyildi. Mən dəfələrlə bunu müxtəlif kürsülərdən bəyan etmişdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəyik, danışıqlar nəticəsiz başa çatsa, güc tətbiq edərək, beynəlxalq hüquq əsasında öz doğma torpaqlarımızı döyüş meydanında işğalçılardan azad edəcəyik. Əgər Ermənistan rəhbərliyi və onun arxasında o vaxt və bu gün duran bəzi xarici qüvvələr mənim sözlərimə qulaq assaydılar, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Mən dəfələrlə deyirdim, Ermənistan rəhbərliyinə müraciət edərək deyirdim ki, əgər siz bizim torpağımızdan çıxmasanız, döyüş meydanında bizimlə üz-üzə gələcəksiniz və sizin arxanızda kim istəyirsə dursun, bu bizi haqq yolumuzdan döndərə bilməz. 44 günlük Vətən müharibəsi bunu bir daha göstərdi.

44 gün ərzində Azərbaycana müxtəlif yerlərdən, müxtəlif paytaxtlardan təzyiqlər göstərilirdi, təhdidlər səsləndirilirdi. Ancaq bizi haqq yolumuzdan heç kim göndərə bilməzdi. Mən Vətən müharibəsi dövründə Azərbaycan xalqına müraciət edərək de-

mişdim ki, düşmən bizə torpaqlarımızın azad olunmasının tarixini versin, o zaman biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. Şuşa Zəfərindən sonra düşmən faktiki olaraq, kapitulyasiyaya hazır idi və bir gün sonra kapitulyasiya aktına imza atdı, biz də müharibəni dayandırdıq. O vaxt Silahlı Qüvvələrimiz Xankəndinin bir addımlığında idi. Müharibənin o vaxt dayandırılması bizim şüurlu seçimimiz idi və bu gün bizim, bax, burada – Xankəndi şəhərinin mərkəzi meydanında hərbi paradı keçirməyimiz bir daha onu göstərir ki, nə qədər düzgün, müdrik addım idi.

O vaxt mən heç şübhə etmirdim ki, gün gələcək və burada – Xankəndi şəhərində Azərbaycan bayrağı qaldırılacaq. 44 günlük müharibənin 10 noyabr 2020-ci il tarixində dayandırılması imkan verdi ki, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Bu, Ermənistanın imzaladığı kapitulyasiya aktının tərkib hissəsi idi və bizim tələbimiz idi. Ermənistan bu tələbi yerinə yetirməyə məcbur olmuşdu. Çünki döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin gücünü və Azərbaycanın siyasi rəhbərliyinin siyasi müstəvidə iradəsini görmüşdür. Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi.

İkinci Qarabağ müharibəsindən sonra biz bir gün dayanmadan ordu quruculuğu prosesini sürətləndirirdik və bunu gizlətmirdik. Dərhal Qarabağ

bölgəsində bütün vacib olan məntəqələrə yerləşdik. Eyni zamanda, uzun illər ərzində işğal altında qalmış Azərbaycan–Ermənistan sərhədini nəzarətə götürdük. Sərhəddə mövqelərimizi tədricən yaxşılaşdırdıq və müxtəlif tədbirlər nəticəsində Azərbaycan–Ermənistan sərhədinin böyük hissəsində ən əlverişli mövqelərə malik olduq. Nə üçün biz bunu edirdik? Çünki biz bilirdik ki, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Biz bilirdik ki, Ermənistanın arxasında dayanan və onları bizə qarşı hərəkətə təhrik edən xarici qüvvələr onlara yenə də təxribatçı siqnallar verəcəklər. Ona görə biz öz sərhədimizi qorumalı idik və keçirilmiş bir neçə hərbi əməliyyat nəticəsində bu gün Azərbaycan–Ermənistan sərhədində vəziyyət bizim nəzarətimizdədir. Bununla bərabər, Qarabağ bölgəsində həyata keçirilmiş bir neçə hərbi əməliyyat bu bölgədə də əlverişli yüksəkliklərə sahib olmaq üçün bizə şərait yaratdı. Eyni zamanda, bu əməliyyatlar Ermənistan siyasi rəhbərliyinə də bir siqnal idi ki, siz kapitulyasiya aktında təsbit edilmiş bütün müddəaları icra etməlisiniz və ilk növbədə, öz silahlı qüvvələrinizi Qarabağdan çıxarmalısınız, bu sizin öhdəliyinizdir. Amma həyatda biz bunun əksini gördük, nəinki Ermənistan silahlı qüvvələri çıxarılmadı, əksinə, daha çox qüvvə göndərilmişdi. O vaxt Laçın–Xankəndi yolu hələ bizim nəzarətimizdə deyildi, silah, sursat, minalar gətirilmişdi və Ermənistanın siyasi rəhbərliyi Qarabağdan öz silahlı qüvvələrini çıxarmaq istəmirdi.

Son 3 il ərzində keçirilmiş hərbi əməliyyatlar, o cümlədən Fərrux əməliyyatı, Sarıbaba–Qırxqız əməliyyatı və digər hərbi əməliyyatlar həm bizim strateji mövqelərimizi xeyli yaxşılaşdırmışdı, həm də Ermənistana göndərilmiş bir mesaj idi ki, bizi heç kim və heç nə dayandıra bilməz, Qarabağ Azərbaycan torpağıdır, burada vəziyyəti biz diktə edirik və siz dərhal silahlı qüvvələrinizi bizim torpaqlarımızdan çıxarmalısınız. Əgər o vaxt mənim sözümə baxsaydılar, sentyabr ayında keçirilmiş antiterror əməliyyatına ehtiyac qalmazdı. Onların bütün bəlalarının səbəbkarları elə onların özləridir. Onların bəlaları təkcə 3 il bundan əvvəl başlamayıb, hələ ötən əsrin 90-cı illərinin əvvəllərində başlayıb. O vaxt Azərbaycanın çörəyini yemiş, Azərbaycanın suyunu içmiş nankor kütlə Azərbaycana qarşı, bax, bu meydanda ərazi iddiası qaldırmışdır. Bax, bu binada – Azərbaycan dövləti tərəfindən vaxtilə inşa edilmiş binada Azərbaycana qarşı məkrli planlar hazırlanırdı. Erməni xalqının bəlalarının səbəbkarları Ermənistana rəhbərlik etmiş bütün şəxslərdir. Onlar hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlayacaqlar. Özləri buna çox inanmışdılar, xarici tərəfdaşları da inandırmağa çalışırdılar ki, onların güclü ordusu var, onların güclü potensialı var, güclü himayədarları var və Azərbaycan heç vaxt torpaqları hərbi yolla azad etməyə cürət etməyəcək. Onların dəyirmanına su tökənlər, bu gün də onların arxasında dayanmış bəzi ölkələr bu məsuliyyəti onlarla 100 faiz bölüşürlər.

Biz isə deyirdik ki, heç vaxt bu vəziyyətlə barışmayacağıq və bunu gizlətmirdik. Bizə nə qədər deyilmişdi ki, Ermənistan–Azərbaycan münaqişəsinin hərbi həlli yoxdur. Mən isə deyirdim ki, sülh yolu ilə bu məsələ həll olunmasa, bizim başqa çarəmiz qalmayacaq və 44 gün ərzində göstərdiyimiz qəhrəmanlıq, peşəkarlıq, əfsuslar olsun ki, Ermənistan rəhbərliyinə dərs olmadı.

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi 1 gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan–Ermənistan sərhədini nəzarətə alaraq, ərazi bütövlüyümüzü və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir. Bunun səbəbkarları bu gün, bax, bu meydanda dayanan bizim igidlərimizdir və on minlərlə Azərbaycan hərbçi-

sidir. Onların qanı-canı bahasına biz bu Qələbəni əldə etmişik.

Mən bir daha demək istəyirəm ki, biz 20 il ərzində bu günə doğru gedirdik, hazırlıq işləri gedirdi, beynəlxalq hüquq müstəvisində Azərbaycan mövqeləri möhkəmləndirilirdi. Siyasi müstəvidə apardığımız uğurlu fəaliyyət nəticəsində bütün dünya artıq bilməyə başlamışdır ki, haqlı tərəf bizik. İqtisadi sahədə apardığımız islahatlar imkan verdi ki, müstəqil iqtisadiyyat quraq, heç kimdən asılı olmayaq, öz həyatımızı özümüz quraq. Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur. Dövlətimizi, milli ləyaqətimizi, həyat tərzimizi, ənənələrimizi qorumuşuq ki, heç kim bizim işlərimizə burnunu soxmasın.

Əlbəttə, ordu quruculuğu birnömrəli vəzifə idi. Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi – budur qələbəyə aparan əsas amillər. Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah olan əsgərdir, zabitdir. O, sinəsini qabağa verir, o, ölümə getməyə hazırdır və biz bunu göstərdik. Ən çətin, əlverişsiz coğrafi vəziyyətdə 6 müdafiə zolağını yararaq, döşənmiş 1 milyondan artıq minanın üzərindən keçərək, təpələrdə yerləşmiş düşmən mövqelərini məhv edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir.

Əziz şəhidlərimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq və biz bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərdik. Yəni hazırlıq işləri apararkən, bax, biz bu günü gözləyirdik. Mən bu 20 il ərzində heç vaxt şübhə etmirdim ki, bu gün gələcək və Xankəndi şəhərində Azərbaycan bayrağı altında hərbi parad keçiriləcək.

44 günlük müharibə zamanı çoxlu xarici media nümayəndələrinə müsahibələr verərək, təbii ki, bizim planlarımız haqqında danışa bilməzdim. Halbuki suallar, demək olar ki, təkrarlanırdı. Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq mən hələ o vaxt bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq. 3 il bundan əvvəl mən əmr verərək, Azərbaycan Ordusunu dayandırdım və bir daha demək istəyirəm, tarix göstərdi ki, bu nə qədər düzgün addım idi. Ancaq o gündən, bax, bu günə qədər – sentyabr ayına qədər hər gün biz işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz – həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün.

4 il bundan əvvəl, bax, qarşıdakı Xankəndi şəhər stadionunda Ermənistanın baş naziri çıxış edərkən təkəbbürlə demişdi: «Qarabağ Ermənistandır və nöqtə». Biz ona, onun kimilərinə və onların arxasında duranlara döyüş meydanında qan tökərək, şəhidlər verərək göstərdik ki, o, səhv yolda idi. Biz

göstərdik ki, Qarabağ Azərbaycandır, döyüşərək, vuruşaraq, heç nəyə baxmayaraq və bu gün hər kəs bilməlidir ki, bizimlə bundan sonra heç kim zarafat etməsin. Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada 1000-dən çox igidimiz düzülübdür, bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin.

Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada Müzəffər Silahlı Qüvvələrin qarşısında çıxış edirəm. Yəni biz bütün vəzifələri icra etmişik, ancaq bununla bərabər, bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaqdır. Bunu hamı bilsin və heç kim bunu unutmasın.

Mən bir daha, əziz hərbçilər, sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm.

**H ə r b ç i l ə r:** Sağ ol.

**İ l h a m Ə l i y e v:** Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Qarabağ Azərbaycandır!

**H ə r b ç i l ə r:** Qarabağ Azərbaycandır!

* * *

*Azərbaycan Prezidentinin çıxışından sonra Silahlı Qüvvələrin parad heyətlərinin hərbi orkestrin müşayiəti ilə təntənəli keçidi başlandı.*

*Parada Müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi, «Zəfər» və «Qarabağ» ordenli general-polkovnik Kərim Vəliyev komandanlıq etdi.*

*Silahlı Qüvvələrin parad heyətləri Azərbaycan Respublikasının Dövlət bayrağı və Şuşa şəhərinə sancılan – Qələbənin rəmzinə çevrilən Zəfər bayrağı altında tribunaya doğru irəlilədilər.*

*Ardınca Azərbaycan Ordusunun və qoşun növlərinin, lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş hərbi birləşmələrin döyüş bayraqları Xankəndi şəhərinin mərkəzi meydanına gətirildi.*

*Sonra Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin parad heyətinin keçidi oldu. Parad heyətinə Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq etdi.*

*«Azərbaycan Bayrağı» və «Rəşadət» ordenli general-mayor Bilal Çompuzovun başçılığı ilə 1-ci Ordu Korpusunun, «Qarabağ» və «Rəşadət» ordenli general-leytenant Mayis Bərxudarovun rəhbərliyi ilə 2-ci Ordu Korpusunun, «Rəşadət» və «Vətənə xidmətə görə» ordenli polkovnik Oruc Abdullayevin*

*başçılığı ilə 3-cü Ordu Korpusunun, «Azərbaycan Bayrağı» və «Rəşadət» ordenli general-mayor Münasib Babayevin rəhbərliyi ilə 4-cü Ordu Korpusunun, Vətən Müharibəsi Qəhrəmanı, «Rəşadət» ordenli general-mayor Kənan Seyidovun başçılığı ilə 5-ci Ordu Korpusunun və «Azərbaycan Bayrağı» ordenli general-mayor Məhəmməd Həsənovun rəhbərliyi ilə Əlahiddə Ümumqoşun Ordusunun parad heyətləri tribuna önündən mətin addımlarla irəlilədilər.*

*Hərbi Dəniz Qüvvələrinin dəniz piyadalarının parad heyətinə Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Xalid İbrahimov başçılıq etdi.*

*Daha sonra Vətən Müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin rəhbərliyi ilə Hərbi Hava Qüvvələrinin parad heyətinin keçidi oldu.*

*Dövlət Təhlükəsizliyi Xidmətinin «Qartal» xüsusi təyinatlılarının parad heyəti «Qarabağ» ordenli polkovnik Cabir Cəfərovun başçılığı ilə tribuna önündən keçdi.*

*Sonra Xarici Kəşfiyyat Xidmətinin «Yarasa» xüsusi təyinatlılarının parad heyətinin keçidi oldu.*

*Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlılarının parad heyəti «Vətənə xidmətə görə» ordenli general-mayor Tofiq Hüseynovun başçılığı ilə Xankəndi şəhərinin mərkəzi meydanında irəlilədi.*

*Dövlət Sərhəd Xidmətinin parad heyətinə Vətən Müharibəsi Qəhrəmanı, «Vətənə xidmətə görə» ordenli general-mayor Babək Ələkbərov başçılıq etdi.*

*Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluq-*

*çularından ibarət parad heyəti polkovnik-leytenant Eldar Quliyevin başçılığı ilə tribuna önündən keçdi.*

*Parad heyətlərinin keçidindən sonra antiterror tədbirləri zamanı müsadirə olunmuş hərbi texnikanın kiçik bir qismi qoşqular üzərində Xankəndi şəhərinin mərkəzi meydanına gətirildi. Müsadirə edilmiş hərbi texnikanın və nəqliyyat vasitələrinin nömrə nişanlarından hazırlanmış və üzərində «Zəfər» sözü həkk edilmiş lövhə nümayiş olundu.*

*İkinci Qarabağ müharibəsində tarixi Zəfərin 3-cü ildönümü münasibətilə Xankəndi şəhərində təşkil edilmiş, Vətən müharibəsinin iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu hərbi parad «Qələbə» marşının ifası ilə başa çatdı.*

## FÜZULİ RAYONUNDA QARĞABAZAR KƏNDİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*8 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Füzuli rayonunda Qarğabazar kəndinin təməlini qoymuşdur.*

*Qarabağ İqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov kənddə görüləcək işlər barədə dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, Füzuli Beynəlxalq Hava Limanından 10 kilometr məsafədə, rayonun cənub-qərbində yerləşən kəndin inzibati ərazisinə Yal Pirəhmədli və Sərdarlı kəndləri də daxildir. Qarğabazar kəndinin layihələndirilən ümumi ərazisi 152,6 hektardır. Kəndə 2 min nəfərin köçürülməsi planlaşdırılır. Burada ümumilikdə 527 fərdi ev tikiləcək. Kəndin inşasının birinci mərhələsində 181 fərdi evin tikilməsi üçün 35,5 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kəndə 181 ailənin – 629 nəfərin köçürülməsi planlaşdırılır.*

*Qeyd edildi ki, kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, Mədəniyyət evinin, kafe-restoranın, mərasim evinin, aptekin, idman klubunun, Ailə Sağlamlıq Mərkəzinin, 384 şagird-yerlik orta məktəbin, 128 yerlik uşaq bağçasının, istirahət və*

*yaşıllıq zonalarının, bazar kompleksinin, kitabxananın, ticarət obyektinin, qonaq evinin, məscidin və digər zəruri obyektlərin tikilməsi planlaşdırılıb. Kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin inşası nəzərdə tutulub.*

*Prezident İlham Əliyev Qarğabazar kəndinin təməlini qoydu.*

*Məlumat verildi ki, kənddə tarixi memarlıq abidələri – Şah Abbas karvansarası və Şah Abbas məscidi də bərpa olunacaq. Qarğabazar kəndi Şəki–Qarabağ–Hindistan İpək yolu üzərində yerləşdiyindən, bu yoldan istifadə edən tacirlər uzun yolun yorğunluğunu çıxarmaq üçün Qarğabazar karvansarasında gecələyirdilər. Qarabağın ən qədim məscidlərindən olan, 1684-cü ildə inşa edilmiş Şah Abbas məscidi el arasında Hacı Qiyasəddin məscidi kimi də tanınır.*

## ÖZBƏKİSTAN RESPUBLİKASINA SƏFƏR

*8 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında iştirak etmək üçün noyabrın 8-də Özbəkistana səfər etmişdir.*

*Daşkənd Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini Özbəkistanın Baş Naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*9 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 9 Noyabr – Dövlət Bayrağı Günü ilə əlaqədar rəsmi sosial şəbəkə hesablarında foto paylaşmışdır.*

*Fotonun üzərində* «9 Noyabr – Dövlət Bayrağı Günü» *sözləri yazılıb.*

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (ECO) 16-cı ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*Daşkənd*

*9 noyabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 9-da İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 16-cı Zirvə toplantısında iştirak etmişdir.*

*Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.*

*Sonra birgə foto çəkdirildi.*

*Tədbirdə ECO-nun əvvəlki Zirvə toplantıları və üzv dövlətləri başçılarının təşkilat çərçivəsində keçirdikləri görüşlər ilə bağlı videoçarx nümayiş olundu.*

*Özbəkistan Prezidenti Şavkat Mirziyoyev iclası açaraq iştirakçıları salamladı və ötən Zirvə toplantısından keçən dövrdə görülmüş işlər barədə məlumat verdi.*

*Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına uğurlu sədrliyi münasibətilə Prezident İlham Əliyevi təbrik edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev «Yaşıl keçid və qarşılıqlı əlaqələr» ilində ölkəmizin sədrliyi çərçivəsində həyata keçirilmiş tədbirlərin və təşəbbüslərin tərəfdaşlığımızın genişləndirilməsinə böyük töhfə verdiyini vurğulayaraq qeyd etdi ki, Bakıda*

*təmiz enerji mərkəzinin və regional elektrik bazarının təşkili istiqamətində əməli tədbirlər həyata keçirilir, həmçinin ekologiya sahəsində də yüksək səviyyəli dialoq platforması yaradılıbdır. O həmçinin diqqətə çatdırdı ki, turizm sektorunda əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə ilk dəfə olaraq turoperatorlar şəbəkəsi formalaşdırılıb və Təhlükəsiz Turizmin İnkişafı Proqramı təsdiq edilibdir.*

*Prezident Şavkat Mirziyoyev qeyd etdi ki, Özbəkistan Azərbaycan və Türkiyə ilə yükdaşımalarla bağlı məlumatları rəqəmsallaşdırıb və digər ölkələrlə də analoji layihələr həyata keçirilir.*

*ECO-nun baş katibi Xusrav Noziri Türkmənistan, Tacikistan və Türkiyə, eləcə də Azərbaycan və İran arasında razılaşdırılmış multimodal dəhlizlərin xalqlarımız arasında əlaqələrin inkişafına xidmət edəcəyini bildirdi. Energetikanın ECO üçün çox vacib sahə olduğunu qeyd edən baş katib bu istiqamətdə Xartiyanın imzalanmasının əhəmiyyətini vurğuladı.*

*Turizm sahəsində əməkdaşlığa diqqət çəkən Xusrav Noziri bildirdi ki, turizm potensialının inkişafına da diqqət yetirilir. «Turizm paytaxtları» konsepsiyası çox mühüm təşəbbüsdür. İndiyədək 6 şəhər, o cümlədən Tacikistanın Düşənbə, İranın Sari və Ərdəbil, Özbəkistanın Şəhrisəbz, Türkiyənin Ərzurum və Azərbaycanın Şuşa şəhərləri «turizm paytaxtları» seçilib. O qeyd etdi ki, çox zəngin mədəni irsimizin və təbiətin gözəllikləri ideyalarının təbliği məqsədilə turizm sahəsinin seçilməsi müntəzəm yanaşma olacaqdır.*

*Dövlətimizin başçısı Zirvə toplantısında çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Şavkat Miromonoviç!

Hörmətli dövlət və hökumət başçıları!

Hörmətli Zirvə toplantısının iştirakçıları!

Yüksək qonaqpərvərliyə görə qardaş Özbəkistanın Prezidenti Şavkat Miromonoviç Mirziyoyevə minnətdarlığımı bildirirəm.

Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlıq uğurla inkişaf edir. Ötən il mən Özbəkistana bir dövlət səfəri və iki işgüzar səfər etmişəm. Hər səfərimdə Özbəkistanda hərtərəfli islahatların nəticələrinin, sosial və iqtisadi inkişafın şahidi oluram. Əldə olunmuş uğurlar münasibətilə Özbəkistan rəhbərliyini təbrik edirəm.

Şavkat Miromonoviç Mirziyoyev yenidən Özbəkistan Prezidenti seçildikdən sonra ilk dövlət səfərini Azərbaycana edib. Bu, iki ölkə arasında qardaşlıq münasibətlərinin nə dərəcədə dərin olmasını bir daha nümayiş etdirir.

İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü kimi, Azərbaycan təşkilatın işində fəal iştirak edir.

Ötən ay ECO Nazirlər Şurasının iclası Şuşada keçirildi. Dünən Azərbaycan xalqı Şuşanın Ermənistanın təxminən 30 illik işğalından azad olunmasının 3-cü ildönümünü qeyd etdi.

Azərbaycanın nəqliyyat və logistika infrastrukturu ECO-nun üzv dövlətləri üçün açıqdır. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub və Avrasiyanın Şərq–Qərb və Şimal–Cənub

nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilibdir. Hər iki dəhlizin Azərbaycandan keçən hissələri tam hazırdır. Biz hazırda bu dəhlizlər boyu dəmir yolu xətlərinin yükaşırma qabiliyyətinin genişləndirilməsi üzərində işləyirik.

Son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dolları həcmində sərmayə qoyulub və bunun 200 milyard dolları qeyri-neft sektorunun payına düşür. Bu, ölkəmizdə olan münbit sərmayə iqliminin nəticəsidir.

Məmnuniyyətlə qeyd etmək istərdik ki, Azərbaycan ECO-nun Təmiz Enerji Mərkəzinin ev sahibi kimi rəsmi olaraq təsdiqlənib.

Azərbaycanın neft və qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, biz bərpa olunan enerji sektorunun inkişafına xüsusi diqqət yetiririk. Azərbaycanın bərpa olunan enerji potensialı quruda 37 qiqavat külək və Günəş enerjisi, Xəzər dənizinin ölkəmizə məxsus sektorunda isə 157 qiqavat külək enerjisi təşkil edir.

Azərbaycan yaxın gələcəkdə «yaşıl» və hidrogen enerjisinin ixracatçısına çevriləcək. Dünyanın aparıcı «yaşıl enerji» şirkətləri olan xarici investorlarla imzaladığımız sazişlərə və anlaşma memorandumlarına əsasən, qarşıdakı illərdə Azərbaycanda istehsal ediləcək bərpa olunan enerji 10 qiqavata çatacaq. Bu ilin oktyabr ayında Azərbaycanda «Masdar» şirkəti tərəfindən inşa edilmiş 230 meqavat gücündə Qaradağ Günəş Elektrik Stansiyasının

açılışı oldu. Bu, Xəzər dənizi və Qafqaz regionunda ən böyük Günəş elektrik stansiyasıdır.

Azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda 2021–2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyalar istifadəyə verilib. 2024-cü ilin sonuna qədər bu rəqəm 270 meqavata çatacaq. Bir neçə ildən sonra erməni işğalından azad edilmiş ərazilərdə hidroelektrik stansiyaların ümumi gücü 500 meqavat təşkil edəcək.

Ermənistan Azərbaycanın 20 faizə yaxın ərazisini təqribən 30 il ərzində işğal altında saxlamışdır. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuş, qaçqın və məcburi köçkünə çevrilmişdir.

2020-ci ildə Azərbaycan BMT Nizamnaməsindən irəli gələn legitim özünümüdafiə hüququndan istifadə edərək, Vətən müharibəsində Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı və BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il ərzində kağız üzərində qalmış 4 qətnamənin icrasını özü təmin etdi.

İşğal dövründə Ermənistan Azərbaycanın 9 şəhərini və yüzlərlə kəndini yer üzündən silmiş, islam dininə məxsus mədəni və tarixi irsimizi dağıtmış və təhqir etmişdir. 67 məsciddən 65-i dağıdılmış, qalanları isə inək və donuz saxlanılması üçün tövlə kimi istifadə olunmuşdur.

Bu il sentyabrın 19–20-də keçirilmiş birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna

son qoydu və özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi. Biz ərazi bütövlüyümüzü və suverenliyimizi güc yolu ilə, beynəlxalq hüquqa və BMT Nizamnaməsinə uyğun olaraq bərpa etdik və bununla qürur duyuruq.

Mən bu tarixi Qələbə münasibətilə Azərbaycanı təbrik edən ECO-nun üzv dövlətlərinə təşəkkürümü bildirirəm.

Çıxışımın sonunda vurğulamaq istərdim ki, Azərbaycan ECO-nun üzv dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığı daha da genişləndirməkdə qərarlıdır və təşkilatın növbəti Zirvə görüşünə ev sahibliyi etməyə hazırdır. Sağ olun.

* * *

*Zirvə görüşünün işinə uğurlar arzulayan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın Azərbaycan qarşısındakı öhdəliklərini yerinə yetirməsinin bölgədə davamlı sülhün təmin olunmasında xüsusi rol oynayacağını vurğulayaraq qeyd etdi ki, Qarabağda 30 ildən artıq davam edən işğalın tamamilə aradan qaldırılması ilə bölgəmizdə davamlı sülhə daha bir addım yaxınlaşdıq və Ermənistanın Azərbaycan qarşısındakı öhdəliklərini yerinə yetirməsi bunu asanlaşdıracaqdır. Türkiyə Prezidenti bildirdi ki, Azərbaycanın qərb bölgələri ilə Naxçıvanı birləşdirəcək nəqliyyat xətlərinin ən yaxın dövrdə yaradılması da xüsusi strateji əhəmiyyət kəsb edir.*

*ECO-nun 16-cı Zirvə toplantısında, həmçinin Türkmənistan Prezidenti Sərdar Berdıməhəmmədov, İran İs-*

*lam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Pakistan İslam Respublikasının Keçid Hökumətinin Baş Naziri Ənvər-ul-Xak Kakar, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon və Qazaxıstan Respublikasının Baş Naziri Alixan Smailov çıxış etdilər.*

# QEYDLƏR

**1. 27 sentyabr Anım Günü** – Azərbaycan Respublikasında 2020-ci il sentyabrın 27-dən noyabrın 10-a qədər davam edən İkinci Qarabağ müharibəsində həyatını itirən şəhidlərin xatirəsinin anılması günü. Anım Günü müharibənin başlandığı gün – sentyabrın 27-də keçirilir. Prezident İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı «Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında» Sərəncama əsasən yaradılmışdır. – 5.

**2. Zəfər Günü** – Azərbaycan Respublikasında İkinci Qarabağ müharibəsində qazanılan Qələbə şərəfinə təsis edilən Zəfər Günü. Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı «Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında» Sərəncama əsasən qeyd edilir. – 5, 297.

**3. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fon-

dunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESCO və ISESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər

Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 59, 61, 79, 155, 285–290, 292–295, 298.

**4. Qarabağ** – Azərbaycan Respublikası ərazisində keçmiş muxtar vilayət. Öncə ərazisi 4161 kv.km olmuş, sonralar bura müxtəlif ərazilər də daxil edilərək ərazisi 4400 kv.km-dək genişləndirilmişdir. 1988-ci ilə qədər burada 170 min əhali yaşayırdı.

DQMV inzibati ərazi vahidi kimi 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edilmişdir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başlamışdılar.

Azərbaycan Ordusunun 2020-ci il 27 sentyabrda başladığı əməliyyatların bir hissəsi keçmiş DQMV ərazilərində həyata keçirildi. 2020-ci il noyabrın 8-də Şuşa şəhəri düşmən işğalından azad edildi.

Azərbaycan Ordusunun Qarabağda keçirdiyi uğurlu antiterror və hərbi əməliyyatlardan sonra Qarabağ tamamilə azad edilmişdir. – 5, 11, 12, 43, 45, 50, 83, 99, 129, 131, 132, 134, 135, 144, 155, 159, 166, 170–176, 189, 191, 192, 200, 204, 205, 232, 290, 291, 293, 299, 302–304, 307–309, 312.

**5. Birinci Qarabağ müharibəsi** – keçən əsrin 80-ci illərinin sonlarından 1994-cü ilin mayına kimi cənub-qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsinə Ermənistanın hücumu ilə Azərbaycan və Ermənistan

arasında baş vermiş ərazi münaqişəsi. Tərəflər arasında genişmiqyaslı döyüşlər əsasən 1992-ci ildə başlanmışdır. 1994-cü ilin mayında atəşkəs əldə olunmuşdur. Münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün isə ATƏT-in Minsk qrupu yaradılmışdır. Müharibə nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, keçmiş Dağlıq Qarabağ və ətraf rayonları isə işğal olunmuşdur. Müharibə zamanı Ermənistan silahlı qüvvələri minlərlə hərbi cinayət törətmiş, beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına pozmuş, atəşkəs elan olunduqdan sonra belə, Azərbaycan tərəfinin hərbi bölmələrini və dinc insanları mütəmadi olaraq atəşə tutmuş, işğal olunmuş Azərbaycan torpaqlarında etnik, milli və mədəni təmizləmə və ekoloji terror, eləcə də qanunsuz məskunlaşma işləri aparmışdır. – 6, 192.

**6. İkinci Qarabağ müharibəsi** – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan silahlı qüvvələri arasında atəşkəsdən sonra müşahidə olunan ən gərgin döyüşlər. Tarixə «Vətən müharibəsi», «Dəmir yumruq» əməliyyatı kimi daxil olan döyüşlər Azərbaycanın inamlı qələbəsi ilə başa çatmışdır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında başlamışdır. Rusiyanın vasitəçiliyi ilə həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan silahlı qüvvələri atəşkəsi yenidən pozmuşdur. Döyüşlər zamanı Azərbaycan Ordusu Müzəffər Ali Baş

Komanda İlham Əliyevin birbaşa rəhbərliyi ilə işğal altındakı torpaqlar uğrunda qəhrəmancasına mübarizə aparmış və qələbə qazanmışdır. 44 günlük müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı, 8 noyabrda isə Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa şəhərinin azad edilməsi ilə Ermənistan silahlı qüvvələrinə ciddi zərbə vurulmuş, bununla da məğlubiyyətə məcbur edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış müqaviləyə əsasən, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən keçmiş Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabr 2020-ci il tarixinədək Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması razılaşdırılmışdır. Bu müqaviləyə əsasən, işğal altındakı digər ərazilər Azərbaycana qaytarılmış, döyüşlər Azərbaycan tərəfinin inamlı qələbəsi ilə başa çatmışdır. – 6, 34, 35, 39, 41, 116, 132, 133, 135, 136, 164, 192, 264, 265, 272, 299, 301, 302, 311.

**7. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT Nizamnaməsi 1945-ci il iyulun 26-da San Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 8, 9, 11, 12, 30, 41, 46, 47, 48, 49, 57, 70, 71, 73, 86, 87, 95, 96, 105, 131, 135, 207, 210, 246, 249, 250, 256, 272, 273, 277, 320, 321.

**8. Zəngilan** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 km$^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

20 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 8, 9, 14, 18–22, 24–28, 30–34, 36, 38, 39, 44–47, 50, 51, 97, 105, 188, 191, 196, 291.

**9. Ağdam** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Ağdam şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1150 km$^2$, əhalisi 202,2 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 20-də Ağdam yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. Ermənistan silahlı qüvvələri Ağdamı boşaldıb Azərbaycan Respublikasına təhvil vermişdir. – 8, 31, 156, 158, 167, 177, 178, 188, 196, 291, 302.

**10. Türk Dövlətləri Təşkilatı,** Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası – 3 oktyabr 2009-cu ildə Naxçıvanda imzalanmış Naxçıvan müqaviləsi ilə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə arasında qurulmuş beynəlxalq təşkilat. 14 sentyabr 2019-cu ildə Özbəkistan quruma üzv olmuşdur. – 8, 48, 218, 266–270, 274, 277, 278.

**11. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 11, 34, 37, 75, 77, 79, 80, 136, 213, 224, 237, 240, 270, 273, 282, 318, 319.

**12. Beynəlxalq Qırmızı Xaç Komitəsi** – xüsusi xeyriyyə təşkilatı olaraq, 1863-cü ildə İsveçrənin Cenevrə şəhərində yaradılmışdır. Təşkilatın 25 üzv komitəsi beynəlxalq humanitar hüquqa uyğun olaraq, beynəlxalq və daxili silahlı münaqişə qurbanlarının həyat və ləyaqətlərinin qorunmasında xüsusi hüquqa sahibdir. Təşkilat 3 dəfə Nobel Sülh Mükafatına layiq görülmüşdür. – 12, 95.

**13. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçı-

sı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 13, 221, 276, 317, 321.

**14. Sərdar Berdıməhəmmədov** (d.1981) – Türkmənistanın dövlət və siyasi xadimi. 19 mart 2022-ci ildən Türkmənistan Prezidentidir. – 13, 321.

**15. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 80,8 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

4 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 14, 15, 17, 18, 19, 36, 49, 188, 196.

**16. Qubadlı** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Qubadlı şəhəridir. 14 mart 1933-cü ildə yaradılmışdır. Ərazisi 802 $km^2$, əhalisi 40,2 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

25 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 14, 18, 19, 188, 196.

**17. Vüqar Əhmədov,** V ü q a r C ə b r a y ı l o ğ l u (d.1975) – 7 yanvar 2020-ci ildən «Azərişıq» ASC-nin sədridir. – 17.

**18. «Azərişıq» –** Bakı elektrik şəbəkəsinin operatoru. Bakı elektrik şəbəkəsi 1920-ci ildən etibarən müxtəlif qurumların tərkibində fəaliyyət göstərib. Azər-

baycan Respublikası Prezidentinin 10 avqust 2006-cı il tarixli Sərəncamı ilə «Bakıelektrikşəbəkə» ASC-nin fəaliyyəti bərpa edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 fevral 2015-ci il tarixli Sərəncamına əsasən, «Bakıelektrikşəbəkə» Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək «Azərişıq» Açıq Səhmdar Cəmiyyəti adlandırıldı. – 17, 18.

**19. «AzərEnerji»** – dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisinin ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 21, 22, 23, 237.

**20. Baba Rzayev,** Baba Hüseynağa oğlu (d.1957) – Əməkdar mühəndis. 2006–2015-ci illərdə «Bakıelektrikşəbəkə» Açıq Səhmdar Cəmiyyətinin, 2015–2018-ci illərdə «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri olmuşdur. 2018-ci ildən «AzərEnerji» Açıq Səhmdar Cəmiyyətinin Prezidentidir. – 21.

**21. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları** – 7 iyul 2021-ci ildə Azərbaycan Prezidentinin «Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında» Fərmanına əsasən yaradılmışdır. Qarabağ iqtisadi rayonuna Ağdam, Şuşa, Füzuli, Tərtər, Ağcabədi və Bərdə rayonları, yeni yaradılmış Şərqi Zəngəzur iqtisadi rayonuna isə işğaldan azad olunmuş Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları daxil edilmişdir. – 21, 31, 36, 45, 122, 123, 190, 198, 205, 242, 293, 320.

**22. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESCO və ISESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 25, 26, 290, 291, 294, 295.

**23. Laçın** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 79,9 min nəfərdir. Laçın rayonu 18 may 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 1 dekabr 2020-ci ildə Laçın rayonu 28 il sonra yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. – 33, 35, 39, 95, 122, 133, 188, 191, 200, 274, 302, 303, 305.

**24. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–

24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 33, 124.

**25. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 33, 97, 98, 99, 105, 124, 126, 130, 317, 321.

**26. Türkiyə,** T ü r k i y ə R e s p u b l i k a s ı – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 84,34 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 33, 77, 80, 100, 101, 102, 221, 222, 223, 225, 233, 257, 259, 260, 261, 267, 270, 271, 274, 275, 276, 317, 321.

**27. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Kəlbəcər şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 3050 $km^2$,

əhalisi 93 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılan Kəlbəcər rayonu 25 noyabrda Azərbaycana təhvil verildi. Məğlubiyyətlə barışa bilməyən ermənilər bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişlər. İşğaldan azad edildikdən sonra Kəlbəcər yenidən qurulur. – 33, 39, 188, 196, 200, 285, 302.

**28. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 448,8 min km$^2$, əhalisi 35,7 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qaraqalpaqıstan Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 35, 122, 127, 146, 148, 221, 268, 269, 270, 274, 276, 277, 314, 316, 317, 318.

**29. Qazaxıstan,** Qazaxıstan Respublikası – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Astana şəhəridir. – 35, 112, 122, 127, 221, 235, 236, 258, 266, 268, 269, 270, 274, 277, 278, 322.

**30. Füzuli** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 144 min nəfərdir. 1993-cü ildə ərazi-

sinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndləri, 17 oktyabr tarixində isə Füzuli şəhəri işğaldan tam azad edilmişdir. – 35, 39, 122, 177–190, 193, 195, 197, 198, 201, 269, 274, 312.

**31. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edir. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Şuşa şəhərini 8 noyabr 2020-ci ildə işğaldan azad etmişdir. – 35, 39,

44, 59, 60, 121, 129, 153, 154, 163, 164, 165, 167, 169, 172, 175, 179, 188, 196, 204, 260, 269, 270, 286–296, 299, 300, 302, 305, 307, 309, 312, 317, 318.

**32. Gəncə** – Azərbaycan Respublikasında əhalisinə görə Bakıdan sonra ikinci böyük şəhər. Gəncə şəhəri Kiçik Qafqazın şimal-şərqində, Gəncə–Qazax düzənliyində yerləşir. Sahəsi 173 $km^2$, əhalisi 360,4 min nəfərdir. – 37, 136, 166, 289.

**33. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 38, 74, 131, 211, 272, 320.

**34. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. 57 üzv, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, həmçinin ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir.

ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in Zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 38, 74, 131.

**35. Cenevrə Konvensiyası** – 1949-cu ildə İsveçrənin Cenevrə şəhərində keçirilmiş konfransda 4 Cenevrə Konvensiyası qəbul edilmişdir. Cenevrə konvensiyaları və onlara əlavə edilmiş protokollar silahlı münaqişələr zamanı yaralı, xəstə və gəmi qəzasına uğramış hərbçilərin vəziyyətini yaxşılaşdırmaq, hərbi əsirlərə baş çəkmək, mülki əhaliyə köməklik göstərmək və ümumilikdə humanitar hüquq ilə mühafizə edilən şəxslərə qarşı müvafiq rəftarı təmin etmək hüququnu müəyyən edir. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi bütün beynəlxalq norma və prinsiplərə əməl etməyərək, Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozub – dinc əhalini, çoxsaylı ev və mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri hədəfə alıb, mülki vətəndaşlara qarşı cinayətlər törədib. Hədəf kimi seçilən ərazilər əhalinin kompakt olduğu məntəqələr – rayon və kənd mərkəzləri, mülki infrastruktur obyektlər – xəstəxanalar, tibb məntəqələri, məktəb binaları, uşaq bağçalarıdır. – 39, 137.

**36. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmış, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. Faciəni qətliam kimi dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın 22 ştatı tanımışdır. – 40, 136, 166, 173

**37. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 29,12 $km^2$, əhalisi 55 min nəfərdir. 1991-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 10 noyabr 2020-ci il tarixində imzalanan razılaşmaya əsasən, Rusiyanın sülhməramlı qüvvələri şəhərdə yaşayan ermənilərin, habelə Xankəndiyə köçürüləcək hər iki xalqın yerləşdirilməsinə və təhlükəsizliyinə nəzarət mexanizmi həyata keçirir.

2023-cü il sentyabr ayında Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatlarından sonra 29 sentyabr 2023-cü ildə Azərbaycan polisi şəhərə nəzarəti bərpa etmişdir. 15 oktyabr 2023-cü ildə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağını qaldırmışdır. – 42, 86, 96, 160, 164, 166, 167, 170, 171, 192, 194, 267, 272, 298, 302, 303, 307, 309, 310, 311.

**38. BMT Baş Assambleyası** – BMT-nin qanunverici orqanı. Hal-hazırda hər bir sessiyada iştirak etməli olan və 5-dən çox nümayəndəsi olmayan 191 üzv dövlətdən ibarətdir. Baş Assambleya, Baş Assamble-

yanın sessiyalarıarası görüşən 7 Əsas Komitə, Prosessual Komissiya və Daimi Komissiyalar kimi Daimi Komitələrdən ibarətdir. O həmçinin Təhlükəsizlik Şurasının rəyi ilə növbəti 5 il müddətində fəaliyyət göstərəcək Baş Katibi təyin etmək üçün də məsuliyyət daşıyır. – 47, 206, 211.

**39. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon $km^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 52, 53, 62, 64, 65, 67, 76, 79, 80, 221, 223, 224, 225.

**40. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi. 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 52.

**41. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 83 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 54, 80, 86, 279, 280.

**42. Frank-Valter Ştaynmayer** (d.1956) – Almaniyanın dövlət və siyasi xadimi. 2005–2009 və 2013–2017-ci illərdə Almaniyanın Xarici İşlər naziri, 2007–2009-cu illərdə isə vitse-kansler olmuşdur. Ştaynmayer Sosial-Demokrat Partiyasının üzvü və hüquq elmləri doktorudur. 2017-ci ildən Almaniya Federativ Respublikasının Prezidentidir. – 54, 279.

**43. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 54, 70, 72, 73, 86, 104, 106, 230, 243, 279, 284.

**44. ISESCO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan ISESCO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 59, 60.

**45. Qətər,** Q ə t ə r  D ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2,6 milyon nəfərdir. Dövlət başçısı Əmirdir. Paytaxtı Doha şəhəridir. – 59.

**46. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə  Ə r ə b i s t a n ı  K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 34,2 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı Kraldır. Ölkədə bütün hakimiyyət Krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı Kral təyin və həm də başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanında yerləşir. Paytaxtı Ər-Riyad şəhəridir. – 62, 79, 80, 90, 91.

**47. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Birləşmiş Ərəb Əmirliklərinin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 62, 80, 221, 237–240, 243–245, 248, 250–256.

**48. Hindistan,** H i n d i s t a n  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Ümumi sahəsi isə 3,2 milyon km$^2$, əhalisinin sayı 1,4 milyard nəfərdir. Hindistan Federativ parlamentli respublikadır. Paytaxtı Yeni Dehli şəhəridir. – 62, 64, 79, 80, 313.

**49. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 125,9 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 62, 80, 221, 247.

**50. NASA,** «Milli Aeronavtika və Kosmos İdarəsi» – ABŞ-ın mülki kosmik proqramlarını həyata keçirmək üçün yaradılmış icraedici dövlət agentliyi. NASA-nın həyata keçirdiyi elmi tədqiqatlar əsasən Yer Müşahidə Sistemi vasitəsi ilə Yer planetini daha yaxşı tədqiq etmək, heliofizika və astrofizika elmlərini daha dərindən öyrənmək və avtomatlaşdırılmış sistemlər vasitəsilə Günəş sisteminə daxil olan fəza cisimlərini kəşf etmək işlərini əhatə edir. – 64, 67, 68, 77, 79.

**51. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal

sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1976-cı ildə Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd, 1982-ci ildə isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, keçmiş Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü

ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» Fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 66, 67, 82, 109, 110, 114, 115, 126, 140, 141, 144, 147, 149, 153, 154, 158, 164, 166, 167, 168, 169, 197, 198, 202, 204, 220, 233, 251, 260, 298.

**52. «Qoşulmama Hərəkatı»** – özlərini heç bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv olduğu, digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır. Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti ilə Hərəkata sədrlik 2019–2022-ci illər üzrə

Azərbaycan Respublikasına keçmişdir. – 70, 94, 95, 137, 206, 210, 211, 256.

**53. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – müsəlman ölkələrinin çoxunu birləşdirən təşkilat. 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 70, 72, 256.

**54. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-ın bütün üzv dövlətləri Avropa insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan müqaviləni – insan hüquqlarının müdafiəsi haqqında Konvensiyanı imzalamışdır. Üzv dövlətlərdə yerli və regional demokratiyanın gücləndirilməsində məsul olan Yerli və Regional Hakimiyyətlər Konqresi AŞ-ın bir təsisatıdır. 2 palata və 3 komitədən ibarətdir. AŞ-ın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 25 yanvar 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzvüdür. Mənzil-qərargahı Strasburqda yerləşir. – 70, 72.

**55. Nəsirəddin Tusi,** Məhəmməd ibn Həsən (1201–1274) – Azərbaycanın görkəmli alimi, dövlət xadimi. Təsis etdiyi Marağa Astronomiya Rəsədxanası (1259) qısa müddətdə böyük elmi mərkəzə çevrilmiş, burada bir çox məşhur riyaziyyatçı və astronom alimlər yetişmişdir. – 77.

**56. TEKNOFEST** – Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalı. «Bayraktar TB2» və «Akıncı PUA»larının mühəndisi, «Baykar» şirkətinin texniki direktoru, «Qarabağ» ordenli mühəndis Səlçuk Bayraktarın təşəbbüsü ilə Türkiyə Texnologiya Vəqfi ilə Türkiyə Respublikası Texnologiya və Sənaye Nazirliyi tərəfindən Türkiyənin milli texnologiyalarını inkişaf etdirmək məqsədi ilə təşkil edilən ilk və yeganə festivaldır. – 77.

**57. Rəcəb Tayyib Ərdoğan** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur. Ədalət və İnkişaf Partiyasının liderdir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında, 2018-ci ilin aprelində, 2023-cü ilin mayında yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 77, 100, 233, 259, 267, 274, 275, 276, 321.

**58. Səlçuk Bayraktar** (d.1979) – Türk iş adamı, mühəndis, Türkiyənin ilk yerli istehsalı olan SİHA sistemli «Baykar Bayraktar TB2»nin memarı, «Baykar Savunma»nın texniki direktoru. Komandası ilə yaratdığı «Bayraktar TB2» pilotsuz uçuş aparatları Türkiyə Ordusunun PKK-ya qarşı hərbi əməliyyatlarında geniş şəkildə istifadə edilmişdir. Səlçuk Bayraktar Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil olan ilk pilotsuz uçuş aparatı «Bayraktar Mini PUA»nın yaradıcısı olmuşdur. Türkiyənin ilk pilotsuz hücum uçuş aparatı «Bayraktar Akıncının» (PUA) yaradılmasında da xüsusi əməyi olmuşdur. İkinci Qarabağ müharibəsində istifadə olunan bu texnikalar qazanılan böyük Zəfərə öz töhfəsini vermiş, bu fəaliyyətlərinə görə Səlçuk Bayraktar Azərbaycan Respublikasının «Qarabağ» ordeni ilə təltif edilmişdir. – 78.

**59. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Roma şəhəridir. – 79, 80, 221, 223.

**60. Bolqarıstan,** B o l q a r ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 80, 221.

**61. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 80.

**62. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi başa çatdı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkə-

lərin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 80.

**63. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 68 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 80, 104, 135, 136, 137, 138, 168, 196, 207, 208, 209, 210, 211.

**64. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 85, 221.

**65. Volodimir Zelenski** (d.1978) – Ukrayna siyasətçisi və dövlət xadimi. 2019-cu ildən Ukraynanın Prezidentidir. – 85.

**66. Şarl Mişel** (d.1975) – belçikalı siyasətçi. 2014–2019-cu illərdə Belçikanın Baş Naziri olmuşdur. 2019-cu ildən Avropa İttifaqı Şurasının Prezidentidir. – 86, 104, 106.

**67. Olaf Şolts** (d.1958) – Almaniya siyasətçisi və dövlət xadimi. Almaniya Sosial-Demokrat Partiyasının üzvüdür. 8 dekabr 2021-ci ildən Almaniyanın Federal Kansleridir. – 86, 279.

**68. Serbiya,** Serbiya Respublikası – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 92, 93.

**69. COVID-19** – koronavirus pandemiyası. 2019-cu ilin ortalarında Çinin mərkəzi Hubey əyalətində yerli sakinlərdə naməlum mənşəli virusun yayılması ilə başlanan xəstəlik. – 94, 95.

**70. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) – BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 94, 95.

**71. Rusiya,** Rusiya Federasiyası – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 103, 125, 126, 127, 129, 130, 132, 138, 139, 140, 144, 145, 148, 150, 214, 217, 221, 222.

**72. Vladimir Putin** (d.1952) – Rusiyanın dövlət və siyasi xadimi. 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nin direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı olmuş, 2012 və 2018-ci illərdə isə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 103, 125, 126, 132, 144, 148, 150.

**73. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 107–120, 221, 222.

**74. İrakli Qaribaşvili** (d.1982) – Gürcüstanın dövlət və siyasi xadimi. 2013–2015-ci illərdə Gürcüstanın Baş Naziri olmuş, 2021-ci ildə isə yenidən Baş Nazir seçilmişdir. – 107–111, 120.

**75. Eduard Şevardnadze** (1928–2014) – Gürcüstanın dövlət və siyasi xadimi. 10 mart 1992 – 4 noyabr 1992-ci illərdə Gürcüstan Respublikası Dövlət Şurasının Sədri, 6 noyabr 1992 – 26 noyabr 1995-ci illərdə Gürcüstan Respublikasının Başçısı, 26 noyabr 1995 – 23 noyabr 2003-ci illərdə isə Gürcüstanın Respublikasının Prezidenti olmuşdur. – 110, 115.

**76. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 118, 123, 124.

**77. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belarusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 127, 128, 139, 140, 141, 143, 146–151, 223, 224, 225, 237.

**78. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6,7 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayət və 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 127, 143, 147, 148, 149, 150, 151, 221, 271, 276.

**79. Kürəkçay sazişi** – 1805-ci il 14 may tarixində imzalanmış Qarabağ və Şəki xanlıqlarının Rusiya tərəfinə keçməsi barədə müqavilə. – 129, 130.

**80. İrəvan –** qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq, ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdir. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII– IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şah (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yaranmışdır.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6 %-i Azərbaycan türkləri idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali

Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 130, 166, 289.

**81. Gülüstan sülh müqaviləsi** – 1813-cü il 12 oktyabrda Rusiya imperiyası ilə Qacarlar (İran) arasında imzalanmış və Araz çayının şimalındakı torpaqlar İrandan ayrılmışdır. Bu müqavilənin nəticəsi olaraq, Cənubi Qafqazın əksər hissəsi Rusiya İmperiyasının hakimiyyəti altına keçdi. Gülüstan sülh müqaviləsi ilə tarixi Azərbaycan torpaqları iki dövlət arasında bölüşdürüldü. Bu müqavilə Azərbaycanın Rusiya–İran arasında bölüşdürülməsinin birinci mərhələsi idi. – 130.

**82. İspaniya,** İ s p a n i y a K r a l l ı ğ ı – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 506 min km$^2$, əhalisi 47,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı Kral, qanunverici orqanı Korteslərdir. Paytaxtı Madrid şəhəridir. – 142.

**83. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın dövlət və siyasi xadimi. 2003–2006-cı illərdə Özbəkistan Respublikasının Baş Naziri olmuşdur. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 146, 148, 268, 269, 277, 316, 318.

**84. TÜRKSOY,** Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı Türk ölkələrinin mədəniyyət sahələrini birləşdirən beynəlxalq təşkilat. TÜRKSOY-un yaradılması

və fəaliyyət prinsipləri haqqında müqavilə həmin ölkələrin Mədəniyyət nazirləri tərəfindən 1993-cü il iyulun 12-də Qazaxıstan Respublikasının keçmiş paytaxtı Almatı şəhərində imzalanmışdır. Təşkilatın Nizamnaməsinə görə, o, türkdilli dövlətlərin mədəniyyət nazirlərinin Daimi Şurasının qərarlarına əsasən fəaliyyət göstərir. TÜRKSOY-un əsas üzvləri Qazaxıstan, Türkiyə, Azərbaycan, Özbəkistan, Qırğızıstan və Türkmənistandır. Qalan 8 üzv isə əsasən müşahidəçi qismində iştirak edirlər. – 152, 153.

**85. Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan türklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1487–1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdı. 1829–32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14354 nəfər əhali (əsasən azərbaycanlılar) qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi olmuşdur (əhalisi özünü Cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqı-

rımı siyasəti yeridirdilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-bolşevik rejiminin himayəsi ilə Göyçə, demək olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. – 166.

**86. Zəngəzur,** Zəngəzur qəzası – XIX əsrin ikinci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. – 166, 194.

**87. Saleh Məmmədov,** Saleh Ərşad oğlu (d.1958) – Əməkdar mühəndis. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədridir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı və «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 177, 214.

**88. Mirzə Uluqbəy**, Uluqbəy Məhəmməd Tarağay (1394–1449) – özbək astronomu, riyaziyyatçısı, Əmir Teymurun nəvəsi. 1409-cu ildə Səmərqənd hakimi elan edilmiş, atası Şahruxun ölümündən (1447) sonra Teymurçilər sülaləsinin başçısı olmuşdur. Hələ gəncliyindən elmlə maraqlanmış, ensiklo-

pedik biliyə malik olmuşdur. Onun yaratdığı Uluqbəy rəsədxanasında tərtib edilmiş ulduz kataloqu dünyada ən yaxşı kataloq olmuş, Oksfordda (1665) nəşr edilmişdir. – 197.

**89. Vyetnam,** Vyetnam Sosialist Respublikası (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 331,2 min km$^2$, əhalisi 97 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı Prezident, ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoy şəhəridir. – 208.

**90. Hacı Zeynalabdin Tağıyev,** Hacı Zeynalabdin Tağı oğlu (1838–1924) – məşhur mesenat, maarifpərvər Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz Səhmdar Cəmiyyəti»ni, Toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı Ticarət Bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Hacı savadsızlıqla mübarizə aparmış, Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün Toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir, qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azər-

baycan dilinə tərcümələri çap etdirir, 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edirdi. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı. Bakıya «Şollar» su kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 214.

**91. Macarıstan** – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min $km^2$, əhalisi 9,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 218, 219, 276.

**92. Rumıniya** – Cənub-Şərqi Avropada dövlət. Dövlət başçısı Prezident, qanunverici orqan isə ikipalatalı parlamentdir. Ərazisi 238,3 min $km^{2,}$ əhalisinin sayı 19,4 milyon nəfərdir. Paytaxtı Buxarest şəhəridir. – 221.

**93. Teymur Musayev,** T e y m u r  Y u s i f  o ğ l u (d.1970) – siyasətçi, elmlər namizədi. 2020-ci ilin aprel ayından etibarən Səhiyyə Nazirliyinin Səhiyyənin təşkili şöbəsinin müdiri vəzifəsində çalışıb. 23 aprel 2021-ci ildə Azərbaycan Respublikası Səhiyyə nazirinin birinci müavini təyin edilib. 19 yanvar 2022-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 227.

**94. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka və İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşdur. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 230, 284.

**95. Yaşar Gülər** (d.1954) – türk generalı, 2018-ci ildən Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisidir. – 233, 234.

**96. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) – Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk Prezidenti (1923–1938).

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal

rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə Türk Ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 233, 259.

**97. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılıb. Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. Mənzil-qərargahı Manilada yerləşir. – 247.

**98. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, həmçinin MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 247.

**99. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstan siyasətçisi və dövlət xadimi. 2013–2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 258, 268, 269, 277, 278.

**100. Şuşa Bəyannaməsi** – 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Şuşa şəhərində imzalanmış bəyannamə. – 260.

**101. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 264, 265, 322.

**102. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın birinci Prezidenti – elbası, Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti, 1991-ci ilin dekabrından 2019-cu ilin mart ayına qədər isə Qazaxıstan Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 266, 278.

**103. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1768 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 276.

**104. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan,

248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 276.

**105. Molla Pənah Vaqif,** Pənah Mehdi ağa oğlu (1717) – Azərbaycan şairi, məşhur ictimai və siyasi xadim, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri. Vaqif lirikasının əsas xüsusiyyətləri millilik, xəlqilik, realizm, sadəlik və nikbinlikdir. Vaqif yaradıcılığında «Badi-səba, bir xəbər ver könlümə», «Namə gedər olsan yarın kuyinə», «Bayram oldu», «Gözlərin cəlladdır, baxışın yağı», «Durnalar», «Heyran olmuşam» və s. şeirləri xüsusi yer tutur. 12 yanvar 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. – 291.

**106. Üzeyir Hacıbəyli,** Üzeyir Əbdülhüseyn oğlu (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənəti və milli operasının, həmçinin şərqdə ilk operanın banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 291.

**107. Emin Əmrullayev,** Emin Eldar oğlu (d.1982) – 2015–2020-ci illərdə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri, 2020-ci ilin yanvar–iyul aylarında Azərbaycan Respublikası Təhsil İnstitutunun direktoru vəzifələrində çalışmışdır. 2020–2022-ci

illərdə Azərbaycan Respublikasının Təhsil naziri olmuşdur. 2022-ci ildən Azərbaycan Respublikasının Elm və Təhsil naziridir. – 292.

**108. Mayis Bərxudarov,** M a y i s  Ş ü k ü r  o ğ l u (d.1976) – general-mayor. Aprel və Qarabağ döyüşlərinin iştirakçısı. Lələtəpə yüksəkliyini və on kilometrlərlə ərazini azadetmə əməliyyatında şəxsən iştirak etmişdir. – 309.

**109. Emoməli Rəhmon,** E m o m ə l i  Ş ə r i f  o ğ l u (d.1952) – Tacikistanın dövlət və siyasi xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 322.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Oruc** – 309
**II Abdullah ibn Hüseyn** – 88
**Al Səud Salman** – 91
**Andreyeva Vladanka** – 46, 49
**Aripov Abdulla** – 314
**Atatürk Mustafa Kamal** – 233, 259
**Azizov Abdusalom** – 127
**Babayev Münasib** – 310
**Berbok Annalena** – 279
**Berdıməhəmmədov Sərdar** – 13, 321
**Bərxudarov Mais** – 309
**Bono Lui** – 11
**Bortnikov Aleksandr** – 127, 140
**Bayraktar Səlçuk** – 78
**Bəzrpaş Mehrdad** – 97, 98, 99
**Cəfərov Cabir** – 310
**Cinpin Si** – 52
**Cabbarov Mikayıl** – 220, 252
**Çompuzov Bilal** – 309
**Davitaşvili Levan** – 107
**Əhmədov Vüqar** – 17
**Əl-Cabir Əhməd** – 244, 251
**Əl-Cuteyli İssam** – 90, 91
**Ələkbərov Babək** – 310
**Əliyev Heydər** – 66, 67, 82, 109, 110, 114, 115, 126, 140, 141,

144, 147, 149, 153, 154, 158, 164, 166, 167, 168, 169, 197, 198, 202, 204, 220, 233, 251, 260, 298

**Əliyev Heydər** (*nəvə*) – 61, 79, 285, 298

**Əliyeva Mehriban** – 5, 59, 61, 79, 155, 285–290, 292–295, 298

**Əl-Nahar Ömər Bərəkət** – 88, 89

**Əl-Malik Salim** – 59

**Əl-Ramahi Cəmil** – 252, 253

**Əl-Sayeğ Əhməd** – 253

**Əl-Suveydi Saif** – 253

**Əmrullayev Emin** – 292

**Ərdoğan Rəcəb Tayyib** – 77, 100, 233, 259, 267, 274, 275, 276, 321

**Fərəcov Zakir** – 226

**Gülər Yaşar** – 233, 234

**Hacıbəyli Üzeyir** – 291

**Hacıyev Vahid** – 14, 19

**Haipenq Cinq** – 65

**Haiçao Qui** – 65

**Hak Coşua** – 213

**Henri Hans** – 94, 95

**Həsənov Məhəmməd** – 310

**Hüseynov Emin** – 154, 179, 312

**Hüseynov Tofiq** – 310

**Hüseynzadə Mehdi** – 226

**İbrahimov Xalid** – 310

**İslamzadə Namiq** – 310

**İbrahim Rəisi** – 98

**Japarov Akılbek** – 143

**Japarov Sadır** – 147, 149, 274, 322
**Kərimov Aydın** – 286
**Kim Yuri** – 11
**Klüge Henri** – 94, 95
**Kubanıçbek Ömüralıyev** – 277
**Qaribaşvili İrakli** – 107–111, 120
**Qayıbov Fərid** – 181
**Quliyev Eldar** – 311
**Qurbani Abdulla** – 311
**Quterreş Antonio** – 46
**Qebreyesus Tedros** – 94
**Lebedev Sergey** – 150
**Lukaşenko Aleksandr** – 149
**Mikayılov Zaur** – 156
**Mirzəyev Hikmət** – 309
**Mirziyoyev Şavkat** – 146, 148, 268, 269, 277, 316, 318
**Mişel Şarl** – 86, 104, 106
**Mohd Şərif Maimuna** – 8, 9, 46
**Moqbeli Casmin** – 68
**Molla Pənah Vaqif** – 291
**Mouri Klay** – 56, 61, 67
**Munir Asim** – 264, 265
**Musayev Teymur** – 227
**Muizzu Məhəmməd** – 84
**Məmmədov Saleh** – 177, 214
**Narışkin Sergey** – 127
**Nazarbayev Nursultan** – 266, 278
**Nağıyev Fuad** – 154
**Noah Yuval** – 77
**Nəsrəddin Tusi** – 77

**Ohara Loral** – 68
**Orban Viktor** – 218, 276, 277
**Orliç Vladimir** – 92
**Patruşev Nikolay** – 125
**Plenkoviç Andrey** – 283
**Putin Vladimir** – 103, 125, 126, 132, 144, 148, 150
**Paueri Samanta** – 11
**Rzayev Baba** – 21
**Rəşid Camal** – 58
**Rəhmon Emoməli** – 322
**Sadıqov Sadiq** – 15
**Seyidov Kənan** – 310
**Skuya Edqars** – 229, 230
**Smailov Alixan** – 266, 278, 322
**Sok Yun** – 55
**Sısoyev Yevgeni** – 127
**Şevardnadze Eduard** – 110, 115
**Şolts Olaf** – 86, 279
**Ştaynmayer Frank-Valter** – 54, 279
**Ştel Tomas** – 231, 232
**Tae-vo Çey** – 281
**Tağıyev Hacı Zeynalabdin** – 214
**Taşiyev Kamçıbek** – 127
**Tebbun Abdelmacid** – 262
**Terteli İvan** – 127
**Tokayev Kasım-Jomart** – 258, 268, 269, 277, 278
**Uluqbəy Mirzə** – 197
**Vanq Ciyi** – 224, 225
**Velbi Castin** – 82
**Vəliyev Kərim** – 309

**Vuçiç Aleksandr** – 92
**Yatimov Saymumin** – 127
**Zelenski Volodimir** – 85
**Zurbuhen Tomas** – 77
**Zalov Fəqan** – 201
**Zalov Nicat** – 201

## Coğrafi adlar göstəricisi

**Abşeron** – 238, 252
**Afrika** – 137, 207, 210
**Ağalı** – 31, 35, 39, 51, 122
**Ağbənd** – 19, 97, 105
**Ağcabədi** – 156, 158, 177
**Ağdam** – 8, 31, 156, 158, 167, 177, 178, 188, 196, 291, 302
**Ağdərə** – 156, 159, 194, 307
**Alıbəyli** – 19, 20
**Almaniya** – 54, 80, 86, 279, 280
**Amerika Birləşmiş Ştatları** – 11, 34, 37, 75, 77, 79, 80, 136, 213, 224, 237, 240, 270, 273, 282, 318, 319
**Ankara** – 165
**Astana** – 266, 267, 268, 270, 277, 278
**Asiya** – 70, 207, 213, 271, 275
**Avrasiya** – 11, 118, 213, 318
**Avropa** – 11, 22, 33, 54, 70, 72, 73, 86, 94, 104, 106, 118, 209, 213, 230, 243, 247, 271, 276, 279, 284, 289
**Avstraliya** – 80

**Avstriya** – 80, 221
**Bərdə** – 136, 156, 158, 177,178
**Biləsuvar** – 252
**Birləşmiş Ərəb Əmirlikləri** – 62, 80, 221, 237–240, 243–245, 248, 250–256
**Bişkek** – 138, 139, 143, 144, 146, 147, 151
**Bolqarıstan** – 80, 221
**Böyük Britaniya** – 80
**Braziliya** – 221
**Brüssel** – 86, 279
**Basarkeçər** – 166
**Belarus** – 221
**Cəbrayıl** – 14, 15, 17, 18, 19, 36, 49, 188, 196
**Cəmmu** – 265
**Cibuti** – 208
**Cuvarlı** – 179, 180
**Çad** – 208
**Çin** – 52, 53, 62, 64, 65, 67, 76, 79, 80, 221, 223, 224, 225
**Danimarka** – 221
**Dərələyəz** – 166
**Doha** – 59
**Dubay** – 49, 250
**Düşənbə** – 317
**Estoniya** – 221
**Əbu-Dabi** – 247
**Əlcəzair** – 207, 208, 209, 262, 263
**Ərdəbil** – 317

**Ərzurum** – 317
**Fransa** – 80, 104, 135, 136, 137, 138, 168, 196, 207, 208, 209, 210, 211
**Füzuli** – 35, 39, 122, 177–190, 193, 195, 197, 198, 201, 269, 274, 312
**Gəncə** – 37, 136, 166, 289
**Goranboy** – 156, 158
**Göyçə** – 166
**Gürcüstan** – 107–120, 221, 222
**Haiti** – 208
**Hindistan** – 62, 64, 79, 80, 313
**Xankəndi** – 42, 86, 96, 160, 164, 167, 166, 170, 171, 192, 194, 267, 272, 298, 302, 303, 307, 309, 310, 311
**Xocalı** – 173, 174, 175, 194, 267
**Xorvatiya** – 283, 284
**Xumarlı** – 19
**Xocavənd** – 176, 194
**İçəri Müşlan** – 24
**İordaniya** – 88
**İraq** – 58, 221
**İran** – 33, 97, 98, 99, 105, 124, 126, 130, 317, 321
**İrəvan** – 130, 166, 289
**İspaniya** – 142
**İsveçrə** – 77, 231, 232
**İtaliya** – 79, 80, 221, 223

**Kanada** – 221
**Karaqanda** – 258
**Kəlbəcər** – 33, 39, 188, 196, 200, 285, 302
**Kəşmir** – 265
**Koreya** – 55, 281, 282
**Qafqaz** – 11, 44, 74, 99, 113, 115, 116, 220, 280
**Qahirə** – 47, 48
**Qarabağ** – 5, 11, 12, 43, 45, 50, 83, 99, 129, 131, 132, 134, 135, 144, 155, 159, 166, 170–176, 189, 191, 192, 200, 204, 205, 232, 290, 291, 293, 299, 302–304, 307–309, 312
**Qarğabazar** – 312, 313
**Qazaxıstan** – 35, 112, 122, 127, 221, 235, 236, 258, 266, 268, 269, 270, 274, 277, 278, 322
**Qətər** – 59
**Qəmər** (*ada*) – 208, 210
**Qırğız Respublikası** – 127, 143, 147, 148, 149, 150, 151, 221, 271, 276
**Qoçəhmədli** – 180, 181
**Quba** – 214, 217
**Qubadlı** – 14, 18, 19, 188, 196
**Laçın** – 33, 35, 39, 95, 122, 133, 188, 191, 200, 274, 302, 303, 305

**Latviya** – 229, 230
**Lənkəran** – 16
**Litva** – 221
**Livan** – 221
**Los-Anceles** – 196
**Macarıstan** – 218, 219, 276
**Makedoniya** – 221
**Maldiv** – 84
**Malıbəyli** – 172
**Mali** – 208
**Məlikli** – 24
**Mərakeş** – 208
**Mingəçevir** – 37
**Moskva** – 150, 164, 168
**Naxçıvan** – 164, 233, 242, 270, 275, 321
**Naxçıvan Muxtar Respublikası** – 33, 124
**Neftçala** – 252
**Niderland** – 221
**Nigeriya** – 208
**Nyu York** – 9, 46, 211
**Özbəkistan** – 35, 122, 127, 146, 148, 221, 268, 269, 270, 274, 276, 277, 314, 316, 317, 318
**Pakistan** – 264, 265, 322
**Paris** – 63, 64, 209, 246, 249, 250
**Polşa** – 221
**Rumıniya** – 221

**Rusiya** – 103, 125, 126, 127, 129, 130, 132, 138, 139, 140, 144, 145, 148, 150, 214, 217, 221, 222
**Sari** – 317
**Sarıl** – 19
**Seneqal** – 208
**Serbiya** – 92, 93
**Səmərqənd** – 148
**Sərdarlı** – 312
**Səudiyyə Ərəbistanı** – 62, 79, 80, 90, 91
**Sumqayıt** – 37, 220–222, 225–227
**Şəhrisəbz** – 317
**Şirvan** – 16
**Şuşa** – 35, 39, 44, 59, 60, 121, 129, 153, 154, 163, 164, 165, 167, 169, 172, 175, 179, 188, 196, 204, 260, 269, 270, 286–296, 299, 300, 302, 305, 307, 309, 312, 317, 318
**Tacikistan** – 127, 221
**Talış** – 35, 39, 122
**Tayvan** – 221
**Tbilisi** – 107–109, 111, 114, 120
**Tərtər** – 154,156, 158
**Tunis** – 208
**Türkiyə** – 33, 77, 80, 100–102, 221–223, 225, 233, 257, 259, 260, 261, 267, 270, 271, 274–276, 317, 321

**Türkmənistan** – 13, 221, 276, 317, 321
**Ukrayna** – 85, 221
**Vatikan** – 82
**Vəngli** – 285
**Vyetnam** – 208
**Yal Pirəhmədli** – 312
**Yaponiya** – 62, 80, 221, 247
**Yevlax** – 16, 156
**Zabux** – 35, 39, 122
**Zəngəzur** – 166, 194
**Zəngilan** – 8, 9, 14, 18–22, 24–28, 30–34, 36, 38, 39, 44–47, 50, 51, 97, 105, 188, 191, 196, 291

# MÜNDƏRİCAT

ANIM GÜNÜNDƏ BAKIDA İNŞASI DAVAM ETDİRİLƏN ZƏFƏR PARKINI ZİYARƏT

*27 sentyabr 2023-cü il* ........................................................ *5*

BMT-nin MƏSKUNLAŞMA PROQRAMININ İCRAÇI DİREKTORU XANIM MAİMUNA MOHD ŞƏRİF İLƏ GÖRÜŞ

*27 sentyabr 2023-cü il* ........................................................ *8*

ABŞ PREZİDENTİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ SAMANTA PAUER, ABŞ DÖVLƏT KATİBİNİN KÖMƏKÇİSİ YURİ KİM VƏ ABŞ DÖVLƏT DEPARTAMENTİNİN QAFQAZ DANIŞIQLARI ÜZRƏ BAŞ MÜŞAVİRİ LUİ BONO İLƏ GÖRÜŞ

*27 sentyabr 2023-cü il* ...................................................... *11*

TÜRKMƏNİSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SƏRDAR BERDIMƏHƏMMƏDOVA

*27 sentyabr 2023-cü il* ...................................................... *13*

CƏBRAYIL RAYONUNA SƏFƏR

*28 sentyabr 2023-cü il* ...................................................... *14*

ZƏNGİLAN RAYONUNA SƏFƏR

*28 sentyabr 2023-cü il* ...................................................... *19*

«DAVAMLI ŞƏHƏRLƏR İQTİSADİ İNKİŞAFIN HƏRƏKƏTVERİCİ VƏ BƏRABƏRSİZLİKLƏRLƏ MÜBARİZƏ APARAN QÜVVƏSİ KİMİ» MÖVZUSUNDA ZƏNGİLANDA KEÇİRİLMİŞ 2-ci AZƏRBAYCAN MİLLİ ŞƏHƏRSALMA FORUMUNUN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*29 sentyabr 2023-cü il* ........................................................ *30*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*30 sentyabr 2023-cü il* ........................................................ *52*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANK-VALTER ŞTAYNMAYERƏ

*30 sentyabr 2023-cü il* ........................................................ *54*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YUN SOK YOLA

*30 sentyabr 2023-cü il* ........................................................ *55*

BEYNƏLXALQ ASTRONAVTİKA FEDERASİYASININ PREZİDENTİ KLAY MOURİ İLƏ GÖRÜŞ

*30 sentyabr 2023-cü il* ........................................................ *56*

İRAQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLLƏTİF CAMAL RƏŞİDƏ

*2 oktyabr 2023-cü il* ........................................................ *58*

ISESCO-nun BAŞ DİREKTORU SALİM BİN MƏHƏMMƏD ƏL-MALİKİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2023-cü il* ........................................................... *59*

74-cü BEYNƏLXALQ ASTRONAVTİKA KONQRESİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*2 oktyabr 2023-cü il* ........................................................... *61*

ASTRONAVTİKA KONQRESİ ÇƏRÇİVƏSİNDƏ TƏŞKİL EDİLMİŞ SƏRGİYƏ BAXIŞ

*2 oktyabr 2023-cü il* ........................................................... *79*

ANQLİKAN KİLSƏSİNİN DİNİ RƏHBƏRİ, KENTERBERİ ARXİYEPİSKOPU CASTİN VELBİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2023-cü il* ........................................................... *82*

MALDİV RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD MUİZZUYA

*4 oktyabr 2023-cü il* ........................................................... *84*

UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİ İLƏ TELEFONLA GÖRÜŞ

*4 oktyabr 2023-cü il* ........................................................... *85*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ OLAF ŞOLTS İLƏ TELEFONLA GÖRÜŞ

*4 oktyabr 2023-cü il* ........................................................... *86*

İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ÖMƏR BƏRƏKƏT ƏL-NAHAR İLƏ GÖRÜŞ

*5 oktyabr 2023-cü il* ........................................................ *88*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İSSAM BİN SALEH ƏL-CUTEYLİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2023-cü il* ........................................................ *90*

SERBİYA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDRİ VLADİMİR ORLİÇ İLƏ GÖRÜŞ

*6 oktyabr 2023-cü il* ........................................................ *92*

ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ AVROPA ÜZRƏ REGİONAL DİREKTORU HANS HENRİ KLÜGE İLƏ GÖRÜŞ

*6 oktyabr 2023-cü il* ........................................................ *94*

İRAN İSLAM RESPUBLİKASININ YOL VƏ ŞƏHƏRSALMA NAZİRİ, AZƏRBAYCANLA İRAN ARASINDA İQTİSADİ, TİCARƏT VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İRAN TƏRƏFİNDƏN HƏMSƏDRİ MEHRDAD BƏZRPAŞ İLƏ GÖRÜŞ

*6 oktyabr 2023-cü il* ........................................................ *97*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*7 oktyabr 2023-cü il* ........................................................ *100*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*7 oktyabr 2023-cü il* ........................................................ *103*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL İLƏ TELEFONLA GÖRÜŞ

*7 oktyabr 2023-cü il* ........................................................ *104*

GÜRCÜSTANA İŞGÜZAR SƏFƏR

*8 oktyabr 2023-cü il* ........................................................ *107*

GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*8 oktyabr 2023-cü il* ........................................................ *108*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 100 İLLİYİNƏ HƏSR EDİLMİŞ «THE ARCHİTECT OF PROSPERİTY» – «FİRAVANLIĞIN MEMARI» ADLI FOTOSƏRGİ İLƏ TANIŞLIQ

*8 oktyabr 2023-cü il* ........................................................ *109*

GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*8 oktyabr 2023-cü il* ........................................................ *111*

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏ-
FİNƏ VERİLMİŞ NAHARDA İŞTİRAK

*8 oktyabr 2023-cü il* ........................................................ *120*

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI
NAZİRLƏR ŞURASININ 27-ci İCLASININ
İŞTİRAKÇILARINA

*9 oktyabr 2023-cü il* ........................................................ *121*

RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK
ŞURASININ KATİBİ NİKOLAY PATRUŞEV
İLƏ GÖRÜŞ

*10 oktyabr 2023-cü il* ...................................................... *125*

MDB-yə ÜZV DÖVLƏTLƏRİN TƏHLÜKƏ-
SİZLİK VƏ XÜSUSİ XİDMƏT ORQANLARI
RƏHBƏRLƏRİ ŞURASININ 53-cü İCLASININ
İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*11 oktyabr 2023-cü il* ...................................................... *127*

İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

*12 oktyabr 2023-cü il* ...................................................... *142*

QIRĞIZ RESPUBLİKASINA SƏFƏR

*12 oktyabr 2023-cü il* ...................................................... *143*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*12 oktyabr 2023-cü il* ...................................................... *144*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEVİN MDB-nin FƏXRİ NİŞANI İLƏ TƏLTİF OLUNMASI MƏRASİMİNDƏ İŞTİRAK

*13 oktyabr 2023-cü il* ...................................................... *146*

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK

*13 oktyabr 2023-cü il* ...................................................... *147*

MDB DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*13 oktyabr 2023-cü il* ...................................................... *151*

TÜRKSOY-un YARADILMASININ 30 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ TƏDBİRİN İŞTİRAKÇILARINA

*14 oktyabr 2023-cü il* ...................................................... *152*

TƏRTƏR RAYONUNA SƏFƏR

*15 oktyabr 2023-cü il* ...................................................... *154*

SƏRSƏNG SU ANBARININ ƏRAZİSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞININ UCALDILMASI MƏRASİMİ

*15 oktyabr 2023-cü il* ...................................................... *158*

AĞDƏRƏ ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞININ UCALDILMASI MƏRASİMİ

*15 oktyabr 2023-cü il* ........................................................ *159*

XANKƏNDİDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞINI UCALTDIQDAN SONRA XALQA MÜRACİƏT

*15 oktyabr 2023-cü il* ........................................................ *160*

XANKƏNDİ ŞƏHƏRİNİN KƏRKİCAHAN QƏSƏBƏSİNİ ZİYARƏT

*15 oktyabr 2023-cü il* ........................................................ *171*

ŞUŞA RAYONUNUN MALIBƏYLİ KƏNDİNİ ZİYARƏT

*15 oktyabr 2023-cü il* ........................................................ *172*

XOCALI ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞININ UCALDILMASI MƏRASİMİ

*15 oktyabr 2023-cü il* ........................................................ *173*

XOCALI RAYONUNUN ƏSGƏRAN QƏSƏBƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞININ UCALDILMASI MƏRASİMİ

*15 oktyabr 2023-cü il* ........................................................ *174*

XOCAVƏND ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞININ UCALDILMASI MƏRASİMİ

*15 oktyabr 2023-cü il* ........................................................ *176*

AĞDAM–FÜZULİ AVTOMOBİL YOLUNDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*15 oktyabr 2023-cü il* ........................................................ *177*

FÜZULİ RAYONUNA SƏFƏR

*16 oktyabr 2023-cü il* ........................................................ *179*

FÜZULİ ŞƏHƏRİ GÜNÜNDƏ YENİ KÖÇMÜŞ SAKİNLƏR VƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 oktyabr 2023-cü il* ........................................................ *186*

AZƏRBAYCAN QADINLARININ VI QURULTAYININ İŞTİRAKÇILARINA

*18 oktyabr 2023-cü il* ........................................................ *202*

3-cü AZƏRBAYCAN BEYNƏLXALQ «QARABAĞIN BƏRPA, YENİDƏNQURMA VƏ İNKİŞAFI» – «REBUİLD KARABAKH» SƏRGİSİNİN İŞTİRAKÇILARINA

*19 oktyabr 2023-cü il* ........................................................ *204*

«NEOKOLONİALİZM: İNSAN HÜQUQLARININ POZULMASI VƏ ƏDALƏTSİZLİK»

MÖVZUSUNDA KEÇİRİLMİŞ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*19 oktyabr 2023-cü il* ........................................................ *206*

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ BÜROSUNDA DÖVLƏT KATİBİ KÖMƏKÇİSİNİN MÜAVİNİ COŞUA HAK İLƏ GÖRÜŞ

*20 oktyabr 2023-cü il* ........................................................ *213*

BAKI–QUBA–RUSİYA FEDERASİYASI İLƏ DÖVLƏT SƏRHƏDİ ÖDƏNİŞLİ YENİ AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*20 oktyabr 2023-cü il* ........................................................ *214*

MACARISTANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR ORBANA

*20 oktyabr 2023-cü il* ........................................................ *218*

SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*23 oktyabr 2023-cü il* ........................................................ *220*

LATVİYA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ EDQARS SKUYA İLƏ GÖRÜŞ

*24 oktyabr 2023-cü il* ........................................................ *229*

İSVEÇRƏ KONFEDERASİYASININ ÖLKƏ-
MİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖV-
QƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ
TOMAS ŞTEL İLƏ GÖRÜŞ

*24 oktyabr 2023-cü il* ........................................................ *231*

TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ
MÜDAFİƏ NAZİRİ YAŞAR GÜLƏR
İLƏ GÖRÜŞ

*24 oktyabr 2023-cü il* ........................................................ *233*

QAZAXISTAN RESPUBLİKASININ PREZİ-
DENTİ ZATİ-ALİLƏRİ CƏNAB
KASIM-JOMART TOKAYEVƏ

*25 oktyabr 2023-cü il* ........................................................ *235*

230 MVt GÜCÜNDƏ QARADAĞ GÜNƏŞ
ELEKTRİK STANSİYASININ AÇILIŞI
MƏRASİMİNDƏ İŞTİRAK

*26 oktyabr 2023-cü il* ........................................................ *237*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*26 oktyabr 2023-cü il* ........................................................ *252*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN
SƏNAYE VƏ QABAQCIL TEXNOLOGİ-
YALAR NAZİRİ SULTAN ƏHMƏD
ƏL-CABİRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2023-cü il* ........................................................ *253*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHƏYYAN İLƏ TELEFONLA GÖRÜŞ

*27 oktyabr 2023-cü il* ........................................................ *255*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*28 oktyabr 2023-cü il* ........................................................ *257*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASIM-JOMART TOKAYEVƏ

*28 oktyabr 2023-cü il* ........................................................ *258*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*29 oktyabr 2023-cü il* ........................................................ *259*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDELMACİD TEBBUNA

*1 noyabr 2023-cü il* ........................................................ *262*

PAKİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN QURU QOŞUNLARI KOMANDANI ASİM MUNİR İLƏ GÖRÜŞ

*1 noyabr 2023-cü il* ........................................................ *264*

QAZAXISTAN RESPUBLİKASINA SƏFƏR

*2 noyabr 2023-cü il* ........................................................ *266*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*3 noyabr 2023-cü il* ........................................................ *267*

TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ «TÜRK ƏSRİ» ÇAĞIRIŞI ALTINDA KEÇİRİLMİŞ 10-cu YUBİLEY ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*3 noyabr 2023-cü il* ........................................................ *268*

TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ 10-cu ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK EDƏN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*3 noyabr 2023-cü il* ........................................................ *278*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ANNALENA BERBOK İLƏ GÖRÜŞ

*4 noyabr 2023-cü il* ........................................................ *279*

KOREYA RESPUBLİKASININ TİCARƏT VƏ SƏNAYE PALATASININ VƏ «SK GROUP» ŞİRKƏTLƏR QRUPUNUN SƏDRİ ÇEY TAE-VONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 noyabr 2023-cü il* ........................................................ *281*

XORVATİYA RESPUBLİKASININ
BAŞ NAZİRİ ANDREY PLENKOVİÇ
İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*6 noyabr 2023-cü il* ........................................................ *283*

KƏLBƏCƏR RAYONUNUN VƏNGLİ
KƏNDİNİ ZİYARƏT

*7 noyabr 2023-cü il* ........................................................ *285*

ŞUŞA ŞƏHƏRİNƏ SƏFƏR

*7 noyabr 2023-cü il* ........................................................ *286*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİ-
DENTİNİN RƏSMİ SOSİAL ŞƏBƏKƏ
HESABLARINDAN

*7 noyabr 2023-cü il* ........................................................ *297*

XANKƏNDİ ŞƏHƏRİNDƏ XALQIMIZIN
VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANDIĞI
BÖYÜK ZƏFƏRİN 3-cü İLDÖNÜMÜNƏ
HƏSR OLUNMUŞ HƏRBİ PARAD

*8 noyabr 2023-cü il* ........................................................ *298*

FÜZULİ RAYONUNDA QARĞABAZAR
KƏNDİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*8 noyabr 2023-cü il* ........................................................ *312*

ÖZBƏKİSTAN RESPUBLİKASINA SƏFƏR

*8 noyabr 2023-cü il* ........................................................ *314*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*9 noyabr 2023-cü il* ........................................................ *315*

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (ECO) 16-cı ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*9 noyabr 2023-cü il* ........................................................ *316*

QEYDLƏR ........................................................ *323*

*Şəxsi adlar göstəricisi* ........................................................ *365*

*Coğrafi adlar göstəricisi* ........................................................ *370*

Buraxılışına məsul

**ƏLÖVSƏT AĞALAROV**

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı, Mehdi Hüseyn küç., 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.